# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

# DOQQUZUNCU KİTAB

## MART 2005 - MAY 2005

AZƏRNƏŞR
BAKI - 2012

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2012

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2010, 411 səh.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin oxuculara təqdim olunan çoxcildliyinin 9-cu cildində Yeni Azərbaycan Partiyasının III qurultayında nitqi, respublikamızda aparılan iqtisadi siyasətin müxtəlif istiqamətlərinə – sahibkarlara, sosial məsələlərə, yoxsulluğun azaldılmasına, ordu quruculuğuna, regionların sosial-iqtisadi inkişafına, eyni zamanda ictimai-siyasi həyatın digər məsələlərinə dair çıxışları, tövsiyələri öz əksini tapmışdır.

Bu cilddə prezident İlham Əliyevin Polşa Respublikasına, Pakistana, Moldovaya, Moskvaya etdiyi rəsmi səfərlərin sənədləri, bu ölkələrin dövlət və hökumət başçıları, siyasi xadimləri ilə etdiyi söhbətləri, çıxışları, həmçinin Bakıya gəlmiş bir sıra dövlətlərin nüfuzlu nümayəndələri ilə görüşləri, kütləvi informasiya vasitələrinə verdiyi müsahibələri dərc edilmişdir.

Kitabda, həmçinin ulu öndərin şərəfinə təsis edilmiş «Heydər Əliyev» ordeninin təqdim olunması mərasimində geniş və dərin məzmunlu çıxışı və digər sənədlər toplanmışdır, Dağlıq Qarabağ probleminin həlli və münaqişənin nizama salınması ilə əlaqədar ölkəmizin prinsipial mövqeyi geniş yer tutmuşdur.

**İSBN 978-9952-8100-7-3**

$$Ə\frac{0801000000}{M-651(07)-2011}$$

**BBK-32**

© Azərnəşr, 2011

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Azərbaycan xalqının ən əziz bayramlarından biri olan Novruz bayramı münasibətilə hamınızı səmimi-qəlbdən təbrik edir, sizə gözəl bahar əhval-ruhiyyəsi arzulayıram.

Ulu əcdadlarımızdan bizə yadigar qalmış bu bayram xalqımızın ən qədim ənənələrindən qaynaqlanıb zəngin milli-mənəvi dəyərlərimizi özündə təcəssüm etdirir. Hər gəlişi böyük sevinclə qarşılanan Novruz bayramı təbiətin dirçəlməsinin, yeni həyatın canlanmasının müjdəçisi olmaqla, insanlarda qurub-yaratmaq əzmi oyadır.

Hər bir azərbaycanlının daxili aləmində Novruz ən ülvi niyyətlərin və saf duyğuların çin olduğu bayramdır. Harada yaşamasından asılı olmayaraq, bu bahar bayramını bütün azərbaycanlılar dərin məhəbbət və ehtiramla qeyd edirlər. Qoy onların bu hissləri dünya azərbaycanlılarının doğma vətənə, ana dilinə və el-obalarına əbədi bağlılıqlarını daha da gücləndirsin!

Bakı–Tbilisi–Ceyhan neft kəmərinin işə düşmək ərəfəsində olması, respublika iqtisadiyyatının müxtəlif sahələrinin dirçəlişi, regionlarda gedən sosial-iqtisadi quruculuq işləri Novruzla başlanan yeni ilə böyük ümid və nikbinliklə baxmaq imkanı verir. Bu əziz gündə biz hamımız əminik ki, Azərbaycan müstəqil, demokratik dövlət quruculuğu istiqamətində mühüm nəticələr əldə edərək, ümummilli liderimiz Heydər Əliyevin ideyalarına sadiq olan, çiçəklənən bir dövlətə çevriləcəkdir.

Bu gün biz dövlətçiliyimiz, ölkənin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı uğrunda canlarından keçmiş şəhidlərimizi dərin hörmətlə yad edirik. Allahdan onlara rəhmət diləyir, ruhları şad olsun deyirik.

Əziz bacı və qardaşlar!

Xalqımız özünün milli və tarixi adət-ənənəsinə çevrilmiş Novruzu həmişə olduğu kimi, bu il də böyük ümidlərlə qarşılayır. Üzümüzə gələn bu gözəl bayramda hamınıza cansağlığı, xoşbəxtlik və ailə səadəti arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı şəhəri, *19 mart 2005-ci il*

## NOVRUZ BAYRAMINA HƏSR OLUNMUŞ ÜMUMXALQ BAYRAMINDA NİTQ

*21 mart 2005-ci il*

*Qədim İçərişəhərin darvazaları qarşısında – Gənclər meydanında bayram münasibətilə böyük mərasim təşkil olunmuşdu. Meydanda Novruz tonqalı şölələnirdi. Ətrafdakı binaları, əsrlərin şahidi olan qədim qala divarlarını al-əlvan plakatlar bəzəyirdi.*

*Azərbaycan prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və bu əziz gündə paytaxtımızın qonağı olan Gürcüstan prezidentinin xanımı Sandra Elizabet Rulofs Novruz şənliklərində iştirak etmək üçün Gənclər meydanına gəldilər. Meydana toplaşmış minlərlə şəhər sakini dövlətimizin başçısını, onun xanımını və hörmətli qonağı hərarətlə, sürəkli alqışlarla qarşıladılar, onlara bahar ətirli gül-çiçək dəstələri təqdim etdilər.*

*Bahar qız Azərbaycan prezidentini xalqımızın qədim el bayramı münasibətilə ürəkdən təbrik etdi, Azərbaycanın xoşbəxt gələcəyi, ölkəmizin sosial-iqtisadi inkişafı və ərazi bütövlüyünün bərpası naminə gördüyü işlərdə ona uğurlar arzuladı.*

*Şən, oynaq musiqi sədaları ətrafı bürümüşdü. Milli geyimli uşaqlar meydanda rəqs edirdilər. İncəsənət ustalarının baharı, Azərbaycanı tərənnüm edən mahnıları dalğa-dalğa hər tərəfə yayılır, bayram mərasiminin iştirakçılarında daha xoş ovqat doğururdu.*

*Prezident İlham Əliyev şənliyə toplaşmış paytaxt sakinləri ilə mehribancasına salamlaşdı, onları Novruz bayramı münasibətilə təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Əziz həmvətənlər!

Əziz bacılar və qardaşlar!

Sizin hamınızı Azərbaycan xalqının ən əziz, ən sevimli bayramlarından biri – Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm, hər birinizə cansağlığı, uğurlar arzulayıram.

Novruz bayramı Azərbaycan xalqının qəlbində həmişə yaşamışdır. Azərbaycan xalqı bu bayramı əsrlər boyu yaşatmışdır. Yalnız Azərbaycan xalqı öz dövlət müstəqilliyini bərpa edəndən sonra bu bayram ölkəmizdə dövlət bayramı kimi qeyd olunmağa başladı. Azərbaycanın müstəqilliyi bizim ən böyük sərvətimizdir. Biz hamımız hər gün, hər ay, hər il bu müstəqilliyi saxlamalıyıq, qorumalıyıq, möhkəmləndirməliyik.

Azərbaycan dövlət müstəqilliyini əldə edəndə çox çətin vəziyyətdə yaşayırdı, böyük təhlükələr var idi. Demək olar ki, böhran hökm sürürdü və Azərbaycanın gələcəyi çox böyük təhlükələrlə üzləşə bilərdi. Xalqımızın müdrikliyi, iradəsi onunla nəticələndi ki, onun lideri Heydər Əliyev hakimiyyətə gəldi və bundan sonra ölkədə vəziyyət tamamilə dəyişdi.

1993-cü ildən 2003-cü ilə qədərki dövr ərzində Azərbaycan böyük inkişaf yolu keçdi. Biz bu inkişafı bütün istiqamətlərdə görürük, hiss edirik. Ölkədə gedən proseslər, iqtisadi inkişaf, siyasi islahatlar, ölkənin nüfuzunun artması bu gün Azərbaycanı bölgədə çox güclü dövlətə çevirmişdir.

2003-cü ildən sonra ölkəmizdə bütün istiqamətlərdə müsbət meyllər daha da gücləndi. Azərbaycan inamla inkişaf edir, öz dövlət müstəqilliyini daha da gücləndirir. Bölgədəki nüfuzumuz artır. Azərbaycanda aparılmış siyasi, iqtisadi islahatlar ölkəmizi yaxın zamanlarda daha da qüdrətli dövlətə çevirəcəkdir. Mən buna şübhə etmirəm. Bu baxımdan 2004-cü il ölkəmiz üçün çox uğurlu il olubdur. Azərbaycan bütün istiqamətlərdə uğurla irəliləyibdir. 2004-cü ildə bizim qarşımızda duran bütün məsələlər öz həllini tapıbdır.

2004-cü il iqtisadi inkişaf baxımından çox uğurlu olubdur və 170 min iş yerinin açılması bunun əyani sübutudur. Azərbaycanda sosial məsələlər öz həllini sürətlə tapır. Minimum

əməkhaqqının iki dəfədən çox qaldırılması, pensiyaların qaldırılması, digər sosial ödəmələrin qaldırılması bir məqsəd daşıyır. O da ondan ibarətdir ki, Azərbaycan xalqı daha da yaxşı yaşasın, Azərbaycanda daha da güclü iqtisadi potensial yaransın və ölkədə yaşayan hər bir vətəndaş öz həyat səviyyəsini yaxşılaşdırsın. Bu bizim strateji xəttimizdir, bizim üçün prioritet məsələdir.

Mən çox şadam ki, ötən il nəzərdə tutduğumuz bütün məsələlər həll edildi, 2003-cü ildə keçirilmiş prezident seçkilərində verilmiş bütün vədlər həyatda öz əksini tapdı.

Mən çox şadam ki, nəzərdə tutulmuş bütün planlar, layihələr Azərbaycan xalqının dəstəyi ilə öz həllini tapdı. Əminəm ki, 2005-ci il də ölkəmiz üçün uğurlu olacaqdır. Hər halda, ilin ilk ayları çox açıq-aydın göstərir ki, iqtisadi inkişafda müsbət irəliləyiş müşahidə olunur. Amma 2005-ci il Azərbaycan üçün bir çox mənada həlledici il olacaqdır. 2005-ci ildə Azərbaycanın gələcəyini böyük mənada müəyyən edən, Heydər Əliyevin adını daşıyan Bakı–Tbilisi–Ceyhan neft kəməri istismara verilməlidir. Bu kəmərin istismara verilməsi ilə bölgədə yeni vəziyyət yaranacaqdır. Azərbaycanda nəzərdə tutulmuş bütün layihələr daha da sürətlə icra olunmağa başlayacaqdır. Bu bizim arzumuzdur. Azərbaycan daha da zəngin olacaqdır. İnsanlarımız daha da yaxşı yaşamağa başlayacaqlar. Mən buna şübhə etmirəm və bizim bütün səylərimiz bir məqsədə qulluq edir: Azərbaycanı zənginləşdirmək, ölkədə yaşayan insanların həyat səviyyəsini yaxşılaşdırmaq, bölgədə mövqeyimizi daha da möhkəmləndirmək və nəticədə ölkə qarşısında duran bütün məsələləri həll etmək.

2005-ci ildə Azərbaycanda parlament seçkiləri keçiriləcəkdir. Biz bu seçkilərə böyük əhəmiyyət veririk və mən şübhə etmirəm ki, bu seçkilər Azərbaycanın demokratik inkişafında mühüm mərhələ olacaqdır. Mən əminəm ki, seçkilər şəffaf, ədalətli şəkildə keçiriləcək və Azərbaycan xalqının iradəsi bu seçkilərdə öz əksini tapacaqdır.

Azərbaycan xalqının iradəsi, istəyi, arzusu bizim üçün prioritet məsələdir. 2003-cü ildə bizim siyasətimizə göstərilmiş dəs-

tək bütün işlərin daha da uğurla aparılması üçün gözəl şərait yaradır. Mən bu dəstəyi bu gün də hiss edirəm, bu dəstəyə arxalanıram və ölkədə gedən siyasi, iqtisadi islahatlar bu dəstəyə arxalanır. Ümid etmək istəyirəm ki, 2005-ci il Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması işində də vacib il ola bilər. Ümid etmək istəyirəm ki, bu istiqamətdə də irəliləyiş ola bilər. Hər halda, bu vaxta qədər gedən proseslər bunu deməyə əsas verir. Azərbaycanın diplomatik uğurları, bu sahədə atılmış siyasi addımlar artıq danışıqlar prosesində yeni şərait yaradıbdır. Birləşmiş Millətlər Təşkilatında aparılmış müzakirələr, Avropa Şurası tərəfindən qəbul edilmiş qərar, digər beynəlxalq təşkilatlarda bu məsələyə diqqətin artırılması müsbət hallardır. Mən əminəm ki, bunlar danışıqlar prosesinə müsbət təsir edəcək məsələlərdir.

Azərbaycanın işi haqq işidir. Biz öz ərazi bütövlüyümüzü beynəlxalq hüquq prinsipləri əsasında bərpa etmək istəyirik və buna da nail olacağıq. Buna heç kimin şübhəsi olmasın. Sadəcə, biz istəyirik ki, bunu sülh, danışıqlar yolu ilə həll edək. Ümid edirik ki, bu danışıqlar yolu məsələnin həllinə gətirib çıxaracaqdır. Çünki başqa cür ola bilməz.

Beynəlxalq hüquq normaları hər bir ölkə üçün əsas prinsip olmalıdır. Azərbaycan heç bir başqa ölkənin torpaqlarını işğal etməyibdir. Heç bir başqa ölkənin torpağında bizim gözümüz yoxdur. Amma biz öz torpaqlarımızı da heç kimə verən deyilik. Əgər biz buna sülh yolu ilə nail ola bilməsək, yeni vəziyyət yaranacaq və onda Azərbaycan başqa variantlarla məşğul olacaqdır. Amma bu məsələni həll etmək üçün, ümumiyyətlə, ölkəmizi daha da hərtərəfli inkişaf etdirmək üçün biz güclü olmalıyıq. Biz öz iqtisadi potensialımızı gücləndirməliyik. Ordu quruculuğunda böyük işlər görməliyik. İnsanlarımızın həyat səviyyəsini yaxşılaşdırmalıyıq. Bir sözlə, Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirməliyik. Ancaq o təqdirdə qarşımızda duran bütün məsələlər öz həllini daha asanlıqla tapa bilər. Ancaq o təqdirdə Azərbaycan özü bu məsələlərlə bağlı ciddi addımlar ata bilər. Yenə də deyirəm,

ümid edirəm ki, sülh danışıqlarının potensialı hələ tükənməyibdir. Heç şübhə etmirəm ki, biz ədalətli həllə nail olacağıq, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır və bir milyondan artıq qaçqın-köçkünümüz öz doğma torpaqlarına qayıdacaqdır.

Əziz dostlar!

Əziz bacılar və qardaşlar!

Bu gün bizimlə bərabər bu gözəl bayramı Gürcüstandan gəlmiş qonaqlar da qeyd edirlər. Mənim yaxın dostum, qardaşım Mixail Saakaşvilinin həyat yoldaşı xanım Sandra bizimlə bərabərdir. Gəlin onu salamlayaq.

Biz bütün dost, qardaş ölkələrlə ikitərəfli, qarşılıqlı surətdə faydalı münasibətlərin güclənməsinə tərəfdarıq. Biz istəyirik ki, bölgədə sülh olsun, əmin-amanlıq olsun, əməkdaşlıq olsun. Belə olan halda bölgədə yaşayan bütün xalqlar, bütün dövlətlər yalnız faydalanacaqdır. Azərbaycanın siyasəti bundan ibarətdir. İlk növbədə Azərbaycanın milli maraqları qorunmalıdır, Azərbaycan xalqının rifahı təmin edilməlidir, eyni zamanda, qonşu, dost ölkələrlə daha da mehriban münasibətlər yaranmalıdır ki, həm daxildə, həm də xaricdə bizim gücümüz artsın. Əgər biz daxildə güclü olsaq, beynəlxalq müstəvidə də daha güclü olacağıq. Əgər biz nə qədər çox diplomatik uğurlar əldə etmiş olsaq, Azərbaycan xalqı bundan o qədər çox faydalanacaqdır.

Sizin hamınızı bu gözəl bayram münasibətilə bir daha ürəkdən təbrik edirəm, hər birinizə cansağlığı, uğurlar, xoşbəxtlik arzu edirəm.

Bayramınız mübarək olsun!

* * *

*Azərbaycan prezidenti İlham Əliyev İçərişəhərdə keçirilən Novruz şənliklərində də iştirak etdi. Bakının ayrı-ayrı rayonlarının buraya toplaşan nümayəndələri Azərbaycan prezidentini hərarətlə salamladılar, Bahar bayramı münasibətilə təbrik etdilər.*

*Dövlətimizin başçısı Bakı sakinləri və şənlik iştirakçıları ilə mehribancasına görüşdü, hal-əhval tutdu, onları bayram münasibətilə təbrik etdi.*

*İncəsənət ustaları, bədii özfəaliyyət kollektivləri xalqımızın adət-ənənələrini, qədim el sənətlərini nümayiş etdirdilər, «Kosa, Keçəl və Bahar qız» tamaşasını göstərdilər, rəngarəng konsert proqramı ilə çıxış etdilər. Bir tərəfdə isə gənc pəhləvanlar xalça üzərində qurşaq tuturdular. Şənlik iştirakçıları qədim xalq mahnılarını ifa edir, milli musiqinin sədaları altında rəqs edirdilər. Novruz şənliklərinin elementlərindən olan xoruz döyüşü də unudulmamışdı.*

*Paytaxtın balaca sakinləri prezidenti özlərinə xas sevinclə salamladılar, unudulmaz Heydər babaya, Vətənə və dövlətimizin başçısına həsr olunmuş şeirlərdən parçalar söylədilər:*

*Heydər baba elimizə yar oldu,*
*Ömrü bir əbədi, şən bahar oldu,*
*Müqəddəs işləri yadigar oldu.*
*Ayağa qaldırdı Azərbaycanı,*
*Dünyada tanıtdı Azərbaycanı!*

* * *

## Gürcüstandan gəlmiş və Novruz şənliklərində iştirak edən jurnalistlərin xahişi ilə onlara verdiyi qısa müsahibə

**İ l h a m Ə l i y e v:** Mən Gürcüstan xalqına ən dərin hörmət və məhəbbətimi yetirirəm. Gürcü xalqı bizə qardaş xalqdır. Münasibətlərimizin təşəkkül tapmış səviyyəsinə çox şadıq və bunu daha da möhkəmləndirəcəyik. Əlbəttə, prezidentlərin dostluğu da çox mühüm rol oynayır. Bu dostluq hər bir ölkə üçün olduqca önəmlidir. Münasibətlərimizdə hər şey uyğun gəlir. Biz həm ənənəyə uyğun olaraq tarixən dostluq edirik, həm də siyasi baxımdan bir istiqamətdəyik. Prezidentlər

də dostdurlar. Bir sözlə, hər şey çox yaxşı gedir. Bütün gürcü xalqına əmin-amanlıq və xoşbəxtlik arzu edirəm. Çox sağ olun.

* * *

*Sonra prezident İlham Əliyevi Novruz bayramının əsas personajları olan Kosa və Keçəl qarşıladılar. Kosa dövlətimizin başçısına müraciətlə dedi: Cənab Prezident, bayramınız mübarək. Nəhayət, gözlədiyimiz vaxt gəlib çatdı. Bilirsiniz ki, Novruz bayramının dörd çərşənbəsi var. Mən Kosa, bu da Keçəl elimizin içində olmuşuq, onların dərdinə, arzularına şərik çıxmışıq. Xalqımızın bircə arzusu var, Tanrı bu bayramı və qələbəni həmişə Sizinlə bir yerdə bizə qismət eləsin. Ulu öndərimiz Heydər Əliyevin qoyub getdiyi siyasəti Siz həyata keçirirsiniz. Bu il xalqımızın üzünə yeni bir günəş doğdu. Qoy bu günəşin hərarəti gündən-günə artsın və xalqımız hər il xoş bahar təravətli bayramlar keçirsin.*

*Mənim Heydər Əliyev Fonduna bir hədiyyəm var. Bu bizim ulu öndərimizlə 1998-ci ildən 2003-cü ilədək olan dövrdəki görüşlərimizi əks etdirən fotoalbomdur. Bu kitabda və videoyazıda isə bütün meydan, kos-kosa oyunları toplanmışdır.*

*Kosa və Keçəl prezidentlə və qonaqlarla yumurta döyüşdürdülər.*

## Novruz şənliklərində jurnalistlərə verdiyi müsahibə

**S u a l: Cənab Prezident, ölkəmizin dövlət başçısı bu bayram günündə xalqa, əhaliyə nə vəd edir, yəni onlar nə gözləsinlər?**

**C a v a b:** Mən nə demişəmsə, sözümün üstündə dururam. Hələ iki il bundan əvvəl prezident seçkiləri ərəfəsində öz məramımı, proqramımı, öz istəklərimi bildirmişdim. Demişdim ki, çalışacağam Azərbaycan xalqına daha ləyaqətlə xidmət edim. Çalışacağam əlimdən gələni edim ki, xalqımız gündən-günə

yaxşı yaşasın, Azərbaycan daha da möhkəmlənsin, ölkənin bütün problemləri öz həllini tapsın. Bu istiqamətdə atılmış addımlar, görülmüş işlər artıq göz qabağındadır. Bu barədə mən bir şey demək istəmirəm. Hər halda, əminəm, Azərbaycan xalqı görüb ki, mənim bütün fəaliyyətim bir məqsədə qulluq edibdir. O da Azərbaycanı daha da inkişaf etdirmək, daha da yaxşı vəziyyət yaratmaqdır ki, ölkəmiz daha da möhkəm olsun, qüdrətli olsun.

Mən şübhə etmirəm ki, gələn illər də Azərbaycan üçün uğurlu olacaq, ölkəmiz daha sürətlə inkişaf edəcəkdir. Çünki bizim bu vaxta qədər gördüyümüz bütün işlər gələcək inkişaf üçün həm gözəl əsas yaradıb, həm də nəticələr baxımından da uğurlu olubdur. Mən öz çıxışımda dedim ki, Azərbaycanın gələcəyini böyük mənada müəyyən edəcək Bakı–Tbilisi–Ceyhan neft kəmərinin işə düşməsindən sonra bölgədə vəziyyət tamamilə dəyişəcəkdir. Həm iqtisadi, həm siyasi, həm də bütün başqa tərəflərdən vəziyyət yaxşılığa doğru dəyişəcəkdir. Mən çalışacağam ki, 2008-ci ilə qədər verilmiş bütün vədlər həyatda öz əksini tapsın və mən də xalqıma ləyaqətlə, vicdanla qulluq edim. Həmişə çalışacağam ki, öz üzərimə düşən bütün vəzifələri yerinə yetirim.

**S u a l: Cənab Prezident, Ermənistan Dağlıq Qarabağ danışıqları ilə əlaqədar öz nümayəndəsini dəyişibdir. Bunun məsələyə hər hansı təsiri olacaqmı və ümumiyyətlə, ola bilərmi ki, bu, danışıqların uzadılmasına gətirib çıxarsın?**

**C a v a b:** Bilirsiniz ki, danışıqlar artıq xarici işlər nazirləri səviyyəsində aparılır. Mən inanmıram ki, təsir etsin. Çünki artıq görürsünüz ki, bu məsələ müsbət istiqamətdə inkişaf edir.

Siz Çində olarkən mənə faktaraşdırıcı missiyanın məruzəsi ilə bağlı sual vermişdiniz. O məruzədə bizim dediyimizin hamısı öz əksini tapdı.

İşğal olunmuş ərazilərdə on mindən çox erməni məskunlaşıb, onlar dərhal, qeyd-şərtsiz oradan çıxarılmalıdır. Müsbət istiqamətdə bütün işlər görülüb və addımlar atılıbdır. Ermənistan tərəfi zəifdir, yəni onların mövqeyi zəifdir. Bunun da obyektiv səbəbi var. Çünki onlar haqsızlıq edirlər. Onlar başqa ölkənin

torpaqlarını işğal ediblər. Amma uzun illərdir istəyirlər və bəzi hallarda buna müvəffəq olurlar ki, dünya ictimaiyyətinin rəyini çaşdırsınlar. Ümumiyyətlə, çalışırlar ki, bu məsələni başqa istiqamətə yönəltsinlər. Ancaq artıq alınmır. Çünki bizim hərtərəfli diplomatik səylərimiz, deyə bilərəm ki, diplomatik hücumlarımız – onların əsası var, yəni bu, boş bəyanatlar deyil, yaxud hansısa populist sözlər deyil – öz bəhrəsini verir. Biz bütün addımlarımızı əsaslandırılmış siyasət əsasında atırıq. Onlar da bunun qarşısında acizdirlər və bundan sonra daha da pis vəziyyətə düşəcəklər. Nə vaxta qədər ki, bunu anlamayacaqlar, onların vəziyyəti çətinləşəcəkdir.

**S u a l: Cənab Prezident, Siz Çində səfərdə olarkən bildirdiniz ki, Ermənistanın mövqeyində dəyişiklik gözləməyə dəyməz. Yəni onlar bunu nümayiş etdirirlər, atəşkəsi pozurlar. Bu gün də bildirdiniz ki, 2005-ci il dönüş ili ola bilər və Ermənistan tərəfi zəifləyibdir və s. Bu baxımdan, ümumiyyətlə, müharibənin başlanması ehtimalı varmı?**

**C a v a b:** Müharibənin başlanması ehtimalı hər an var. Çünki bizim aramızda sülh sazişi yoxdur. Atəşkəs var və atəşkəs də həssas bir məsələdir. O pozulur və bilirsiniz ki, bu bizim maraqlarımıza uyğun deyil. Çünki bütün əldə etdiyimiz uğurlar bizə ehtiyac yaratmır ki, bu atəşkəsi pozaq.

O ki qaldı dəyişikliyə, hansısa mövqedə dəyişikliyə, bu, bir neçə amildən asılı ola bilər. İlk növbədə, əgər beynəlxalq ictimaiyyət onlara qarşı ciddi tədbir görsə, o zaman onların mövqeyində dəyişiklik labüddür. Əgər görməsə, o zaman biz təsir etməliyik. Yəni, burada başqa alternativ yoxdur. Biz də təsir etmək üçün gərək güclənək, gərək iqtisadiyyatımızı hərtərəfli gücləndirək, ordumuzu gücləndirək.

Yeni məsələlər həll olunmalıdır. Ordunun gücləndirilməsi üçün çox ciddi addımlar atılmalıdır və atılır. Biz istəyirik ki, münaqişə sülh yolu ilə həll olunsun. Beynəlxalq ictimaiyyətin təsiri ilə və Ermənistan rəhbərliyinin məsələyə düzgün yanaşması nəticəsində bu, baş versin. Əgər baş verməzsə, yeni şərait yaranar və onda danışarıq.

**S u a l: Cənab Prezident, bu bayram ərəfəsində cəbhə bölgələrində bizim şəhidlərimiz oldu. Ölkəmizin Ali Baş Komandanı onların ailələrinə nə demək istəyir?**

**C a v a b:** Mən onlara başsağlığı verirəm. Onların övladları Vətən uğrunda şəhid olublar. Əlbəttə, bu, böyük faciədir. Hər bir ailə üçün öz övladını itirmək böyük dərddir, böyük faciədir. Amma bu müharibədir və müharibədə də hər şey ola bilər. Onlara təsəlli arzulayıram. Onlar səbirli olsunlar. Onların övladları Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olublar. Ola bilsin ki, onlar üçün bu, təsəlli ola bilər. Mən istəyirəm ki, sülh olsun, mən müharibə istəmirəm. Amma eyni zamanda, biz torpaqlarımızı da işğal altında qoya bilmərik. Biz hər şeyə hazır olmalıyıq.

**J u r n a l i s t: Mehriban xanım, bu bayram şənliyində hörmətli qonağınız da iştirak edir. Siz nə demək istərdiniz?**

**M e h r i b a n Ə l i y e v a** (*Azərbaycan prezidentinin xanımı):* Mən çox şadam ki, bu əziz bayram günümüzdə Sandra xanım da Azərbaycandadır, Bakıdadır, bu gözəl bayramda bizimlə birlikdə iştirak edir. Mən bu gün hər bir azərbaycanlını Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm. Onlara əmin-amanlıq, sülh və səadət arzulayıram.

**J u r n a l i s t: Mehriban xanım, bu bayramda həyat yoldaşınıza nə hədiyyə etmisiniz?**

**M e h r i b a n Ə l i y e v a:** Bu bir az sirdir, ona görə gəlin deməyim.

**J u r n a l i s t: Sandra xanım, Azərbaycan xalqının bu əziz bayramında siz nə arzulayardınız?**

**S a n d r a E l i z a b e t R u l o f s:** (*Gürcüstan prezidentinin xanımı*) Novruz bayramınız mübarək olsun. Bütün gürcülər adından sizi təbrik edirəm. Mən ona görə buradayam ki, sizi bayram münasibətilə təbrik edim. Sizə uğurlar arzulamaq istəyirəm. Biz təkcə qonşu dövlətlər deyilik. Biz həm də qardaş dövlətlərik. Bizdə də bayram olacaq. İndi isə sizdə bayramdır. Hər kəsə uğurlar arzulamaq istəyirəm.

**J u r n a l i s t: Mehriban xanım, siz YUNESKO-nun Xoşməramlı səfiri kimi, Novruz bayramını ailənizdə milli adət-ənənələrə uyğun keçirirsiniz?!**

**M e h r i b a n  Ə l i y e v a:** Əlbəttə, yəni mən Xoşməramlı səfir olmamışdan əvvəl də Novruz bayramını həmişə hər bir azərbaycanlı kimi, adət-ənənəyə uyğun qeyd edirdik.

* * *

*Qaradağ rayonundan Novruz şənliyində iştirak edən gənc heydərçilər dövlətimizin başçısını mehribanlıqla salamladılar.*

*Daha sonra aşıq İslam Qobustanlı prezidentin şərəfinə mahnı oxudu.*

*Prezident İlham Əliyev Milli Parka gələrək, bayram gəzintisinə çıxmış Bakı sakinlərini və respublika paytaxtının qonaqlarını Novruz bayramı münasibətilə təbrik etdi.*

## HEYDƏR ƏLİYEV FONDUNDA GÜRCÜSTAN PREZİDENTİNİN XANIMI SANDRA ELİZABET RULOFS İLƏ GÖRÜŞ

*21 mart 2005-ci il*

*Görüşdə Azərbaycan prezidenti İlham Əliyev xalqımız üçün çox əziz olan Novruz bayramı şənliklərində iştirak etdiyinə görə xanım Sandra Elizabet Rulofsa təşəkkürünü bildirmişdir.*

*Azərbaycan və Gürcüstan xalqının qədim dostluq əlaqələrini yüksək dəyərləndirən prezident İlham Əliyev onun səmimi salamlarını Gürcüstan prezidenti Mixail Saakaşviliyə çatdırmağı xahiş etmişdir.*

*Xanım Sandra Elizabet Rulofs yüksək qonaqpərvərliyə görə dərin minnətdarlığını bildirmiş, Novruz bayramı münasibətilə Azərbaycan prezidenti İlham Əliyevi Gürcüstan prezidenti Mixail Saakaşvilinin adından və öz adından səmimi- qəlbdən təbrik etmişdir.*

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ «HALLİBURTON» ŞİRKƏTİNİN PREZİDENTİ DEVİD LESAR İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 mart 2005-ci il*

*Respublika prezidenti İlham Əliyev «Halliburton» şirkətinin Azərbaycanın iri neft-qaz layihələrində 10 ilə yaxın müddət ərzində iştirak etməsindən məmnun olduğunu bildirmişdir.*

*Söhbət zamanı şirkətin ölkəmizdə fəaliyyət dairəsinin genişləndirilməsi, o cümlədən xarici sərmayələrin cəlb edilməsi və yeni texnologiyaların tətbiqi ilə əlaqədar bir sıra konkret təkliflər müzakirə olunmuşdur.*

*Görüşdə «Halliburton» şirkəti ilə əməkdaşlığın perspektivləri və bir sıra digər məsələlərə dair fikir mübadiləsi aparılmışdır.*

**«AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN DOSTLARI» FONDU YUNESKO-nun DƏSTƏYİ İLƏ REALLAŞDIRDIĞI «MUĞAM DƏSGAHLARI» LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ TƏŞKİL ETDİYİ MUĞAM AXŞAMINDA**

*Azərbaycan Dövlət Filarmoniyası*

*21 mart 2005-ci il*

*Salona toplaşanlar Azərbaycan Respublikasının prezidenti İlham Əliyevi, xanımı Mehriban Əliyevanı və Gürcüstan prezidentinin xanımı Sandra Elizabet Rulofsu hərarətli alqışlarla qarşıladılar.*

*Dövlət Mahnı və Rəqs Ansamblının ifasında milli rəqs ifa olunduqdan sonra səhnəyə gələn Bahar qız muğam axşamına toplaşanları əziz Novruz bayramı münasibətilə təbrik etdi və dedi ki, ölkəmiz müstəqillik qazandıqdan sonra bu bayram hər il dövlət səviyyəsində qeyd olunur. Təbiətin oyanmasının müjdəçisi olan Novruzu xalqımız həmişə böyük sevinclə qarşılayır.*

*Milli geyimli qızlar su, yel, od və torpaq çərşənbələrinin mahiyyəti barədə məlumat verdilər. Bildirildi ki, bütün bunlara görə ta qədimdən Novruz bayramı dörd həftə davam edir.*

*Sonra Azərbaycanın əməkdar artisti Mənsum İbrahimov və Xalq artisti Səkinə İsmayılova «Rast» və «Humayun» muğamlarını özlərinə xas ustalıqla ifa etdilər. Həmişəyaşar muğamlarımız böyük maraqla dinlənildi, ifaçıların məharəti sürəkli alqışlarla qiymətləndirildi.*

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ CON HOPKİNS UNİVERSİTETİNİN MƏRKƏZİ ASİYA VƏ QAFQAZ İNSTİTUTUNUN DİREKTORU PROFESSOR FREDERİK STARR İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 mart 2005-ci il*

*Görüş zamanı* qonaq *dövlətimizin başçısını* Novruz *bayramı münasibətilə təbrik* etdi, bu *qədim bayramın Azərbaycanda böyük təntənə ilə keçirilməsinin* onda *xoş təəssürat yaratdığını söylədi. O, prezident İlham Əliyevin* xarici *ölkələrə səfərlərinin* maraqla *izləndiyini, ötən il Azərbaycanda görülən işlərin heyranlıq doğurduğunu vurğuladı.*

*Cənab* Frederik *Starr əmin olduğunu* bildirdi *ki, Azərbaycanla təmsil* etdiyi universitet, *o cümlədən rəhbəri* olduğu institut *arasında əməkdaşlıq* bundan sonra *da genişlənəcəkdir.*

*Prezident İlham Əliyev müxtəlif ölkələrə uğurla keçən rəsmi və dövlət səfərlərindən söhbət açdı,* eyni zamanda, 2004-cü *ildə Azərbaycanda* siyasi, iqtisadi *və bütün başqa sahələrdə böyük uğurlar əldə olunduğunu* bildirdi. *Dövlətimizin başçısı ABŞ-*ın bu *nüfuzlu* universiteti *ilə uğurlu əməkdaşlıqdan məmnunluğunu vurğuladı.*

## HEYDƏR ƏLİYEV ADINA BEYNƏLXALQ HAVA LİMANINDA YÜK TERMİNALININ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*23 mart 2005-ci il*

*Mərasimdə Azərbaycan Respublikasının prezidenti İlham Əliyev terminalın rəmzi açılışını bildirən qırmızı lenti kəsdi, burada quraşdırılmış Böyük Britaniya, ABŞ və Kanada istehsalı olan müasir avadanlıq və texnikaya baxdı, yükboşaltma və qəbuletmə sistemləri, servis xidmətinin keyfiyyəti, bütün növ yüklərin emalı və saxlanması, habelə yük maşınları, təyyarələr və yeni alınmış vertolyotlarla yaxından tanış oldu.*

*«Azərbaycan Hava Yolları» Dövlət Konserninin Baş direktoru Cahangir Əsgərov məlumat verərək dedi ki, 12 min kvadratmetr qapalı sahəyə malik olan terminal Azərbaycana Avropa, Amerika, Müstəqil Dövlətlər Birliyi və Şərq ölkələri regionuna yüklərin daşınmasında aralıq məntəqə rolu oynamaq imkanı verəcəkdir.*

*Bölgədə ən böyük və MDB məkanında ən iri terminallardan biri olacaq Bakı yük terminalı Avropanın yüksək beynəlxalq standartlara cavab verən 10 ən yaxşı terminalları sırasında yer tutacaqdır. İnşaat işləri Azərbaycanın «Xəzər» şirkəti tərəfindən aparılmış, tikintiyə 450 nəfər cəlb olunmuş və 8 ay ərzində başa çatdırılmışdır. Gün ərzində burada 250 nəfər çalışacaqdır.*

*Ümumi sahəsi 163 min kvadratmetr olan yeni perronda «Boinq-747» və «AN-124-Ruslan» tipli 9 təyyarə və ya «İL-76» tipli 15 təyyarə dayana biləcəkdir.*

*Terminalın layihə dəyəri 19 milyon ABŞ dollarıdır. Tikintini 1999-cu ildən bu günə kimi Azərbaycan mülki aviasiyasına 40 milyon ABŞ dolları sərmayə qoymuş «İnternational Handling*

*Company» şirkəti maliyyələşdirmişdir. Bu şirkət Azərbaycana sərmayə qoyuluşunu hava limanında mehmanxana tikintisi ilə davam etdirəcəkdir.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və Bakı yük terminalının açılışı münasibətilə sizin hamınızı təbrik edirəm.

Bu gözəl terminal bütün dünya standartlarına cavab verir və Azərbaycan üçün, Azərbaycanın gələcək inkişafı üçün çox mühüm rol oynayacaqdır. Bu, bölgədə analoqu olmayan bir terminaldır və Azərbaycan öz coğrafi vəziyyətindən çox məharətlə istifadə edərək böyük gəlirlər əldə edəcəkdir. Burada çalışan insanlar yüksək maaş alacaqlar. Bir sözlə, bu terminal Azərbaycanın gələcək iqtisadi inkişafı üçün çox mühüm rol oynayacaqdır.

Azərbaycanda bütün infrastruktur obyektləri yeniləşir, müasir qurğular, obyektlər tikilir. Başlıca şərt ondan ibarətdir ki, tikilən bütün müəssisələr, obyektlər, zavodlar, fabriklər dünyanın ən yüksək standartlarına cavab verməlidir ki, ölkəmiz güclənsin və öz potensialını daha da müasirləşdirsin. Nəqliyyat sektorunda böyük işlər görülübdür.

«Azərbaycan Hava Yolları» Dövlət Konserninin böyük fəaliyyəti nəticəsində hava nəqliyyatımız yeniləşib, təzə təyyarələr, vertolyotlar alınıb, yeni hava limanları tikilir. Bir sözlə, bu sahə çox sürətlə və uğurla inkişaf edir.

Bu yaxınlarda imzalanmış müqaviləyə əsasən, Azərbaycana aerobus tipli yeni təyyarələr gətiriləcəkdir. Eyni zamanda, bir müddət bundan əvvəl imzalanmış müqavilə nəticəsində artıq bu gün burada gördüyümüz yeni vertolyotlar Azərbaycana gətirilibdir. Bütün bu infrastruktur Azərbaycanın daha da inkişaf etməsinə çox gözəl xidmət göstərəcəkdir. Biz öz tranzit potensialımızdan da çox məharətlə istifadə edirik. «Karqolyuks» şirkəti 3 il bundan əvvəl Azərbaycana həftədə üç uçuş edirdisə, bu gün həftədə 30 uçuş edir. Bu onu göstərir ki, burada göstərilən xidmət yüksək səviyyədədir, ümumiyyətlə, ölkəmizdə hökm sürən

şərait, gözəl ab-hava, ictimai-siyasi sabitlik, sərmayələrin qorunması bu əməkdaşlığı təmin edibdir.

Nəqliyyatın digər sektorlarında da uğurlar var. Dəmir yolu öz imkanlarını genişləndirir. Daşınan yüklərin həcmi ildən-ilə artır. Xəzər Gəmiçiliyi böyük işlər görür. Yeni tankerlər, quru yük daşıyan gəmilər alınır.

Bir sözlə, bu istiqamətdə də böyük işlər görülür. Yol tikintisində artıq böyük uğurlar var. Nəzərdə tutulmuş bütün layihələr uğurla icra edilir.

Mən hesab edirəm ki, neft sektorundan sonra nəqliyyat sektoru ölkəmiz üçün ən mühüm sektordur və burada inkişaf perspektivləri çox gözəldir. Biz bütün bu imkanlarımızdan istifadə edərək, nəqliyyat sektorunu da sürətlə inkişaf etdirəcəyik.

Azərbaycan Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizləri layihələrinin həyata keçirilməsində fəal rol oynayır və hesab edirəm ki, gələcəkdə tranzit ölkə kimi, bizim bölgədəki və dünyadakı mövqelərimiz daha da güclənəcəkdir. Sərmayə qoyuluşu baxımından da bu terminalın tikintisi böyük əhəmiyyət kəsb edir, bizim ümumi strategiyamızın tərkib hissəsidir.

Bilirsiniz ki, Azərbaycanda xarici sərmayələr lazımi səviyyədə qorunur və bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Əgər sərmayəçilər burada özlərini rahat hiss etməsəydilər, Azərbaycanın bu gününə və sabahına inanmasaydılar, əlbəttə, böyük həcmdə sərmayələri Azərbaycana qoymazdılar. Biz bundan sonra da sərmayələrin qorunması işində bütün lazımi tədbirləri görəcəyik. Azərbaycanı qısa müddət ərzində zəngin, qüdrətli dövlətə çevirəcəyik.

Əziz dostlar!

Sizin hamınızı yük terminalının açılışı münasibətilə bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

## LÜKSEMBURQUN MÜLKİ AVİASİYASININ DİREKTORU HENRİ KLYAYNANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ*

*Prezident sarayı*

*23 mart 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev martın 23-də Heydər Əliyev adına Beynəlxalq Hava Limanında yeni terminalın açılışını böyük əlamətdar hadisə kimi dəyərləndirdi.*

*Cənab Henri Klyaynanın rəhbərlik etdiyi nümayəndə heyətinin bu tədbirdə iştirakından məmnunluğunu bildirən prezident İlham Əliyev bu yük terminalının regionda ən böyük, MDB məkanında isə irilərindən biri olduğunu vurğuladı.*

*Dövlətimizin başçısı bildirdi ki, bu terminalın Azərbaycanda fəaliyyətə başlaması ölkəmizdə iqtisadi inkişafın, sabitliyin, xarici sərmayələr üçün əlverişli şəraitin olduğunu bir daha sübut edir. «Karqolyuks» şirkətinin tranzit daşınmaları üçün Azərbaycanı seçməsinin təsadüfi olmadığını nəzərə çatdıran prezident İlham Əliyev dedi ki, bu şirkət məhz iqtisadi göstəricilərə və digər mühüm şərtlərə görə Azərbaycana üstünlük vermişdir. «Azərbaycan Hava Yolları» Dövlət Konserni ilə Lüksemburqun mülki aviasiyası və «Karqolyuks» şirkəti arasında yaxşı əlaqələrdən razılıqla söhbət açan dövlətimizin başçısı bu əməkdaşlığın ölkəmizin iqtisadiyyatına xidmət edəcəyinə əmin olduğunu bildirdi.*

---

* Görüşdə «Karqolyuks» aviaşirkətinin prezidenti Ulrix Ogerman da iştirak edirdi.

*Azərbaycana dəvətə görə minnətdarlığını bildirən cənab Henri Klyayna Bakıda yük terminalının açılışını əlamətdar hadisə kimi dəyərləndirdi. «Karqolyuks» şirkətinin Azərbaycanda cəmi üç il fəaliyyət göstərməsinə baxmayaraq, həftədə 30 reys yerinə yetirdiyini nəzərə çatdıran qonaq dedi ki, bu bizim gözlədiyimizdən xeyli böyük, misli görünməmiş bir rəqəmdir.*

*Qonaq yeni terminalın açılışı münasibətilə prezident İlham Əliyevi təbrik etdi və ölkəmizlə əməkdaşlığın Azərbaycanın iqtisadi inkişafına xidmət edəcəyinə ümidvar olduğunu söylədi.*

**SENEQAL RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ABDULAY VADA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan – Seneqal münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Seneqal xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 mart 2005-ci il*

## RUSİYA FEDERAL MƏCLİSİNİN FEDERASİYA ŞURASI SƏDRİNİN MÜAVİNİ SVETLANA ORLOVANIN BAŞÇILIĞI İLƏ FEDERASİYA ŞURASININ VƏ MDB PARLAMENTLƏRARASI ASSAMBLEYASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 mart 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev bildirdi ki, belə nüfuzlu nümayəndə heyətinin ölkəmizə səfəri Azərbaycan ilə Rusiya, habelə MDB ilə əməkdaşlığın daha da genişləndirilməsi işinə öz töhfəsini verəcəkdir.*

*Azərbaycan ilə Rusiya arasında müxtəlif sahələrdə həm ikitərəfli, həm də regional səviyyədə əlaqələrin uğurla inkişaf etdiyini və iqtisadi əməkdaşlığın durmadan genişləndiyini vurğulayan prezident İlham Əliyev Bakıda Azərbaycan – Rusiya biznes forumunun uğurla başa çatmasının bunu bir daha sübut etdiyini nəzərə çatdırdı.*

*Dövlətimizin başçısı dedi ki, ticarət dövriyyəsinin 70 faiz artması iqtisadi əlaqələrimizin yaxşı nümunəsidir. Azərbaycanda və Rusiyada dinamik iqtisadi inkişaf vardır. Əsas iqtisadi göstəricilər üzrə Azərbaycanda çox böyük uğurlar qazanılmışdır. Bütün bunlar ölkəmizin iqtisadi əlaqələrinin gələcəyi üçün yaxşı perspektivlər yaradır. Ali qanunvericilik orqanlarının nümayəndələri arasında beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əlaqələr mövcuddur.*

*Rusiyada Azərbaycan ilinin təntənəli açılış mərasimində iştirak etməsindən razılıqla söhbət açan prezident İlham Əliyev Rusiyaya səfərini məmnunluqla xatırlatdı və bunu çox*

*əlamətdar bir hadisə kimi dəyərləndirdi. Dövlətimizin başçısı gələn il Azərbaycanda Rusiya ilinin keçirilməsinin də ölkələrimiz arasında əlaqələrin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminliyini vurğuladı.*

*Rəhbərlik etdiyi nümayəndə heyətinə göstərilən qonaqpərvərliyi yüksək qiymətləndirən xanım Svetlana Orlova özünün və nümayəndə heyəti üzvlərinin bir hissəsinin Azərbaycanla sıx bağlı olduğunu vurğuladı.*

*Svetlana Orlova ölkələrimizin iqtisadi, sosial, mədəni və digər sahələrdə uğurla inkişaf edən əlaqələrinin daha da möhkəmlənəcəyinə əmin olduğunu söylədi. O, 9-cu Sankt-Peterburq İqtisadi Forumuna hazırlıq işləri barədə məlumat verərək, Azərbaycan prezidenti İlham Əliyevin orada iştirakını gözlədiklərini nəzərə çatdırdı. Azərbaycanın iqtisadi sahədəki uğurlarının forum iştirakçılarına təqdim olunmasının böyük əhəmiyyət daşıdığını vurğulayan qonaq bununla bağlı işlər aparıldığını bildirdi.*

*Azərbaycan prezidenti İlham Əliyevin Rusiyaya səfərinin uğurla keçdiyini xatırladan xanım Svetlana Orlova bu səfərin Rusiyada çox böyük maraqla izləndiyini qeyd etdi.*

*O, Rusiya prezidenti Vladimir Putin ilə Azərbaycan prezidenti İlham Əliyev arasında mövcud olan səmimi münasibətlərin ölkələrimizin əlaqələrinin daha da inkişaf etdirilməsi işinə xidmət edəcəyinə əmin olduğunu bildirdi.*

## VATİKAN DÖVLƏTİNİN ÖLKƏMİZDƏKİ APOSTOL NUNSİSİ KLAUDİO QUCEROTTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 mart 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev katoliklərin qarşıdan gələn Pasxa bayramı münasibətilə cənab Klaudio Qucerottini təbrik etdi, Vatikana səfərini məmnunluqla xatirlayaraq, orada keçirilən danışıqların, aparılan müzakirələrin Azərbaycan ilə Vatikan arasında əlaqələrin daha da genişləndirilməsi işinə töhfə verdiyini vurğuladı.*

*Papa II İohann Pavelin səhhətinin yaxşılaşmasından məmnunluğunu vurğulayan prezident İlham Əliyev bu şad xəbərdən sevinc hissi keçirdiyini bildirdi.*

*Vatikanın apostol nunsisi hər şeydən öncə, dövlətimizin başçısını müsəlmanların həyatında ən mühüm hadisələrdən biri – Səudiyyə Ərəbistanına ümrə ziyarəti münasibətilə təbrik etdi və bütün Azərbaycan xalqı üçün iftixar doğuran bir hadisə olduğunu vurğuladı. O, prezident İlham Əliyevin Vatikan dövlətinə səfərinə görə Papa II İohann Pavelin adından ən dərin və səmimi minnətdarlıq hisslərini çatdırdı. Cənab Qucerotti həmin səfər zamanı Papanın xəstəxanada müalicə olunmasına baxmayaraq, onu təmsil edən nümayəndə heyəti ilə görüşməyə razılıq verdiyinə görə dövlətimizin başçısına minnətdarlıq bildirdi.*

*Papa II İohann Pavelin məktubunu prezident İlham Əliyevə təqdim edən nunsi dedi ki, Zati-müqəddəsləri xəstəxanada olarkən ifadə etdiyi ən səmimi hisslər bu məktubda öz əksini tapmışdır. Ümumiyyətlə, Vatikan dövlətinin rəhbərliyi, şəxsən*

*Papa II İohann Pavel məktubunda ifadə etdiyi kimi, Azərbaycan xalqının zəngin mədəniyyəti, dini tolerantlığı ilə bağlı təşəkkürünü bildirdi. Mərhum prezident Heydər Əliyev tərəfindən katolik icmasının fəaliyyəti üçün yaradılmış gözəl şəraitin bu gün prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi yüksək qiymətləndirilir.*

*Qonaq dövlətimizin başçısına Papa II İohann Pavelin səmimi salamlarını və ehtiramını çatdıraraq dedi ki, Zati-müqəddəsləri Azərbaycan xalqının əmin-amanlığı və firavanlığı naminə katolik kilsəsi tərəfindən hər cür kömək göstəriləcəyinə ümidvar olduğunu bildirir.*

*Dövlətimizin başçısı İlham Əliyev məktuba, səmimi salamlara və ehtirama görə minnətdarlığını bildirdi, onun da səmimi salamlarını, ehtiramını və tezliklə sağalmaq arzularını Zati-müqəddəslərinə çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev Papa II İohann Pavelin ona və xalqımıza bəslədiyi səmimi hisslərə görə bir daha təşəkkür etdi, Azərbaycan ilə Vatikan dövləti arasında əlaqələrin bundan sonra da genişlənəcəyinə əminliyini vurğuladı.*

**TATARISTAN RESPUBLİKASININ PREZİDENTİ CƏNAB MİNTİMER ŞAYMİYEVƏ**

Hörmətli Mintimer Şaripoviç!

Tatarıstan Respublikasının prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Əminəm ki, xalqlarımız arasındakı ənənəvi dostluq münasibətləri, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında hərtərəfli əməkdaşlıq regionda sülh, sabitlik və tərəqqi naminə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və dövlət fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 mart 2005-ci il*

## YENİ AZƏRBAYCAN PARTİYASININ III QURULTAYINDA NİTQ

*Heydər Əliyev adına saray*

*26 mart 2005-ci il*

Hörmətli xanımlar və cənablar!

Hörmətli qurultay iştirakçıları!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Hər birinizə cansağlığı, uğurlar arzulayıram. Bu gün mənim ünvanıma deyilən bütün xoş sözlərə görə sizə minnətdaram.

Yeni Azərbaycan Partiyasının III qurultayı Azərbaycanın ictimai-siyasi həyatında çox mühüm hadisədir. Mən hesab edirəm ki, qurultayın nəticələri ölkəmizin gələcək inkişafı üçün, demokratik inkişafı üçün mühüm rol oynayacaqdır.

Yeni Azərbaycan Partiyası 1992-ci ildə çətin şəraitdə yaranmışdır. Xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə yaranan Yeni Azərbaycan Partiyası müxalifət partiyası kimi yaranmışdır. Ancaq indiki bəzi müxalifət nümayəndələrindən fərqli olaraq, Yeni Azərbaycan Partiyası müxalifətdə olan dövrdə heç vaxt Azərbaycan dövlətçiliyinə, Azərbaycanın milli maraqlarına müxalifətdə olmamışdır. O vaxtkı iqtidara müxalifətdə olmuşdur və təkcə biz yox, bütün Azərbaycan xalqı o vaxtkı iqtidara müxalifətdə idi. Çünki onların yarıtmaz fəaliyyəti nəticəsində ölkədə anarxiya, hərc-mərclik, total böhran hökm sürürdü. Demək olar ki, ölkəni uçurum kənarına gətirib çıxarmışdılar. Ölkədə gedən proseslər Azərbaycanın gələcəyini sual altında qoymuşdu və ölkə parçalanma ərəfəsində idi. Azərbaycan xalqının müdrikliyi və xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi təcrübəsi, biliyi, cəsarəti nəticəsində ölkəmiz o çətin şəraitdən şərəflə çıxdı, Azərbaycan özünü bütün təhlükə-

lərdən qoruya bildi. Ölkəmiz çox inamla inkişaf etməyə başladı və qısa müddət ərzində Azərbaycan öz siyasi və iqtisadi potensialını gücləndirərək bölgədə lider dövlətə çevrilmişdir. Bu, böyük tarixi hadisədir.

Əgər xalqımızın ümummilli lideri Heydər Əliyev o çətin anda ölkəyə rəhbərliyə gəlməsəydi, Azərbaycanın hansı bəlalarla üzləşə biləcəyini təsəvvür etmək çətindir. Azərbaycanın gələcəyi, müqəddəratı çox böyük təhlükələrlə üzləşə bilərdi.

Ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra ölkəmizdə inkişaf dövrü başladı. Bu dövrün ilk illəri də ölkəmiz üçün çox çətin şəraitdə keçdi. Ölkədə sabitlik tam bərqərar olunmamışdı. Vətəndaş müharibəsinin fəsadları aradan götürülməmişdi. Ölkədə hökm sürən böhran iqtisadi tənəzzülə gətirib çıxarmışdı. İnsanlarımızın həyat səviyyəsi ildənilə pisləşirdi və ölkə iqtisadiyyatı, demək olar ki, iflic vəziyyətində idi.

Yenə də məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində, onun uzaqgörən siyasəti nəticəsində qısa müddət ərzində iqtisadiyyatda, siyasi həyatda müşahidə olunan mənfi meyllərin qarşısı alındı və ölkə inkişaf yoluna qədəm qoydu. Heydər Əliyev ictimai-siyasi quruluşundan asılı olmayaraq, sözün əsl mənasında, bütün dövrlərdə Azərbaycan xalqının lideri idi. 1970–1982-ci illərdə ölkəyə rəhbərlik etdiyi dövr ərzində onun tərəfindən görülmüş işlər Azərbaycan xalqının maraqlarına xidmət edirdi. Məhz onun fəaliyyəti nəticəsində Azərbaycana mərkəzi fondlardan böyük həcmdə vəsait gətirilirdi. Yeni zavodlar, fabriklər tikilirdi. İndi bu zavodlar və fabriklər Azərbaycanın iqtisadi və sənaye potensialına böyük dəstəkdir. Əgər o illərdə Azərbaycanda iri sənaye infrastrukturu yaranmasaydı, xüsusilə neft sahəsində, neft emalı sahəsində nəhəng qurğular tikilməsəydi, bu gün Azərbaycanın iqtisadi potensialı o qədər də güclü ola bilməzdi. Yəni demək istəyirəm ki, ictimai-siyasi quruluşundan asılı olmayaraq, bütün zamanlarda Heydər Əliyevin liderlik keyfiyyətləri, xalqa, millətə bağlılığı ölkəmiz üçün, böyük işlər görmək üçün gözəl şərait yaratmışdır. Amma təbii ki, Azərbay-

canın ən ağır dövrü olan müstəqilliyimizin ilk illərində Heydər Əliyevin fəaliyyəti həlledici idi.

Görülən bütün bu işlərin nəticəsində indi Azərbaycan öz siyasi və iqtisadi gücünü daha da artırır. 1993-cü ildən 2003-cü ilə qədər görülən bütün işlər Azərbaycanı tam mənada müstəqil dövlətə çeviribdir. Müstəqillik təkcə dövlət atributları deyildir. Bu gün bir neçə ölkə var ki, onların bütün dövlət atributları mövcuddur, rəsmən müstəqil dövlət kimi Dünya Birliyinə daxil olublar. Fəqət onların siyasəti heç də müstəqil deyildir. Xalqımızın ən böyük sərvətlərindən biri də odur ki, bu gün Azərbaycan və Azərbaycan rəhbərliyi tam mənada müstəqil siyasət aparır. Bu siyasət yalnız və yalnız Azərbaycan xalqının milli maraqlarına xidmət edir. Bundan sonra da bizim görəcəyimiz bütün işlər Azərbaycan xalqının milli maraqlarına qulluq edəcək, Azərbaycanın daha da inkişafına xidmət edəcəkdir.

Heydər Əliyevin neft strategiyasının icrası nəticəsində ölkəmizə milyardlarla dollar xarici sərmayə gətirilibdir. Yenə də deyirəm, əgər 1994-cü ildə, o çətin şəraitdə «Əsrin müqaviləsi» imzalanmasaydı, ondan sonrakı dövr ərzində bütün infrastruktur layihələri həyata keçirilməsəydi, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisinə başlanılmasaydı, bu gün Azərbaycanda iqtisadi inkişafdan, ümumiyyətlə, söhbət gedə bilməzdi. Azərbaycanın bir çox sahəsi məhz «Əsrin müqaviləsi»ndən sonra inkişaf etməyə başladı. Bu müqavilə, bir növ, bütün iqtisadi inkişaf üçün möhkəm təkan verdi. Azərbaycanın qarşısında duran sosial məsələlər daha da uğurla həll olunmağa başladı. Təbii ki, bunu da etmək üçün maliyyə imkanları lazımdır.

Bu gün Azərbaycanın valyuta ehtiyatları 2 milyard dollara bərabərdir. Bu, böyük sərvətdir və biz də ondan Azərbaycan xalqının milli maraqlarının qorunması üçün, dövlətimizin möhkəmlənməsi üçün istifadə edirik. Mən hesab edirəm ki, iqtisadi inkişafda müsbət meyllər sürətlə gedir və Azərbaycan öz iqtisadi potensialını günü-gündən gücləndirir.

Ordu quruculuğunda böyük işlər görülmüşdür. Bu gün Azərbaycan ordusu qarşıda duran bütün vəzifələri həll etməyə qadir-

dir. Biz ordumuzun güclənməsi üçün lazımi tədbirlər görürük və bundan sonra da görəcəyik.

Azərbaycan informasiya blokadasını yara bildi. Ölkəmiz beynəlxalq ailəyə qovuşdu və beynəlxalq aləmdə özünə layiq yerini tuta bildi. İndi Azərbaycan bölgədə güclü mövqelərə sahib olan ölkədir, bölgədə gedən proseslərə təsir etmək iqtidarındadır. Hesab edirəm ki, biz bu imkanlardan səmərəli istifadə edirik və günü-gündən Azərbaycanın beynəlxalq nüfuzu artır.

Mən hesab edirəm ki, bizim milli maraqlarımızın daha da səmərəli şəkildə qorunmasında beynəlxalq fəaliyyət, xarici siyasətimiz mühüm rol oynayır. Çox müsbət haldır ki, bu istiqamətdə də böyük işlər görülübdür.

2003-cü il Azərbaycan üçün, Azərbaycanın müasir tarixi üçün, deyə bilərəm ki, həlledici il olmuşdur. Xalqımızın ümummilli lideri Heydər Əliyevin səhhətində yaranmış problemlər ona növbəti dəfə prezident seçkilərində iştirak etmək imkanı yaratmadı. Azərbaycan xalqının dəstəyi ilə, Yeni Azərbaycan Partiyasının dəstəyi ilə mənim namizədliyim irəli sürüldü. Mənim də seçkiqabağı çıxışlarımda səslənən fikirlər hamınıza bəllidir. Mən demişdim, bu gün də deyirəm ki, Azərbaycan Heydər Əliyevin müəyyən etdiyi yolla getməlidir, yalnız bu yol bizə uğur gətirə bilər. Biz ancaq bu yolla getsək, ölkəmizi zəngin, qüdrətli dövlətə çevirə biləcəyik.

Heydər Əliyevin siyasəti yaşamalıdır. Bu, zəmanənin tələbidir. Bu, yeganə siyasətdir ki, Azərbaycanı daha da gücləndirəcək, Azərbaycan xalqının həyat səviyyəsinin yaxşılaşmasına xidmət edəcəkdir. Mən çox şadam ki, Azərbaycan xalqı 2003-cü ildə öz seçimini düzgün etdi. Heydər Əliyevin siyasətinə öz səsini verdi və beləliklə, bu gün də biz hamımız, Azərbaycan xalqı, Yeni Azərbaycan Partiyası Heydər Əliyevin siyasətinə sadiq qalaraq onu davam etdiririk və çox uğurla davam etdiririk.

2003-cü ildə Azərbaycan xalqına böyük itki üz vermişdir. Biz öz liderimizi itirdik. Bu bizim hamımız üçün böyük sarsıntı idi, hamımız üçün böyük faciə idi. Ancaq Azərbaycan xalqı o çətin anda sıx birləşdi, öz iradəsini ifadə etdi.

Azərbaycan xalqı ölkəmiz üçün həlledici məqamda bir yumruq kimi birləşdi və Heydər Əliyevin ideyalarına, onun siyasətinə, onun dünyabaxışlarına, onun fəlsəfəsinə sadiqliyini bir daha göstərdi. Bu çox vacib məsələdir. Heydər Əliyev bu gün bizimlə deyil, amma onun siyasəti yaşayır, onun fəlsəfəsi yaşayır, onun yaratdığı müasir, müstəqil Azərbaycan yaşayır və bundan sonra da yaşayacaqdır.

Mən də öz fəaliyyətimdə xalqın dəstəyinə arxalanıram. Mən bu dəstəyi hiss edirəm və bu dəstək mənə güc verir. Hər bir rəhbər üçün əsas şərt xalqın ona olan inamıdır, dəstəyidir, görülən işlərə verilən qiymətdir.

Mən seçkilərdən əvvəl verdiyim bütün vədlərə sadiqəm. Azərbaycan son müddət ərzində həm daxili siyasətdə, həm xarici siyasətdə, həm iqtisadi siyasətimizdə, bütün sahələrdə. bütün istiqamətlərdə uğurla inkişaf edibdir. Bizim xarici siyasətimiz düşünülmüş, məqsədyönlü konsepsiya çərçivəsində həyata keçirilir. Bu konsepsiyanın bir neçə istiqaməti var. Qonşularımızla səmimi münasibətlərin yaranması konsepsiyamızın bir istiqamətidir. Bu yolda nəticələr əldə edilibdir. Azərbaycan öz qonşuları ilə çox mehriban münasibətlər yaradıbdır. Bu münasibətlər əvvəldən də var idi, biz bu gün bunu inkişaf etdiririk. Bizim qonşularımız Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirlər və Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə yalnız və yalnız beynəlxalq hüquq normaları prizmasından yanaşırlar.

Azərbaycan regional əməkdaşlıq baxımından öz fəaliyyətini davam etdirir və bu sahədə görülən işlər bunun əyani sübutudur. Ən böyük regional layihə olan Bakı–Tbilisi–Ceyhan neft kəməri Azərbaycanın təşəbbüsü və fəal iştirakı ilə həyata keçirilir. Bizim Avropa və Avratlantik strukturlarına inteqrasiya siyasətimiz uğurla davam etdirilir. Bu müddət ərzində Azərbaycan Avropa İttifaqının «Yeni qonşuluq siyasəti»nə daxil edilibdir. Azərbaycan NATO ilə yeni fərdi əməkdaşlıq planı üzrə birgə işləyir. Beynəlxalq təşkilatlarla bizim əlaqələrimiz daha da güclənibdir. Birləşmiş Millətlər Təşkilatında, Avropa Şurasında, İs-

lam Konfransı Təşkilatında və digər beynəlxalq təşkilatlarda Azərbaycanın mövqeləri güclənibdir. Görülən işlər, qəbul edilmiş qətnamələr, xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair olan siyasi qərarlar onu göstərir ki, bizim fəaliyyətimiz bu istiqamətdə çox uğurlu olubdur.

Daxildə bizim gördüyümüz bütün işlər ölkəmizdə hökm sürən sabitliyin qorunmasına xidmət edir. Azərbaycan üçün, ümumiyyətlə, hər bir ölkə üçün, hər bir ölkənin inkişafı üçün sabitlik başlıca şərtdir. O yerdə ki, sabitlik yoxdur, orada inkişafdan söhbət gedə bilməz. O yerdə ki, sabitlik yoxdur, xarici sərmayənin gəlməsi mümkün deyildir. O yerdə ki, sabitlik yoxdur, insanlarda inamsızlıq yaranır. Ona görə xalqımızın ümummilli lideri bunu dəfələrlə bəyan etmişdir və biz də bu siyasətə sadiqik ki, Azərbaycanın uğurlu, hərtərəfli inkişafı üçün ictimai-siyasi sabitlik qorunmalı, möhkəmlənməlidir. Kim bu sabitliyi pozmaq istəsə, öz layiqli cavabını alacaqdır.

Belə cəhdlər olub. 2003-cü ildə keçirilmiş prezident seçkilərindən sonra belə cəhdlər olub, amma bütün o cəhdlərin qarşısı alınıbdır. Ümid edirəm ki, o cəhdləri edən qüvvələr üçün bu, yaxşı dərs idi. Əgər onlar bir daha buna başlasalar, yenə eyni qaydada cavablarını alacaqlar. Biz siyasi mübarizəni daş-kəsəklə deyil, sözlə, siyasətlə aparırıq. Yeni Azərbaycan Partiyası yaranan gündən bəyan etmişdir və bu gün də bu siyasətə sadiqik ki, biz siyasi mübarizənin yalnız və yalnız sivilizasiyalı formalarına üstünlük veririk. Hər bir normal dövlətdə bu cür münasibətlər olmalıdır.

Mən çox təəssüf edirəm ki, dialoq haqqında bizim bir neçə dəfə səsləndirdiyimiz təkliflər müxalifət tərəfindən qəbul edilmir. Bu təkliflər bir neçə dəfə – prezident seçkiləri ərəfəsində də verilmişdir, seçkilərdən sonra da verilmişdir. Ancaq biz nəyi görürük? Onu görürük ki, müxalifət düşərgəsində bu dialoqa meylli olan insanlar o partiyalardan xaric edilirlər. Yəni bu, açıq şəkildə göstərir ki, həmin qüvvələr dialoqun tərəfdarı deyillər. Belə olan halda biz başqa variantlara da baxmalıyıq. Hər halda, hesab edirəm ki, Azərbaycanın normal inkişafı üçün, ölkəmizin

demokratik inkişafı üçün siyasi münasibətlər sivilizasiyalı formada olmalıdır.

Azərbaycanın iqtisadi inkişafı uğurla davam edir. Seçkilərdən əvvəl verilmiş bütün vədlər həyatda öz əksini tapır. Biz demişdik ki, iqtisadi islahatları davam etdirəcəyik, bunu da edirik. Həm struktur islahatları aparılır, həm də ölkəmizin iqtisadi inkişafı üçün çox mühüm əhəmiyyət kəsb edən sosial-iqtisadi, regional inkişaf proqramları qəbul edilib və uğurla icra edilir. Biz demişdik ki, 600 min iş yeri yaranacaqdır. Cəmi bir il ərzində yaranan iş yerlərinin sayı 170 mindən çoxdur. Biz demişdik ki, sahibkarlara kömək göstərəcəyik. Dövlət büdcəsindən 2005-ci ildə sahibkarlara kömək etmək üçün nəzərdə tutulan vəsait iki dəfə qaldırılıbdır. Biz demişdik ki, büdcəmiz artacaqdır. İlk növbədə, maliyyə nizam-intizamının güclənməsi nəticəsində 2005-ci ilin büdcəsi təxminən 25–30 faiz artırılıbdır. Mən hesab edirəm ki, bütün istiqamətlərdə nəzərdə tutulmuş proqramlar öz həllini tapıb və Azərbaycan hərtərəfli inkişaf edir.

Azərbaycanın qeyri-neft sektoru sürətlə inkişaf etməyə başladı. Qeyri-neft sektorunun inkişafı gələcək işlərimizin görülməsi üçün çox mühüm bir amildir. Mən çox şadam ki, Azərbaycanda möhkəmlənən sahibkarlar sinfi bu fürsətlərdən çox uğurla istifadə edir.

Gənclərlə bizim əlaqələrimiz həmişə yüksək səviyyədə olubdur, mən özüm şəxsən daim gənclərlə ünsiyyətdə olmuşam, indi də əlaqə saxlayıram. Çox şadam ki, ikinci qurultaydan sonra partiyamıza müşahidə olunan güclü axının böyük əksəriyyəti gənclərin hesabına baş veribdir. Bu da təbiidir. Çünki Azərbaycan gəncləri ölkəmizdə gedən prosesləri çox gözəl bilirlər və ümumiyyətlə, dünyada gedən prosesləri çox gözəl bilirlər.

Dünyada gedən proseslərin hansı istiqamətdə inkişaf etməsi haqqında onların çox yaxşı təsəvvürü vardır. Görürlər ki, bugünkü iqtidar, Azərbaycanın rəhbərliyi öz siyasətini dünyada gedən proseslərlə paralel şəkildə aparır. Çünki bu bizim milli maraqlarımıza uyğundur. Bizim milli maraqlarımıza uyğundur

ki, Azərbaycanda demokratik, sivilizasiyalı, müasir dövlət yaransın.

Biz təbii ehtiyatlarla zəngin olan ölkəyik. Bizim çox gözəl intellektual potensialımız, resurslarımız var. Amma onu da bilirik ki, yalnız və yalnız demokratik cəmiyyətdə hər bir vətəndaş öz istəyini, öz bacarığını sərbəst ifadə edə bilər. Ancaq demokratik inkişaf ölkələri tərəqqi yoluna gətirib çıxara bilər. Ona görə bütün addımlarımız məhz bu istiqamətdə atılır. Həm iqtisadi potensialımızın güclənməsi, ordu quruculuğunda görülən çox ciddi tədbirlər, Azərbaycanda daxili sabitliyin qorunması, möhkəmlənməsi, həm də ölkəmizin gələcək demokratikləşməsi bizim siyasətimizin əsas istiqamətləridir.

Ölkəmiz üçün gözəl perspektivlər açılır. Mən gələcəkdə Azərbaycanın qarşısında böyük problemlər görmürəm. Bütün problemlər öz həllini tapacaqdır. Sosial məsələlər öz həllini tapacaqdır. Biz minimum əməkhaqqını iki dəfədən çox qaldırmışıq, bundan sonra da qaldıracağıq. Pensiyaları qaldıracağıq. Əməkhaqqı ildən-ilə artır, əhalinin pul gəlirləri artır. Ölkədə gedən islahatlar yeni imkanlar yaradır. Kənd təsərrüfatında görüləcək işlər imkan verəcək ki, bu sahə daha da inkişaf etsin, yeni texnika alınacaqdır.

Bakı–Tbilisi–Ceyhan neft kəmərinin işə düşməsindən sonra ölkəmizə böyük həcmdə vəsait daxil olacaqdır ki, bu da iqtisadiyyatımızın bütün sahələrini inkişaf etdirmək üçün gözəl şərait yaradacaqdır. Sosial müdafiə imkanları yüksələcəkdir. Ən çətin vəziyyətdə yaşayan qaçqınlarımız, köçkünlərimizdir, onların da həyat səviyyəsi yaxşılaşdırılacaqdır. Bilirsiniz ki, onlar üçün yeni infrastruktur yaradılır, yeni şəhərciklər salınır, məktəblər, xəstəxanalar tikilir.

Bir sözlə, mən yaxın və uzaq gələcəkdə Azərbaycanın qarşısında heç bir problem görmürəm. Çünki yenə də deyirəm, bütün görülən və görüləcək işlər, hökumətin proqramları bizi bütün arzularımıza gətirib çıxaracaqdır.

Yeganə problem, ən ağrılı problem Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Biz də çalışırıq ki, bunu

həll edək. Amma o da təbiidir ki, bu, bir tərəfin istəyindən asılı olan məsələ deyildir. Burada da bütün gücümüzü səfərbər etmişik.

Bir tərəfdən, xarici siyasətdə apardığımız məqsədyönlü fəaliyyət, əgər belə demək mümkündürsə, çox ciddi hücumlar, beynəlxalq təşkilatların bu məsələyə daha da diqqətli olmaları, diplomatik səylər, digər tərəfdən, ordu quruculuğu – sirr deyil ki, 2005-ci ilin büdcəsində orduya ayrılan xərclər təxminən 30 faiz, ondan da çox artıbdır, bundan sonra da artacaqdır – eyni zamanda, Azərbaycanın bölgədəki nüfuzu, regional layihələrin həyata keçməsi, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisi, yəni bütün bu amillər bizə çox gözəl üstünlük yaradır. İndi danışıqlar prosesində müşahidə olunan meyllər bizim xeyrimizədir. Bu da həqiqətdir. Sadəcə olaraq, Ermənistan tərəfinin qeyri-konstruktiv mövqeyi imkan vermir ki, məsələ öz həllini tapsın.

Beynəlxalq hüquq normaları bizim tərəfimizdədir. İqtisadi potensial bizim tərəfimizdədir. Ordu potensialı bizim tərəfimizdədir. Haqq-ədalət bizim tərəfimizdədir. Azərbaycan xalqı heç vaxt öz doğma torpaqlarının itirilməsi ilə barışmayacaqdır. Nəyin bahasına olursa-olsun öz doğma torpaqlarını azad edəcəkdir.

Biz istəyirik ki, bu, sülh yolu ilə həll olunsun. Biz müharibə istəmirik, gözəl planlarımız, perspektivlərimiz var. Biz quruculuq işləri ilə məşğul olmaq, ölkəmizi daha da inkişaf etdirmək istəyirik. Ona görə məsələnin sülh yolu ilə həllinin tərəfdarıyıq. Amma o da hamıya aydındır ki, belə qeyri-müəyyən vəziyyət çox çəkə bilməz. İndiki danışıqlar Praqa prosesi çərçivəsində aparılır. Ümumiyyətlə, Praqa prosesi son müddət ərzində gedən danışıqlarda yeni bir vəziyyət yaratdı. Əslində Praqa prosesi mərhələli həll deməkdir. Ona görə biz ümidliyik ki, Praqa prosesi nəticəsində ədalətli, bütün beynəlxalq hüquq normalarına uyğun variant müzakirə oluna bilər və tərəflər razılaşa bilərlər. Amma əgər bu dəfə də danışıqlar heç bir nəticə verməsə, onda gələcək danışıqların, ümumiyyətlə, heç bir əhəmiyyəti qalmır. Çünki bilirsiniz ki, danışıqlar on ildən artıqdır aparılır. Bütün mümkün olan variantlar artıq müzakirə olunubdur. Əgər bu

mərhələ də heç bir nəticə verməsə, bu məsələdə yeni vəziyyət yaranacaqdır. Yəni danışıqların aparılmasına heç bir ehtiyac qalmayacaq və Azərbaycan o zaman öz strateji xəttində və bizim bu məsələyə dair bütün siyasi yanaşmalarımızda ciddi dəyişiklik etməli olacaqdır.

Əziz dostlar!

2005-ci il ölkəmiz üçün çox vacib il olacaqdır. Ümumiyyətlə, 2005-ci il çox yaxşı başladı. Bizim nəzərdə tutduğumuz bütün məsələlər – iqtisadi inkişaf məsələləri öz həllini tapır. Azərbaycan 2005-ci ildə beynəlxalq aləmdə yeni təşəbbüslərlə çıxış edir. Müxtəlif ölkələrlə ikitərəfli münasibətlər möhkəmlənir. Regional əməkdaşlıq məsələləri güclənir. 2005-ci ildə ölkəmizin gələcəyini yüksək dərəcədə müəyyən edəcək Bakı–Tbilisi–Ceyhan neft kəməri istismara veriləcək və bu, vəziyyəti tamamilə dəyişdirəcəkdir. Həm bölgədə gedən proseslərə çox güclü təsir göstərəcəkdir, həm də Bakı–Tbilisi–Ceyhan neft kəmərinin işə düşməsindən sonra digər ölkələrin nefti bu kəmər vasitəsilə dünya bazarlarına çıxarıla bilər. Azərbaycanın bölgədəki mövqeləri və önəmi daha da möhkəmlənəcəkdir. Əlbəttə, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin işə düşməsi bizə imkan verəcək ki, cəmi üç il ərzində biz öz ixrac potensialımızı təxminən üç, dörd, beş dəfə artıraq. Təbii ki, bu, ölkəmizə böyük həcmdə vəsait gətirəcəkdir. Bu vəsait də Azərbaycan xalqının həyat səviyyəsinin yaxşılaşmasına xidmət edəcəkdir.

Azərbaycan Dövlət Neft Fondunda bu günə qədər yığılmış bütün vəsaitlər şəffaf şəkildə idarə olunur. Xalq bu barədə məlumat alır, məlumatlar dərc edilir və bütün xərclər yalnız və yalnız mərkəzləşmiş büdcə vasitəsilə həyata keçirilir. Bunlar parlamentdə müzakirə olunur və müzakirənin nəticəsində büdcə formalaşanda Neft Fondunun vəsaiti də orada öz əksini tapır. Yəni onu demək istəyirəm ki, Azərbaycan xalqı parlamentdə öz nümayəndələri vasitəsilə Neft Fondunun gəlirlərinin bölünməsində bilavasitə iştirak edir. Bu çox vacibdir. Çünki bu hamımızın sərvətidir. Azərbaycan xalqının sərvətidir və hər bir vətəndaş bu sərvətdən faydalanmalıdır. Eyni zamanda, hər bir vətəndaş bil-

məlidir ki, orada yığılan vəsait haraya xərclənir, hansı məqsədlərə istifadə olunur.

2005-ci ildə parlament seçkiləri keçiriləcəkdir. Biz bu seçkilərə böyük əhəmiyyət veririk. Hesab edirik ki, Azərbaycanın gələcək, demokratik inkişafında bu seçkilər mühüm rol oynayacaqdır. Mən şübhə etmirəm ki, seçkilər tam ədalətli, şəffaf keçiriləcək və Azərbaycan xalqının iradəsi və arzuları bu seçkilərin nəticəsində öz əksini tapacaqdır.

Yeni Azərbaycan Partiyası da bu seçkilərə hazırlaşmalıdır və biz bunu edəcəyik. Baxmayaraq ki, partiyamız üçün Azərbaycanın indiki siyasi səhnəsində heç bir rəqib görmürük, amma etiraf etməliyik ki, müxalifətin vəziyyəti – bəlkə də indi bu barədə danışmaq bizim üçün o qədər də yaxşı çıxmaz – çox acınacaqlıdır. Prezident seçkilərindən sonra onların vəhşi hərəkətləri cəmiyyətdə ümumən olmayan dayaqlarının qalıqlarını da məhv edibdir. Bu gün Azərbaycanın siyasi səhnəsində müxalifətin mövcudluğu, ümumiyyətlə, hiss olunmur. Onlar yalnız hansısa beynəlxalq təşkilatların dəvəti ilə gəzintilərə çıxırlar. Orada da onuncu dərəcəli məmurlarla görüşdən sonra bir az ruhlanırlar, böyük planlarla, ideyalarla Azərbaycana qayıdırlar. Amma bir müddət sonra hamımız görürük ki, bunların arxasında heç nə yoxdur.

Bir sözlə, bu gün bizim, Yeni Azərbaycan Partiyasının qarşısında rəqib yoxdur. Mən buna təəssüf edirəm. Hesab edirəm ki, bu, cəmiyyətimiz üçün qeyri-normal bir vəziyyətdir, qeyri-normal bir şəraitdir. Yeni Azərbaycan Partiyası olaraq biz öz tərəfimizdən ölkədə hökm sürən siyasi proseslərə kifayət qədər təsir etmək iqtidarındayıq. Əgər lazım olarsa, biz öz yardımımızı, köməyimizi də göstərə bilərik ki, mövcud olan siyasi qüvvələr bir az özlərinə gəlsinlər, fəal olsunlar, necə deyərlər, bir az öz gələcəyi haqqında düşünsünlər.

Amma buna baxmayaraq, Yeni Azərbaycan Partiyası, əlbəttə, seçkilərə ciddi hazırlaşacaqdır. Mən heç şübhə etmirəm ki, Yeni Azərbaycan Partiyası tərəfindən dəstəklənəcək istənilən namizəd parlament seçkilərində açıq, ədalətli və şəffaf mübari-

zədə qalib gələcəkdir. Azərbaycan xalqı bizim siyasətimizi dəstəkləyir, bəyənir. Bizim siyasətimiz əməli işlərdir, praktiki addımlardır, real məsələlərdir. Biz populizmdən uzağıq, gündə on dəfə müsahibə vermirik, işlə məşğul oluruq. Həm Yeni Azərbaycan Partiyası, onun fəalları, həm də hökumətdəki nümayəndələrimiz, əlbəttə, Yeni Azərbaycan Partiyasının rəhbəri, ölkə prezidenti də bu işlərlə məşğuldur.

Mənim də həyatım və fəaliyyətim göz qabağındadır. Seçkilərdən əvvəl demişəm ki, əgər seçilsəm, doğma xalqıma ləyaqətlə xidmət edəcəyəm. Mən bunu etməyə çalışıram və bundan sonra da əlimdən gələni edəcəyəm ki, Azərbaycan xalqı günü-gündən yaxşı yaşasın, ölkəmiz güclənsin, zənginləşsin və qüdrətli dövlətə çevrilsin.

Əziz dostlar!

Mən əminəm ki, biz bundan sonra da Heydər Əliyevin siyasi xəttinə sadiq qalaraq doğma Vətənimizə, xalqımıza ləyaqətlə, sədaqətlə xidmət edəcəyik.

Yaşasın Yeni Azərbaycan Partiyası!

Yaşasın Heydər Əliyevin əsəri olan müasir, müstəqil Azərbaycan Respublikası!

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ TƏHLÜKƏSİZLİK NAZİRLİYİNİN ŞƏXSİ HEYƏTİNƏ

Hörmətli təhlükəsizlik orqanları əməkdaşları!

Əziz veteranlar!

Peşə bayramınız münasibətilə sizi səmimi-qəlbdən təbrik edir, hamınıza ən xoş arzularımı çatdırıram.

86 il öncə yaradılmış Azərbaycan təhlükəsizlik orqanları ziddiyyətli və mürəkkəb, eyni zamanda şərəfli inkişaf yolu keçərək, kiçik bölmədən müstəqil respublikamızın əsas dayaqlarından və dövlətçilik institutlarından birinə – milli maraqların təhlükəsizliyini təmin edən nüfuzlu güc strukturuna çevrilmişdir.

Ötən əsrin ortalarından başlayaraq, təhlükəsizlik orqanlarında vətənə, dövlətə və xalqa əsl sədaqət ideyalarını formalaşdıran Heydər Əliyev ənənələri bu gün də sizin tərəfinizdən yaşadılır, böyük əzm və uğurla davam etdirilir. Əlamətdar haldır ki, ümummilli liderimiz ilk əmək fəaliyyətinə təhlükəsizlik orqanında başlamış, bu təşkilatda çalışdığı, sonradan respublikaya rəhbərlik etdiyi dövrlərdə azərbaycançılıq ideyalarının fədakar təbliğatçısı, bütün sahələrdə, o cümlədən xüsusi xidmət orqanlarında milliləşdirmə prosesinin banisi olmuşdur. Bu peşə bayramınız da prezident Heydər Əliyevin sərəncamı ilə təsis edilmişdir.

Azərbaycan təhlükəsizlik orqanlarının şəxsi heyəti tərəfindən dövlətçiliyin möhkəmləndirilməsində, siyasi, iqtisadi, sosial, elm, mədəniyyət və digər həyat əhəmiyyətli sahələrdə milli maraqların etibarlı qorunmasında nümunəvi xidmətlər göstərilir.

Beynəlxalq aləmdə, regionda və cəmiyyətdə ictimai-siyasi proseslərin sürətli inkişafı, bölgədə xarici dövlətlərin və bəzi

dairələrin maraq və mənafelərinin toqqoşduğu, qloballaşma dövrünün meydana çıxardığı yeni təhdidlərin mövcudluğu, xüsusən də işğalçı Ermənistan tərəfindən xalqımıza qarşı düşmənçilik, terrorçuluq siyasətinin davam etdirildiyi bir zamanda Azərbaycanın xüsusi xidmət orqanlarının üzərinə böyük məsuliyyət, mühüm problemlərin həlli istiqamətində təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi vəzifəsi düşür.

Bayram günü ərəfəsində Milli Təhlükəsizlik Nazirliyinin bir qrup əməkdaşının ali hərbi rütbələrə layiq görülməsi, orden və medallarla təltif olunması sizin xalqa və dövlətə sədaqətlə xidmətinizin bariz ifadəsidir. İnanıram ki, siz bundan sonra da Azərbaycan Respublikasının demokratik və hüquqi dövlət kimi tərəqqisi istiqamətində aparılan siyasi kursun uğurla həyata keçirilməsində bütün səylərinizi səfərbər edəcək, sabitliyin qorunub saxlanılması və ölkədə tam təhlükəsizlik şəraitinin yaradılması işinin fəal iştirakçısı olacaqsınız.

Sizi peşə bayramı münasibətilə bir daha təbrik edir, hamınıza uzun ömür, cansağlığı, səadət diləyir, sabitlik və inkişaf, yeniləşmə və müasirləşmə mərhələsində Azərbaycan dövlətinin daha da qüdrətlənməsi naminə şərəfli vəzifələrin yerinə yetirilməsində yeni-yeni uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı şəhəri, *28 mart 2005-ci il*

## RUSİYA FEDERASİYASI HESABLAMA PALATASININ SƏDRİ SERGEY STEPAŞİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 mart 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin sürətlə inkişaf etməsindən məmnunluğunu bildirdi. Rusiya Federasiyasına səfərini səmimiyyətlə xatırlayan prezident İlham Əliyev Rusiyada Azərbaycan ilinin keçirilməsini böyük, əlamətdar hadisə kimi dəyərləndirdi. Dövlətimizin başçısı Azərbaycan ilə Rusiya arasında ticarət dövriyyəsinin artmasını iqtisadi əlaqələrin inkişafının yaxşı nümunəsi olduğunu bildirdi. Ölkələrimiz arasında həm ikitərəfli, həm də regional səviyyədə əməkdaşlığın uğurla həyata keçirildiyini nəzərə çatdıran prezident İlham Əliyev beynəlxalq təşkilatlar çərçivəsində də əməkdaşlığımızın genişləndiyini vurğuladı.*

*Azərbaycan və Rusiyanın hökumət strukturları, nazirlikləri, o cümlədən hesablama palataları arasında əlaqələrin inkişaf etdiyini bildirən dövlətimizin başçısı Rusiya Hesablama Palatası sədrinin başçılıq etdiyi nümayəndə heyətinin bu səfərinin də həmin əlaqələrin, ümumiyyətlə, ölkələrimizin əməkdaşlığının inkişafına öz töhfəsini verəcəyinə əminliyini vurğuladı.*

*Cənab Sergey Stepaşin Rusiya prezidenti Vladimir Putinin səmimi salamlarını Azərbaycan prezidenti İlham Əliyevə*

çatdırdı. O, ölkəmizə son səfərindən keçən altı ay ərzində Azərbaycanda iqtisadi inkişaf sahəsində çox böyük uğurlar əldə edildiyini bildirdi. Ölkələrimizin müxtəlif sahələrdə əmək-daşlığının uğurla inkişaf etdiyini söyləyən Sergey Stepaşin Azərbaycan və Rusiyanın hesablama palataları arasında da əlaqələrin genişləndiyini nəzərə çatdırdı. Dövlətimizin başçısı İlham Əliyev səmimi salamlara görə cənab Vladimir Putinə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya prezi-dentinə çatdırmağı xahiş etdi.

## AMERİKA YƏHUDİ BİRGƏ PAYLAŞDIRMA KOMİTƏSİNİN SƏDRİ XANIM ELLEN HELLERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 mart 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev bu komitənin nümayəndə heyətinin Azərbaycana səfərini həmin komitənin ölkəmiz ilə daha yaxından tanışlığına xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Son illər ölkəmizdə böyük uğurlar qazanıldığını nəzərə çatdıran prezident İlham Əliyev siyasi, iqtisadi, sosial sahələrdə islahatların müvəffəqiyyətlə həyata keçirildiyini vurğuladı.*

*Ölkəmizin beynəlxalq təşkilatlarla əlaqələrə böyük önəm verdiyini nəzərə çatdıran dövlətimizin başçısı Azərbaycan ictimaiyyətinin Amerika Yəhudi Birgə Paylaşdırma Komitəsini yaxşı tanıdığını vurğuladı və bu təşkilatın böyük tarixə və zəngin ənənələrə malik olduğunu bildirdi.*

*Azərbaycanda bütün dini konfessiyalara bərabər şərait yaradıldığını qeyd edən prezident İlham Əliyev dini-milli tolerantlığın xalqımızın əldə etdiyi ən böyük tarixi nailiyyətlərdən biri olduğunu açıqladı.*

*Azərbaycanın böyük tarixi olduğunu bildirən xanım Ellen Heller ölkəmizdə gedən proseslərdən heyranlıq duyduğunu söylədi. Azərbaycanda tolerantlığın yüksək səviyyəsindən məmnunluqla bəhs edən qonaq bir sıra ölkələrdən fərqli olaraq Azərbaycanda antisemitizmin olmadığını vurğuladı.*

*Azərbaycanda digər* dini *konfessiyaların nümayəndələri* kimi, *yəhudilər üçün də gözəl şərait yaradıldığını nəzərə çatdıran xanım* Ellen Heller dedi *ki, Azərbaycan əhalisinin müsəl-*manlardan *ibarət olduğu nəzərə alınsa,* bu *çox böyük nailiyyətdir.* O, *Azərbaycanda* dini *tolerantlıq,* dini konfessiya-lar *üçün yaradılmış gözəl şəraitin müsəlmanlar,* xristianlar *və yəhudilər arasında yüksək səviyyədə münasibətlərin* müm-*künlüyü üçün yaxşı nümunə olduğunu* bildirdi. *Xanım* Ellen Heller *bütün bunları Azərbaycanda demokratiyanın inkişafının təzahürü* kimi *dəyərləndirdi.*

Qonaq *Azərbaycanda qadınların* ictimai-siyasi *fəaliyyəti üçün hər cür şəraitin yaradılmasından məmnun olduğunu söylədi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 31 MART AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏTİ

Əziz həmvətənlər!

31 Mart Azərbaycanlıların soyqırımı günü kimi, 1998-ci ildən bəri Azərbaycan Respublikasında hər il dövlət səviyyəsində qeyd edilir. Azərbaycanlılara qarşı soyqırımı siyasəti erməni şovinist millətçiləri tərəfindən yüzillər boyu planlı surətdə həyata keçirilmişdir. Bu siyasətin mahiyyəti azərbaycanlıları öz doğma torpaqlarından sıxışdırıb çıxarmaq və fiziki cəhətdən məhv etmək yolu ilə bu ərazilərdə mifik «böyük Ermənistan dövləti» yaratmaq idi. Ayrı-ayrı dövrlərdə böyük dövlətlərin müəyyən dairələrinin təhriki ilə yeridilən bu siyasət hərbi, ideoloji, mədəni, saxta "elmi" vasitələrlə davam etdirilmiş, tarixi faktların və arxiv sənədlərinin saxtalaşdırılmasından, dezinformasiyadan, dünya ictimai fikrinə ünvanlanmış bədii və psixoloji təsir metodlarından istifadə edilmişdir. Məqsədlərinə nail olmaq üçün erməni millətçiləri ayrı-ayrı ölkələrdə ideoloji, hərbi təxribat və ekspansiya ilə məşğul olan «milli-mədəni cəmiyyətlər», terroru və talançılığı əsas mübarizə metodu kimi seçmiş siyasi təşkilatlar qurmuş, erməni diasporunun və lobbisinin imkanlarından geniş istifadə etmişlər.

Soyqırımı siyasəti Azərbaycan xalqına olmazın dəhşət və fəlakətlər gətirmişdir.

Tarixi Azərbaycan torpaqları olan Qarabağ və Zəngəzura XIX əsrin əvvəllərindən başlayaraq erməni əhalisinin yerləşdirilməsi, demoqrafik vəziyyətin zorla dəyişdirilməsi, 1905, 1918-ci illərdə azərbaycanlı əhalini qorxutmaq və qovmaq məqsədi güdən kütləvi qırğınlar, 1920-ci illərdə Zəngəzurun Ermə-

nistana verilməsi, 1948–1953-cü illərdə yüz minlərlə azərbaycanlının indiki Ermənistan ərazisindəki əzəli yurdlarından köçürülməsi xalqımıza qarşı erməni təcavüzünün qanlı səhifələridir. 1988-ci ildə isə erməni şovinist millətçiləri xarici havadarlarının və erməni lobbisinin dəstəyi ilə Dağlıq Qarabağı Azərbaycandan güclə qoparmaq məqsədi güdən yeni hücum dalğasına başladılar. Hərbi münaqişə nəticəsində Dağlıq Qarabağ və ona bitişik ərazidə yerləşən Azərbaycan rayonları erməni birləşmələri tərəfindən işğal edildi. 1992-ci ildə ermənilər qədim Azərbaycan şəhəri Xocalını dağıdıb məhv etdilər, onun müdafiəçilərinə və dinc sakinlərə qarşı misli görünməmiş vəhşiliklər edildi. Elan olunmamış müharibə nəticəsində bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşdü, on minlərlə insan həlak oldu. Xalqımıza qarşı təcavüzkar erməni millətçilərinin törətdiyi cinayətlərin tam olmayan siyahısı belədir.

Təəssüf hissi ilə qeyd etməliyəm ki, Azərbaycana qarşı erməni təcavüzünün nəticələri hələ də aradan qaldırılmayıb, Ermənistanın işğalçı siyasəti bu gün də davam edir. İdeoloji təxribat və dezinformasiya sahəsində çoxillik zəngin təcrübəsi olan erməni şovinist millətçiləri, onların ideoloqları, xaricdəki lobbisi Azərbaycana qarşı daha incə və məkrli metodlardan istifadə etməklə təbliğat və təxribat mübarizəsi aparır, yeni uydurma tezislərlə dünya ictimaiyyətini çaşdırmağa, onu yeni yalanlarla aldatmağa, işğal faktını unutdurmağa çalışırlar. Bütün dünyada sivil birgəyaşayış və əməkdaşlıq prinsiplərinin daha çox tətbiq edildiyi, qloballaşma, iqtisadi, siyasi, mədəni inteqrasiya proseslərinin geniş vüsət aldığı bir zamanda ermənilərin «böyük dövlət» ideoloqları beynəlxalq hüquq normalarına meydan oxuyur, xəstə və arxaik ideyaların əsirliyindən qurtara bilmirlər.

Lakin Ermənistanın və erməni lobbisinin təcavüzkar siyasətinə qarşı bu gün Azərbaycan dövləti, onun bütün dünyada getdikcə artan nüfuzu, siyasi çəkisi, gündən-günə yüksələn iqtisadi potensialı, xarici ölkələrdə ciddi ictimai-siyasi faktora çevrilən Azərbaycan icmaları, nəhayət, qüdrətli Azərbaycan ordusu dayanır. İndi Azərbaycan iqtisadi və siyasi cəhətdən nəinki regio-

nun faktiki lideridir, eyni zamanda transmilli, qlobal enerji-kommunikasiya layihələrinin mərkəzidir. Əzəmətli Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəmərinin işə düşməsi Azərbaycanda və bölgədə çox mühüm iqtisadi və siyasi hadisə olacaq, region və dünya xalqları arasında inteqrasiyaya kömək edəcəkdir.

Ölkəmiz aparıcı dünya dövlətləri ilə, beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq edir, etibarlı tərəfdaş kimi tanınır. Azərbaycanın dövlət rəhbərliyi, xaricdəki azərbaycanlı icmaları erməni təbliğatının saxta tezislərini, onun əsl mahiyyətini ifşa etmək üçün davamlı və məqsədyönlü fəaliyyət göstərirlər. Dünya siyasətinə böyük təsiri olan dövlətlərin rəhbər dairələri, geniş ictimaiyyət, beynəlxalq təşkilatlar Azərbaycan həqiqətlərini getdikcə daha tez-tez etiraf edir, Ermənistanı açıq-açığına işğalçı ölkə kimi qiymətləndirirlər. Azərbaycan və qardaş Türkiyənin rəsmi və ictimai dairələri tərəfindən saxta erməni soyqırımını ifşa edən tarixi sənədlər beynəlxalq təşkilatlara təqdim olunur. Ümidverici haldır ki, nüfuzlu beynəlxalq qurumlar Ermənistanın Azərbaycan ərazilərini işğal etdiyini təsdiq edən qətnamələr qəbul edir, onu tutduğu torpaqları azad etməyə çağırırlar. Ermənistan rəhbərliyi ilə münaqişənin həlli variantları haqqında danışıqlar aparılır.

Biz problemin beynəlxalq hüquq normaları əsasında ədalətli həlli üçün çalışırıq. Ermənistanı da elementar hüquq normalarına əməl etməyə, reallıq hissini itirməməyə, məqbul həll variantları istiqamətində addımlar atmağa çağırırıq. Lakin o da aydın və birmənalı qəbul edilməlidir ki, münaqişənin həllinin təməl prinsipi Azərbaycanın ərazi bütövlüyü, məcburi köçkünlərin doğma yaşayış yerlərinə qaytarılması olmalıdır. Danışıqlar prosesi də sonsuz davam edə bilməz. Ermənistanda da bunu başa düşməlidirlər.

Biz azərbaycanlılara qarşı ermənilərin törətdiyi təcavüz və soyqırımının dünya dövlətlərinin parlamentləri, beynəlxalq təşkilatlar tərəfindən tanınmasına və pislənməsinə çalışmalıyıq. Həm də bu zaman erməni şovinist millətçilərindən fərqli olaraq bundan siyasi, maddi və ya maliyyə kompensasiyaları qazan-

maq üçün faydalanmaq istəmirik. Bizim maddi sərvətlərimiz kifayət qədərdir. Odur ki, biz sülh şəraitində yaşamaq, ölkəmizi inkişaf etdirmək, tarixi ədalətin və həqiqətin bərpa olunmasını, işğal və soyqırımı siyasəti həyata keçirənlərin tanınmasını və ifşa olunmasını istəyirik. Düşünürük ki, indiki zamanda digər xalqlara və dövlətlərə qarşı ərazi iddiaları ilə çıxış etmək tarixi anaxronizmdir və bu hərəkət həmin xalqın özünə ciddi fəlakət gətirən bir bəladır.

Bizim yolumuz düzgün, amallarımız, məqsədlərimiz saf və təmizdir. Biz xalqımızın tarixini, dünəninin və bugününün həqiqətlərini hamının daha yaxşı bilməsinə və qəbul etməsinə çalışmalıyıq. Bunun üçün Azərbaycan hökuməti, bütün vətəndaşlarımız, xarici ölkələrdəki azərbaycanlı icmaları səylərini birləşdirməli, daha ardıcıl və səmərəli iş aparmalı, təsirli tədbirlər görməlidirlər.

Bir daha soyqırımı qurbanlarının əziz xatirəsini dərin hüznlə yad edir, onlara Allahdan rəhmət diləyir, xalqımıza ümummilli vəzifələrimizin həlli yolunda uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *29 mart 2005-ci il*

**İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni son dərəcə kədərləndirdi.

Bu dəhşətli faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İndoneziya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 mart 2005-ci il*

## TÜRKİYƏ RESPUBLİKASI HƏRBİ DƏNİZ QÜVVƏLƏRİNİN KOMANDANI, DONANMA ADMİRALI ÖZDƏN ÖRNƏKİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 mart 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev* dost *və qardaş ölkələr* olan *Azərbaycan ilə Türkiyə arasında bütün sahələrdə əlaqələrin* daim *inkişaf* etdiyini *və möhkəmləndiyini məmnunluqla vurğuladı. Prezident İlham Əliyev ölkələrimizin* siyasi, *iqtisadi və bütün digər sahələrdə, o cümlədən* regional *sahədə əməkdaşlığının yüksək səviyyədə olduğunu* bildirdi. *Dövlətimizin başçısı* dedi ki, *Azərbaycan ilə Türkiyə* qlobal enerji *layihələrində, o cümlədən Bakı–Tbilisi–Ceyhan layihəsində fəal surətdə birgə iştirak və əməkdaşlıq edirlər.*

*Prezident İlham Əliyev hər iki ölkənin beynəlxalq məsələlərdə* vahid *mövqedən çıxış etməsinin böyük əhəmiyyət daşıdığını nəzərə çatdırdı, Ermənistan – Azərbaycan, Dağlıq* Qarabağ *münaqişəsi məsələsində Türkiyənin Azərbaycanın ədalətli mövqeyini* daim *dəstəkləməsini yüksək qiymətləndirdi.*

*Müxtəlif səviyyələrdə nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin böyük əhəmiyyət daşıdığını vurğulayan* prezident *İlham Əliyev özünün Türkiyəyə* son *səfərini məmnunluqla xatırladı, həmin səfərin ölkələrimiz arasında əlaqələrin* daha da *inkişaf etdirilməsi işinə öz töhfəsini* verdiyini bildirdi.

*Dost və qardaş ölkələrimiz arasında hərbi* quruculuq sa*həsində də möhkəm əlaqələr olduğunu nəzərə çatdıran dövləti-*

mizin başçısı İlham Əliyev Azərbaycanın ordu quruculuğunda Türkiyənin çox böyük rol oynadığını qeyd etdi.

Prezident İlham Əliyev bu səfərin həm ölkələrimiz arasında münasibətlərin, həm də hərbi əməkdaşlığın daha da möhkəmləndirilməsi işinə öz töhfəsini verəcəyinə əmin olduğunu bildirdi.

Dost və qardaş Azərbaycan ilə Türkiyə arasında bütün sahələrdə əlaqələrin daim inkişaf etdiyini məmnunluqla vurğulayan qonaq hərbi əməkdaşlıq sahəsində əlaqələrin də möhkəmləndiyini nəzərə çatdırdı.

Cənab Özdən Örnək Azərbaycanda son illər hərbi quruculuq sahəsində çox böyük işlər görüldüyünü vurğuladı, indiki səfəri zamanı Azərbaycan ordusunda, o cümlədən Hərbi Dəniz Qüvvələrində misli görünməmiş quruculuq işlərinin şahidi olduğunu söylədi.

Qonaq ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığın bundan sonra da daim inkişaf edəcəyinə əmin olduğunu bildirdi.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞA RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ

*30 mart 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev martın 30-da Polşa paytaxtına gəlmişdir.*

*Azərbaycan Respublikasının və Polşa Respublikasının dövlət bayraqları ilə bəzədilmiş «Okençe» hərbi hava limanında Azərbaycan prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Polşa Respublikası hökumətinin yüksək vəzifəli rəsmi şəxsləri təyyarənin pilləkəni yanında böyük hörmət və ehtiramla qarşıladılar. Prezidentin xanımına gül dəstəsi təqdim olundu.*

*Azərbaycan prezidenti fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Prezident İlham Əliyev Polşa Respublikasının dövlət və hökumət nümayəndələri ilə görüşdü.*

*Dövlətimizin başçısı hava limanından onun üçün ayrılmış «Belveder» iqamətgahına yola düşdü.*

## POLŞA PREZİDENTİNİN SARAYINDA RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Martın 30-da Polşa Respublikası prezidentinin sarayında Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur. Üzərində Azərbaycanın və Polşanın dövlət bayraqları dalğalanan sarayın qarşısında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı sarayın önündə Polşa Respublikasının prezidenti Aleksandr Kvasnevski və xanım İolanta Kvasnevska böyük hörmətlə və mehribanlıqla qarşıladılar.*

*Azərbaycanın və Polşanın dövlət himnləri səsləndi.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidentinə raport verdi.*

*Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Prezident İlham Əliyev əsgərləri salamladı.*

*Polşa prezidenti Aleksandr Kvasnevski ölkəsinin dövlət və hökumət rəsmilərini Azərbaycan prezidenti İlham Əliyevə, dövlətimizin başçısı ölkəmizin rəsmi nümayəndə heyətinin üzvlərini Polşa rəhbərinə təqdim etdi.*

*Sonra prezidentlər və onların xanımları xatirə şəkli çəkdirdilər.*

*Dövlət başçıları və xanımları xarici ölkələrin Polşada akkreditə olunmuş səfirliklərinin rəhbərləri və nümayəndələri ilə görüşdülər.*

* * *

*Martın 30-da Polşa prezidentinin sarayında Azərbaycan Respublikasının prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva ilə Polşa Respublikasının prezidenti Aleksandr Kvasnevski və xanımı İolanta Kvasnevska arasında qısa görüş oldu.*

## POLŞA PREZİDENTİ ALEKSANDR KVASNEVSKİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*30 mart 2005-ci il*

Rəsmi qarşılanma mərasimindən sonra Polşa prezidentinin sarayında Azərbaycan Respublikasının prezidenti İlham Əliyev ilə Polşa Respublikasının prezidenti Aleksandr Kvasnevski arasında təkbətək görüş keçirilmişdir.

Prezidentlər son illər davamlı inkişaf edən ikitərəfli siyasi, iqtisadi və digər sahələrdə olan əlaqələrin yüksək səviyyədə olduğunu qeyd etdilər. Azərbaycanın Avropa, Avratlantik strukturlarına inteqrasiyası məsələsində Polşanın ölkəmizə kömək etməyə hazır olduğu vurğulandı.

Bildirildi ki, ölkələrimiz arasında iqtisadi əlaqələrin daha sürətlə inkişafı üçün böyük perspektivlər mövcuddur.

Polşa prezidenti Bakıya rəsmi səfərini, habelə Azərbaycan prezidenti İlham Əliyevlə beynəlxalq tədbirlərdə görüşlərini məmnunluqla xatırlatdı. Polşanın Azərbaycanın möhkəm tərəfdaşı olduğu fikri də ifadə olundu.

* * *

Təkbətək görüş başa çatdıqdan sonra Polşa Respublikası prezidentinin sarayında Azərbaycan prezidenti İlham Əliyevin və Polşa prezidenti Aleksandr Kvasnevskinin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur. Prezident Kvasnevski Azərbaycan prezidenti İlham Əliyevin Polşaya rəsmi səfərini yüksək qiymətləndirdi və bunun ikitərəfli əlaqələrin möhkəmlənməsində yeni mərhələ olduğunu qeyd etdi. O, Bakıya səfərini də məmnunluqla xatırlatdı, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, Avropaya inteqrasiya,

*NATO ilə uğurlu əməkdaşlıq siyasətinin, iqtisadi sahədəki nailiyyətlərin əhəmiyyətini vurğuladı. Polşa prezidenti qarşılıqlı ticarət dövriyyəsinin artırılması perspektivlərinin və hərbi sahədə əməkdaşlığın çox mühüm olduğunu da qeyd etdi.*

*Azərbaycan prezidenti İlham Əliyev ölkəmizin NATO-ya, Avropa strukturlarına inteqrasiyası sahəsində Polşanın köməyini yüksək dəyərləndirdi və bu köməyin bundan sonra da davam edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Dövlət başçıları beynəlxalq təşkilatlarda əməkdaşlığın daha da gücləndirilməsinin zəruriliyini vurğuladılar.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, regional əməkdaşlıq, beynəlxalq və digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparıldı.*

## Azərbaycan–Polşa sənədlərinin imzalanması

*Martın 30-da geniş tərkibdə görüşdən sonra Polşa prezidentinin sarayında dövlət başçılarının iştirakı ilə Azərbaycan–Polşa sənədlərinin imzalanma mərasimi olmuşdur. «Azərbaycan Respublikası hökuməti və Polşa Republikası hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında saziş», Azərbaycan Respublikası hökuməti ilə Polşa Respublikası hökuməti arasında «Gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında saziş», Polşa Respublikası hökuməti ilə Azərbaycan Respublikası hökuməti arasında «İqtisadi əməkdaşlıq haqqında saziş» imzaladılar.*

*Sonra Polşa Respublikasının Müdafiə naziri Yeji Şmaydzinski Azərbaycanın Müdafiə naziri Səfər Əbiyevə 1920–1938-ci illərdə Azərbaycan zabitlərinin Polşa ordusunda iştirakını təsdiqləyən arxiv materiallarını təqdim etdi.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA AZƏRBAYCAN VƏ POLŞA PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI

*30 mart 2005-ci il*

### Polşa prezidenti Aleksandr Kvasnevskinin bəyanatı

Cənab Prezident!

Xanımlar və cənablar!

Polşaya rəsmi səfərə gəlmiş Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevi salamlayıram. Son illərdə əlaqələrimiz xeyli inkişaf etmişdir. 1999-cu ildə mən Azərbaycanda rəsmi səfərdə olmuşam. Daha sonra cənab İlham Əliyev ümumdünya iqtisadi forumunda iştirak etmək üçün Polşaya gəlmişdir. O, iki aydan sonra burada keçiriləcək Avropa Şurasının zirvə görüşündə də iştirak edəcəkdir. Bizim digər tədbirlər çərçivəsində də görüşlərimiz olmuşdur. Beləliklə, deyə bilərik ki, prezidentlər və hökumətlər səviyyəsində əlaqələrimiz çox yüksəkdir.

Polşa Azərbaycandakı dəyişiklikləri – ölkənin demokratikləşməsini, iqtisadi inkişafı və biz polyaklar üçün böyük əhəmiyyət kəsb edən NATO, Avropa Birliyi kimi təşkilatlarla əməkdaşlığı yüksək qiymətləndirir. Azərbaycanın NATO və Avropa Birliyi ilə bu çərçivədəki əməkdaşlığını tam dəstəklədiyimizi bəyan edir və bu əməkdaşlığın inkişaf etdirilməsinin həm Azərbaycan, həm də Avropa Birliyi üçün faydalı olması məqsədilə təcrübəmizi bölüşməyə hazır olduğumuzu bildiririk. Polşa Azərbaycanın Avropa Birliyinə təqdim etdiyi böyük layihələrə, xüsusən də qaz və neft ilə bağlı məsələlərə maraq göstərir. Xə-

zər dənizindən çıxarılan neftin Azərbaycan, Gürcüstan vasitəsilə Avropaya nəqli ilə bağlı layihələr həyata keçirilməkdədir. Bu layihələrə bizim üçün çox əhəmiyyətli sayılan Odessa–Brodı–Qdansk boru kəmərinin də qoşulması məsələsi müzakirə mərhələsindədir. Mənim fikrimcə, hazırda bu layihə Avropada mövcud olan ən mühüm iqtisadi layihələrdən biridir.

Həmçinin sizə məlumat vermək istəyirəm ki, bu gün imzalanmış sazişlər ölkələrimiz arasında iqtisadi əməkdaşlığın inkişafına, gömrük məsələlərinin tənzimlənməsinə zəmanət verir. Kiçik və orta müəssisələrin əməkdaşlığına gəldikdə, kənd təsərrüfatı və əmək bazarına dair sazişlər imzalanmışdır. Bildirmək istəyirəm ki, biz müdafiə sahəsində əməkdaşlıq haqqında da saziş imzaladıq.

Bu ilin iyun ayında Polşa Respublikasının Müdafiə naziri Yeji Şmaydzinski Azərbaycana səfər edəcəkdir. Siz iki dünya müharibəsi arasında olan müddət ərzində Polşa Respublikasının ordusunda azərbaycanlı zabitlərin xidmətini təsdiq edən və polyak arxivlərində saxlanılan sənədlərin dostluq əlaməti olaraq təqdim edilməsinin şahidi oldunuz. Ümidvarıq ki, bu, tarix elmi sahəsində əməkdaşlığa da öz töhfəsini verəcəkdir. Məlumdur ki, Yanvar üsyanından sonra bir çox polyak Azərbaycan ərazisində məskunlaşmışdır. Bu sənədlər tarix institutları arasında maraqlı əməkdaşlıq üçün zəmin yaradır.

Biz prezident İlham Əliyevlə regional vəziyyət haqqında fikir mübadiləsi apardıq, Qafqazdakı hadisələri, Azərbaycan üçün çox mühüm olan Dağlıq Qarabağ məsələsini, Ukraynada baş vermiş dəyişiklikləri və Qırğızıstandakı son hadisələri müzakirə etdik. Polşa–Azərbaycan əməkdaşlığının iki konkret elementi bizi sevindirir. Keçən il Polşada Azərbaycan Respublikasının səfirliyi açılmışdır. Bu, sadəcə səfirliyin açılması deyil, Azərbaycanın diplomatik nümayəndəliyinə ölkənin fəal siyasi xadimi, keçmiş Xarici İşlər naziri, fəaliyyətini yüksək dəyərləndirdiyimiz Vilayət Quliyev rəhbərlik edir. Digər tərəfdən, biz çox məmnunuq ki, Azərbaycan tərəfi bizim ATƏT-dəki nümayəndəmiz, hazırkı sədrin şəxsi nümayəndəsi, səfir Kaspşikin fəaliyyətini çox yüksək

qiymətləndirir. Sizə söylədiklərim apardığımız danışıqların qısa məzmunudur. Cənab Prezident, Sizi bir daha salamlayıram.

Onu da əlavə etmək istəyirəm ki, biz İraqdakı vəziyyəti də müzakirə etdik. Hərbi sahədəki birgə işimizə nəzər salsaq, deyə bilərəm ki, azərbaycanlı və polyak əsgərləri üç yerdə – İraqda, Əfqanıstanda və Kosovoda birlikdə xidmət edirlər. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan əsgərləri İraqda xidmətlərini davam etdirəcəklər və biz koalisiya qoşunları sıralarında birgə fəaliyyətimizi lazımi qaydada davam etdirəcəyik.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Cənab Prezident, ən əvvəl məni gözəl ölkənizə səfərə dəvət etdiyinizə görə təşəkkürümü bildirirəm. Bütün sahələrdə olan ikitərəfli əlaqələrimizin səviyyəsindən çox razıyam. Bizim çox yaxşı siyasi əlaqələrimiz var və mütəmadi olaraq siyasi dialoq aparırıq. Hazırda Polşa və Azərbaycan siyasi xətt baxımından bir yerdədir. Cənab prezidentin qeyd etdiyi kimi, biz ikitərəfli əlaqələrə dair bir sıra məsələləri, habelə regional inkişaf məsələlərini və mühüm beynəlxalq hadisələri müzakirə etdik.

Azərbaycan Avratlantik təsisatlara inteqrasiya siyasətinə qəti surətdə sadiqdir. Bu siyasət 10 ildən artıqdır həyata keçirilir və yaxşı nəticələr verir. Bu amil xarici siyasətimizdə prioritet xarakter daşıyır. Avropa Birliyi və NATO ilə inteqrasiya sahəsində Polşanın bizə dəstəyinin davam etdirilməsini də müzakirə etdik. Azərbaycan bu təşkilatlarla çox fəal işləyir. Ölkəmiz Avropa Birliyinin "Yeni qonşuluq siyasəti"nə daxil edilib və NATO-nun fərdi əməkdaşlıq proqramı çərçivəsində bu təşkilatla sıx əməkdaşlıq edir. Polşa, Azərbaycan hərbçiləri dünyanın bir sıra yerində çiyin-çiyinə xidmət edir – Kosovoda, Əfqanıstanda, İraqda sülhün və sabitliyin qorunması işinə yardım göstərirlər. Bu amil bizi birləşdirən mühüm elementlərdən biridir. Ümumi iqtisadi inkişaf üçün çox yaxşı perspektivlərimiz var. Prezidentlə görüşümüz zamanı gələcək iqtisadi inkişaf məsələsi də

müzakirə olundu. Dövlətlərimizin iqtisadi potensialı artmaqdadır, ölkələrimiz iqtisadi islahatların uğurla həyata keçirilməsi tarixinə malikdir. Hesab edirəm ki, iqtisadi potensialımız artdıqca Azərbaycan ikitərəfli ticarət-iqtisadi əlaqələrdə daha fəal rol oynayacaqdır. Bizim iqtisadiyyatımız bazar iqtisadiyyatı prinsiplərinə əsaslanır, sərbəst iqtisadiyyatdır. Azərbaycan bazar iqtisadiyyatının imkanlarından bəhrələnir. Totalitar kommunist rejimindən azad bazar iqtisadiyyatı sisteminə keçid asan olmamışdır. Ancaq düşünürəm ki, biz bu dövrü lazımınca keçə bildik. Azərbaycan iqtisadiyyatındakı artım bu il təxminən 12–14 faiz olacaq və bu onu göstərir ki, bizim seçimimiz düzgün olmuşdur.

Biz regional təhlükəsizliyə və əməkdaşlığa dair məsələlər haqqında da danışdıq. Azərbaycan zəngin təbii sərvətlərə, səmərəli nəqliyyat infrastrukturuna və strateji mövqeyə malik bir ölkə olaraq Cənubi Qafqazda çox mühüm rol oynayır. Bütün bu amillər siyasi və iqtisadi inkişafımız üçün geniş imkanlar yaradır. Şübhə etmirəm ki, enerji və nəqliyyat layihələrinin, Şərq–Qərb dəhlizi layihəsinin uğurla həyata keçirilməsi ölkəmizin inkişafına kömək edəcək, regiondakı dost ölkələr üçün faydalı olacaqdır.

Bizim regionun sabitliyə, sülhə və təhlükəsizliyə ehtiyacı var. Buradakı sülhə təhlükə yaradan amil Ermənistanla Azərbaycan arasında olan münaqişədir. Görüşümüz zamanı bu məsələ də müzakirə olundu. Cənab prezidentə Ermənistanla danışıqların hazırkı vəziyyəti və münaqişənin mümkün həlli yolları barədə məlumat verdim. Azərbaycan bu münaqişənin beynəlxalq hüquq normaları və prinsipləri əsasında həllinə tam sadiqdir. Hesab edirik ki, hər bir mübahisə fərdi arzular, istəklər və yaxud xülyalar əsasında deyil, yalnız və yalnız beynəlxalq hüquq çərçivəsində həll olunmalıdır. Bugünkü beynəlxalq hüquq normalarına uyğun olaraq isə, hər bir ölkənin ərazi bütövlüyü qorunmalıdır. Məhz buna görə də təcavüzə məruz qalmış, suverenliyi və ərazi bütövlüyü pozulmuş Azərbaycanın öz ərazi bütövlüyünün bərpa olunmasına yönəlmiş səyləri haqq işidir. Etnik təmizləmə siyasəti nəticəsində qaçqın və məcburi köçkün vəziy-

yətinə düşmüş bir milyon azərbaycanlı isə öz doğma yerlərinə qayıtmalıdır. Ümidvarıq ki, danışıqların bu raundu münaqişənin sülh yolu ilə həlli üçün yeni imkanlar yaradacaqdır. Çünki Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli Cənubi Qafqazdakı bütün ölkələr üçün Avropaya inteqrasiya sahəsində yeni imkanlar açacaqdır. Təəssüf ki, bu gün bizim belə həmrəyliyimiz mövcud deyil və buna olan əsas maneə münaqişədir.

Əminəm ki, gələcəkdə Polşa beynəlxalq təşkilatlarda, ATƏT və BMT-də daha mühüm rol oynayacaq və Ermənistan–Azərbaycan münaqişəsinin dinc yolla həll olunmasına kömək edəcəkdir.

Bu gözəl ölkəyə gəlməyimiz üçün imkan yaratdığınıza görə Sizə bir daha təşəkkür edirəm. Polşada dəfələrlə olmuşam, cənab prezidentlə bir-birimizi uzun illərdir tanıyırıq. Bildiyiniz kimi, polyakların Azərbaycanda dərin tarixi var, bir çox gözəl binalar, saraylar, yaraşıqlı memarlıq əsərləri məhz polyaklar tərəfindən yaradılmışdır. Onların xatirəsi qəlbimizdə daim yaşayacaqdır. Düşünürəm ki, bizim ikitərəfli əlaqələrimizin yeni mərhələsi gələcək uğurlu əməkdaşlıq üçün geniş imkanlar yaradır.

Qonaqpərvərliyinizə görə Sizə bir daha təşəkkürümü bildirir, polyak xalqına və Polşa hökumətinə əmin-amanlıq və uğurlar arzu edirəm. Çox sağ olun.

* * *

**S u a l: Mənim iki sualım olacaq. Oktyabr inqilabından əvvəl polyaklara mənsub olmuş neft yataqları məsələsini müzakirə etdinizmi? Onların qaytarılması planları haqqında söhbət oldumu? İkinci sualım isə demokratikləşmə ilə bağlıdır. Siz Azərbaycandakı demokratik proseslərə dəstək verirsinizmi?**

**A l e k s a n d r  K v a s n e v s k i:** Polşaya vaxtilə mənsub olmuş neft yataqlarına gəldikdə, biz bu haqda danışmadıq. Əgər hər hansı bir nazirlikdə bu cür məlumat mövcuddursa, düşünürəm ki, onlar Azərbaycanda bu məsələnin araşdırılması ilə bağlı öz tərəfdaşlarını tapacaqlar. Mən belə xarakterli məlumat alma-

mışam. İkinci sualınıza gəldikdə isə onu deyə bilərəm ki, Polşa demokratiyanın qurulmasına və demokratik standartların inkişaf etdirilməsinə yönəlmiş hər bir addımı dəstəkləyən ölkədir. Bu o deməkdir ki, hər bir ölkə vətəndaş cəmiyyətini xarakterizə edən təsisatları qurduqda, kütləvi informasiya vasitələrinin azadlığının, məhkəmə sisteminin müstəqilliyinin təmin edilməsi sahəsində bizim yardımımıza arxalana bilər. Bu bizim son illər ərzində artıq müəyyənləşmiş mövqeyimizdir və dəyişməz olaraq qalır.

**S u a l: Azərbaycanın xam neftinin Polşa ərazisi vasitəsilə nəql olunması məsələsinə dair aparılan danışıqların vəziyyəti nə yerdədir? Bu məsələ ilə bağlı Siz Azərbaycana etdiyiniz səfərdən etibarən öz siyasi iradənizi dəfələrlə ifadə etmisiniz. İkinci sualım Polşadakı daxili proseslərə aiddir. Mənsub olduğunuz partiya üzvləri Seymin deputatlarının mandatının qısaldılması ilə bağlı məsələni birmənalı şəkildə rədd edirlər. Sizin bu məsələyə dair mövqeyiniz?**

**A l e k s a n d r  K v a s n e v s k i:** Birinci sualınıza cavab olaraq onu deyə bilərəm ki, hazırda mövcud olan neft və qaz kəmərləri ilə enerji daşıyıcıları nəql edilir. Lakin ixrac boru kəmərinin çəkilməsi ilə əlaqədar yaxşı olardı ki, sualınıza prezident İlham Əliyev cavab versin. Çünki layihənin maliyyə və texniki tərəfləri barədə məlumat Azərbaycan tərəfindədir.

**İ l h a m  Ə l i y e v:** Azərbaycanın öz enerji ehtiyatlarının işlənilməsi ilə bağlı strategiyası neft və qazın nəql edilməsi yollarının müxtəlif istiqamətdə olması prinsipinə arxalanır. Hazırda Azərbaycanın Xəzər hövzəsindəki neft və qaz yataqları qarşıdakı 3-4 il ərzində böyük həcmdə neft və qaz hasilatı imkanlarının olmasını söyləməyə əsas verir.

Gələn 3 və ya 4 il ərzində Azərbaycan ixrac etdiyi neftin həcmini 3 dəfə artıracaqdır. Lakin bu məqsədə nail olmaq üçün bizim nəqletmə infrastrukturuna ehtiyacımız var. Bu gün neftimizi Qara dəniz limanları vasitəsilə dünya bazarlarına çıxaran iki boru kəmərimiz var. Hazırda Aralıq dənizinə çıxışı təmin edən üçüncü boru kəmərinin tikintisi başa çatmaqdadır. Bu kə-

mər hasilatın daha da artırılması üçün yeni imkanlar yaradacaqdır. Gələcəkdə enerji daşıyıcılarının nəqli sahəsində Avropadakı infrastrukturdan, xüsusən də Polşanın infrastrukturundan istifadə olunması imkanı müzakirə mərhələsindədir. Azərbaycan Odessa–Brodı–Qdansk boru kəmərinin çəkilməsinə hər zaman siyasi dəstək vermişdir. Biz bu məsələyə həmişə müsbət baxmışıq, sadəcə, müəyyən ölkələrin mövqeləri daim dəyişirdi. Bəzən mövqelər o qədər də açıq ifadə olunmurdu. Lakin əgər bu gün Odessa–Brodı–Qdansk istiqaməti birmənalı olaraq müəyyən edilibsə, Azərbaycan bu layihəyə öz töhfəsini verə bilər. Təbii ki, bizim bu işə verdiyimiz siyasi dəstəklə yanaşı, layihənin iqtisadi və ticari tərəfi də nəzərə alınmalıdır. Əminəm ki, bu layihə iqtisadi baxımdan faydalı olacaq və biz bu sahədə birgə işləyə biləcəyik.

**Aleksandr Kvasnevski:** Bildiyiniz kimi, bu məsələ ilə bağlı danışıqlar davam edir. Mən bu məqsədlə prezident Yuşşenko ilə əlaqə saxlayıram. Baş nazir Belka ukraynalı həmkarı xanım Timoşenko ilə müzakirələr aparır. Bütün bu danışıqlar Odessa–Brodı–Qdansk boru kəmərinin reallaşdırılmasının sürətləndirilməsinə yönəlibdir. Çünki prezident İlham Əliyevin qeyd etdiyi kimi, Ukrayna da bu layihənin həyata keçirilməsində maraqlı olan tərəfdir. Hesab edirik ki, biz bu məqsədlə beynəlxalq maliyyə vəsaitlərini, xüsusən də Avropa Birliyinin fondlarını cəlb edə bilərik. Son həftə və günlər ərzində bu istiqamətdə apardığımız danışıqlar çox fəal olmuşdur. Bu yaxınlarda prezident Yuşşenko spesifik məsələlərin müzakirəsi məqsədilə region ölkələrinə səfər edəcəkdir.

Ölkəmizdə gedən daxili proseslərə gəldikdə isə, xanımlar və cənablar, bu məsələ ilə bağlı dəfələrlə bəyan etmişəm ki, deputatların mandatının müddəti ilə bağlı parlament mayın 5-də qərar qəbul etməlidir. Mən səsvermənin nəticələrini bu başdan sizə deyə bilmərəm. O ki qaldı parlament seçkilərinə, əgər dəyişikliklər haqqında qərar qəbul olunarsa, seçkilər iyunun 19-da keçiriləcəkdir. Qərar müsbət olmasa, parlament buraxılmayacaq və seçkilər, həmişəki kimi, sentyabrın 25-də keçiriləcəkdir. Bir

sözlə, bu məsələ ilə bağlı əlavə bir şey demək mümkün deyildir. Əgər əlavə bir şey deyilsə, məsələ daha da çətinləşəcək və beləliklə, bizim vətəndaşlar bunu anlamayacaqlar. Heç bir şübhə yoxdur ki, ümumi seçkilər bu il keçiriləcəkdir. Yəni bu seçkilər Konstitusiyaya uyğun olaraq 4 ildən sonra və yaxud islahat olarsa, daha tez keçirilə bilər.

**S u a l: Azərbaycan Avropa təsisatlarına fəal şəkildə inteqrasiya olunmaqdadır. Bu gün iki ölkə arasında bir sıra sənədlər imzalandı. Həmin sazişlər ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsinə təkan verəcəkdir.**

**Bildiyiniz kimi, Ermənistan Azərbaycan ərazisinin 20 faizini işğal edibdir. Gələn aylar ərzində ermənilər qondarma Dağlıq Qarabağ respublikasında parlament seçkiləri keçirilməsini planlaşdırırlar. Bununla bağlı Sizin rəsmi rəyiniz necədir?**

**A l e k s a n d r K v a s n e v s k i:** Biz münaqişənin dinc yolla, düzgün və məqbul həll variantını dəstəkləyirik. Məsələ ilə bağlı biz ATƏT çərçivəsində aktiv fəaliyyət göstəririk. Səfir Kaspşik də lazımi səylər göstərir. Biz hər iki ölkənin – Azərbaycan və Ermənistanın xarici işlər nazirlərini danışıqlar üçün Varşavaya dəvət edirik.

Polşa tərəfi prezident Əliyev və prezident Köçəryan arasında görüş keçirilməsi məqsədilə onları ölkəmizə dəvət edir. Onlar burada görüşə bilərlər. Təbii ki, biz bu münaqişənin sülh yolu ilə aradan qaldırılması məqsədilə istənilən variantı dəstəkləməyə hazırıq. Məsələnin detalları haqqında danışmaq bizim üçün çətindir və münaqişədə olan hər hansı bir ölkənin tərəfində ola bilmərik. Biz məsələnin həlli yollarını asanlaşdıra bilərik, lakin biz müzakirələrin bir tərəfi ola bilmərik. Mənim mövqeyim ondan ibarətdir ki, bu məsələ beynəlxalq hüquq normaları əsasında həll olunmalıdır. Azərbaycanın Dağlıq Qarabağa ən yüksək muxtariyyət statusunun verilməsi ilə bağlı təklifi baxılmaq üçün çox ciddi təklifdir. Vacibdir ki, bu təklif müzakirə olunsun. Mən Polşa adından bəyan edirəm ki, biz prosesi asanlaşdıra bilərik, ona yardım edə bilərik. Lakin qərar Ermənistan və Azərbaycan

tərəfindən qəbul edilməlidir. Müzakirələr davam etdirilməlidir ki, məsələnin həlli mümkün olsun.

**S u a l: Mənim sualım hər iki prezidentədir. İki ölkə arasında Avropa Birliyi və NATO ilə əməkdaşlıq sahəsində birgə iş haqqında nə deyə bilərsiniz?**

**A l e k s a n d r K v a s n e v s k i:** Azərbaycan və Polşa arasındakı əməkdaşlığı nəzərdə tutursunuz?

**J u r n a l i s t: Bəli.**

**A l e k s a n d r K v a s n e v s k i:** Bu məsələni biz prezident İlham Əliyev ilə müzakirə etdik. Əminəm ki, biz bir yerdə çalışacağıq və çox sıx əməkdaşlıq edəcəyik. Avropa Birliyinin və NATO-nun üzvü kimi, Polşa sizin ölkənizlə öz təcrübəsini bölüşə bilər. Siyasi baxımdan biz Azərbaycan ilə Avropa Birliyi arasındakı sıx əməkdaşlığı "Yeni qonşuluq siyasəti" proqramı çərçivəsində dəstəkləyəcəyik. Bu sözlər eynilə NATO-ya da aiddir. Biz Azərbaycanın bu iki təşkilatla daha sıx əlaqədə olmasında maraqlıyıq. Polşa Azərbaycanın Dünya Ticarət Təşkilatına üzv olmasını da dəstəkləyir. Təbii ki, Azərbaycan bu təşkilatda öz yerini tutmalıdır. Bu, diplomatik danışıqların bir mövzusudur.

**İ l h a m Ə l i y e v:** Mən onu da əlavə etmək istəyirəm, bu məsələləri biz bugünkü görüşümüz zamanı müzakirə etdik. Biz bu baxımdan Azərbaycan ilə sıx əməkdaşlıq edən Polşa prezidenti və hökumətinin tutduğu mövqedən çox razıyıq. Avratlantik strukturlarına inteqrasiya yolunda Polşa tərəfinin Azərbaycana verdiyi dəstəyin davam etdirilməsini xahiş etdik. Polşa bu istiqamətdə böyük nailiyyətlər əldə etmişdir və mən Polşanın NATO və Avropa Birliyinə üzv qəbul olunması münasibətilə prezident Kvasnevskini təbrik etdim. Hazırda Polşa nəinki regionda, həm də dünyada aparıcı dövlətlərdən biridir. Azərbaycanın beynəlxalq strukturlara tam inteqrasiya olunmaq fikri birmənalı olaraq qətidir. Biz bu siyasətə çox sadiqik və Polşa bizim üçün dost ölkədir. Bu ölkə inteqrasiya proqramını uğurla başa çatdırıb və onun təcrübəsi bizim üçün çox faydalı ola bilər. Bizi daim dəstəklədiyinə görə cənab prezidentə minnətdarlığımı

bildirirəm. Biz gələcək əməkdaşlıq yollarını birgə müəyyən etdik. Hesab edirəm ki, səfərim çərçivəsində bütün bu məsələlər daha təfərrüatlı şəkildə müvafiq nazirliklər səviyyəsində müzakirə olunacaqdır.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞA RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ

### Polşa Seymində görüş

*30 mart 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Polşanın ali qanunvericilik orqanının aşağı palatasına – Seymə gəlmişdir.*

*Dövlətimizin başçısını binanın önündə Seymin Administrasiyası rəhbərinin müavini Lek Çapla və digər şəxslər səmimiyyətlə qarşıladılar.*

*Azərbaycan prezidenti İlham Əliyevin Polşa Seyminin vitse-marşalı Tomas Nalenç ilə görüşü oldu.*

*Dövlətimizin başçısı İlham Əliyev ilə görüşməkdən şərəf duyduğunu bildirən cənab Tomas Nalenç dedi ki, cənab Prezident, Sizin kimi fəxri qonaqları Polşa Seymində görmək böyük hadisədir. Polşada ən məşhur dərsliklərdən biri məhz Bakı haqqında məlumatla açılır. Ölkələrimizi həm qədim, həm də müasir tarix birləşdirir. Azərbaycan yenidən müstəqillik əldə etdikdən sonra Polşa–Azərbaycan əlaqələri daha yüksək səviyyəyə qalxmışdır. Əminik ki, Sizin səfəriniz ikitərəfli əlaqələrimizin inkişafında yeni mərhələ olacaqdır.*

*Prezident İlham Əliyev Azərbaycan–Polşa əlaqələrinin inkişafından danışdı və bildirdi ki, bu baxımdan parlamentlərarası münasibətlər də böyük əhəmiyyət daşıyır. Ümidvaram ki, Polşa və Azərbaycan parlamentləri arasında əlaqələr bundan sonra da uğurla inkişaf edəcəkdir.*

*Dövlətimizin başçısı beynəlxalq təşkilatlar çərçivəsində əlaqələri, xüsusilə Avropa Şurasında Azərbaycanın və Polşanın*

*nümayəndə heyətləri arasında sıx əməkdaşlığı yüksək qiymətləndirdi.*

*Polşa parlamentinin nümayəndələri Azərbaycanda sosial-iqtisadi sahədə qazanılan uğurların burada maraqla izlənildiyini, Avropa Birliyi və NATO-ya inteqrasiya sahəsində Azərbaycana kömək göstərməyə hazır olduqlarını bildirdilər. Onlar Azərbaycandakı polyak icması üçün yaradılmış şəraiti də yüksək dəyərləndirdilər.*

## Sərgi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev Seymdə görüşdən sonra Polşa parlamentinin yuxarı palatasına – Senata gəlmiş, burada təşkil olunmuş «Polyak memarları Bakıda» sərgisi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verilərək bildirildi ki, sərgi Bakı şəhərinin memarı, XX əsrin sonunda ölkəmizin paytaxtına sürgün olunmuş İosif Qoslavskinin vəfatının 100 illiyinə həsr olunmuşdur. Burada Polşanın Bakıdakı səfirliyi tərəfindən «Polyak memarları XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanda» fotomüsabiqəsi qaliblərinin işləri nümayiş etdirilib. Onların arasında İosif Qoslavskinin, İosif Ploşkonun, Kazimir Skoreliçin və digər polyak memarlarının layihələri əsasında Bakıda tikilmiş binaların fotoları da var.*

## Naməlum əsgərin məzarını ziyarət

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Polşa Respublikasına rəsmi səfəri çərçivəsində martın 30-da Varşavanın Pilsudski meydanında naməlum əsgərin məzarını ziyarət etmişdir.*

*Azərbaycanın və Polşanın dövlət himnləri səsləndi.*

*Dövlətimizin başçısı İlham Əliyev Polşanın bütün tarixi ərzində öz azadlığı uğrunda apardığı mübarizələr zamanı verdiyi*

*qurbanların xatirəsini ehtiramla yad etdi, onların şərəfinə ucaldılmış abidənin önünə əklil qoydu.*

*Sonra dövlətimizin başçısına abidə kompleksi haqqında məlumat verildi. Bildirildi ki, təkcə İkinci dünya müharibəsi illərində Polşa 6 milyon nəfərədək itki vermişdir. Həmin müharibəyə qədər bu kompleksin yerləşdiyi ərazidə öz gözəlliyi və əzəməti ilə seçilən Saksoniya sarayı olmuşdur. Hitlerçilər bu sarayı dağıtdıqdan sonra qərara alınmışdır ki, o, bərpa olunmasın və qalıqlarının yerində vətənin azadlığı uğrunda həlak olmuş övladların xatirəsinə ehtiramın simvolu kimi, abidə kompleksi yaradılsın.*

## Polşanın Nazirlər Şurasının sədri ilə görüş

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev martın 30-da Polşa Respublikasının Nazirlər Şurasının binasına gəlmişdir.*

*Dövlətimizin başçısı İlham Əliyevi Polşanın Nazirlər Şurasının sədri Marek Belka böyük hörmət və ehtiramla qarşıladı.*

*Sonra Polşa Respublikasının Nazirlər Şurasının sədri Marek Belkanın adından Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin şərəfinə işgüzar nahar verildi. Nahar süfrəsi ətrafında səmimilik şəraitində keçən söhbət zamanı iqtisadi əməkdaşlığın perspektivləri, regional əməkdaşlıq, enerji layihələri və beynəlxalq məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.*

## Polşa Senatının vitse-marşalı xanım İolanta Danelyak ilə görüş

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev martın 30-da Polşa Senatının vitse-marşalı xanım İolanta Danelyak ilə görüşmüşdür.*

*Dövlətimizin başçısını səmimiyyətlə salamlayan İolanta Danelyak bildirdi ki, Azərbaycan prezidentinin səfəri münasibətilə Senat Polşanın Bakıdakı səfirliyi ilə birlikdə xoş bir*

*sürpriz – sərgi hazırlanmışdır. Xanım Danelyak dedi ki, Azər-baycanla Polşa arasında əlaqələrin inkişafı hamımızı məmnun edir və bu istiqamətdə Senat da gələcəkdə öz səylərini əsirgə-məyəcəkdir.*

*Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan ilə Polşa arasında ümumi oxşar cəhətlər çoxdur və hazırda bizim iqtisadi, siyasi, digər sahələrdə əlaqələrimiz vardır.*

*Senatda tanış olduğu sərginin onda xoş əhval-ruhiyyə yaratdığını diqqətə çatdıran dövlətimizin başçısı dedi ki, bu sərgi Azərbaycan və Polşa xalqlarının nə dərəcədə yaxın olduğunu göstərir və bu əlaqələrin müasir dövrdə çox gözəl perspektivləri vardır.*

*Azərbaycan prezidenti İlham Əliyev Senatın Fəxri qonaqlar kitabını imzaladı.*

## Varşavanın tarixi yerləri ilə tanışlıq

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Varşavanın tarixi yerləri ilə tanış olmuş, Polşa paytaxtının «Köhnə şəhər» adlanan hissəsinə – Stare Myastoya baxmışlar. Şəhərin bu hissəsi Visla çayının sol sahilində yerləşir və Bakının İçərişəhəri kimi, qala divarları ilə əhatələnmişdir.*

*Varşava şəhərinin meri Lex Koçinski prezident İlham Əliyevə tarixi memarlıq abidələri barədə ətraflı məlumat verdi. Bildirildi ki, İkinci dünya müharibəsindən sonra şəhərin memarlıq əhəmiyyətli binalarının hamısı əvvəlki görkəmində bərpa olunmuşdur.*

*Dövlətimizin başçısı Varşava Üsyanı Muzeyinin həyətində İkinci dünya müharibəsi zamanı Varşava Müqavimət hərə-katının tərkibində döyüşmüş və həlak olmuş azərbaycanlı za-bitlərin xatirə lövhəsinin açılışı mərasimində iştirak etdi.*

*Lex Koçinski mərasimi açaraq, Azərbaycan prezidentini Polşanın paytaxtında görməsindən şərəf duyduqlarını söylədi,*

*bu xatirə lövhəsinin açılışını Azərbaycan və Polşa xalqları arasında dostluğun* daha *bir əlaməti kimi səciyyələndirdi.*

*Prezident İlham Əliyev mərasimdə* nitq *söyləyərək* bildirdi *ki, İkinci dünya müharibəsində azərbaycanlılar digər* xalqlarla *birlikdə faşizmə qarşı mübarizəyə qoşulmuş,* bu *müharibədə* 600 min *azərbaycanlı döyüşmüş və* onların *yarısı qəhrəman-casına həlak olmuşdur.*

*Dövlətimizin başçısı Polşaya rəsmi səfərinin* tarixi *ənənələri* olan *Azərbaycan–Polşa əlaqələrinin inkişafına güclü təkan verəcəyinə ümidvar olduğunu söylədi.*

*Azərbaycan* prezidenti *İlham Əliyev xatirə lövhəsinin üzərindən ağ örtüyü götürdü.*

Sonra *dövlətimizin başçısı Varşava Üsyanı Muzeyi ilə yaxından tanış* oldu.

## İKİNCİ DÜNYA MÜHARİBƏSİ ZAMANI VARŞAVA ÜSYANINDA İŞTİRAK ETMİŞ VƏ HƏLAK OLMUŞ AZƏRBAYCANLI ZABİTLƏRİN XATİRƏ LÖVHƏSİNİN AÇILIŞ MƏRASİMİNDƏ* ÇIXIŞ

*Varşava Üsyanı Muzeyi*

*30 mart 2005-ci il*

Hörmətli cənab mer!

Hörmətli xanımlar və cənablar!

Bu gün çox əlamətdar bir gündür. Burada, Varşava Üsyanı Muzeyinin həyətində Azərbaycan vətəndaşlarının xatirəsinə həsr edilmiş bir lövhə açılır. Çox şadam ki, bu gözəl mərasimdə mən də iştirak edirəm.

İkinci dünya müharibəsində Azərbaycandan 600 min insan iştirak edibdir. Onlardan 300 mini həlak olmuşdur. O cümlədən Polşanın azadlığı uğrunda döyüşlərdə də azərbaycanlılar həlak olmuşlar. Bir neçə aydan sonra biz İkinci dünya müharibəsinin başa çatmasının və ümumi qələbəmizin ildönümünü qeyd edəcəyik. Bu qələbə bizim hamımızın qələbəsidir.

Bu gün Azərbaycan bütün müstəqil ölkələr kimi, öz taleyini, öz müqəddəratını özü müəyyən edir. Müstəqillik hər bir xalq, hər bir millət üçün ən böyük sərvətdir, ən böyük nemətdir.

İndi ölkələrimiz arasında olan əlaqələr ən yüksək səviyyəyə çatıbdır və mənim Polşaya rəsmi səfərim bu istiqamətdə atılmış çox mühüm bir addımdır. Mən əminəm ki, bu səfərdən sonra iki

---

* Mərasimdə Varşavanın meri Lex Koçinski də çıxış etmişdir.

ölkə arasında əlaqələr daha da inkişaf edəcək, bizim xalqlarımız bir-biri ilə daha sıx əməkdaşlıq edəcəklər.

Bizim xalqlarımızı eyni zamanda müştərək tarix də birləşdirir. İkinci dünya müharibəsindəki qələbə dünyanın bir çox xalqlarına azadlıq, müstəqillik bəxş etdi. Ancaq bizim müstəqilliyimiz, həqiqi mənada azadlığımız yalnız 1990-cı illərdən baş vermişdir. Polşa və Azərbaycan müstəqil ölkələr kimi, bu dövr ərzində böyük uğurlar əldə etmiş, böyük qələbələr qazanmışlar.

Mən əminəm ki, bundan sonra da Polşa və Azərbaycan dostluq, mehribanlıq münasibətlərini möhkəmləndirəcək və ölkələrimiz daha da sıx əməkdaşlıq edəcəkdir.

Mən hörmətli cənab merə bu lövhənin açılması ilə əlaqədar öz dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm.

* * *

*Sonra Azərbaycan prezidenti İlham Əliyev və Varşava şəhərinin meri Lex Koçinski xatirə lövhəsinin üzərindəki ağ örtüyü götürdülər.*

*Azərbaycan prezidenti İlham Əliyev Varşava üsyanı zamanı həlak olanların xatirəsini yad etmək üçün divardakı kiçik kilsə zənginin yanına yanan şam qoydu. Sonra dövlətimizin başçısı muzeylə tanış oldu.*

## POLŞA PREZİDENTİ ALEKSANDR KVASNEVSKİNİN ADINDAN AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA NİTQ

*Prezident sarayı*

*30 mart 2005-ci il*

Polşa Respublikasının prezidenti zati-aliləri cənab Aleksandr Kvasnevski!

Hörmətli xanım İolanta Kvasnevska!

Xanımlar və cənablar!

Hörmətli cənab Prezident, əvvəlcə məni Polşa Respublikasına rəsmi səfərə dəvət etdiyinizə görə Sizə ürəkdən təşəkkür edir, Polşa torpağında mənə və bütün nümayəndə heyətinə göstərdiyiniz səmimi qonaqpərvərliyə görə dərin minnətdarlığımı bildirmək istəyirəm. Mən bu səfərə böyük əhəmiyyət verirəm.

Bu gün Azərbaycanla Polşa arasında münasibətlərin yeni səhifəsi açılır, bütün sahələrdə əməkdaşlığın inkişafı üçün səmərəli dialoq aparılır. Artıq inamla deyə bilərəm ki, səfər uğurludur və ölkələrimiz arasında münasibətlərin inkişafında mühüm rol oynayacaqdır.

Şübhə etmirəm ki, səfər zamanı keçirdiyimiz görüşlər, apardığımız danışıqlar və imzaladığımız sənədlər qarşılıqlı fəaliyyətimiz üçün yeni sahələr müəyyən edəcək, əlaqələrimizin genişlənməsinə və dərinləşməsinə öz töhfəsini verəcəkdir.

Ölkələrimizin müvafiq strukturları – nazirliklər, şirkətlər, qurumlar bir-biri ilə əlaqə yaradacaq, əməkdaşlıq potensialın-

dan istifadə edərək iqtisadi əlaqələrimizi daha da yüksək səviyyəyə qaldıracaqlar.

Azərbaycan Respublikası ilə Polşa, Azərbaycan xalqı ilə polyak xalqı arasında mehriban dostluq və əməkdaşlıq münasibətlərinin formalaşması, inkişafı və möhkəmlənməsində Azərbaycanın ümummilli lideri Heydər Əliyevin və Sizin böyük xidmətlərinizi ayrıca qeyd etmək istəyirəm.

Azərbaycan dövləti ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu daxili və xarici siyasət xəttini davam etdirir. Bu baxımdan Azərbaycanın Avropa və Avratlantik strukturlarına inteqrasiyası önəmli yer tutur. Ölkəmiz Avropa Şurasının üzvüdür. «Sülh naminə tərəfdaşlıq» proqramı çərçivəsində NATO və Avropa təhlükəsizlik sisteminin strukturları ilə əməkdaşlıq edir. Azərbaycan «Fərdi tərəfdaşlıq üzrə əməliyyat planı»nı NATO rəhbərliyinə təqdim edən iki ölkədən biridir.

Avropa Birliyi Azərbaycanı «Genişlənmiş Avropa və qonşuları» təşəbbüsünə daxil etmişdir. Bu istiqamətdə Polşanın Azərbaycana dəstəyinə görə Sizə təşəkkürümü bildirir, gələcək əməkdaşlığa böyük ümid bəsləyirəm.

Bu gün dünyanın ən böyük enerji layihələri Azərbaycanda həyata keçirilir. Eyni zamanda, Azərbaycanda siyasi, iqtisadi-sosial, hüquqi islahatlar aparılmışdır. Avropa dəyərlərinin bərqərar edilməsində, insan hüquqları və azadlıqlarının təmin olunmasında, demokratik təsisatların yaradılmasında və bazar iqtisadiyyatına keçiddə böyük nailiyyətlər qazanılmışdır.

2004-cü ildə iqtisadiyyatda artım 10 faizdən çox olmuşdur. Son 7 ildə Azərbaycan iqtisadiyyatına 17 milyard dollar vəsait qoyulmuşdur, növbəti üç ildə daha 10 milyard dollar yatırılacaqdır. Azərbaycanda yoxsulluğun azaldılması, regionların inkişafı ilə bağlı hökumət proqramları təsdiq edilmişdir və onlar uğurla həyata keçirilir. Sosial məsələlərin həllində mühüm addımlar atılır.

Mən tarixi İpək Yolunun bərpası, Bakı–Tbilisi–Ceyhan neft kəməri və Bakı–Tbilisi–Ərzurum qaz kəməri layihələrinin, TRASEKA proqramının həyata keçirilməsinin həm Azərbaycanın,

həm də region dövlətlərin inkişafında və Avropaya inteqrasiyasında mühüm rol oynayacağına əminəm.

Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü olmasaydı, ölkəmiz və ümumən region bu müddətdə daha böyük uğurlar əldə edə bilərdi. Ermənistanın təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal edilmişdir, 1 milyondan artıq insan doğma yurd-yuvalarından didərgin düşmüş, qaçqın və məcburi köçkünə çevrilmişdir. Ümidvaram ki, Polşa bu münaqişənin Azərbaycanın ərazi bütövlüyü, beynəlxalq hüquq normaları əsasında həllinə bundan sonra da öz dəstəyini verəcəkdir.

Hörmətli cənab Prezident, fürsətdən istifadə edərək Sizi ölkəmizə rəsmi səfərə dəvət edirəm və inanıram ki, Sizin Azərbaycana səfəriniz ölkələrimiz arasında hərtərəfli münasibətlərin daha da genişlənməsinə və dərinləşməsinə xidmət edəcək, ikitərəfli əməkdaşlığımızı daha da möhkəmləndirəcəkdir.

Bu badəni çox hörmətli Polşa prezidenti Aleksandr Kvasnevskinin, xanım İolanta Kvasnevskanın və ölkələrimiz arasında daim inkişaf edərək möhkəmlənən dostluq və əməkdaşlıq əlaqələrinin şərəfinə qaldırmaq istəyirəm. Sağ olun.

## VARŞAVA UNİVERSİTETİNİN PROFESSOR-MÜƏLLİM HEYƏTİ VƏ TƏLƏBƏLƏRLƏ GÖRÜŞDƏ* NİTQ

*31 mart 2005-ci il*

Hörmətli dostlar!

Hörmətli xanımlar və cənablar!

Ən əvvəl məni böyük tarixə və zəngin ənənələrə malik olan universitetinizə dəvət etdiyinizə görə sizə minnətdarlığımı bildirirəm. Bu universitet ölkənizin aparıcı təhsil ocaqlarından biridir.

Mən Polşada rəsmi səfərdə olmağımdan çox məmnunam. Səfər bu gün artıq başa çatmaq üzrədir. Dünən bizim prezidentlə, Nazirlər Şurasının sədri və Polşa parlamentinin hər iki palatasının rəhbərləri ilə çox açıq və səmimi dostluq şəraitində keçən görüşlərimiz olubdur. Danışıqlar zamanı hər iki tərəf ümumi fikirdə olduqlarını bir daha bəyan etdilər. Polşa və Azərbaycan dost ölkələrdir. Onlar keçmişdə bir sıra ümumi tarixi anları yaşayıblar. Hər iki ölkə keçmişdə azadlıqdan məhrum olmuş, müstəqil olmadığından əziyyət çəkmişdir. Lakin ölkələrimizdəki inkişafın hazırkı mərhələsində Polşa və Azərbaycan beynəlxalq ictimaiyyətin səlahiyyətli üzvlərinə çevrilmiş, hər iki xalq öz həyat tərzini, gələcək inkişaf planlarını artıq özü müəyyən edir. Əminəm ki, ölkələrimiz bugünkü durumun bütün imkanlarından istifadə edirlər. Azərbaycanın coğrafi mövqeyi ölkəmizin üzləşdiyi çətinlikləri və malik olduğu üstünlükləri əvvəlcədən təyin edir. 1991-ci ildə Sovet İttifaqının süqutu nəticəsində dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmiz çox

---

* Görüşü universitetin rektoru professor Pyotr Veqlenski açaraq çıxış etmişdir.

mürəkkəb vəziyyətə düşdü. Siyasi, hərbi və iqtisadi böhran baş alıb gedirdi və ölkəni məhv olmaq təhlükəsi qarşısında qoyurdu.

Ölkəmizdə çox güclü iqtisadi tənəzzül müşahidə olunurdu. Cəmiyyətdə mənfi meyllər, çətinliklər özünü büruzə verirdi və mövcud olan vəziyyəti daha da gərginləşdirirdi. Vətəndaş müharibəsi baş vermişdi, qeyri-qanuni hərbi birləşmələr bir neçə dəfə dövlət çevrilişi cəhdinə əl atmışdı. Bir sözlə, ölkənin gələcək taleyi böyük sual altında idi.

Lakin 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyev hakimiyyətə gəldikdən sonra vəziyyət dəyişməyə başladı. Azərbaycan iqtisadi çətinlikləri aradan qaldıra bildi, regional səviyyədə özünü qətiyyətlə tanıtmağa başladı, beynəlxalq ictimaiyyətin fəal üzvünə çevrildi. Ölkəmiz müxtəlif beynəlxalq qurumların, o cümlədən Avropa təşkilatlarının üzvlüyünə qəbul olundu.

Mən hesab edirəm ki, indi Azərbaycanın Dünya Birliyində tutduğu yer ölkəmizin kəsb etdiyi əhəmiyyətinə uyğundur. Avratlantik inteqrasiyaya doğru strateji xəttimiz uğurla həyata keçirilir. Azərbaycan hazırda Avropa Birliyinin «Yeni qonşuluq siyasəti»nə daxil edilibdir. NATO ilə əməkdaşlığımız nəticəsində biz bu təşkilatla olan münasibətlərimizin ikinci mərhələsinə qədəm qoyuruq. Bu, fərdi tərəfdaşlıq tədbirlər planıdır.

Bütün bu məsələlər dünən Varşavada müzakirə olundu. Çünki Polşa artıq, əgər belə demək olarsa, bu vəzifənin öhdəsindən gəlibdir. Sizin ölkə bu çətin yolu artıq keçibdir. Azərbaycan isə hələ ki, bu yolun başlanğıcındadır. Beləliklə, ölkənizin beynəlxalq təşkilatlar çərçivəsində bizə göstərdiyi daimi dəstək, şübhəsiz ki, bizim üçün çox vacibdir. Biz bu dəstəyi hiss edirik və mənim bu dəfəki səfərim ölkələrimiz arasında mövcud olan çox sıx dostluq münasibətlərinin əyani sübutudur.

İqtisadi inkişafımız da çox uğurla gedir. Son 7 və ya 8 il ərzində Azərbaycanda ümumi daxili məhsul heç vaxt 10 faizdən aşağı olmamışdır. Bu il isə iqtisadi artım təxminən 14–15 faiz səviyyəsində gözlənilir. Büdcənin gəlirləri də gündən-günə artır. Biz əhalimizin sosial vəziyyətini də yaxşılaşdırmağa çalışırıq. Bazar iqtisadiyyatına olan sıx bağlılığımız yaxşı nəticələr

verir. İqtisadiyyatımız liberaldır. Azərbaycanda aparılan genişmiqyaslı özəlləşdirmə prosesi də iqtisadi göstəricilərimizi daha da artırmaq üçün yeni imkanlar yaratdı. Qarşımıza qoyduğumuz bütün bu məqsədlərə nail olmaq üçün bizim güclü iqtisadiyyatımız olmalıdır.

Biz bir çox iqtisadi proqramların həyata keçirilıməsi sahəsində fəal işləyirik. Onların böyük bir hissəsi artıq yerinə yetirilibdir. Hazırda isə bir sıra regional inkişaf proqramları həyata keçiririk ki, ölkə iqtisadiyyatını daha da şaxələndirək. Azərbaycan neft ölkəsi kimi tanınır. Baxmayaraq ki, ölkəmizin qurudakı neft yataqlarının əksəriyyətinin əsrlər boyu işlənilməsi nəticəsində ehtiyatlar artıq tükənibdir. Buna görə də neft strategiyamızın yeni mərhələsi dənizdəki yataqların işlənilməsi üçün dünyanın ən aparıcı neft şirkətləri ilə birgə işbirliyinin yaradılmasını nəzərdə tutur. Bu cür birgə əməkdaşlıq artıq öz bəhrəsini verir. Hazırda dünyadakı ən böyük enerji layihəsi bizim ölkəmizdə həyata keçirilir. Bu bir daha onu təsdiqləyir ki, Azərbaycan xarici sərmayələr üçün önəmli ölkədir. Yeri gəlmişkən deyim ki, adambaşına düşən xarici sərmayələrin həcminə görə Azərbaycan keçmiş SSRİ məkanında  və bir sıra qonşu dövlətlərlə müqayisədə aparıcı ölkədir. Biz ölkədə sərmayələr üçün çox əlverişli şərait yaratmışıq və beləliklə, böyük sərmayələri ölkə iqtisadiyyatına cəlb etmişik. Bütün bu amillər ölkəmizi daha da möhkəmləndirməyə imkan yaradacaq və Azərbaycanı beynəlxalq aləmdə daha fəal iştirakçıya çevirəcəkdir.

Bizim bir çox planlarımız və layihələrimiz var. Biz Cənubi Qafqazda və onun hüdudlarından kənarda regional əməkdaşlıq prosesini sürətləndirmək istəyirik. Azərbaycanın iştirakı olmadan heç bir regional layihənin həyata keçirilməsi mümkün deyildir. Beləliklə, regional baxımdan ölkəmizin mövqeyi getdikcə güclənir. Azərbaycan bu gün bir çox beynəlxalq layihələrdə öncül ölkələrdən biridir və öz təşəbbüskarlığı ilə seçilir. Biz çox şadıq ki, regional əməkdaşlıq ölkəmizin beynəlxalq birliyə, Avratlantik strukturlarına inteqrasiyası üçün yeni imkanlar yaradır. Təbii ki, bütün bunlar Azərbaycan xalqı üçün faydalıdır. Çünki

yeni imkanlar və layihələr əhalinin sosial-iqtisadi vəziyyətini daha da yaxşılaşdıracaqdır. Azərbaycan çox əhəmiyyətli nəqliyyat yollarının kəsişməsində yerləşir və nəqliyyat dəhlizi rolunu oynayır. Ölkəmizin Şərq–Qərb, Şimal–Cənub istiqamətlərində vacib mövqeyi var. Tranzit imkanlarımızdan istifadə edərək regionda gedən bir sıra prosesləri idarə etmək iqtidarında olduq.

Bildiyiniz kimi, regionun özü də sabit deyildir. Əgər Bakıdan istənilən istiqamətə nəzər salsanız, şimal, cənub və qərb istiqamətlərinə baxsanız, münaqişələri və əzab-əziyyətləri görəcəksiniz.

Azərbaycanın özü işğal və təcavüzün qurbanı olmuşdur. Əlbəttə ki, eyni vəziyyətdə olan xalqların çəkdiyi əziyyətləri də biz çox yaxşı anlayırıq. Qafqazdakı vəziyyət, İraqdakı durum, Azərbaycan ərazisinin Ermənistan tərəfindən işğal edilməsi təhlükənin aradan qaldırılmasına xidmət etmir, əksinə, bütün bu amillər mövcud vəziyyəti daha da gərginləşdirə bilər. Bu gün bizim ölkə təhlükəsizliyi, sabitliyi və normal inkişafı təcəssüm etdirən bir adaya bənzəyir. Azərbaycanın böyük dözümlülüyü ilə seçilən cəmiyyəti var. Müxtəlif millətlərin və dinlərin nümayəndələri ölkəmizdə sülh şəraitində yaşayırlar. Bu, tarixdən də çox yaxşı məlumdur və ölkəmizin ən böyük nailiyyətidir. Müstəqilliyimizi qazandıqdan sonra da müxtəlif xalqların və millətlərin əmin-amanlıq şəraitində bir-biri ilə yanaşı yaşamasını yüksək qiymətləndiririk.

Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü regiondakı sabit vəziyyətə ən böyük təhlükədir. Hesab edirəm ki, sizin mövcud olan münaqişə haqqında məlumatınız var. İstərdim qısaca olaraq bu münaqişə haqqında danışım. Azərbaycanın regionu olan Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır. Ermənilər əvvəllər orada heç vaxt yaşamayıblar. Onlar Dağlıq Qarabağa XIX əsrin əvvəllərində İran və Türkiyədən çar Rusiyası tərəfindən köçürülmüşlər. Bu o məqsədlə edilmişdir ki, Rusiya Qafqazda özünə dayaq əldə etsin. Ermənistan indi də həmin funksiyanın yerinə yetirilməsini davam etdirir. Ermənilər hazırda müxtəlif ölkələrin bu regionda siyasətinin həyata keçirilmə-

sində də müəyyən rol oynayırlar. Başqa sözlə desək, Dağlıq Qarabağ heç vaxt erməni ərazisi olmayıbdır. Hətta əgər siz Qarabağ sözünün mənasına nəzər yetirsəniz, onun açmasını erməni dilində tapmayacaqsınız. Ermənidən soruşsanız sizin dildə Qarabağ nə deməkdir, o sizə cavab verə bilməyəcəkdir. Bizim dildə isə onun mənası böyük bağdır – Qara bağ. Tarix həmçinin bu faktı açıq-aydın sübut edir ki, ermənilər bu regiona qonaq qismində gəlmişlər. Rusiya imperiyasının süqutundan və Sovet İttifaqının yaranmasından sonra sovet respublikaları arasında yeni sərhədlərin çəkilməsi ilə bağlı müxtəlif qərarlar qəbul edilmişdir. Tarixi keçmişi nəzərə alsaq, Dağlıq Qarabağ Azərbaycanın tarixi bir hissəsi olaraq bizim inzibati sərhədlərimiz çərçivəsində qalmışdır.

Bu bölgənin etnik quruluşu belə olmuşdur: 75 faiz ermənilər, 25 faiz isə azərbaycanlılar. Sovet İttifaqının süqutu yaxınlaşdıqca, Dağlıq Qarabağda separatçı hərəkat başlandı. Ermənistan tərəfindən dəstəklənən bu hərəkat nəticəsində Dağlıq Qarabağdan, Ermənistandan və Azərbaycanın işğal olunmuş digər 7 rayonundan bütün azərbaycanlılar qovuldu. Bu gün ümumilikdə ölkəmizdə bir milyon qaçqın və məcburi köçkün var. Bu, işğal və təcavüzün nəticəsidir. Bu işğalın nəticəsində Azərbaycan ərazisinin 20 faizi zəbt olunubdur.

Münaqişənin həlli ilə bağlı bizim mövqeyimiz sırf beynəlxalq hüququn normaları və prinsiplərinə əsaslanır. Yəni Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır, təcavüz qurbanı olan bütün qaçqın-köçkünlər öz yurd-yuvalarına qayıtmalıdır. Bundan sonra isə Dağlıq Qarabağa Azərbaycanın hüdudları çərçivəsində ən yüksək muxtariyyət statusu verilə bilər. Biz dünyada, o cümlədən Avropada mövcud olan ən yüksək statuslu muxtariyyət variantlarını öyrənmişik. Beləliklə, yeni bir şey icad etməyə ehtiyac yoxdur. Mümkün olan bütün imkanlar masa üstündədir. Ermənilərin mövqeyi isə fərqlidir. Onların mövqeyi özlərinin arzularına, fikirlərinə və istəklərinə əsaslanır. Bu mövqe beynəlxalq hüquq normaları ilə heç cür uzlaşmır. Onlar deyirlər ki, Dağlıq Qarabağdakı ermənilərin öz müqəddəratını

təyin etmək hüququ vardır. Digər sözlə desək, onlar Dağlıq Qarabağı Azərbaycandan ayırmaq istəyirlər. Bizim hər hansı xalqın öz müqəddəratını təyin etmək hüququna qarşı heç bir iradımız yoxdur. Lakin ermənilərə gəldikdə, onlar öz müqəddəratını Ermənistan dövləti çərçivəsində artıq təyin ediblər. Gəlin təsəvvür edək ki, sabah ermənilər yaşadıqları istənilən yerdə öz müqəddəratını təyin etmək istəyinə düşsələr, nələr baş verər. Gürcüstanda yaşayan ermənilərin sayı 250 mindir. Rusiyada isə milyonlarla erməni yaşayır. Ermənilər Birləşmiş Ştatlarda, Fransada və dünyanın bir çox ölkələrində yaşayırlar. Əgər onlar yaşadıqları yerlərdə öz müqəddəratını təyin etmək hüququnu tələb etməyə başlasalar, bunun sonu necə olacaq? Bu, beynəlxalq prinsiplərə ziddir. Mən hesab edirəm ki, Dağlıq Qarabağda yaşayan 70 min erməni gələcəkdə sülh şəraitində, təhlükəsizlik zəmanəti ilə yaşaya bilər. Onlara suveren Azərbaycan dövləti çərçivəsində yüksək muxtariyyət statusu verilə bilər.

Biz münaqişəni sülh yolu ilə həll etməyə çox çalışdıq, lakin artıq 10 ildən çoxdur ki, bu işğal və təcavüz davam edir.

Bu sahədə heç bir nəticə əldə edilməyibdir. Lakin beynəlxalq ictimaiyyət get-gedə bu məsələyə diqqətini artırır və bu münasibət bizi nikbin edir. Nüfuzlu beynəlxalq təşkilatlar birmənalı olaraq öz mövqelərini bildirirlər. Misal üçün, yanvar ayında Avropa Şurası qətnamə qəbul edib, orada hər şey aydın şəkildə yazılıbdır. Sənəddə bildirilir ki, bu müharibə Azərbaycana qarşı aparılmış etnik təmizləmədir, Ermənistan ölkəmizə qarşı təcavüz edibdir. Ümid edirik ki, beynəlxalq ictimaiyyət bu münaqişənin sülh yolu ilə həll olunmasında bizə yardım edəcəkdir.

Azərbaycan böyük potensiala malik olan ölkədir. Onun böyük humanitar potensialı var, zəngin təbii sərvətlərə malikdir, əlverişli coğrafi məkanda yerləşir. Ölkəmiz Avropa dəyərlərinə qəti surətdə sadiqdir. Azərbaycan Avropa Şurasının tamhüquqlu üzvüdür. Əvvəldə dediyim kimi, ölkəmiz Avropa Birliyinin “Yeni qonşuluq siyasəti”nə daxil edilibdir. Hesab edirik ki, bu siyasətin praktiki nəticələri olacaq və o bizə tam inteqrasiya

olunmaq imkanı yaradacaqdır. Biz gələcəyimizi Avratlantik ailəsinə inteqrasiyada görürük. Bu bizim uzunmüddətli siyasətimizdir. Bu siyasət davam edəcək, hökumətimiz tərəfindən həyata keçirilir və xalq tərəfindən dəstəklənir.

Əlbəttə, məqsədlərimizə nail olmaq üçün və regionda daha yaxşı durumun bərqərar olunması üçün bizə sülh, sabitlik və təhlükəsizlik lazımdır. Ona görə də keçmiş sovet respublikalarındakı münaqişələr həll olunmalıdır. Söhbət təkcə Dağlıq Qarabağdan getmir. Oxşar münaqişələr Gürcüstanda – Abxaziya və Cənubi Osetiyada, Moldovanın Dnestryanı regionunda mövcuddur. Nəhayət, Dağlıq Qarabağ münaqişəsi. Ümumilikdə keçmiş sovet respublikalarında dörd oxşar münaqişə mövcuddur. Onların hamısının oxşarlıqları var. Onların səbəbləri təcavüzkar separatçılıq, etnik təmizləmə və xarici yardım əsasında suveren dövlətlərin ərazisinin işğalıdır. Beləliklə, bütün dörd münaqişənin həllinə eyni üsulla yanaşmaq lazımdır. Ümid edirəm ki, beynəlxalq ictimaiyyət, nəhayət, bu vəziyyətə öz diqqətini artıracaq və Avropada “qara ləkələr”in və ya nəzarətsiz zonaların olmasına son qoyacaqdır. Bu nəzarətsiz zonalar Dağlıq Qarabağ, Abxaziya, Dnestryanı region və Cənubi Osetiyadır. Bu yerlərdə bir sıra qeyri-qanuni əməliyyatlar aparılır, narkotik vasitələrin hazırlanması və dövriyyəsi müşahidə olunur, beynəlxalq terrorçular burada özlərinə məskən salırlar.

Burada heç bir beynəlxalq nəzarət yoxdur. Bu gün dünyada elə bir ölkə yoxdur ki, orada beynəlxalq monitorinq olmasın. Qloballaşan cəmiyyətləri olan ölkələrdəki vəziyyət çox şəffafdır. Beynəlxalq ictimaiyyət bu sahədə çox fəal işləyir. Lakin bizdə isə belə nəzarətsiz zonalar var. Orada heç bir nəzarət aparılmır. Bu zonalardan sülhə və təhlükəsizliyə qarşı istifadə edilməsi mümkündür. Buna baxmayaraq, mən yenə də deyə bilərəm ki, biz beynəlxalq ictimaiyyətlə birgə çalışaraq bu münaqişənin ədalətli və düzgün yolla həllinə nail olacağıq.

Azərbaycan öz qonşuları ilə sülh şəraitində yaşamaq istəyir, beynəlxalq aləmdə daha fəal olmaq əzmindədir. Bizim ölkə beynəlxalq ictimaiyyətin fəaliyyətinə böyük töhfə verə və bir

çox şeyləri digər ölkələrin təcrübəsindən öyrənə bilər. Azərbaycanın uzun əsrlik tarixi, mədəniyyəti və adət-ənənələri var. Lakin müstəqil ölkə kimi, biz gənc ölkəyik. Buna görə də bir quruluşdan digər quruluşa keçən ölkəmizin öz standartlarını beynəlxalq standartlara uyğunlaşdırması üçün dünya ictimaiyyətinin dəstəyinə böyük ehtiyacı var.

Vaxtınızı çox almaq istəmirəm. Diqqətinizə görə çox minnətdaram. Bir daha demək istəyirəm ki, Polşada olmağımdan çox şadam. Əfsuslar ki, səfərim artıq başa çatır. Lakin əminəm ki, gözəl ölkənizə bir daha səfər edəcəyəm.

Çox sağ olun.

* * *

**P y o t r V e q l e n s k i**: Cənab Prezident, söylədiyiniz nitqə görə minnətdaram. Siz Azərbaycanın indiki və gələcək perspektivlərini təqdim etdiniz. Siz qonşularınızla, xüsusən də Ermənistanla olan münasibətlərinizi lazımi qaydada təsvir etdiniz.

Xanımlar və cənablar!

İndi isə sual-cavaba keçək. Buyurun, suallarınızı cənab prezidentə ünvanlaya bilərsiniz. Onu da deyim ki, yalnız iki sualınıza vaxtımız var.

**S u a l: Hörmətli cənab Prezident, Polşada təhsil alan azərbaycanlılar və burada daimi yaşayan azərbaycanlı tələbələr adından Sizi ürəkdən salamlamaq istəyirik. Biz Sizin buraya gəlməyinizə çox şadıq. Sualım isə belədir. Varşava Universitetində xüsusi proqram çərçivəsində Azərbaycan tələbələrinin Avropa standartlarına uyğun yaxşı təhsil almaq imkanı var. Sizin fikrinizcə, iki ölkə arasındakı əlaqələrdə Azərbaycan tələbələrinin rolu nədən ibarət ola bilər?**

**C a v a b:** Əvvəlcə onu demək istəyirəm ki, Azərbaycan tələbələrinin Polşada olmasından və Varşava Universitetində təhsil almasından çox məmnunam. Bu, yaşadığımız həyatın yeni bir elementidir. Bizim gənclərimiz dünyanın istənilən yerlərində təhsil almaq imkanlarına malikdirlər. Əfsuslar olsun ki, mənim

həmyaşıdlarım bu cür imkanlardan məhrum idilər. Sovet İttifaqı gəncləri üçün ölkə hüdudlarından kənara çıxmaq və xaricdə oxumaq mümkün deyildi. Bəlkə bu, müəyyən insanlar üçün mümkün idi. Lakin onlar da illərlə icazə və müxtəlif göstərişlər gözləyirdilər. Bugünkü vəziyyət tamamilə fərqlidir. Tələbələrimiz bir çox ölkələrdə oxuyurlar. Əlbəttə, onların Polşada təhsil alması faktı, buradakı fəaliyyəti bizim ikitərəfli münasibətlərimizin vacib elementidir.

Nitqim zamanı mən bildirdim ki, bizim nəinki yaxşı siyasi və iqtisadi əlaqələrimiz var, həmçinin humanitar sahədə də yaxşı münasibətlərimiz mövcuddur. Dünən Polşa parlamentinin binasında təşkil olunmuş sərgidə Bakıda polyak memarları tərəfindən inşa edilmiş gözəl binaların fotoşəkillərini seyr etmək imkanını əldə etdim. Mən onu deyə bilərəm ki, XIX əsrin sonu – XX əsrin əvvəllərində Bakıda tikilən yaraşıqlı binaların əksəriyyəti polyak memarları tərəfindən layihələşdirilmişdir. İndi münasibətlərimizin daha da inkişafı üçün yaxşı əsas var. Şübhəsiz ki, iki ölkə arasındakı əlaqələr siyasi məsələlərlə və bir çox digər məsələlərlə şərtlənir. Lakin humanitar münasibətlər, insanlar arasındakı əlaqələr də vacib rol oynayır. Ona görə də azərbaycanlı tələbələrin burada yaşamasını və oxumasını mən yüksək dəyərləndirirəm. Mən istərdim ki, onlar çox fəal olsunlar, polyak dilini yaxşı öyrənsinlər və öz təhsillərini başa çatdırdıqdan sonra Azərbaycanın Polşadakı səfiri və Polşanın ölkəmizdəki səfiri kimi işləyə bilərlər. Sağ olun.

**S u a l: Cənab Prezident, Siz regiondakı müxtəlif münaqişələr haqqında danışdınız, mövcud vəziyyətə diqqətin artırılmasının vacibliyini qeyd etdiniz. Mən Kosovodakı Polşa – Ukrayna batalyonu haqqında sənədli film çəkmişəm. Onu da bilirəm ki, Polşa – Azərbaycan batalyonunun da yaradılması təşəbbüsü var. Belə bir batalyonun yaradılması məsələsini danışıqlarınız zamanı müzakirə etmisinizmi? Bu, baş tutsa, əsgərlərimiz sülhyaratma əməliyyatları çərçivəsində birgə əməkdaşlıq edə bilər.**

**C a v a b:** Bu xüsusi məsələ mənim prezidentlə apardığım danışıqlar zamanı müzakirə olunmamışdır. Lakin, əlbəttə ki, bizim Əfqanıstanda, Kosovoda və İraqdakı birgə işimiz haqqında söhbət apardıq. Çətinlikdə olan regionlarda sülhün və sabitliyin bərqərar olunması məqsədilə bizim əsgər və hərbçilərimiz çiyin-çiyinə xidmət edirlər. Mən eyni zamanda nəzərinizə çatdırıram ki, biz dünən apardığımız danışıqlar nəticəsində bir sıra ikitərəfli sənədlər də imzaladıq. İki ölkənin müdafiə nazirləri də saziş imzaladılar. Biz bunu yüksək qiymətləndiririk, çünki biz müdafiə sahəsində əməkdaşlığı daha da genişləndirmək istəyirik. Eyni zamanda bilirəm ki, burada əyləşən Müdafiə nazirinin dünən öz polyak həmkarı ilə çox faydalı söhbəti olubdur. Bu məsələ onların görüşü zamanı müzakirə olundu. Bir sözlə, lazım gələrsə, biz bu sahədə birgə işləməyə hazırıq, çünki bizim artıq yaxşı təcrübəmiz var. Biz dünyanın müxtəlif yerlərində əməkdaşlıq etməyə başlamışıq. Polşa ilə olan dostluq münasibətlərini nəzərə alsaq, belə bir birgə qurumun yaradılmasını mümkün hesab edirik.

* * *

*Görüşün sonunda Varşava Universitetinin rektoru prezident İlham Əliyevə maraqlı söhbət üçün təşəkkürünü bildirdi. O, görüşdə iştirak etdiklərinə görə Azərbaycan prezidentinin xanımı Mehriban Əliyevaya, hər iki ölkənin səfirlərinə də minnətdarlığını ifadə etdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞA RESPUBLİKASINA SƏFƏRİ

*31 mart 2005-ci il*

### Varşavadan yolasalma mərasimi

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev martın 31-də Varşavada rəsmi görüşlərini başa çatdırdıqdan sonra Krakov şəhərinə yola düşmüşdür.*

*Azərbaycan Respublikasının və Polşa Respublikasının dövlət bayraqları ilə bəzədilmiş «Okençe» hərbi hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Polşanın dövlət və hökumət nümayəndələri böyük hörmət və ehtiramla yola saldılar.*

### Krakovda qarşılanma mərasimi

*Həmin gün Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Polşanın qədim Krakov şəhərinə gəldi.*

*Azərbaycan Respublikasının və Polşa Respublikasının dövlət bayraqları ilə bəzədilmiş «Balis» hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı mərkəzi Krakov olan Malopolska voyevodalığının başçısı cənab Yeji Adamik və şəhərin digər rəhbərləri böyük hörmət və ehtiramla qarşıladılar.*

### Yagello Universiteti ilə tanışlıq

Azərbaycan prezidenti İlham Əliyev hava limanından Polşanın ən qədim, 1364-cü ildə yaradılmış ali təhsil ocağı olan məşhur Yagello Universiteti Rəyasət Heyətinin binasına gəlmişdir.

Universitetlə tanışlıq zamanı dövlətimizin başçısına məlumat verildi ki, vaxtilə bu binada Polşa kralının iştirakı ilə ən yüksək vəzifəli şəxslərin yığıncaqları keçirilmişdir. Universitetin yaradılmasından sonra ən tanınmış alimlər cəlb edilərək elmi-tədqiqat işləri aparılmışdır. Hazırda bu ali təhsil ocağının 13 fakültəsində (o cümlədən 3 tibb fakültəsində) 35 mindən artıq tələbə təhsil alır. Professor-müəllim heyətinin sayı isə 6 mindən çoxdur.

Azərbaycan prezidenti müxtəlif rəsm əsərləri, astronomik cihazlar, qədim ikonalar və digər əşyalarla tanış oldu.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva sonra şəhəri gəzintiyə çıxdılar. İlk tanışlıq Krakovun bazar meydanından başladı. Burada milli geyimli qızlar Mehriban xanım Əliyevaya gül dəstəsi təqdim etdilər.

Prezident orta əsrlərə aid mahudçular sexinin ticarət sıralarına («Sukennitse»), müxtəlif memarlıq abidələrinə tamaşa etdi. Dövlətimizin başçısına Polşanın ən qədim, Avropanın ən gözəl şəhərlərindən biri, XI–XVI əsrlərdə ölkənin paytaxtı kimi şöhrət qazanmış Krakovun tarixi memarlıq abidələri barədə geniş məlumat verildi.

Prezident İlham Əliyev daha sonra Krakovun qədim məhəlləsini gəzdi. Abidələrlə zəngin olan bu məhəllədə Polşa kralları dövründə inşa olunmuş kilsələr də vardır.

* * *

Martın 31-də şəhərlə tanışlıqdan sonra Malopolska voyevodalığının başçısı cənab Yeji Adamikin adından Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin şərəfinə nahar təşkil olundu.

## Səfər başa çatdı

*Martın 31-də Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin Polşa Respublikasına rəsmi səfəri başa çatmışdır.*

*Azərbaycan Respublikasının və Polşa Respublikasının dövlət bayraqları ilə bəzədilmiş Krakov şəhərinin «Balis» hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı təyyarənin pilləkəni yanında Polşa Respublikası hökumətinin rəsmi şəxsləri səmimiyyətlə yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev həmin gün axşam Bakıya qayıtdı.*

## ABŞ SİLAHLI QÜVVƏLƏRİ AVROPA KOMANDANLIĞI RƏİSİNİN MÜAVİNİ ÇARLZ UOLDUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 aprel 2005-ci il*

*Görüş zamanı dövlətimizin başçısı İlham Əliyev Azərbaycanla ABŞ arasında müxtəlif sahələrdə əlaqələrin genişlənməsindən məmnunluğunu bildirdi, o cümlədən ölkələrimizin hərbi sahədə əməkdaşlığının uğurla inkişaf etdiyini qeyd etdi.*

*Prezident İlham Əliyev Çarlz Uoldun rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin ölkələrimiz arasında əlaqələrin, həmçinin hərbi əməkdaşlığın daha da genişlənməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Cənab Çarlz Uold ABŞ-ın Azərbaycan ilə hərbi əməkdaşlıq, beynəlxalq terrorizmə qarşı mübarizə və digər sahələrdə işbirliyinə böyük əhəmiyyət verdiyini vurğuladı.*

*Görüş zamanı ikitərəfli əməkdaşlığı əhatə edən bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

**DÜNYA BANKININ PREZİDENTİ**
**CƏNAB POL VULFOVİTSƏ**

*Hörmətli cənab* Prezident!

*Dünya Bankının* prezidenti *vəzifəsinə seçilməyiniz münasibətilə* Sizi *səmimi-qəlbdən təbrik edirəm.*

*Biz Dünya Bankı ilə əməkdaşlığa böyük əhəmiyyət veririk. Azərbaycanda həyata keçirilən* iqtisadi islahatlarda, *irimiqyaslı* transmilli *layihələrin gerçəkləşdirilməsində Dünya Bankının yaxından iştirakını məmnunluqla qeyd etmək istərdim.*

*Ümidvaram ki, Azərbaycan iqtisadiyyatının dünya* iqtisadiyyatına inteqrasiyası yolunda *birgə işimizi* bundan sonra da *uğurla* davam *etdirəcək, qarşıya qoyduğumuz məqsədlərə çatmaq üçün əməkdaşlığımızın* daha da *dərinləşdirilməsi* naminə *səylər göstərəcəyik.*

*Bir* daha *Sizə öz təbriklərimi yetirir, möhkəm cansağlığı, səadət, işlərinizdə uğurlar arzulayıram.*

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 aprel 2005-ci il*

**BİLKƏND UNİVERSİTETİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ CƏNAB İHSAN DOĞRAMACIYA**

Hörmətli İhsan Doğramacı!

Şanlı yubileyiniz – anadan olmağınızın 90 illiyi münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Siz dərin məzmunlu və şərəfli bir ömür yolu keçərək insanlıq və bəşəriyyət naminə nəcib əməllərinizlə, həkim, alim, ziyalı və ictimai xadim kimi, çoxşaxəli fəaliyyətinizlə böyük nüfuz qazanmısınız.

Bu gün də Siz yorulmadan çalışır, gənclik şövqü ilə elmi, yaradıcı işinizi davam etdirir, bütün bacarığınızı, biliyinizi, qüvvənizi indiki və gələcək nəsillərin rifahına yönəldirsiniz.

Türk dünyasının yüksəlişi, Azərbaycan–Türkiyə dostluğunun və qardaşlığının daha da möhkəmlənməsi naminə Sizin xidmətləriniz əvəzsizdir. Azərbaycanda Sizi çox sevir, Sizə dərin hörmət və ehtiram hissi ilə yanaşırlar.

Atam prezident Heydər Əliyev ilə Sizin aranızda mövcud olmuş səmimi münasibətlər, dostluq mənim üçün, bütün ailəmiz üçün olduqca dəyərlidir. Siz bizim hamımızın əzizisiniz.

Möhtərəm İhsan Doğramacı, belə bir əlamətdar gündə Sizi təbrik etməkdən, Sizə ən xoş arzularımı yetirməkdən böyük məmnunluq duyuram. Sizə, Ayser xanıma, ailənizin bütün üzvlərinə möhkəm cansağlığı, səadət, uğurlar diləyirəm.

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 aprel 2005-ci il*

## ATƏT-in HAZIRKI SƏDRİ SLOVENİYANIN XARİCİ İŞLƏR NAZİRİ DİMİTRİ RUPEL İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 aprel 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin ATƏT-in hazırkı sədri Sloveniya Respublikasının Xarici İşlər naziri Dimitri Rupel ilə təkbətək görüşü olmuşdur.*

*Sonra prezident İlham Əliyev ATƏT-in hazırkı sədri Dimitri Rupelin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı nümayəndə heyətinin ölkəmizə səfərinin Azərbaycanda gedən proseslər haqqında onların daha ətraflı məlumatlar alması üçün yaxşı imkan yaratdığını bildirdi.*

*Ölkəmizin ATƏT-lə əməkdaşlığa böyük əhəmiyyət verdiyini vurğulayan prezident İlham Əliyev Azərbaycanda siyasi, iqtisadi və digər sahələrdə uğurlu islahatlar həyata keçirildiyini, ölkəmizin qlobal regional layihələrin həyata keçirilməsində fəal iştirak etdiyini nəzərə çatdırdı.*

*Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ problemindən bəhs edən prezident İlham Əliyev bu münaqişənin regional inkişafa, sabitliyə, təhlükəsizliyə ən böyük maneə olduğunu vurğuladı. Dövlətimizin başçısı bir daha dedi ki, Azərbaycanın bu münaqişənin həlli ilə bağlı mövqeyi yalnız və yalnız beynəlxalq hüquq normaları və prinsiplərinə – ölkələrin ərazi bütövlüyünün təmin olunması, sərhədlərin toxunulmazlığı prinsiplərinə əsaslanır.*

*ATƏT-in Minsk qrupunun münaqişə ilə bağlı gördüyü işlərə toxunan prezident İlham Əliyev bu qrupun fəaliyyətinin nəzərəçarpacaq dərəcədə artdığını vurğuladı. Dövlətimizin*

*başçısı nümayəndə heyətinin* regiona *bu səfərinin bölgədəki vəziyyət haqqında* onlarda daha *ətraflı təəssürat* yaradacağına *ümidvar olduğunu bildirdi.*

*Cənab* Dimitri Rupel *regiondakı ən mühüm məsələlər barədə* prezident *İlham Əliyev ilə apardığı fikir mübadiləsindən çox məmnun qaldığını söylədi.* O, *Azərbaycanda müzakirələr aparılması üçün yaradılan gözəl şəraitə və nümayəndə* heyətinə *göstərilən yüksək qonaqpərvərliyə görə dövlətimizin başçısına minnətdarlığını* bildirdi.

Dimitri Rupel *ATƏT*-in *dəstəyi ilə Azərbaycanda həyata keçirilən işlərin perspektivləri barədə kifayət qədər müsbət fikirdə olduğunu söylədi,* prezident *İlham Əliyevin* 114 *nəfər məhbusun azadlığa buraxılması barədə imzaladığı* son *əfv fərmanını çox yüksək dəyərləndirdi.*

Qonaq *dövlətimizin başçısı ilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, ölkədə gedən demokratikləşmə prosesləri,* o *cümlədən seçkilər,* regionda siyasi *inkişaf və digər məsələlərlə bağlı ətraflı fikir mübadiləsi apardığını vurğuladı.* O, prezident *İlham Əliyevin müzakirələr zamanı ifadə* etdiyi *fikirlərdən çox böyük məmnunluq* duyduğunu bildirdi.

*Görüşdə qarşılıqlı* maraq *doğuran* bir *sıra digər məsələlər barədə fikir mübadiləsi aparıldı.*

**MÜQƏDDƏS TAXT-TACIN KARDİNALI ƏLAHƏZRƏT COZEF RATZİNGERƏ**

Əlahəzrət!

Vatikan dövlətinin başçısı, zəmanəmizin görkəmli xadimi, tarixi şəxsiyyət Roma Papası II İohann Pavel həzrətlərinin vəfatı xəbəri məni son dərəcə kədərləndirdi.

O, bütün həyat və fəaliyyətini bəşəriyyət naminə nəcib amallara həsr etmişdir. Yer üzündə sülhün, əmin-amanlığın, insanlar arasında həmrəyliyin, dinlərarası anlaşma və dialoqun bərqərar olması yolunda fədakarlığı ilə II İohann Pavel həzrətləri milli və dini mənsubiyyətindən asılı olmayaraq, milyonlarla insanın qəlbində yer tapmışdır.

Azərbaycan ilə Vatikan arasında dostluq və əməkdaşlıq münasibətlərinin təşəkkül tapmasında, inkişafında və möhkəmlənməsində II İohann Pavel həzrətlərinin misilsiz xidmətləri olmuşdur.

Bu ağır anlarda dərdinizə şərik çıxır, Sizə, bütün həmvətənlərinizə və həmməzhəblərinizə şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan RespublikasınınPrezidenti**

Bakı, *3 aprel 2005-ci il*

**MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR VORONİNƏ**

Hörmətli Vladimir Nikolayeviç!

Moldova Respublikasının prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Sizin qələbəniz dövlətçiliyin və hüquq qaydalarının möhkəmləndirilməsinə, demokratik dəyişikliklər aparılmasına, Dünya Birliyinə daha geniş inteqrasiyaya yönəldilmiş xətti dost Moldova xalqının dəstəklədiyini sübut edir.

Əminəm ki, ənənəvi dostluq əlaqələrimiz, strateji tərəfdaşlıq xarakteri almış dövlətlərarası münasibətlərimiz, regional və beynəlxalq strukturlarda qarşılıqlı dəstəyimiz ölkələrimizin və xalqlarımızın mənafeləri naminə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Əziz Vladimir Nikolayeviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və dövlət fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 aprel 2005-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VATİKAN DÖVLƏTİNİN BAŞÇISI, ROMA PAPASI II İOHANN PAVELİN VƏFATI İLƏ ƏLAQƏDAR POLŞANIN BAKIDAKI SƏFİRLİYİNƏ GEDƏRƏK BAŞSAĞLIĞI VERMİŞDİR

*5 aprel 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Vatikan dövlətinin başçısı, zəmanəmizin görkəmli xadimi, tarixi şəxsiyyət, Zati-müqəddəsləri Roma Papası II İohann Pavelin vəfatı ilə əlaqədar Polşanın Bakıdakı səfirliyinə gedərək başsağlığı vermişdir.*

*Azərbaycan dövlətinin başçısını səfirliyin binası önündə Polşanın ölkəmizdəki müvəqqəti işlər vəkili Voyçex Quretski qarşıladı.*

*Prezident İlham Əliyev səfirliyin əməkdaşları ilə səmimi görüşüb onlara başsağlığı verdi, II İohann Pavelin vəfatı ilə əlaqədar səfirlikdə qoyulmuş matəm kitabına aşağıdakı sözləri yazdı:* «Vatikan dövlətinin başçısı, zəmanəmizin görkəmli xadimi, dahi şəxsiyyət II İohann Pavelin vəfatı xəbəri məni son dərəcə kədərləndirdi. Roma Papası II İohann Pavel bütün həyat və fəaliyyətini bəşəriyyət naminə nəcib amallara həsr etdi.

Vatikan ilə Azərbaycan arasında münasibətlərin inkişafında və möhkəmlənməsində onun misilsiz xidmətləri olub.

2002-ci ildə Roma Papasının Azərbaycana tarixi səfəri Vatikan ilə Azərbaycan arasında ikitərəfli əlaqələrin yeni səhifəsini açdı.

Bu ağır günlərdə dünyanın bütün katoliklərinə öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*5 aprel 2005-ci il».*

*Sonra prezident İlham Əliyev müvəqqəti işlər vəkili Voyçex Quretski ilə söhbət etdi. Dövlətimizin başçısı bir daha başsağlığı verərək dedi ki, bu yaxınlarda Polşaya səfərim zamanı yaxşı görüşlərim oldu, prezident cənab Aleksandr Kvasnevski Papanın bağışladığı hədiyyələri və ibadət etdiyi yeri göstərdi, Krakova, Papanın din xadimi funksiyalarını yerinə yetirdiyi şəhərə də getdim. Ona görə də Papanın vəfatı xəbəri adamı ağrıdır. Polşa vətəndaşlarına və bütün katoliklərə dərin hüznlə başsağlığı verir və səbir diləyirəm.*

*Müvəqqəti işlər vəkili Voyçex Quretski üz vermiş kədərli hadisə ilə əlaqədar onların dərdinə şərik olduğuna, səfirliyə gələrək başsağlığı verdiyinə görə prezident İlham Əliyevə təşəkkürünü bildirdi.*

## PAKİSTAN İSLAM RESPUBLİKASININ «OBSERVER» QƏZETİNİN BAŞ REDAKTORU ZAHİD MALİKƏ MÜSAHİBƏ VERMİŞDİR

*Prezident sarayı*

*5 aprel 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Pakistana qarşıdakı səfəri ilə əlaqədar Pakistan İslam Respublikasının çox nüfuzlu «Observer» qəzetinin Baş redaktoru Zahid Malikə müsahibə vermişdir.*

*Dövlətimizin başçısı İlham Əliyev müsahibədə ölkələrimiz arasında ikitərəfli münasibətlər, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, müxtəlif sahələrdə əlaqələrimizin genişləndirilməsi məsələləri barədə suallara ətraflı cavab vermişdir.*

## MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ TƏŞKİLATININ İCRAÇI KATİBİ VLADİMİR RUŞAYLO İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 aprel 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev aprelin 5-də Müstəqil Dövlətlər Birliyi təşkilatının icraçı katibi Vladimir Ruşaylonu qəbul etmişdir.*

*Görüş zamanı MDB-nin avqust ayında keçiriləcək zirvə toplantısına hazırlıq işləri, MDB məkanında gedən proseslər və təşkilat çərçivəsində əməkdaşlığın müxtəlif sahələri ilə bağlı bir sıra məsələlər müzakirə edilmişdir.*

* * *

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev xalqımızın ümummilli lideri, müstəqil dövlətimizin qurucusu Heydər Əliyev haqqında sənədli filmin çəkilişi ilə əlaqədar aprelin 5-də Prezident sarayında «Rusiya» telekanalı»nın çəkiliş qrupuna müsahibə vermişdir.*

**MONAKONUN ŞAHZADƏSİ ƏLAHƏZRƏT ALBERTƏ**

Əlahəzrət!

Atanızın – Monakonun knyazı III Renyenin vəfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar Sizə, ailənizə, bütün Monako xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 aprel 2005-ci il*

**SURİYA ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB BƏŞŞAR ƏL-ƏSƏDƏ**

Hörmətli cənab Prezident!

Suriya Ərəb Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasında yaranmış dostluq münasibətlərinin inkişafı xalqlarımızın mənafelərinə uyğun olaraq hərtərəfli əməkdaşlığımız üçün yeni imkanlar açacaqdır.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Suriya xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLIYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 aprel 2005-ci il*

**İRAQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB CƏLAL HÜSAMƏDDİN ƏT-TƏLABANİYƏ**

Hörmətli cənab Prezident!

İraq Respublikasının prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə İraq Respublikası arasında münasibətlər xalqlarımızın mənafeyinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost İraq xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLIYEV**
**Azərbaycan Respublikasinin Prezidenti**

Bakı, *7 aprel 2005-ci il*

## RUSİYA FEDERASİYASININ İLK PREZİDENTİ BORİS YELTSİNLƏ GÖRÜŞ

*7 aprel 2005-ci il*

*Rusiya Federasiyasının ilk prezidenti Boris Yeltsin xanımı ilə birlikdə aprelin 7-də Bakıya gəlmişdir. Heydər Əliyev adına beynəlxalq hava limanında hörmətli qonağı qarşılamışlar.*

*Boris Yeltsin ölkəmizə səfərinin məqsədləri barədə jurnalistlərin suallarına cavab verərək demişdir:* «Mən Azərbaycanda çoxdan olmamışam. Məni hələ vaxtilə Heydər Əliyeviç Bakıya dəvət etmişdi. İndi isə Azərbaycan prezidenti İlham Heydəroviç dəvət etdi. Ölkənizi görmək istəyirəm. Axı mən Bakıdan başqa, heç yerdə olmamışam. Prezidentlə, Baş nazirlə söhbət etmək, şəhərə, ətraf yerlərə gəzintiyə çıxmaq istəyirəm. Səfərim dörd gün davam edəcəkdir».

*Rusiyanın ilk prezidenti Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları barədə suala cavab verərək bildirmişdir ki, onun ölkəsinin bu məsələdə mövqeyi məlumdur və təzə bir şey gözlənilmir.*

* * *

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev aprelin 7-də Prezident sarayında Rusiya Federasiyasının keçmiş prezidenti Boris Yeltsinlə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə müvəffəqiyyətlə inkişafından söhbət açılmış, prezident İlham Əliyevin Rusiya Federasiyasına son səfərinin uğurla keçdiyi və bu səfərin qarşılıqlı əlaqələrin daha da möhkəmləndirilməsinə xidmət etdiyi vurğulanmışdır. Rusiyada Azərbaycan ilinin başlanması, gələn il isə Azər-*

baycanda Rusiya ilinin keçiriləcəyi ölkələrimizin uğurlu əməkdaşlığının təzahürü kimi qiymətləndirilmişdir.

* * *

Rusiyanın keçmiş prezidenti Boris Yeltsin aprelin7-də Fəxri xiyabanı ziyarət edərək, ümummilli lider Heydər Əliyevin xatirəsini yad etmiş və görkəmli siyasi xadimin məzarı önünə əklil qoymuşdur.

O, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üstünə də gül-çiçək qoymuşdur.

* * *

Boris Yeltsin və xanımı aprelin 7-də Heydər Əliyev Fondunda olmuşlar.

Azərbaycan prezidenti İlham Əliyev və fondun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban xanım Əliyeva qonaqlara xalqımızın ümummilli liderinin xatirəsinə ehtiram əlaməti olaraq yaradılmış fond və onun məqsədləri barədə məlumat verdilər.

Rusiyalı qonaqlar ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən eksponatlarla, o cümlədən həyatının ən müxtəlif anlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxsaylı fotoşəkillərlə, xalqımızın böyük oğluna həsr edilmiş kitablarla tanış oldular. Nadir fotolar bu dahi insanın olduqca zəngin və mənalı həyat yolu keçdiyini bir daha təsdiqləyir. Ulu öndərin şəxsən istifadə etdiyi əşyalar nadir və qiymətli eksponat kimi, qonaqların diqqətini çəkdi.

Boris Yeltsin və onu müşayiət edən şəxslər müstəqil Azərbaycanın qurucusunun respublikamıza rəhbərlik etdiyi təxminən 35 illik bir dövrə aid tofoşəkillərə maraqla baxdılar. İrimiqyaslı layihələrlə təkcə Azərbaycanı deyil, həm də Cənubi Qafqaz regionunu dünyaya tanıdan Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsi sahəsində görülmüş işlərin fotosalnaməsi, Rusiya ilə Azərbaycan arasında dostluğun möh-

kəmləndirilməsi istiqamətində ümummilli liderimizin xidmətləri qonaqlarda xüsusi maraq oyatdı.

Boris Yeltsin fondla tanışlıqdan sonra Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı: «Mən Heydər Əliyev Fondu ilə aşkar heyranlıqla tanış oldum. Mən Heydər Əliyeviçi yaxşı tanıyırdım, onunla müxtəlif şəraitlərdə tez-tez görüşürdüm. Ona çox-çox hörmət edirdim. Fondun binası, onun eksponatları və məzmunu ölkə sakinlərinin bütün nəsilləri üçün böyük insan haqqında əbədi xatirənin kiçicik, lakin çox mühüm bir hissəsidir. Fondun gözəl binasına görə əhsən və sağ olun. Sağ olun, Mehriban xanım».

Sonra qonaqlar fondun eyvanından paytaxtımızın mənzərəsini seyr etdilər. Onlar son illər ərzində Bakıda aparılan tikinti quruculuq işlərini yüksək qiymətləndirdilər, şəhərin gözəlliyinə heyran qaldıqlarını söylədilər.

## BELÇİKA KRALLIĞI PARLAMENTİ NÜMAYƏNDƏLƏR PALATASININ SƏDRİ HERMAN DE KROONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 aprel 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev görüş zamanı Belçikaya səfərini məmnunluqla xatırlatdı, həmin səfər zamanı Baş nazir cənab Gi Verhofstadtla və ölkənin digər yüksək vəzifəli şəxsləri ilə keçirdiyi görüşlərin, apardığı danışıqların və imzalanmış sənədlərin ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsi işinə öz töhfəsini verdiyini vurğuladı.*

*Prezident İlham Əliyev Belçikaya səfəri zamanı Azərbaycan nümayəndə heyətinin NATO-nun və Avropa Birliyinin tədbirlərində iştirak etdiyini xatırladaraq, ölkəmizin bu qurumlarla əlaqələrinin sürətlə inkişaf etdiyini bildirdi. «Sülh naminə tərəfdaşlıq» proqramında Azərbaycanın fəal iştirak etdiyini nəzərə çatdıran dövlətimizin başçısı hazırda Fərdi tərəfdaşlığın fəaliyyət planı ilə əlaqədar ölkəmizin NATO ilə uğurlu əməkdaşlıq etdiyini vurğuladı. Avropa Birliyinin «Yeni qonşuluq siyasəti»ndə Azərbaycanın fəal iştirak etdiyini bildirən prezident İlham Əliyev bu siyasət çərçivəsində ölkəmizin Avropa Birliyi ilə müxtəlif sahələrdə əlaqələrinin daim inkişaf etdiyini nəzərə çatdırdı.*

*Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, Belçika Parlamenti Nümayəndələr Palatasının nümayəndə heyətinin Azərbaycana səfəri onların ölkəmiz haqqında ətraflı məlumatlar əldə etməsi, əlaqələrimizin daha da möhkəmlənməsi işinə xidmət göstərəcəkdir.*

*Cənab Herman de Kroo Belçikanın Cənubi Qafqaz ölkələri ilə, o cümlədən Azərbaycanla əlaqələrə böyük əhəmiyyət verdiyini vurğuladı. Qonaq Avropa Birliyinə inteqrasiya prosesində Belçikanın Azərbaycanı daim dəstəklədiyini bildirdi. O dedi ki, Azərbaycanın Avropa Birliyi ilə əlaqələri uğurla inkişaf edir, o cümlədən energetika və digər sahələrdə əməkdaşlıq daim genişlənir. Cənab Herman de Kroo bütün bu proseslərin Azərbaycana sərmayə axınının daha da artmasına xidmət edəcəyinə əminliyini vurğuladı.*

*Daha sonra görüşdə hər iki ölkəni maraqlandıran bir sıra məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## YUNANISTAN RESPUBLİKASININ TURİZM NAZİRİ DİMİTRİS AVRAMOPULOSUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 aprel 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev Afina Olimpiya oyunlari keçirilərkən bu ölkəyə etdiyi səfəri və bu səfər zamanı Baş nazir Konstantinos Karamanlislə və cənab Dimitris Avramopulos ilə görüşlərini məmnunluqla xatırladı, Olimpiya oyunlarının yüksək səviyyədə təşkil edildiyini vurğuladı. Prezident İlham Əliyev Yunanıstan prezidentinin Azərbaycana səfərinin ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsi sahəsində yeni bir mərhələ açdığını, həmin səfər zamanı keçirilən görüşlərin, aparılan danışıqların, imzalanmış sənədlərin əməkdaşlığın daha da genişləndirilməsi işinə xidmət etdiyini bildirdi.*

*Azərbaycanın Avropa strukturlarına sürətlə inteqrasiya edildiyini vurğulayan prezident İlham Əliyev Yunanıstan hökumətinin ölkəmizin bu səylərini dəstəkləməsini yüksək qiymətləndirdi.*

*Prezident İlham Əliyev ölkələrimiz arasında həm ikitərəfli, həm də Avropa Birliyi çərçivəsində əlaqələrin bundan sonra da daim inkişaf edəcəyinə əminliyini vurğuladı və ümidvar olduğunu bildirdi ki, cənab Dimitris Avramopulosun bu səfəri həm əlaqədar nazirliklər, həm də ölkələrimiz arasında turizm sahəsində, habelə digər sahələrdə əlaqələrin daha da genişləndirilməsi işinə xidmət edəcəkdir.*

*Cənab Dimitris Avramopulos Yunanıstanın Baş naziri Konstantinos Karamanlisin səmimi salamlarını prezident İlham Əliyevə çatdırdı, Azərbaycan prezidentinin Yunanıstana rəsmi səfərini gözlədiklərini bildirdi.*

*Ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini söyləyən qonaq turizm sahəsində əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük potensial olduğunu vurğuladı. Azərbaycanın müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə böyük inkişafa nail olduğunu nəzərə çatdıran Dimitris Avramopulos bütün bu proseslərin yaxın zamanlarda Azərbaycanın regionda sülhün və sabitliyin təminatçısı olması işinə xidmət edəcəyinə əminliyini vurğuladı.*

*Prezident İlham Əliyev Yunanıstan Baş nazirinin səmimi salamlarına görə minnətdarlığını bildirdi, onun da səmimi salamlarını cənab Konstantinos Karamanlisə çatdırmağı xahiş etdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV PAPA II İOHANN PAVELİN DƏFN MƏRASİMİNDƏ

*7 aprel 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Vatikan Dövlətinin başçısı Zati-müqəddəsləri II İohann Pavelin dəfn mərasimində iştirak etmək üçün Romaya səfərə yola düşmüşdür.*

*Prezident İlham Əliyev aprelin 8-də Romada Vatikan Dövlətinin başçısı, Zati-müqəddəsləri Papa II İohann Pavelin dəfn mərasimində iştirak etmişdir.*

*Papa ilə vidalaşmaq üçün Romaya 200-dən çox nümayəndə heyəti gəlmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasim zamanı Almaniyanın kansleri Gerhard Şröder, Fransanın prezidenti Jak Şirak, Böyük Britaniyanın Baş naziri Toni Bleyr, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan və Ukraynanın prezidenti Viktor Yuşşenko ilə görüşmüşdür.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 8-də gecə Bakıya qayıtmışdır.*

**DANİMARKANIN KRALİÇASI**
**ÜLYAHƏZRƏT II MARQRETEYƏ**

Ülyahəzrət!

Ölkənizin milli bayramı – Təvəllüd gününüz münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Danimarka münasibətləri daim dostluq və əməkdaşlıq ruhunda inkişaf edərək xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Danimarka xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 aprel 2005-ci il*

## «SƏRHƏDSİZ REPORTYORLAR» BEYNƏLXALQ TƏŞKİLATININ BAŞ KATİBİ ROBERT MENARD İLƏ GÖRÜŞ

*Bakı, Heydər Əliyev adına Beynəlxalq hava limanı*

*8 aprel 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev görüş zamanı bu təşkilatla əməkdaşlığı yüksək qiymətləndirdi.*

*Qəbul üçün təşəkkür edən Robert Menard Azərbaycanda söz, mətbuat azadlığı sahəsindəki vəziyyətlə maraqlandı.*

*Prezident İlham Əliyev ölkəmizdə mətbuatın vəziyyəti, söz azadlığının təmin olunması, senzuranın ləğvi, kütləvi informasiya vasitələrinin fəaliyyəti üçün yaradılan şərait, o cümlədən onların maddi-texniki bazasının yaxşılaşdırılması, vergidən azad edilməsi ilə əlaqədar son illərdə dövlət tərəfindən görülmüş tədbirlərdən danışdı.*

*Sonra «Monitor» jurnalının Baş redaktoru Elmar Hüseynovun qətlinin açılması məsələsinə toxunuldu. Dövlətimizin başçısı bununla bağlı görülən tədbirlərdən söhbət açdı, hadisədən dərhal sonra Təhlükəsizlik Şurasının iclasını keçirdiyini, bəyanat verdiyini diqqətə çatdırdı və dedi ki, bu cinayətin üstünün açılması ilə əlaqədar hüquq mühafizə orqanlarına ciddi tapşırıqlar verilmişdir. İstintaqın gedişi nəzarətdədir, bu qətl hadisəsinin üstü açılmalıdır. Çünki bu, Azərbaycanın demokratik inkişafı üçün bir zərbədir, ləkədir.*

*Robert Menard Bakıya səfəri zamanı keçirdiyi görüşlərdən razılığını bildirdi, bu məsələ ilə bağlı Prezident Administrasiyası, digər dövlət qurumları və ictimai təşkilatlarla əlaqə saxlanılacağını söylədi. O, Azərbaycanda söz azadlığı sahəsindəki mövcud vəziyyəti prinsipcə demokratik dövlətlərdə olduğu kimi qiymətləndirdi.*

## FRANSA SENATININ FRANSA–AZƏRBAYCAN DOSTLUQ QRUPUNUN SƏDRİ, SENATOR AMBRUAZ DÜPONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 aprel 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev nümayəndə heyətinin Bakıda Fransa Mədəniyyəti Mərkəzinin açılışında iştirakından məmnun olduğunu bildirdi və bu hadisənin cəmiyyətimizdə böyük maraqla izlənildiyini vurğuladı.*

*Aprelin 8-də Romada Papa II İohann Pavelin dəfn mərasimində Fransa prezidenti Jak Şirakla görüşünü məmnunluqla xatırladan prezident İlham Əliyev ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin daim uğurla inkişaf etdiyini nəzərə çatdırdı. Azərbaycan–Fransa parlamentlərarası əlaqələrin möhkəmləndiyini vurğulayan dövlətimizin başçısı beynəlxalq təşkilatlar çərçivəsində də ölkələrimizin uğurla əməkdaşlıq etdiyini bildirdi.*

*Azərbaycan ilə Fransa arasında Avropa Birliyi çərçivəsində əməkdaşlığın böyük əhəmiyyət daşıdığını vurğulayan prezident İlham Əliyev ölkəmizin Avropaya inteqrasiyasına və Avropa Birliyinin yeni qonşuluq siyasətində fəal iştirakına Fransa hökumətinin verdiyi dəstəyi yüksək qiymətləndirdi.*

*Dövlətimizin başçısı Azərbaycanda Fransa Mədəniyyəti Mərkəzinin açılmasının ölkələrimiz arasında həm humanitar əlaqələrin, həm də ikitərəfli münasibətlərin genişləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Azərbaycanda Fransa Mədəniyyəti Mərkəzinin açılmasını yüksək dəyərləndirən cənab Ambruaz Düpon Fransa Senatının sədri cənab Kristian Ponsölenin bu mərkəzin açılmasına böyük əhəmiyyət verdiyini vurğuladı. Cənab Kristian Ponsölenin gərgin iş cədvəlinə görə Bakıya gələ bilmədiyini söyləyən qonaq onun səmimi salamlarını və ehtiramını prezident İlham Əliyevə çatdırdı.*

*Qonaq dövlətimizin başçısının Fransaya səfərləri, özünün isə Bakıya səfərləri zamanı prezident İlham Əliyevlə görüşlərini həmişə məmnunluqla xatırladığını vurğuladı.*

*Azərbaycan–Fransa əlaqələrinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirən cənab Ambruaz Düpon bu mərkəzin açılmasının ölkələrimizin və xalqlarımızın bir-birinə daha da yaxınlaşması işinə xidmət edəcəyinə əmin olduğunu söylədi.*

*Fransa Senatı sədrinin səmimi salamlarına görə minnətdarlığını bildirən prezident İlham Əliyev onun da səmimi salamlarını və ehtiramını cənab Kristian Ponsöleyə çatdırmağı xahiş etdi.*

## ATƏT-in KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN AZADLIĞI ÜZRƏ NÜMAYƏNDƏSİ MİKLOS HARAŞTİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 aprel 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev son on ildə Azərbaycanda mətbuatın vəziyyəti və onun inkişafı sahəsində dövlətin gördüyü işlər, o cümlədən 1992-ci ildən tətbiq edilmiş senzuranın ləğvi, mətbuata dövlət qayğısının artırılması, onun maddi-texniki bazasının gücləndirilməsi ilə bağlı ölkə başçısının 2001–2002-ci illərdə imzaladığı sərəncamlar, kütləvi informasiya vasitələri haqqında qanuna Avropa Şurası ilə əməkdaşlıq şəraitində edilmiş dəyişikliklər və bu qanunun Avropa standartları səviyyəsinə çatdırılması, teleradio haqqında yeni qanunun qəbul olunması, ictimai televiziyanın yaradılması barədə ətraflı söhbət açdı.*

*Geniş məlumat üçün təşəkkür edən cənab Niklos Haraşti Azərbaycanda mətbuat sahəsindəki mövcud vəziyyətin istər dünyada, istərsə də Avropada ölkənin imicinə müsbət təsir göstərdiyini söylədi. Qonaq Azərbaycan prezidentinin son əfv fərmanının, habelə ictimai televiziyanın yaradılması ilə bağlı görülən tədbirlərin ATƏT-də, Avropa Şurasında və digər beynəlxalq təşkilatlarda müsbət qarşılandığını vurğuladı, Azərbaycanda demokratik cəmiyyət quruculuğuna uyğun olaraq bundan sonra da söz, mətbuat azadlığı, siyasi plüralizm sahəsində addımlar atılacağına ümidvar olduğunu bildirdi.*

*Cənab Niklos Haraşti jurnalist Elmar Hüseynovun qətlə yetirilməsi hadisəsi ilə də maraqlandı, eyni zamanda bu hadisəyə ölkə prezidentinin münasibətini təqdir etdiyini söylədi.*

*Dövlətimizin başçısı həmin hadisə ilə əlaqədar hüquq mühafizə orqanlarının istintaq apardığını, son vaxtlar isə ona Milli Təhlükəsizlik Nazirliyinin də qoşulduğunu, bu məsələnin ciddi nəzarətdə olduğunu vurğuladı.*

*Görüşdə söz, mətbuat azadlığı sahəsində Azərbaycanın gələcəkdə də Avropa Şurası ilə, ATƏT-lə əlaqəli işləyəcəyi, birgə seminarların, monitorinqlərin keçiriləcəyi bildirildi.*

## RUSİYA VETERANLAR ASSOSİASİYASININ NÜMAYƏNDƏ HEYƏTİ, RUSİYA JURNALİSTLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 aprel 2005-ci il*

*Azərbaycan dövlətinin başçısı İlham Əliyev qonaqları salamlayaraq, görkəmli veteranlardan – Sovet İttifaqı və Sosialist Əməyi qəhrəmanlarindan ibarət mötəbər nümayəndə heyətinin Bakıya gəlməsindən məmnunluq duyduğunu bildirdi. Prezident dedi: «Böyük Qələbənin 60 illiyinin bayram edildiyi ildə biz ancaq tarixdən bildiyimiz o günlərin qəhrəmanlığını bir daha xatırlayırıq. Hər bir insan silaha sarılaraq öz ölkəsini müdafiə etmiş, dünyada və Avropada azadlığı qorumuş adamlara dərin ehtiramını bildirməlidir. Azərbaycanda veteranlara böyük qayğı göstərilir. Biz bu tarixlə və 600 min azərbaycanlının Böyük Vətən müharibəsində vuruşması ilə fəxr edirik. Təəssüf ki, onların yarısı həlak olmuşdur. Azərbaycanın hər yerində o illərin hadisələrini xatırlayır, qəhrəmanlıq göstərmiş insanların xatirəsini anırlar».*

*Dövlətimizin başçısı Qələbənin 60 illiyi ilə əlaqədar Azərbaycanda Beynəlxalq Forum keçirilməsi faktından məmnunluq duyduğunu bildirərək dedi ki, ölkəmizdə bu hadisəni yaxşı qeyd etməyə hazırlaşırlar.*

*O vurğuladı ki, Azərbaycanın müasir tarixində, müstəqillik əldə edildikdən dərhal sonra Böyük Vətən müharibəsinə və Qələbə gününə aid hadisələrə başqa münasibət göstərildiyi dövr olmuşdur. Ölkənin o vaxtkı rəhbərliyi belə istəyirdi və bu onların yeganə səhvi deyildi. Lakin Heydər Əliyev yenidən Azərbaycana rəhbərliyə gəldikdən sonra bu ədalətsizlik aradan*

*qaldırıldı və Qələbə günü Azərbaycanın rəsmi bayramı elan edildi. Veteranlarla görüşlər keçirilməyə başlandı, dövlət veteranlara qayğı göstərilməsi, onların sosial təminatı vəzifəsini öz üzərinə götürdü və bu siyasət davam etdirilir.*

*Sovet İttifaqı Qəhrəmanı, Moskvanın və Moskva vilayətinin Sovet İttifaqı qəhrəmanlari, Rusiya Federasiyası qəhrəmanlari və «Şöhrət» ordeninin hər üç dərəcəsi ilə təltif olunanlar klubu idarə heyətinin sədri, general-polkovnik Nikolay Antoşkin Beynəlxalq Forumda iştirak etmək dəvətinə görə Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasına və Azərbaycan veteranlarına təşəkkürünü bildirdi. O, Azərbaycan prezidentinə faşist Almaniyasının məğlubiyyətə uğradılması işinə müstəsna töhfə vermiş Bakıya Qəhrəman şəhər adı verilməsi haqqında tarixi həqiqətin bərpa olunması xahişi ilə müraciət etdi. Rusiyalı veteran dedi: «Bakı nefti olmasaydı, Qələbə də olmazdı. Biz bunu çox gözəl başa düşürük». O, Azərbaycan veteranlarına qayğı və diqqətə görə dövlətimizin başçısına təşəkkür etdi.*

*Sosialist Əməyi Qəhrəmanı, Rusiya–Azərbaycan Dostluq Cəmiyyətinin prezidenti Nikolay Baybakov Bakıya Qəhrəman şəhər adı verilməsi məsələsinə həsr olunmuş bu forumda iştirak etmək dəvətinə görə təşəkkürünü bildirdi. O dedi: «Bu ad çoxdan verilməli idi, çünki faşizm üzərində qələbə qazanılmasında Bakının çox böyük töhfəsi olmuşdur». N.Baybakov müharibə illərində SSRİ neft sənayesi xalq komissarının müavini vəzifəsində fəaliyyətindən danışaraq bildirdi ki, Azərbaycan düşmən üzərində qələbədə çox böyük, hətta deyərdim, həlledici rol oynamışdır. Axı müharibə illərində SSRİ-də çıxarılan neftin üçdə iki hissəsi Azərbaycanın payına düşürdü. O vurğuladı ki, Azərbaycan nəinki cəbhəni yanacaqla təmin edir, həm də öz fəaliyyətinə yenicə başlayan "İkinci Bakı"ya kömək edirdi.*

*Nikolay Baybakov müharibə illərində Bakı neftinin rolu haqqında yazdığı «Neft cəbhəsi» kitabını dövlətimizin başçısına təqdim etdi.*

*Rusiya Jurnalistlər İttifaqının sədri Vsevolod Boqdanov prezident İlham Əliyev ilə keçirilən bu görüşü yüksək qiymətləndirdi, Azərbaycanda gedən demokratikləşmə prosesinin ölkənin inkişafına xidmət etdiyini bildirdi, respublikada fəaliyyətə başlayacaq İctimai televiziyanın bazasında Böyük Vətən müharibəsi illərində Bakının xidmətləri haqqında serial çəkilməsinə dair təşəbbüs irəli sürdü. O dedi: «Öz keçmişinə, valideynlərinə məhəbbət hissləri bəsləmədən vətəndaş cəmiyyəti qurmaq mümkün deyildir. Siz atanızın layiqli oğlusunuz. Biz onun xatirəsinə hörmət edirik».*

*Nikolay Antoşkin «Sovet İttifaqı Qəhrəmanından» rəmzi saatı Azərbaycan prezidentinə təqdim etdi. Eyni zamanda, Bakıda keçirilən forumda iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun muzeyinin yaradılmasını təklif etdiklərini söylədi. Dövlətimizin başçısı bu təklifi dəstəklədiyini bildirdi.*

*Sovet İttifaqı Qəhrəmanı, Təhlükəsizlik, Müdafiə və Hüquq Qaydası Problemləri Akademiyasının birinci vitse-prezidenti, general-polkovnik Nikolay Kizyun dedi ki, Akademiyanın rəyasət heyəti partiya, dövlət xadimi kimi, Sovet İttifaqının təhlükəsizliyinin təmin olunması keşiyində dayanmış insan kimi, prezident Heydər Əliyevin böyük xidmətlərini qeyd edərək, ölümündən sonra onu Yuri Andropov ordeni ilə mükafatlandırmağı qərara almışdır. Akademiya Azərbaycan ilə Rusiya arasında dostluq münasibətlərinin və əməkdaşlığın inkişafına töhfəyə görə prezident İlham Əliyevi «Birinci dərəcəli Aleksandr Nevski ordeni» ilə mükafatlandırdı.*

*Hər iki orden Azərbaycan dövlətinin başçısına təqdim olundu.*

*Nikolay Kizyun daha sonra bildirdi ki,Təhlükəsizlik, Müdaifə və Hüquq Qaydası Problemləri Akademiyasının qərarı ilə müharibə illərindəki böyük xidmətlərinə görə Bakı şəhəri «Birinci dərəcəli Böyük Pyotr ordeninə» layiq görülmüşdür. Bu orden də Azərbaycan prezidentinə təqdim edildi.*

*Prezident İlham Əliyev xoş sözlərə və yüksək mükafatlara görə təşəkkürünü bildirərək, görüş iştirakçılarını əmin etdi ki, o, keçmiş haqqında xatirənin indiki və gələcək nəsillərin*

*qəlbində yaşaması üçün hər şey edəcəkdir. İndi tamamilə yeni mühitdə yaşayan və formalaşan gənclərin öz babalarının xatirəsini yaşatması, sırf insani münasibətlərə əsaslanan dostluqdan xəbərdar olması çox vacibdir. «Həlak olanların xatirəsinin qorunub saxlanılması, veteranlara qayğı göstərilməsi hər hansı cəmiyyətin inkişaf səviyyəsinin göstəricisidir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Azərbaycan dövlətçiliyini onilliklər ərzində yaratmışdır, müstəqil Azərbaycan dövlətinin təşəkkülü çox ağır şəraitdə keçmişdir. Lakin indi biz bu müsbət təcrübə əsasında inkişaf edirik. İndi müxtəlif dövlətlərdə yaşamağımıza baxmayaraq, yaşlı nəsillər arasında olmuş əlaqələr bizim nəslə də, gələcəyə də ötürülməlidir. Əlaqələri, ünsiyyəti kəsməmək vacibdir. Bizi ümumi dəyərlər, ümumi tarix birləşdirir. Biz istəyirik ki, gələcəkdə bu əlaqələr inkişaf etsin, bütün nailiyyətlərimiz xalqlarımıza xidmət etsin».*

*Prezident İlham Əliyev görüş iştirakçıları ilə xatirə şəkli çəkdirdi.*

## «MONITOR» JURNALININ BAŞ REDAKTORU ELMAR HÜSEYNOVUN QƏTLƏ YETIRILMƏSININ 40-cı GÜNÜNÜN TAMAM OLMASI ILƏ ƏLAQƏDAR MƏRHUMUN ATASI SABIR HÜSEYNOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 aprel 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev mərhumun atasına bir daha başsağlığı verərək dedi ki, əlbəttə, bu, böyük dərddir, böyük faciədir. Mən başa düşürəm ki, siz çətin günlər yaşayırsınız. Biz çalışırıq ki, bu qətlin üstü açılsın. Bilirsiniz ki, bütün səylərimiz səfərbər olunubdur. Eyni zamanda, beynəlxalq təşkilatlara da müraciətlər edilibdir. Onların da nümayəndələri gəliblər, bizimkilərlə birlikdə işləyirlər. Mən ümid edirəm ki, bu cinayətin üstü açılacaq və qatillər məsuliyyətə cəlb olunacaqlar.*

*Sizə də səbr diləyirəm. Mən Hacıbala müəllimə tapşırmışam ki, bütün lazım olan məsələləri həll etsin. Bundan sonra da o həmişə sizin yanınızda olacaqdır.*

*Prezident İlham Əliyevə dərin təşəkkürünü bildirən Sabir Hüseynov dedi ki, cənab Prezident, bu hadisə baş verəndən sonra dərhal öz münasibətinizi bildirdiniz. Mən bunu hiss edirdim. Artıq hadisə olubdur. Bu hadisədən sonra Siz sərəncam verdiniz. Ötən 40 gün ərzində Hacıbala müəllim, Abid müəllim və onların işçiləri mənim yanımda olublar. Daim bizimlə əlaqə saxlayıblar, bizim ailə üçün olduqca çox iş görüblər. Ona görə də prezident kimi, Sizə, tabeçiliyinizdə olan bütün adamlara – onlar 40 gün ərzində əziyyət çəkiblər, yüksək səviyyədə iş görüblər – öz minnətdarlığımı bildirirəm.*

*Sabir Hüseynov hələ Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci dövründə bu ailəni tanıdığını, ümummilli liderimizin və Zərifə xanımın ona hörmətlə yanaşdıqlarını minnətdarlıqla xatırladı və onların hər ikisinə Allahdan rəhmət dilədi. O, prezident İlham Əliyevin də uşaqlıq illərini, hətta onunla şahmat oynadığını da yada saldı, dövlətimizin başçısına, ailəsinə uzun ömür, cansağlığı arzuladı.*

*Azərbaycan prezidenti İlham Əliyev təşəkkür edərək bir daha dedi ki, mən Hacıbala müəllimə tapşırıq vermişəm, bundan sonra da nə lazımdırsa edəcəkdir. Biz hamımız bunu etməliyik.*

*Bu gün Elmarın qırxıdır. Mən tapşırıq verdim ki, bundan sonra da bütün məsələləri həll etsin, qayğı ilə yanaşsın, Elmarın uşağı qalıbdır. Onun gələcəyi haqqında da, əlbəttə, düşünmək lazımdır. Biz tərəfdən, hökumət tərəfindən nə lazımdır ediləcək ki, uşaq heç bir şeydən korluq çəkməsin, normal böyüsün.*

*Yenə də deyirəm, bu, ölkəmiz üçün böyük zərbədir. Əlbəttə, sizin ailəniz üçün, ata üçün oğul itirmək böyük faciədir. Amma bu, ölkəmiz üçün də böyük zərbə oldu. Azərbaycanın inkişafına böyük zərbə oldu. Kim bunu edib, hansı məqsədlə edib – biz mütləq bunun üstünü açmalıyıq. İlk növbədə ona görə açmalıyıq ki, Azərbaycanda belə hadisələr bir daha təkrarlanmasın. Digər tərəfdən, bu cinayəti törətmiş şəxslər ciddi şəkildə cəzalandırılmalıdırlar. Biz bunu istəyirik. Bütün göstərişlər verilibdir. Hüquq mühafizə orqanları çox gərgin işləyirlər. Mən ümid edirəm ki, qatillər tapılacaq və cinayət məsuliyyətinə cəlb olunacaqlar.*

*Mən sizə bir daha səbr diləyirəm. Bu, böyük dərddir, böyük faciədir. Əgər hökumət tərəfindən görülən və görüləcək işlər heç olmasa, bu dərdi bir qədər azalda bilsə, hesab edirik ki, öz funksiyamızı yerinə yetirmiş oluruq. Sağ olun.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN PAKİSTANA RƏSMİ SƏFƏRİ

*12 aprel 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Pakistan İslam Respublikasının prezidenti Pərviz Müşərrəfin dəvəti ilə bu ölkəyə rəsmi səfərə yola düşmüşdür.*

* * *

*Aprelin 12-də Azərbaycan prezidenti İlham Əliyev İslamabad şəhərinə gəlmişdir.*

*Azərbaycanın və Pakistanın dövlət bayraqları və dövlətimizin başçısını salamlayan transparantlarla bəzədilmiş «Çaklala» hərbi hava bazasında Ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Dövlətimizin başçısı İlham Əliyevi təyyarənin pilləkəni yanında Pakistanın Müdafiə Sənayesi naziri Həbibulla Xan Varraix, ölkənin digər yüksək vəzifəli şəxsləri, Azərbaycanın İslamabaddakı səfiri Eynulla Mədətli, Pakistanın Bakıdakı səfiri Məhəmməd Hafiz böyük hörmət və ehtiramla qarşıladılar.*

*Milli geyimli oğlan və qız prezident İlham Əliyevə gül dəstəsi təqdim etdilər. Dövlətimizin başçısının gəlişi şərəfinə toplardan yaylım atəşi açıldı.*

*Azərbaycan prezidenti İlham Əliyev fəxri motosikletçilər dəstəsinin müşayiəti ilə onun üçün ayrılmış iqamətgaha – «Marriott» mehmanxanasına gəldi. Avtomobil karvanının keçdiyi yol boyu dövlətimizin başçısını salamlayan transparantlar asılmışdı.*

*Aprelin 12-də Pakistan İslam Respublikası prezidentinin sarayında – «Ayvan–e-sədr»də Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Dövlətimizin başçısının şərəfinə sarayın qarşısında fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Pakistan prezidenti Pərviz Müşərrəf Azərbaycan prezidenti İlham Əliyevi böyük səmimiyyətlə və mehribanlıqla qarşıladı. Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi.*

*Azərbaycanın və Pakistanın dövlət himnləri səsləndi. Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Pakistanın dövlət və hökumət nümayəndələri prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri prezident Pərviz Müşərrəfə təqdim olundu.*

*Rəsmi qarşılanma mərasimində Pakistanın Baş naziri Şövkət Əziz iştirak edirdi.*

## PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏF İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*12 aprel 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev ilə Pakistan İslam Respublikasının prezidenti Pərviz Müşərrəf arasında təkbətək görüş oldu.*

*Azərbaycana rəsmi səfərini və ölkəmizdə keçirdiyi görüşləri yaxşı xatırladığını bildirən prezident Pərviz Müşərrəf Bakıda ona göstərilmiş qonaqpərvərliyə və diqqətə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi. O, Azərbaycanda son illərdəki sürətli inkişafın Pakistanda yüksək qiymətləndirildiyini vurğuladı, eyni zamanda, 2001-ci ildən bəri Pakistanda gedən davamlı iqtisadi inkişaf prosesləri barədə məlumat verdi.*

*Onun dəvətini qəbul edib rəsmi səfərə gəldiyinə görə prezident İlham Əliyevə bir daha minnətdarlıq edən Pakistan rəhbəri dedi ki, biz bu səfərinizi çox səbirsizliklə gözləyirdik. Ölkəmizə gəlməyinizdən çox şadıq və əminik ki, burada keçirəcəyiniz görüşlər iki qardaş ölkə arasındakı əməkdaşlığın inkişafına güclü təkan verəcəkdir.*

*Dövlətimizin başçısı İlham Əliyev səmimi sözlərə və səfərə dəvətə görə prezident Pərviz Müşərrəfə minnətdarlığını bildirdi və əminliklə vurğuladı ki, bu səfər dost ölkələrimizin əlaqələrinin daha da inkişaf etməsində mühüm rol oynayacaq və əməkdaşlığımızda yeni mərhələ açacaqdır.*

*Görüşdə rabitə və informasiya texnologiyaları sahəsində əməkdaşlığa böyük önəm verildiyi, Pakistanda bu sahənin sürətlə inkişaf etdiyi vurğulandı. prezident Pərviz Müşərrəf ölkələrimizin müxtəlif regional və beynəlxalq qurumlarda əməkdaşlığının, ticarət dövriyyəsinin artırılmasının, birbaşa*

*uçuşların təşkil olunmasının əhəmiyyətindən danışdı. O, TRASEKA layihəsində müşahidəçi kimi iştirak edən Pakistanın gələcəkdə ona tam qoşulmasına verdiyi dəstəyə görə Azərbaycana və prezident İlham Əliyevə minnətdarlığını bildirdi.*

*Dövlətimizin başçısı ölkələrimiz arasındakı münasibətlərin günbəgün inkişaf etdiyini xatırlatdı və xüsusi vurğuladı ki, rabitə və informasiya texnologiyaları, mədəniyyət, maliyyə sektoru, təhsil, nəqliyyat, aviasiya sahələrində əməkdaşlıq zəruridir. Bütün bunlar əlaqələrin genişlənməsinə mühüm təkan verəcəkdir.*

*Prezidentlər Kəşmir və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələləri ətrafında geniş fikir mübadiləsi apardılar. Tərəflər problemlərin ədalətli, beynəlxalq hüquq normaları çərçivəsində həllinə tərəfdar olduqlarını, bu sahədə ölkələrimizin bir-birini bütün beynəlxalq təşkilatlarda daim dəstəklədiyini və gələcəkdə də dəstəkləyəcəyini vurğuladılar.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏFİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*İslamabad*

*12 aprel 2005-ci il*

*Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Pakistan prezidenti Pərviz Müşərrəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş oldu.*

*Ali qonağı bir daha səmimiyyətlə salamlayan və onun Pakistana rəsmi səfərindən böyük şərəf duyduğunu vurğulayan prezident Pərviz Müşərrəf əminliklə bildirdi ki, burada keçiriləcək görüşlərdə hər iki ölkəni maraqlandıran bir çox məsələlər hərtərəfli müzakirə ediləcəkdir. Pakistanın dövlət başçısı özünün Azərbaycana rəsmi səfərini məmnuniyyətlə xatırlatdı və indiyədək imzalanmış ikitərəfli sənədlərin bütün sahələrdə əməkdaşlığın inkişafında əhəmiyyətini vurğuladı. O, dövlətimizin başçısına müraciətlə dedi ki, biz əsas problemlərə eyni mövqedən yanaşırıq, ölkələrimiz arasında çoxlu oxşarlığın olması da buna əsas verir. Məhz Kəşmir problemi barədə Azərbaycanın açıq mövqeyini və Ermənistanın Azərbaycana təcavüzünün Pakistan tərəfindən daim pislənməsini vurğulamaq istəyirəm. Biz qonşu dövlətlərlə sülh şəraitində yaşayaraq, ölkələrimizin və xalqlarımızın əlaqələrinin möhkəmlənməsini arzulayırıq.*

*Pakistanda aparılan islahatlar barədə məlumat verən cənab Pərviz Müşərrəf dedi ki, biz əsas diqqəti ölkənin iqtisadi*

*inkişafına yönəldirik və bu baxımdan Azərbaycanla əlaqələrin möhkəmləndirilməsinə də xüsusi diqqət yetiririk.*

*Pakistanın prezidenti dövlətimizin başçısına müraciətlə dedi ki, biz Ermənistanın Azərbaycana hərbi təcavüzünü qətiyyətlə pisləmişik və bu mövqeyimizə bundan sonra da sadiq qalacaq, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması tələbini hər zaman dəstəkləyəcəyik. Çünki dövlətlərin ərazi bütövlüyü beynəlxalq miqyasda qəbul olunmuş ən ali prinsiplərdən biridir. Əminik ki, ATƏT-in Minsk qrupu çərçivəsində göstərilən səylər müvəffəqiyyətlə başa çatacaq, Ermənistan silahlı qüvvələri Azərbaycan ərazilərindən çıxarılacaq və ölkənizin tərəqqisində böyük nailiyyətlər əldə edəcəksiniz.*

*Azərbaycan prezidenti İlham Əliyev xoş sözlərə görə və onu Pakistana rəsmi səfərə dəvətə, burada özünə və nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə cənab Pərviz Müşərrəfə minnətdarlığını bildirdi, ölkələrimiz arasında iqtisadi əlaqələrin günbəgün genişləndiyini diqqətə çatdırdı.*

*Pakistana səfərini cənab Pərviz Müşərrəfin Azərbaycana səfərinin davamı kimi səciyyələndirən prezident İlham Əliyev bunu ölkələrimiz arasındakı münasibətlərin daimi xarakter daşımasının təzahürü kimi qiymətləndirdi. Dövlətimizin başçısı əsas məsələlərdə ölkələrimizin eyni mövqedə olmasından məmnun qaldığını bildirdi.*

*Prezident İlham Əliyev Pakistanın respublikamızın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olduğunu və Ermənistanın Azərbaycana təcavüzünü pislədiyini xatırlatdı. O, xüsusi vurğuladı ki, bu məsələ BMT-nin Təhlükəsizlik Şurasında müzakirə edilərkən Pakistanın birmənalı şəkildə ədalətli mövqe tutaraq Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, Ermənistanın hərbi təcavüzünün pislənilməsi barədə verdiyi bəyanatlar və Azərbaycanın haqq işini müdafiə etməsi ölkəmizdə yüksək qiymətləndirilir. Bütün bunlara görə mən Pakistana və ölkənin prezidentinə təşəkkürümü bildirirəm.*

*Dövlətimizin başçısı eyni zamanda, Kəşmir probleminə toxunaraq dedi ki, Azərbaycan həmin problemlə bağlı beynəl-*

*xalq müzakirələrdə həmişə Pakistanın mövqeyini müdafiə edib və bundan sonra da edəcəkdir.*

*Görüşdə bildirildi ki, ölkələrimiz arasında iqtisadi əlaqələri genişləndirmək, ticarət dövriyyəsinin həcmini artırmaq zəruridir. 2004-cü ildə ticarət dövriyyəsinin həcmi təqribən 2 milyon ABŞ dolları olmuşdur ki, bu da ürəkaçan rəqəm deyildir.*

*Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparıldı.*

## GÖRÜŞ BAŞA ÇATDIQDAN SONRA PAKİSTAN PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏFİN VƏ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BİRGƏ MƏTBUAT KONFRANSI

*İslamabad*

*12 aprel 2005-ci il*

### Pakistan prezidenti Pərviz Müşərrəfin bəyanatı

Bismillahir-rəhmanir-rəhim!

Hörmətli xanımlar və cənablar!

Azərbaycan Respublikasının prezidenti zati-aliləri cənab İlham Əliyevi burada səmimiyyətlə salamlayıram. Prezident Əliyev mənim dəvətimlə Pakistana səfərə gəlmişdir. Mən bu dəvəti ötən ilin iyul ayında Azərbaycan kimi gözəl ölkəyə səfərim zamanı etmişdim.

Siz hamınız bilirsiniz ki, Pakistan və Azərbaycan qardaş ölkələrdir. Bizim ümumi baxışlarımız, mədəniyyətimiz və tariximiz var. Məhz buna görə də iki məmləkətin münasibətlərinin bütün sahələrdə – həm siyasi, həm də ticarət-iqtisadi sahələrdə bu qədər yaxın olmasının səbəbini əlavə izah etməyə ehtiyac yoxdur. Biz əməkdaşlığımızın bütün mümkün sahələrini müzakirə etdik. İki tərəf arasında siyasi əlaqələrin və siyasi, diplomatik anlaşmanın səviyyəsindən məmnun olduğumuzu vurğuladıq.

Mən Pakistana Kəşmir məsələsində verdiyi daimi dəstəyə görə prezident Əliyevə təşəkkürümü bildirdim. Eyni zamanda, birmənalı və aydın şəkildə bəyan etdim ki, Pakistan da Dağlıq Qarabağ məsələsində Azərbaycanı, bu ölkədəki qardaşlarımızı

daim dəstəkləyəcəkdir. Çünki haqq-ədalət Azərbaycanın tərəfindədir. Bu işdə ədalət zəfər çalmalıdır. Pakistan Dağlıq Qarabağ problemi ilə bağlı Azərbaycanı bütün beynəlxalq forumlar çərçivəsində dəstəkləməkdə davam edəcəkdir.

Eyni zamanda biz müəyyən etdik ki, siyasi münasibətlərimizin ən yüksək səviyyədə olmasına baxmayaraq, iki ölkə arasındakı iqtisadi-ticarət əlaqələri çox zəif inkişaf etmişdir. Beləliklə, biz hər iki tərəfin özəl sektorunun nümayəndələrini bir araya gətirməklə bu əlaqələri gücləndirməliyik. Onlar özləri qarşılıqlı maraq doğuran sahələri müəyyən edə bilər və bu yolla ticarət əlaqələrinin də genişləndirilməsinə nail olmaq mümkün olar. İş adamları birgə müəssisələrin yaradılması imkanlarını da bir yerdə araşdıra bilər.

Eyni zamanda biz müdafiə sahəsində əməkdaşlığımızı müzakirə etdik. Mən prezident Əliyevə bildirdim ki, Pakistan təhsil kurslarının keçirilməsi sahəsində işbirliyinə hazırdır. Bizim bütün hərbi təlim institutlarımız hərbi təhsil sahəsində Azərbaycan üçün açıqdır. Bizim hərbi sənaye imkanlarımız var. Mən prezidentə bildirdim ki, biz istənilən hərbi sahədə qarşılıqlı fayda məqsədi ilə əməkdaşlıq üçün qapılarımızı açıq saxlayacağıq.

Beləliklə, bu əməkdaşlıq sahələri mənim tərəfimdən bəyan edildi. Prezident Əliyev bildirdi ki, ölkələrimiz turizm və turistlərin mübadiləsi sahəsində birgə işləyə bilər. Tərəflər təhsil sahəsində, xüsusən elm və texnologiya sahəsində də əməkdaşlıq edə bilərlər.

Nəhayət, sonda onu demək istəyirəm ki, biz siyasi əlaqələrimizi daha da gücləndirmək niyyətindəyik. Bundan başqa, ikitərəfli münasibətlərimizi – o cümlədən iqtisadi və ticarət sahələrində, təhsil, turizm və mədəniyyət sahələrində – möhkəmləndirmək əzmindəyik. Biz bir-birimizə yardımçı olacağıq. Biz Azərbaycandakı qardaşlarımızla olan əlaqələrimizi gələcəkdə daha da genişləndirmək əzmindəyik.

Xanımlar və cənablar, çox sağ olun.

**Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı**

Hörmətli Prezident!

Hörmətli xanımlar və cənablar!

Əvvəlcə qardaş Pakistan ölkəsində olmağımdan çox məmnun olduğumu bildirmək istəyirəm. Məni səfərə dəvətinə görə prezident Müşərrəfə minnətdaram. Səfərin ilk anlarında mənə göstərdiyiniz xoş qonaqpərvərliyi duydum.

Cənab prezidentin ötən ilin iyulunda Azərbaycana səfərini hamımız çox yaxşı xatırlayırıq. Səfər zamanı ikitərəfli münasibətlərə, regional əməkdaşlığa, regionda təhlükəsizlik və sabitliyə aid bir çox məsələlər ətrafında geniş müzakirələr apardıq. Mən çox şadam ki, bu iki səfər arasındakı müddət ərzində ölkələrimizin dialoqu davam etdirilmiş və daha da intensivləşmişdir. Biz qarşılıqlı maraq doğuran məsələlərlə və regional problemlərlə bağlı çox sıx ünsiyyətdə olmuşduq.

Azərbaycan müstəqilliyini bəyan etdikdən sonra biz hər zaman Pakistanın dəstəyini hiss etmişik. Pakistan bizi müstəqil ölkə kimi tanıyan ilk dövlətlərdən biri olmuşdur. Həmin vaxtdan etibarən iki ölkə arasındakı əlaqələr çox uğurla inkişaf etmişdir. Biz ölkələrimiz üçün vacib hesab olunan məsələlərdə bir-birimizi daim dəstəkləyirik. Azərbaycan Kəşmir məsələsində Pakistanı həmişə dəstəkləyib və dəstəkləyəcəkdir. Eyni zamanda, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın mövqeyini daim dəstəklədiyinə görə biz Pakistana minnətdarıq.

Cənab prezident çıxışında müzakirə etdiyimiz məsələlərin hamısını əhatə etdi. Mən onları təkrar etmək istəmirəm. Sadəcə, xatırlatmaq istəyirəm ki, ölkələrimiz arasında siyasi münasibətlər ən yüksək səviyyədədir. Biz ikitərəfli məsələlər üzrə çox sıx işləyirik. Müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində birgə işləyirik. Bu yaxınlarda Birləşmiş Millətlər Təşkilatında aparılmış müzakirələr zamanı Dağlıq Qarabağ məsələsində Pakistan qətiyyətlə bizim mövqeyimizi dəstəklədi. Bu dəstək əlaqələrimizin səmimi olduğunu, qəlblərimizin bir-birinə açıq olduğunu bir daha təsdiq edir. Biz dost və qardaşıq.

Cənab prezident qeyd etdi ki, yeganə çatışmazlıq birgə sərhədimizin olmamasıdır. Lakin nə edə bilərik, bu, coğrafiyadır. Hesab edirəm ki, bu məsafə bizi bir-birimizdən uzağa salmır. Hazırkı səfərim, apardığımız müzakirələr və cənab prezidentlə sıx səmimi münasibətlərimiz gələcək inkişaf üçün çox güclü potensialın olmasından xəbər verir.

İqtisadi əlaqələrimiz qarşılıqlı maraq doğuran məsələdir. Onlar siyasi münasibətlərimizin səviyyəsinə uyğun deyildir. Hesab edirik ki, bu sahədə çox çalışmalıyıq. Biz iqtisadi əlaqələrin inkişafına təkan verəcək praktiki tədbirlərin həyata keçirilməsini müzakirə etdik. Beləliklə, biz iqtisadi münasibətlərimizin səviyyəsini siyasi münasibətlərin səviyyəsinə çatdıra bilərik. Bizim bir çox oxşarlıqlarımız var. Ümumi tariximiz və adət-ənənələrimiz var. Əlbəttə ki, Azərbaycan və Pakistan xalqları bir-birini daha yaxından tanımalıdır. Səyahətlər olmalıdır, ünsiyyət saxlanılmalıdır, qarşılıqlı görüşlər keçirilməlidir. Xalqlarımız münasibətlərimizin yüksək olmasından və səmimi əlaqələrdən bəhrələnməlidir. Mən tamamilə əminəm ki, gələcəkdə Pakistan və Azərbaycan bu müsbət əlaqələri daha da inkişaf etdirəcək və ölkələrimiz bir-birinə daha da yaxın olacaqdır.

Məni ölkəsinə dəvət etdiyinə və mənə, habelə nümayəndə heyətimizin üzvlərinə göstərilmiş qonaqpərvərliyə görə cənab prezidentə bir daha təşəkkürümü bildirirəm. Tam əmin olduğumu bildirmək istəyirəm ki, gələcəkdə Pakistan və Azərbaycan regional inkişafa, regiondakı sabitliyə və təhlükəsizliyə öz töhfəsini verəcək və bunun nəticəsində xalqlarımız daha yaxşı yaşayacaq, Pakistan və Azərbaycan çiçəklənən ölkəyə çevriləcəkdir.

Çox sağ olun.

**P ə r v i z  M ü ş ə r r ə f:** Sağ olun. Suallara keçməzdən əvvəl mən iki əlavəni etmək istərdim. Pakistan və Azərbaycan Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının tərkibinin genişləndirilməsinə müsbət yanaşır. Mən eyni zamanda, Pakistanın TRASEKA nəqliyyat dəhlizinə qoşulmasına verdiyi dəstəyə görə və bu il aprelin 21–22-də TRASEKA-nın Bakıda keçiri-

ləcək illik iclasına Pakistanı da dəvət etdiyinə görə cənab prezidentə təşəkkürümü bildirmək istəyirəm. Cənab Prezident, mən Sizə minnətdaram.

**S u a l: Cənab Müşərrəf və cənab Əliyev, Siz qeyd etdiniz ki, görüşünüz zamanı Dağlıq Qarabağ problemini müzakirə etdiniz. Sizin fikrinizcə, BMT Dağlıq Qarabağ və Kəşmir problemlərinin həllində hansı rolu oynaya bilər?**

**P ə r v i z  M ü ş ə r r ə f:** Birləşmiş Millətlər Təşkilatı dünya təşkilatı sayılaraq, hər hansı münaqişənin həll olunmasında məsuliyyətlidir. Azərbaycan da belə bir münaqişə ilə üzləşmişdir və BMT bu problemin aradan qaldırılmasında müəyyən rol oynamağa çalışmışdır. Hazırkı vəziyyəti nəzərə alsaq, mənə elə gəlir ki, bu təşkilat çərçivəsində əməkdaşlığımızı davam etdirməliyik. Biz Azərbaycanın bu münaqişənin həll olunmasında tutduğu mövqeyinin BMT çərçivəsində daha da möhkəmləndirilməsinə öz yardımımızı göstərməliyik. Məhz buna görə də mən BMT-nin bütün iclaslarında Azərbaycanı dəstəkləyəcəyimizə prezident Əliyevi əmin etdim. Biz əminik ki, bu təşkilat Dağlıq Qarabağ probleminin həllində daha da böyük rol oynayacaqdır.

**İ l h a m  Ə l i y e v:** Hesab edirəm ki, BMT tərəfindən qəbul olunmuş qətnamələrin həyata keçirilməsi mexanizmlərinin müəyyən edilməsi çox vacibdir. Cənab prezidentlə BMT-də mümkün olacaq islahatlar məsələsini müzakirə etdikdə, biz bu problemə də toxunduq. Əfsuslar olsun ki, BMT-nin Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş qətnamələr bu gün kağız üzərində qalmaqdadır. Bu qətnamələrin həyata keçirilməsi mexanizmləri mövcud deyildir. Kəşmir və Dağlıq Qarabağla bağlı qətnamələr var. Lakin heç bir irəliləyiş və ya həyata keçirilmə mexanizmi yoxdur. Bu qətnamələrin hansı formada həyata keçirilməsi mexanizmləri hələ ki, mövcud deyildir.

Beləliklə, belə münaqişələrin həllində BMT-nin oynayacağı rolun vacibliyini nəzərə alaraq, biz bu qətnamələrin həyata keçirilməsi haqqında düşünməliyik. Biz qəbul olunmuş sənədlərə

müvafiq mövqeyin bildirilməsi məqsədi ilə islahatlar zamanı hansı addımların atılmasını bilməliyik.

**S u a l: Mənim sualım Azərbaycan prezidentinədir. Zatialiləri, prezident Müşərrəfin rəhbərliyi altında Pakistan beynəlxalq terrorizmə qarşı elan edilmiş qlobal müharibədə ön cəbhə xəttindədir. Bu baxımdan Siz Pakistanın göstərdiyi səyləri necə qiymətləndirirsiniz? Bu bəla nəinki Pakistana, ümumiyyətlə, bütün regiona təsir edir. Mən bilmək istərdim ki, regiondakı dövlətlər bu problemin tam aradan qaldırılması üçün hansı ümumi mövqe tutmalıdır?**

**İ l h a m Ə l i y e v:** Biz Pakistanın terrorizmə qarşı mübarizədə oynadığı rolu yüksək qiymətləndiririk. Hesab edirəm ki, Pakistanın rolu vacibdir və həlledicidir. Pakistan konkret addımları ilə onu göstərdi ki, beynəlxalq terrorizmə qarşı mübarizə çox önəmlidir. Azərbaycan və Pakistan beynəlxalq terrorizmin qurbanı olmuşdur. Ermənistanın terrorçu təşkilatları Azərbaycanda 32 terror aktı törətmişlər. Bunun nəticəsində 2000 nəfər Azərbaycan vətəndaşı həlak olmuş, minlərlə həmvətənimiz yaralanmışdır.

Yəni biz bu bəlanın nə olduğunu yaxşı bilirik. Eyni zamanda, onu da anlayırıq ki, yalnız bütün beynəlxalq ictimaiyyətin birgə səyləri nəticəsində biz bu bəla ilə mübarizə apara bilərik. Əfsuslar olsun ki, bəzən müəyyən təşkilatlarda terrorçulara fərqlər qoyulur. Terrorçu yalnız o şəxs deyil ki, təkcə öz ölkəsinə qarşı terror aktı törətsin, qonşu xalqlara və dövlətlərə qarşı cinayətlər törətmiş şəxslər də terrorçudur. Yalnız səylərimizi birləşdirərək, səfərbər edərək və terrorçunun müəyyən olunması məqsədi ilə ümumi meyarlardan istifadə etmək yolu ilə bu sahədə uğurlu mübarizə apara bilərik. Azərbaycan bu mübarizəyə verdiyi töhfəni davam etdirməyə hazırdır. Biz antiterror koalisiyasının fəal üzvləriyik. Bu bəlanın aradan qaldırılması üçün çox çalışmışıq. Bir daha deyirəm ki, beynəlxalq səviyyədə Pakistanın bu sahədə oynadığı rol mühümdür.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ PAKİSTAN PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏFİN ADINDAN TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

*İslamabad*

*12 aprel 2005-ci il*

### Pakistan prezidenti Pərviz Müşərrəfin nitqi

Bismillahir-rəhmanir-rəhim!

Azərbaycan Respublikasının prezidenti, zati-aliləri cənab İlham Əliyev!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Zati-aliləri, Sizi və rəhbərlik etdiyiniz nümayəndə heyətini burada salamlamaqdan çox məmnunam. Bu axşam sizinlə görüşməyimizdən şadıq. Ötən il Azərbaycana etdiyim səfərimi xoş təəssüratla xatırlayıram. İçərişəhərdəki maraqlı gəzinti yaxşı yadımdadır. Gözəl ölkənizin sakinlərinin mənə göstərdikləri xoş qonaqpərvərliyi heç vaxt yaddan çıxarmayacağam.

Pakistan və Azərbaycan son illər ərzində çox sıx münasibətlər qurmuşlar. Əməkdaşlığımız xalqlarımızı birləşdirən bir çox oxşarlıqlara arxalanır. Hər iki ölkənin keşməkeşli, maraqlı taleyi olub. Bizim ümumi mədəni dəyərlərimiz var. Arzu və duyğularımız eynidir. Hər iki xalq sülh şəraitində inkişaf etmək niyyətindədir. Dilimiz və ədəbiyyatımızda ümumi meyarlar çoxdur. Danışıqda istifadə etdiyimiz minlərlə ümumi söz var. Nizami Gəncəvidən tutmuş, Sahib Təbriziyə qədər Azərbaycan şairləri Pakistanda maraqla oxunur. Pakistanın Multan şəhərinə səyahət etmiş dahi Azərbaycan şairi Şəms Təbrizi öz yazılarında xalqlarımız arasındakı oxşarlıqları gözəl formada təsvir etmişdir. Bəl-

kə də indi oxuyacağım sətirlər tələffüzə görə o qədər aydın olmasın (Prezident fars dilində sətirləri oxuyur). Ürəklərimiz bir döyünür. Biz bütün sahələrdə bir-birimizə yaxınıq. Biz pakistanlılar azərbaycanlı qardaşlarımızın əldə etdikləri nailiyyətlərlə fərəhlənirik. Ölkənizin illik iqtisadi artımı 10 faizdən çoxdur. Zati-aliləri, Sizin rəhbərliyiniz altında ölkənin iqtisadiyyatının bir çox sahələrindəki inkişaf sürəti tərifəlayiqdir. Bu nailiyyətlər gözəçarpandır və biz bundan çox məmnunuq.

Zati-aliləri, Pakistan və Azərbaycan müxtəlif sahələrdə əməkdaşlıq edir. Biz vacib sayılan sahələrdə, o cümlədən müdafiə və ticarət sahəsində, terrorçuluğa və narkotik maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində, mülki aviasiya sahəsində bir sıra sazişlər imzalamışıq. Sabah daha altı yeni saziş imzalayacağıq. Mən əminəm ki, bu sənədlər kommunikasiya və informasiya texnologiyaları, təhsil və mədəniyyət sahələrindəki əməkdaşlığımızı daha da genişləndirəcəkdir.

Cənab Prezident, Pakistan Dağlıq Qarabağ problemi ilə bağlı Azərbaycanı daim dəstəkləyibdir. Biz inanırıq ki, bu münaqişə BMT-nin qətnamələri əsasında sülh yolu ilə həll olunmalıdır. Ərazilərin işğalı yolverilməzdir. Azərbaycanın suverenliyi bütün ərazi boyu bərpa olunmalıdır. Cənab Prezident, bu baxımdan Sizi əmin etmək istəyirəm ki, Pakistan Dağlıq Qarabağ məsələsində istənilən təşkilat çərçivəsində hər zaman Azərbaycanın tərəfində olacaqdır. Azərbaycan da, Pakistan da sülhsevər ölkədir. Biz terrorizmi və ekstremizmi pisləyirik. Bu bəlalar bütün xalqlara ciddi təhlükədir. Xalqlarımız sülh şəraitində yaşamaq istəyirlər və birmənalı olaraq inkişaf, tərəqqi yolu ilə addımlamaq niyyətindədirlər. Biz öz ərazimizdən hər hansı terror aktı üçün istifadə olunmasına imkan verməyəcəyik. İslam dini sülh və əmin-amanlığı təşviq edən dindir. Bununla bağlı yaranan yanlış anlayış aradan qaldırılmalıdır. Etiqad etdiyimiz böyük dinimizi ləkələməyə imkan verməməliyik. Biz yalnız sülhsevər baxışlarla irəliyə doğru gedə bilərik. Zati-aliləri, bu baxışlara verdiyiniz dəstəyi yüksək qiymətləndirirəm.

Zati-aliləri, Əfqanıstandakı sabitlik regional sülh və təhlükəsizlik üçün çox vacibdir. Pakistan bu ölkədəki sülh prosesinin davam etdirilməsinə sadiqdir. Biz sentyabr ayında parlament seçkiləri ilə nəticələnəcək siyasi prosesin başa çatdırılmasını səbirsizliklə gözləyirik. Biz prezident Kərzaninin milli barışığa və yenidənqurmaya yönəlmiş səylərini dəstəkləyirik. Pakistan regionda davamlı sülhün bərqərar olunmasına çalışır. Biz bütün mübahisələrin, o cümlədən Cammu və Kəşmir probleminin həlli məqsədi ilə Hindistanla apardığımız dialoqu davam etdirəcəyik. Kəşmir məsələsində Azərbaycanın bizə verdiyi daimi dəstəyi yüksək dəyərləndiririk.

Dünya miqyasında yeni təhdidlər özünü büruzə verir. Onların öhdəsindən səmərəli şəkildə gəlmək məqsədi ilə Birləşmiş Millətlər Təşkilatında islahatlar aparılmalıdır. Mən şadam ki, BMT Təhlükəsizlik Şurasının genişləndirilməsi ilə bağlı Pakistan və Azərbaycanın mövqeləri üst-üstə düşür. Təhlükəsizlik Şurası daha demokratik və məsuliyyətli olmalı və yeni mərkəzəqaçan oxları yaratmamalıdır.

Mən əminəm ki, apardığımız söhbətlər zamanı əldə etdiyimiz anlaşma ikitərəfli münasibətlərimizi daha da genişləndirməyə imkanlar açacaqdır. Biz birgə əməkdaşlığımızı xüsusi olaraq iqtisadi və ticarət sahələrində daha da yüksək səviyyəyə qaldırmalıyıq.

Hörmətli xanımlar və cənablar!

Mən prezident İlham Əliyevə və sizin hamınıza xoşbəxtlik, cansağlığı və müvəffəqiyyətlər arzulayır, qardaş Azərbaycan xalqına isə tərəqqi və əmin-amanlıq diləyirəm.

Yaşasın Azərbaycan və Pakistan dostluğu!

Çox sağ olun!

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Pakistan İslam Respublikasının prezidenti, zati-aliləri Pərviz Müşərrəf!

Hörmətli cənab Baş nazir Şövkət Əziz!

Hörmətli xanımlar və cənablar!

Dost Pakistan ölkəsində olmağımdan çox məmnunam. Mən Azərbaycan xalqının qardaş Pakistan xalqına dostluq hisslərini çatdırmaq istəyirəm. Azərbaycan və Pakistan arasında qlobal və regional məsələlər üzrə ümumi baxışlara əsaslanan sıx və səmimi münasibətlər təşəkkül tapmışdır. İki ölkə hər zaman bir-birinə yardım əli uzatmışdır. Dövlətlərimiz arasındakı əlaqələr böyük əhəmiyyət kəsb edir, dostluq və əməkdaşlığa əsaslanır.

Pakistan Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olmuşdur. Hər iki ölkə Birləşmiş Millətlər Təşkilatı, İslam Konfransı Təşkilatı və digər təşkilatlar çərçivəsində bir-birinə siyasi və mənəvi dəstək verir. Biz ölkələrimiz arasındakı strateji tərəfdaşlıq səviyyəsinə qalxan münasibətlərdən qürur duyuruq.

Mən Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həlli, Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı etdiyi təcavüzün mənfi nəticələrinin aradan qaldırılması və işğal olunmuş Azərbaycan ərazilərinin azad edilməsi istiqamətində Azərbaycan tərəfindən beynəlxalq səviyyədə göstərilən səylərə Pakistanın verdiyi dəstəyi yüksək qiymətləndirirəm. Eyni zamanda, Azərbaycan Pakistanın Kəşmir məsələsində tutduğu mövqeyi hər zaman dəstəkləmişdir və gələcəkdə də dəstəkləyəcəkdir. Bu qarşılıqlı dəstək xalqlarımızın və ölkələrimizin nə dərəcədə bir-birinə yaxın olduğunu bir daha nümayiş etdirir.

Mən çox şadam ki, son il ərzində biz Pakistan prezidenti cənab Pərviz Müşərrəflə çox sıx şəxsi münasibətlər qurmuşuq. Biz onun Azərbaycana səfərini yaxşı xatırlayırıq. Olduqca səmimi, dostluq şəraitində apardığımız müzakirələr çox səmərəli və faydalı olmuşdur. Mən çox məmnunam ki, Azərbaycanın böyük nümayəndə heyəti bu gün Pakistandadır və ümid edirəm ki, bu səfərdən sonra və keçirdiyimiz görüşlərdən sonra münasibətlərimiz bütün sahələrdə daha da sıx olacaqdır.

Xalqlarımız arasındakı mədəni və dini əlaqələr bizi bir-birimizə daha da yaxınlaşdırır. Qəznəvilərin, səlcuqilərin, hülakülərin, Teymurun, səfəvilərin, Nadir şahın hökmranlığı dövründə

bizim tarixi oxşarlıqlarımız özünü büruzə vermişdir. Keçmiş irsimizdən bəhrələnərək əməkdaşlığımızı uğurla davam etdiririk və onu gələcəkdə genişləndirmək əzmindəyik. Əminəm ki, son illər ərzində Pakistan – Azərbaycan Dostluq Cəmiyyətinin təsis olunması, Bakı Dövlət Universitetində urdu dili fakültəsinin açılması bu tarixi oxşarlıqları daha da inkişaf etdirəcəkdir.

Ümummilli lider Heydər Əliyev tərəfindən müəyyən edilmiş siyasi və iqtisadi xəttin əsas prinsiplərinə uyğun olaraq Azərbaycan öz gələcəyinə böyük inamla baxır. Ölkəmizin rifahı naminə yorulmaz fəaliyyət göstərən prezident Heydər Əliyevin qətiyyəti və möhkəm iradəsi sayəsində Azərbaycan regionda aparıcı ölkələrdən birinə çevrilmiş və etibarlı tərəfdaş adını qazanmışdır. İndi Azərbaycanda ən nəhəng layihələr həyata keçirilməkdədir. Avropa – Asiya nəqliyyat dəhlizini nəzərdə tutan TRASEKA proqramı, Böyük İpək Yolunun bərpası, Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin, Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin çəkilməsi, Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi buna ən bariz nümunələrdir. Bu layihələrin həyata keçirilməsi Azərbaycan və onun tərəfdaşları üçün yeni strateji imkanlar açır. Pakistanın TRASEKA proqramına qoşulması və bu nəqliyyat dəhlizindən istifadə etməsi bizim ümumi maraqlarımıza xidmət edəcək və onları daha da möhkəmləndirəcəkdir.

Mən eyni zamanda, xüsusilə qeyd etmək istəyirəm ki, Pakistanın banisi sayılan Məhəmməd Əli Cinnənin irsini və azadlığı öz şeirlərində tərənnüm edən şair Əllamə İqbalın əsərləri Azərbaycanda yaxşı tanınır və oxunur. Pakistanda Qəydi Əzəmin və Azərbaycanda Heydər Əliyevin ideyaları və məqsədləri əbədiyaşarlıqla bir-birinə bənzəyirlər. Qəydi Əzəm öz əsərlərində yazır: «Bizim məqsədimiz həm daxildə, həm də xaricdə sülh olmalıdır. Biz sülh şəraitində yaşamaq istəyirik və yaxın qonşularımızla və ümumiyyətlə, bütün dünya xalqları ilə səmimi və dost münasibətlər saxlamalıyıq».

Bu kəlamlar hər bir azərbaycanlıya yaxındır. Qəydi Əzəmin adını əbədiləşdirmək məqsədi ilə biz Bakının mərkəzi küçələ-

rindən birinə onun adını vermək qərarına gəlmişik və həmin küçənin açılışını bu yaxınlarda qeyd edəcəyik.

Hörmətli cənab Prezident!

Hörmətli Baş nazir!

Hörmətli xanımlar və cənablar!

Qardaş ölkənizə səfərim zamanı mənə göstərdiyiniz qayğı və diqqətə, xoş qonaqpərvərliyə görə sizə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Yaşasın Pakistan! Var olsun Azərbaycan!

## PAKİSTAN MÜDAFİƏ NAZİRLİYİNİN NƏZDİNDƏ HƏRBİ İXRACA YARDIM TƏŞKİLATININ SƏRGİSİ İLƏ TANIŞLIQ

*İslamabad*

*13 aprel 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Pakistan Müdafiə Nazirliyinin nəzdində Hərbi Ixraca Yardım Təşkilatına gəlmişdir.*

*Prezident İlham Əliyevi binanın qarşısında təşkilatın Baş direktoru Seyyid Əli Həmid böyük hörmətlə qarşıladı.*

*On iki il fəaliyyət göstərən bu təşkilatın əsas məqsədi ölkənin silahlı qüvvələrinin qüdrətinin artırılması, təkmilləşdirilməsi, yeni model silah və sursatın, texnikanın istehsalı, müasir texnika ilə təchiz olunmasıdır.*

*Prezident İlham Əliyev raket, hərbi təyyarə və gəmilər hazırlanması, müxtəlif silah-sursat istehsalı haqqında video-filmə baxdı.*

*Daha sonra Azərbaycan prezidenti təşkilatın sərgisi ilə tanış oldu. Sərgidə Pakistanda istehsal olunan və xarici ölkələrə ixrac edilən hərbi texnika, silah-sursat, o cümlədən müasir tipli raketlər, müdafiə sahəsində istifadə olunan müxtəlif avadanlıq, hərbi ləvazimat nümayiş etdirilir. Dövlətimizin başçısına hərbi məhsullar, eləcə də ölkənin müdafiə sahəsində görülən işlər barədə geniş məlumat verildi.*

*Sərgi ilə tanışlıqdan sonra prezident İlham Əliyev Hərbi Ixraca Yardım Təşkilatının rəhbərləri ilə görüşdü. Dövlətimizin başçısı söhbət zamanı sərgi barədə öz təəssüratlarını bölüşdü.*

*Azərbaycan prezidenti təşkilatın fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.*

*Dövlətimizin başçısına xatirə olaraq qılınc hədiyyə edildi.*

*Prezident İlham Əliyev təşkilatın rəhbərləri ilə xatirə şəkli çəkdirdi.*

## PAKİSTAN İSLAM RESPUBLİKASININ BAŞ NAZİRİ ŞÖVKƏT ƏZİZ İLƏ GÖRÜŞ

*İslamabad*

*13 aprel 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Pakistan İslam Respublikası Baş nazirinin iqamətgahına gəldi.*

*İqamətgahın qarşısında prezident İlham Əliyevi Pakistanın Baş naziri Şövkət Əziz böyük hörmət və mehribanlıqla qarşıladı.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyevin Pakistanın Baş naziri Şövkət Əzizlə təkbətək görüşü oldu.*

*Prezident İlham Əliyevi Pakistanda görməyindən məmnunluğunu bildirən Baş nazir Şövkət Əziz ölkələrimiz arasında iqtisadi əlaqələrin genişləndirilməsi üçün yaxşı imkanlar olduğunu vurğulayaraq dedi ki, iqtisadiyyatın bir çox sahələri üzrə Azərbaycanla geniş əməkdaşlıq etmək mümkündür və bu bizim üçün ən əsas məsələlərdən biridir. O bu baxımdan müxtəlif səviyyəli qarşılıqlı səfərlərin də vacibliyini söylədi.*

*Azərbaycanın dünya ölkələri ilə sıx əməkdaşlıq etdiyini və ölkəmizdə bir çox mühüm beynəlxalq layihələrin həyata keçirildiyini xatırladan prezident İlham Əliyev bir çox sahələrdə Pakistanla işbirliyi üçün gözəl perspektivlər olduğunu bildirdi.*

*Dövlətimizin başçısı respublikamızdakı mövcud vəziyyətdən, bazar iqtisadiyyatı yolu seçmiş Azərbaycanda həyata keçirilən islahatlardan, hüquqi, demokratik dövlət quruculuğu sahəsində görülən tədbirlərdən, Ermənistanın hərbi təcavüzü ilə əlaqədar yaranmış çətinliklərdən də geniş söhbət açdı. Azərbaycan prezidenti beynəlxalq təşkilatlarda ölkəmizin haqq işini müdafiə*

*etdiklərinə görə Pakistan hökumətinə və şəxsən Baş nazir Şövkət Əzizə minnətdarlığını bildirdi.*

*Görüşdə Azərbaycan prezidentinin rəsmi səfəri çərçivəsində imzalanacaq sənədlərin əhəmiyyəti vurğulandı, qarşılıqlı maraq doğuran bir çox məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN VƏ PAKİSTAN NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN GÖRÜŞÜ

*İslamabad*

*13 aprel 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyevin Pakistanın Baş naziri Şövkət Əzizlə təkbətək görüşü başa çatdıqdan sonra nümayəndə heyətlərinin iştirakı ilə danışıqlar olmuşdur.*

*Danışıqlarda Pakistan–Azərbaycan münasibətlərinin daha da inkişaf etdirilməsi yolları barədə müzakirələr aparılmışdır.*

*Prezident İlham Əliyevin rəsmi səfərini Pakistan xalqının və şəxsən özünün böyük ümidlə gözlədiyini vurğulayan cənab Şövkət Əziz Azərbaycanla indiyədək imzalanmış və bu səfər çərçivəsində imzalanacaq mühüm sənədlərdən söhbət açdı və bildirdi ki, bütün bunlar ölkələrimizin əməkdaşlığında yeni mərhələ açacaqdır.*

*Beynəlxalq təşkilatlarda Azərbaycanla Pakistanın çox səmərəli əməkdaşlığını razılıqla xatırladan Baş nazir Kəşmir məsələsində Azərbaycanın Pakistan dövlətinin mövqeyini dəstəkləməsini yüksək qiymətləndirdi.*

*Azərbaycanın Asiya qitəsində böyük potensiala malik Pakistanla əlaqələrə xüsusi diqqət yetirdiyini söyləyən, əməkdaşlığın daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi üçün yaranmış imkanları yüksək qiymətləndirən prezident İlham Əliyev Azərbaycanın dünya ölkələri ilə qarşılıqlı surətdə faydalı münasibətlər qurduğunu vurğuladı.*

*Görüşdə iqtisadi əlaqələrin daha da möhkəmlənməsi ilə bağlı geniş fikir mübadiləsi aparıldı, o cümlədən Pakistanın iş adamlarının Azərbaycana sərmayə qoyması məsələsi diqqət mərkəzində saxlanıldı.*

*Pakistanın beynəlxalq layihələrə, o cümlədən TRASEKA layihəsinə tamhüquqlu üzv kimi qoşulmasının Azərbaycan tərəfindən bundan sonra da dəstəklənəcəyi vurğulandı, ticarət dövriyyəsinin artırılması imkanları nəzərdən keçirildi. Bildirildi ki, bu baxımdan yeni nəqliyyat dəhlizinin yaradılması vacibdir və bu məqsədlə hərbi nəqliyyat vasitələrindən də istifadə oluna bilər.*

*Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərə də toxunuldu, mövqelərin hər sahədə üst-üstə düşdüyü və ölkələrimizin bir-birini daim dəstəkləyəcəyi vurğulandı.*

* * *

## Azərbaycan–Pakistan sənədlərinin imzalanmasi

*Aprelin 13-də İslamabadda Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin və Pakistan İslam Respublikasının Baş naziri Şövkət Əzizin iştirakı ilə bir sıra əməkdaşlıq barədə mühüm sənədlər imzalanması mərasimi olmuşdur.*

*Azərbaycan Respublikası hökuməti və Pakistan İslam Respublikası hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında saziş, Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi və Pakistan İslam Respublikasının Kommunikasiya Nazirliyi arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında memorandum, Azərbaycan Respublikası Təhsil Nazirliyi və Pakistan İslam Respublikası Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında saziş, Azərbaycan Respublikası hökuməti və Pakistan İslam Respublikası hökuməti arasında rabitə və informasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında saziş, Azərbaycan Respublikası Maliyyə Nazirliyi və Pakistan İslam Respublikası Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında saziş, Azərbaycan Respublikası və Pakistan İslam Respublikası aviasiya hakimiyyətləri arasında əməkdaşlıq haqqında protokol imzalandı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ PAKİSTANIN BAŞ NAZİRİ ŞÖVKƏT ƏZİZİN BİRGƏ MƏTBUAT KONFRANSI

*13 aprel 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev və Pakistanın Baş naziri Şövkət Əziz sənədlərin imzalanması mərasimindən sonra birgə mətbuat konfransı keçirmişlər. Baş nazir Şövkət Əziz və prezident İlham Əliyev əvvəlcə jurnalistlər qarşısında çıxış etdilər.*

### Pakistanın Baş naziri Şövkət Əzizin çıxışı

Hörmətli xanımlar və cənablar!

Azərbaycan prezidentini ölkəmizdə salamlamaq hər bir pakistanlının ürəyincədir.

Cənab Prezident, Pakistana səfərə gəldiyinizə görə Sizə minnətdarlığımızı bildiririk. İki ölkə bir-biri ilə iqtisadi, tarixi, dini, mədəni əlaqələrlə bağlıdır. Səfəriniz çox səmərəli olmuşdur. Bu gün biz iki ölkə arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün altı saziş imzaladıq. Apardığımız müzakirələr nəticəsində «Azərbaycan Hava Yolları» Dövlət Konserninin Kəraçi şəhərinə uçuşlarının bərpa edilməsi, Bakıda Pakistan Milli Bankı nümayəndəliyinin açılması kimi məsələlər barədə razılıq əldə olunmuşdur. Pakistanın istehsal etdiyi malların Azərbaycanda tanınması məqsədi ilə Pakistanın iş adamları Bakıda məhsulların sərgisini təşkil edəcəklər. Biz iki ölkə arasında sərmayə qoyuluşu, ticarət sahələrində və digər sahələrdə əməkdaşlığımızı möhkəmləndirəcəyik.

Biz prezidentlə iki məsələni də müzakirə etdik. Birinci məsələ BMT-dəki islahatlarla bağlıdır. Bir çox ölkələr bu məsələ ilə bağlı eyni mövqedən çıxış edirlər. Biz BMT-də aparılacaq islahatla-

rın səmərəli olması məqsədi ilə Azərbaycanla birgə çalışacağıq. BMT Təhlükəsizlik Şurası demokratik olmalı və əksər üzv ölkələrin maraqlarını təmsil etməlidir. Bu istiqamətdə hər hansı bir irəliləyiş əldə etmək məqsədi ilə konsensusa əsaslanmaq lazımdır.

Çox şadıq ki, Azərbaycan Kəşmir məsələsində bizi daim dəstəkləyir. Pakistan isə, öz növbəsində, Dağlıq Qarabağ problemi ilə bağlı daim Azərbaycanın tərəfində olmuşdur.

Bu baxımdan biz öz dəstəyimizi davam etdirəcəyik, münasibətlərimizi yeni səviyyəyə qaldıracağıq. Biz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvləriyik.

Bu təşkilat çərçivəsində iqtisadi əlaqələrimizi daha da möhkəmləndirmək imkanları mövcuddur. Hər iki tərəf vurğuladı ki, bu təşkilatın işi gücləndirilməli və daha da səmərəli olmalıdır.

Cənab Prezident, Sizi İslamabadda görməkdən olduqca məmnunuq. Ümid edirik, gələn səfəriniz zamanı Siz digər şəhərləri, məsələn, Kəraçi və ya Lahoru da ziyarət edəcək, ölkəmizin gözəl yerlərini görəcəksiniz. Çox sağ olun.

**Azərbaycan prezidenti İlham Əliyevin nitqi**

Cənab Baş nazir!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə demək istəyirəm ki, mənim qardaş Pakistana səfərim çox uğurla keçir. Bunu deməyə əsas var. Çünki dünən və bu gün apardığımız müzakirələr iki ölkə arasındakı bir çox oxşarlıqları nümayiş etdirdi. Biz qarşılıqlı maraq doğuran bütün məsələlərdə bir-birimizi dəstəkləyirik. Baş nazirin qeyd etdiyi kimi, tərəflər Kəşmir və Dağlıq Qarabağ problemləri ilə bağlı öz dəstəyini davam etdirəcəklər.

Ölkələrimiz arasındakı siyasi münasibətlər ən yüksək səviyyədədir. Ötən il Pakistan prezidenti Pərviz Müşərrəfin Azərbaycana uğurlu səfəri və mənim Pakistana səfərim ölkələrimiz arasındakı əməkdaşlıq istiqamətində atılmış mühüm addımlardır. Əlbəttə ki, ikitərəfli əməkdaşlığımız regional əməkdaşlığa da müsbət

təsir göstərir. Pakistan və Azərbaycan regional əməkdaşlıq layihələrinin fəal iştirakçılarıdır. Biz çox şadıq ki, hazırda Pakistan Şərq–Qərb dəhlizi sayılan TRASEKA proqramına müşahidəçi qismində qoşulur. Onun regional daşınma əməliyyatlarına daha da fəal şəkildə qoşulması məqsədi ilə Azərbaycan qardaş ölkəyə bizim bütün infrastrukturumuzdan istifadə etmək imkanı yaradacaqdır.

Biz Baş nazirin xatırlatdığı bir çox məsələləri müzakirə etdik. Hesab edirəm ki, imzaladığımız sənədlər və əldə olunmuş razılaşmalar əməkdaşlığımızın daha da gücləndirilməsi üçün əlavə imkanlar yaradacaqdır. İqtisadi sahədə görüləsi işimiz çoxdur. Biz iqtisadi əlaqələrimizi siyasi münasibətlər səviyyəsində görmək istəyirik. Hesab edirəm ki, bu məqsədə nail olmaq üçün bütün imkanlar mövcuddur.

Bakı – Kəraçi birbaşa uçuşlarının açılması, vizaların rəsmiləşdirilməsinin asanlaşdırılması, hər iki ölkədə birgə Pakistan – Azərbaycan sərgilərinin təşkili bizim iş adamlarımızı daha da yaxınlaşdıracaqdır. Şübhəsiz ki, xalqlar arasındakı ünsiyyət də çox vacibdir. Düşünürəm ki, iqtisadi sahədəki əlaqələrimizin inkişaf etdirilməsi vətəndaşlarımızın bir-birini daha yaxşı tanımasına şərait yaradacaq, mövcud olan infrastruktur və imkanlar haqqında məlumatın yayılmasına xidmət edəcəkdir. Bütün bu amillər bizim tərəfdaşlıq münasibətlərimizə əlavə təkan verəcəkdir.

Səfərim zamanı göstərdikləri qonaqpərvərliyə görə Pakistan prezidentinə, Baş nazirə, Pakistan hökumətinin üzvlərinə və bütün digər rəsmilərə öz minnətdarlığımı bildirirəm. Burada özümü həqiqətən evdəki kimi hiss etdim. Ümid edirəm ki, səmərəli əməkdaşlığımız xalqlarımızın rifahı naminə gələcəkdə də davam edəcəkdir.

Çox sağ olun!

**Ş ö v k ə t  Ə z i z:** Cənab Prezident, çox sağ olun.

Hər tərəf bir sual verə bilər.

**S u a l: Cənab Prezident, görüşləriniz zamanı Azərbaycanla Pakistan arasında iqtisadi-ticarət əlaqələrinin gələcək inkişaf perspektivlərini müzakirə etdinizmi?**

**İ l h a m Ə l i y e v:** Bəli, bu məsələlər müzakirə olundu. İqtisadi-ticarət məsələləri üzrə birgə hökumətlərarası komissiya öz növbəti iclasını keçirəcəkdir. Hesab edirik ki, bu komissiya hər iki ölkənin biznes nümayəndələrini istiqamətləndirərək, onları daha tez-tez görüşməyə sövq edəcəkdir. Bu komissiya mövcud olan imkanları nəzərdən keçirəcək və qiymətləndirəcəkdir. Biz tamamilə əminik ki, əgər Pakistanda istehsal olunmuş və sərfəli qiymətlə satılan yüksək keyfiyyətli mallar varsa, bizim iş adamlarımız bu fürsətdən istifadə etməlidirlər. Belə addımları atmaqla biz iqtisadiyyatımıza kömək etmiş olarıq, yeni iş yerlərinin, yeni imkanların açılmasına töhfə verə bilərik. Biz etiraf edirik ki, bugünkü iqtisadi münasibətlərin səviyyəsi siyasi münasibətlərin yüksək səviyyəsinə uyğun deyildir. Bu baxımdan biz iqtisadi-ticarət əməkdaşlığımızı davam etdirməliyik.

**S u a l: Mənim sualım cənab prezidentə və cənab Baş nazirədir. Dağlıq Qarabağ və Kəşmir problemləri ilə bağlı hər hansı həll yolları müzakirə edildimi?**

**İ l h a m Ə l i y e v:** Bu problemlər beynəlxalq hüquq normaları və prinsipləri, o cümlədən beynəlxalq təşkilatların qətnamələri əsasında həll olunmalıdır. Əfsuslar olsun ki, BMT-nin Kəşmir və Dağlıq Qarabağ məsələsi ilə bağlı qəbul etdiyi qətnamələr yerinə yetirilməyibdir. Apardığımız müzakirələrin bir elementi də BMT-də islahatların məhz bu aspektdə aparılmasının vacibliyi ilə bağlıdır. Əgər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş qətnamələr kağız üzərində qalırsa, icra olunmursa, bu halda onların qərarları beynəlxalq ictimaiyyət tərəfindən nəzərə alınmayacaqdır. Biz hesab edirik ki, bu münaqişələrin aradan qaldırılmasına olan yanaşma eyni standarta əsaslanmalıdır. Bu yanaşma beynəlxalq hüququn normaları və prinsiplərinə, o cümlədən haqq-ədalətə arxalanmalı və beynəlxalq təşkilatların qərarlarını əks etdirməlidir. Yalnız belə prinsip əsasında münaqişələrin həlli mümkün ola bilər.

**Ş ö v k ə t Ə z i z:** Mən cənab prezidentin dediyi sözlərlə tam razıyam. Pakistan hesab edir ki, bütün münaqişələr sülh yolu ilə həll olunmalıdır. Bu, Kəşmir və Dağlıq Qarabağ problemlərinə də

aiddir. Onu da demək istəyirəm ki, həll variantı BMT-nin qətnamələrinə uyğun olaraq həmin münaqişəli zonada yaşayan yerli əhalinin maraqlarını əks etdirməlidir. BMT-nin fəaliyyətinin səmərəliliyi qəbul etdiyi qətnamələrin həyata keçirildiyi təqdirdə hiss oluna bilər. Buna görə də Azərbaycan kimi, Pakistan da hesab edir ki, xalqların istəkləri nəzərə alınmalıdır və hər iki ölkəyə aid olan sərhədlərlə və işğal faktı ilə bağlı BMT-nin qətnamələri həyata keçirilməlidir.

**S u a l: Müdafiə sahəsində əməkdaşlığa dair müəyyən müzakirələr aparılmışdır. Bu sahədə hansı işlər görülə bilər?**

**Ş ö v k ə t  Ə z i z:** Bəli, dünən və bu gün müdafiə sahələrinə aid olan əməkdaşlıq məsələlərini müzakirə etdik. Bu həm təhsil kursları ola bilər, həm də avadanlığın alınması ola bilər. Bizim sıx münasibətlərimiz var və bu da, təbii ki, bütün aspektləri əhatə edir, o cümlədən müdafiə sahəsini.

**İ l h a m  Ə l i y e v:** Müdafiə sahəsində əməkdaşlığımız ikitərəfli münasibətlərimizin vacib elementidir. Pakistanın bu istiqamətdə  böyük nailiyyətləri və çox yaxşı imkanları var. Bu gün səhər biz Ordu muzeyində olduq. Orada ən son nailiyyətlər nümayiş etdirilir. Mən Pakistanın müdafiə sənayesində olan potensialın bir daha şəxsən şahidi oldum. Azərbaycan öz müdafiə imkanlarını inkişaf etdirir. Bu bizim ölkəmiz və ümumiyyətlə, hər bir ölkə üçün təbiidir. Əlbəttə ki, biz müdafiə sahəsindəki əməkdaşlığımızın praktiki tərəfini müzakirə etdik. Ümid edirəm ki, bu istiqamətdə bizim böyük nailiyyətlərimiz olacaqdır.

Sağ olun!

* * *

*Aprelin 13-də Pakistan İslam Respublikasının Baş naziri Şövkət Əziz öz iqamətgahında Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin şərəfinə nahar vermişdir.*

*Naharda Azərbaycan nümayəndə heyətinin üzvləri, qardaş Pakistan hökumətinin rəsmi şəxsləri və ölkənin iş adamları da iştirak edirdilər.*

**WW**

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN PAKİSTAN TELEVİZİYASINA MÜSAHİBƏSİ

*13 aprel 2005-ci il*

**A p a r ı c ı:** *Əvvəlcə sizin hamınızı salamlayırıq. Bu gün PTV World-un studiyasındakı ali qonağımız Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevdir.*

**S u a l: Cənab Prezident, Pakistan televiziyasına gəldiyinizə görə Sizə minnətdarlığımızı bildiririk. Təbii ki, bu Sizin Pakistana ilk rəsmi səfərinizdir. Ölkəmizə etdiyiniz uğurlu səfəriniz zamanı Pakistan rəhbərliyi ilə, o cümlədən prezident Pərviz Müşərrəf ilə görüşləriniz oldu. Pakistan və Azərbaycan arasında ikitərəfli münasibətlərin gələcəkdə inkişaf etdirilməsi məqsədi ilə hansı əsas sahələri müəyyən etdiniz?**

**C a v a b:** Öncə onu demək istəyirəm ki, gözəl ölkənizdə olmağımdan çox şadam. Pakistan bizim üçün qardaş ölkədir. Bizim çox gözəl münasibətlərimiz var və ikitərəfli münasibətlərə, beynəlxalq problemlərə aid bütün məsələlərdə biz bir-birimizi daim dəstəkləyirik. Biz regional səviyyədə də çox vacib rol oynayırıq. Mənim Pakistana səfərim, fikrimcə, ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi istiqamətində atılmış vacib addımdır. Ötən il Pakistan prezidenti Pərviz Müşərrəf Azərbaycana səfər etmişdir və bizim çox məhsuldar müzakirələrimiz olmuşdur. Hazırkı səfərim ikitərəfli əlaqələrə dair aparılan müzakirələrin davamıdır. Hesab edirəm ki, Pakistanda olduğum iki gün ərzində qarşılıqlı maraq kəsb edən məsələlərin hamısı, o cümlədən siyasi, iqtisadi və mədəni münasibətlərin aspektləri müzakirə olundu. Beynəlxalq məsələlərə, dünyadakı və regionumuzdakı proseslərə aid mövqelərimiz üst-üstə düşür. Biz

Dağlıq Qarabağ və Kəşmir məsələlərində bir-birimizi qətiyyətlə dəstəkləyirik. Mən deyə bilərəm ki, ölkələrimiz arasındakı münasibətlərimiz digər ölkələr üçün nümunə ola bilər.

Mənim buraya səfərim zamanı bir sıra vacib sənədlər imzalanmışdır. Bu sənədlər iqtisadi və ticarət münasibətlərinin daha da genişləndirilməsinə imkan yaradacaqdır. Düşünürəm ki, bu istiqamət çox vacibdir. İqtisadi əlaqələrimizin inkişafı üçün böyük potensial mövcuddur. Bir sözlə, mən səfərdən çox razıyam. Prezident, Baş nazir və digər rəsmilərlə apardığımız danışıqlardan çox məmnun qaldım. Ümid edirəm ki, bu səfərdən sonra ölkələrimiz və xalqlarımız bir-birinə daha yaxın olacaqlar.

**S u a l: Cənab Prezident, Siz ticarət münasibətləri haqqında danışdınız. Bu baxımdan, Pakistan və Azərbaycan konkret olaraq hansı sahələrdə işbirliyi qura bilər? Bu məsələ ilə bağlı mülahizələriniz bizim üçün çox maraqlı olardı.**

**C a v a b:** Əvvəla, onu qeyd etmək istəyirəm ki, ikitərəfli ticarət sahəsində çox böyük inkişaf potensialı var. Pakistan və Azərbaycanın iqtisadiyyatı sürətlə və uğurla inkişaf edir. Hər iki ölkədə gözəçarpan iqtisadi artım müşahidə olunur. Bu amillər ticarət əlaqələrinin genişləndirilməsi üçün böyük imkanlar yaradır. Hesab edirəm ki, ticarət uğurla aparıla bilər.

Biz daşınma məsələlərini də müzakirə etdik. Pakistan hazırda Şərq–Qərb dəhlizini nəzərdə tutan TRASEKA proqramına müşahidəçi qismində qoşulur. Bizim enerji sektorunda, kənd təsərrüfatı, turizm sahələrində yaxşı imkanlarımız vardır. Bakı və Kəraçi şəhərləri arasında birbaşa uçuşların açılması bu prosesi sürətləndirəcək vacib elementlərdən biri olacaqdır. Bu barədə razılıq əldə olunmuşdur. İlkin olaraq, biz həftədə iki uçuşun həyata keçirilməsinə razılıq vermişik. Ümid edirik ki, gələcəkdə onların sayı artacaqdır.

Eyni zamanda, biz viza prosedurlarının asanlaşdırılması ilə bağlı fikir mübadiləsi apardıq. Vizalar daha qısa müddət ərzində açılmalıdır. Bunları nəzərə alaraq düşünürəm ki, biz iqtisadi və ticarət münasibətlərini daha da canlandırmalıyıq. Biz, həmçinin birgə sərgilərin təşkil olunması üzərində razılıq əldə etmişik. Bu

sərgilər hər iki biznes icmasının mövcud imkanlarını nümayiş etdirəcəkdir. Hesab edirəm ki, siyasi münasibətlərin yüksək səviyyədə olması sayəsində iqtisadi sahədə də böyük nailiyyətlər əldə edə biləcəyik.

**S u a l: Şübhəsiz ki, cənab Prezident, hazırkı zəmanənin əsas məsələlərindən biri də qlobal terrorizmə qarşı mübarizənin aparılmasıdır. Biz bilirik ki, Siz öz çıxışlarınızda terrorizm anlayışının müəyyən edilməsində ümumi yanaşmadan istifadə olunmasının vacibliyini qeyd etmisiniz. Sizcə, terrorizm necə müəyyən olunmalıdır?**

**C a v a b:** Mən hesab edirəm ki, hansı ölkəyə qarşı törətdiyi cinayətlərdən asılı olmayaraq, terrorizm hallarına, terrorçulara eyni gözlə baxmaq lazımdır. Əfsuslar olsun ki, bu gün beynəlxalq yanaşmada biz bunu görmürük. Pakistan və Azərbaycan terror aktlarının qurbanı olmuşlar. Ermənistanın terrorçu təşkilatları ölkəmizə qarşı 30-dan çox terror aktı törətmişdir və bunun nəticəsində 2 mindən çox günahsız vətəndaş qətlə yetirilmiş və minlərlə insan xəsarət almışdır. Lakin bu problemin həllində biz lazımi dəstəyi hiss etmirik. Biz beynəlxalq ictimaiyyət tərəfindən dəstəyin verilməsini görmürük. Buna görə də biz həqiqətən inanırıq ki, əgər hər hansı bir terror aktı kimə qarşı törədilməsindən asılı olmayaraq, eyni prinsip əsasında baxılsa, belə halda biz səylərimizi səfərbər edə biləcəyik.

Bütün dünya ölkələrinin səyləri səfərbər olunmasa, biz beynəlxalq terrorizmə qarşı qətiyyətli mübarizə apara bilmərik.

Terrorçular elə bir düşməndir ki, siz onların harada gizləndiyini bilmirsiniz. Hətta müəyyən hallarda siz bilmirsiniz ki, onların arxasında kimlər dayanır və onları ifşa etmək də çox çətindir. Buna görə də bütün beynəlxalq ictimaiyyətin birgə səyləri olmadan, demək olar ki, terrorizmə qarşı mübarizə aparmaq mümkün olmayacaqdır. İkili standartlara yol verilməməlidir. Ümumi və yeganə yanaşmadan istifadə olunmalıdır və biz bunun tərəfdarıyıq.

**S u a l: Dağlıq Qarabağ problemi ilə bağlı Ermənistan və Azərbaycan arasındakı vəziyyətə gəldikdə, bildirilir ki, ötən**

**il Siz vəziyyəti təhlükəli kimi təsvir etdiniz. Sizin fikrinizcə, təhlükələr hansı sahələrdə artır və hansı sahələrdə azalır? Hazırkı durumu necə görürsünüz?**

**C a v a b:** Vəziyyət təhlükəlidir, çünki sülh mövcud deyildir. Ermənistan ərazimizin 20 faizini işğal edib və etnik təmizləmə siyasəti aparıb. Bunun nəticəsində 1 milyon azərbaycanlı evsiz-eşiksiz qalıb. Biz bu münaqişənin aradan qaldırılması üçün beynəlxalq hüququn normalarına uyğun olaraq həll yollarını axtarırıq. Həmin normalarda deyilir ki, hər bir ölkənin ərazi bütövlüyünə hörmətlə yanaşmaq lazımdır. Ermənistan bizim ərazi bütövlüyümüzü pozub və beləliklə, beynəlxalq hüquq normalarını da kobud surətdə pozubdur. Təhlükə ondan ibarətdir ki, döyüş əməliyyatlarının dayandırılmasından və atəşkəs razılaşmasından artıq 10 il keçir, lakin heç bir nəticə yoxdur. Bu daim davam edə bilməz. Hər il və hər ay atəşkəs rejimi vəziyyəti daha da həssas edir, çünki hələ ki, sülh yoxdur. Buna görə də bu münaqişə mümkün qədər qısa müddətdə həll olunmalıdır. Belə olmasa, bu nəinki bizim üçün, eyni zamanda, bütün region üçün böyük təhlükə ola bilər. Əfsuslar olsun ki, regiondakı sabitlik və təhlükəsizlik hələ də kifayət qədər möhkəmləndirilməyibdir.

**S u a l: Hazırkı vəziyyəti nəzərə alsaq, Siz hesab edirsiniz ki, bu məsələdə beynəlxalq ictimaiyyət, xüsusən də Qərb kifayət qədər dəstək verir?**

**C a v a b:** Yox. Bu tamamilə belə deyil. Hesab edirəm ki, bu amil münaqişənin həll olunmamış kimi qalmasının əsas səbəblərindən biridir. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının Ermənistan silahlı birləşmələrinin işğal olunmuş ərazilərdən çıxarılması ilə bağlı dörd qətnaməsi var. Bu yaxınlarda Avropa Şurası tərəfindən qəbul olunmuş qətnamədə aydın şəkildə deyilir ki, Ermənistan Azərbaycana qarşı təcavüz edib, etnik təmizləmə siyasəti aparıb və bunun nəticəsində 1 milyon insan evlərindən qovulub və qaçqın vəziyyətinə düşüb. Bu yaxınlarda ATƏT işğal olunmuş bölgələrə faktaraşdırıcı missiyasını göndərmişdi. Bu işin nəticəsində aydın oldu ki, 15 minə yaxın erməni qeyri-qanuni olaraq orada məskunlaşmışdır. Eyni zaman-

da, beynəlxalq ictimaiyyət bu tədbirlərin qarşısının alınması üçün heç bir addım atmır. Ermənistana qarşı heç bir sanksiya qoyulmayıb. Hətta heç bir tənqidi sözlər də eşidilmir. Beynəlxalq təşkilatlar və ATƏT kimi təsisatlar bizə deyirlər ki, gedin razılığa gəlin! Lakin biz necə razılığa gələ bilərik? Əgər razılıq əldə edə bilsəydik, buna çoxdan nail ola bilərdik. Biz razılığımızı yalnız o vaxt verə bilərik ki, razılıq beynəlxalq hüquqa əsaslansın.

Ermənistan beynəlxalq hüququ pozub və bu onları heç narahat etmir, çünki onlara kifayət qədər təzyiq göstərilmir. Buna görə də biz beynəlxalq ictimaiyyətin bu məsələyə göstərdiyi bu cür diqqətdən tamamilə narazıyıq. Ona görə də vaxt keçdikcə, belə bir qənaətə gəlirik ki, biz güclənməliyik və problemi özümüz həll etməliyik.

**S u a l: Güclənməliyik deyəndə Siz nəyi nəzərdə tutursunuz?**

**C a v a b:** Hər bir sahəni nəzərdə tuturam. İqtisadi inkişafımızı nəzərdə tuturam. Bizim iqtisadiyyatımız Ermənistan iqtisadiyyatından beş dəfə böyükdür. Həyata keçirdiyimiz iqtisadi islahatlar və layihələrimiz gələn üç-dörd il ərzində ÜDM həcmini iki dəfə artırmağa imkan verəcəkdir. İqtisadi və hərbi gücümüz, regional səviyyədə daha fəal əməkdaşlığımız, aktiv xarici siyasətimiz, beynəlxalq münasibətlərimiz Azərbaycanı regionda aparıcı ölkəyə çevirəcəkdir. Hesab edirik ki, münaqişənin nizamlanması üçün bu, yeganə yoldur, çünki on ildən artıq müddətdə aparılan danışıqlar heç bir nəticə vermir. Mən bilmirəm ki, bundan sonra biz nəyi gözləməliyik.

**S u a l: Siz qeyd etdiniz ki, qaçqınlar məsələsi ciddi problem olaraq qalır. Bu problemin aradan qaldırılması sahəsində Sizə hansı həcmdə yardım göstərilir? Onların probleminin həllində daxili imkanlarınızdan nə dərəcədə istifadə edirsiniz?**

**C a v a b:** Biz münaqişənin və sonradan atəşkəsin ilk illəri ərzində beynəlxalq humanitar təşkilatlardan və donor ölkələrdən yardımlar almışıq. Lakin hazırda bu yardımın həcmi azalır. Bu

bizi narahat edir. Buna səbəb ondan irəli gəlir ki, münaqişə getgedə yaddan çıxır, çünki bu, uzunmüddətli münaqişədir.

Neft resurslarımız bütün qaçqınların tələbatının ödənilməsinə imkan vermir, çünki onların sayı səkkiz milyonluq əhalidə bir milyondan çoxdur. Bu, adambaşına düşən göstəriciyə uyğun olaraq, bütün dünyada götürsək, ən yüksək həddir. Lakin biz onların həyatının asanlaşdırılması məqsədi ilə əlimizdən gələni edirik. Onlar üçün yeni evlər, yaşayış məntəqələri, məktəblər və xəstəxanalar tikilir. Hər bir qaçqına dövlət kompensasiyası və digər yardımlar verilir. Lakin, əlbəttə ki, bu, kifayət deyil. Çünki bu insanlar hər şeylərini – öz mülkiyyətini, evlərini və hər şeyi – itiriblər.

**S u a l: Təbii ki, Sizin prezident Müşərrəflə görüşünüzdən və verdiyiniz bəyanatdan sonra Siz və prezident Müşərrəf Kəşmir və Dağlıq Qarabağ haqqında danışdınız. Kəşmir və Qarabağ münaqişələrində hər hansı bir oxşarlığı görürsünüzmü? Bu cür uzunmüddətli münaqişələrin həlli sahəsində biz bir-birimizdən müəyyən şeyləri öyrənə bilərikmi?**

**C a v a b:** Oxşarlıqların əksəriyyəti aydındır. Əvvəla, hər iki halda, Pakistanın və Azərbaycanın mövqeləri ədalətli və düzgündür. Bu birinci amildir. İkincisi, hər iki halda Birləşmiş Millətlər Təşkilatının bütün qətnamələri, demək olar ki, movqelərimizi dəstəkləyir. Buna görə də bizim mövqelərimiz nəinki istəklərimiz və arzularımıza əsaslanır, həmçinin beynəlxalq səviyyədə tanınmış təşkilatların qərarlarına əsaslanır. Hər iki halda biz ikili standart siyasəti ilə üzləşirik. Hər iki halda qeyridüzgün və ədalətsiz hərəkətlərin şahidiyik və beynəlxalq ictimaiyyət onlara adekvat cavab vermir.

Artıq qeyd etdiyim kimi, Pakistan və Azərbaycan Kəşmir və Qarabağ məsələlərində bir-birini dəstəkləyir. Bu dəstək yalnız münaqişələrin oxşarlıqlarına əsaslanmır, o həmçinin bizim tarixi, mədəni və siyasi əlaqələrimizin səviyyəsinə uyğun olaraq yaxın olmağımızla izah edilir. Biz qüdrətli olmalıyıq, bir-birimizi dəstəkləməliyik, dostlarımıza və dost ölkələrə yardım əlini

uzatmalıyıq. Bunu maraqlarımızın dünyada təşviq olunması üçün etməliyik.

**S u a l: Siz Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının tərkibini genişləndirməklə bağlı mövqeyinizi bildirdiniz. Bildiyiniz kimi, bu məsələ ilə bağlı başqa bir plan da var. Bu plan Pakistan tərəfindən təqdim edilmişdir. Siz BMT-də islahatların aparılması ilə bağlı təqdim edilən digər variantları dəstəkləyəcəksinizmi? Həmin variantlarda müxtəlif ölkələrin namizədliyi vardır. Siz Təhlükəsizlik Şurasının indiki tərkibdə qalmasına üstünlük verirsiniz?**

**C a v a b:** Hazırda biz hesab edirik ki, BMT-nin Təhlükəsizlik Şurasının tərkibi tarixdən irəli gələn faktdır. Bu fakt artıq tanınıb. Yeni üzvlərin qəbul edilməsi də mürəkkəb məsələdir. Yeni üzv olmaq üçün hansı meyarlar mövcuddur – ölkənin ərazisi, əhalisinin sayı, ÜDM, beynəlxalq məsələlərdəki rolu? Hazırda bu meyarları müəyyən etmək cox çətindir.

Mən eyni zamanda, hesab edirəm ki, əgər bu gün dünyada bərabərlik və demokratiya ideyaları əsas götürülürsə, onda ölkələr arasında hər hansı bir ayrı-seçkiliyin yaranmasına səbəb olacaq vəziyyət yaranmamalıdır. Hansı ölkələr daha vacibdir, hansılar isə o qədər də vacib deyil? Təhlükəsizlik Şurasının bugünkü tərkibi tariximizin, keçmişimizin reallığıdır. Ona görə də bu məsələyə hər hansı bir dəyişikliyin edilməsi bir çox sual və problemlər yarada bilər. Bu, vəziyyəti asanlaşdırmayacaq, əksinə, çətinləşdirəcəkdir. Buna görə də biz hesab edirik ki, hazırkı status optimaldır. Burada müzakirə etdiyimiz digər islahatlar qətnamələrin yerinə yetirilməsi ilə bağlıdır. Belə bir mexanizmlər mövcud deyildir.

Qoşunların Dağlıq Qarabağdan çıxarılması ilə bağlı BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə Ermənistan heç bir reaksiya vermir. On ildən çox vaxt keçir, lakin heç bir şey baş vermir, heç bir sanksiya və ya təzyiq tətbiq edilmir. Hətta tənqid də eşidilmir. Onda bu qətnamələrin faydası nədədir? Qətnamələr beləliklə, öz əhəmiyyətini itirir. Ona görə də güclü mexanizmlər olmalıdır ki, bunun yerinə yetirilmədiyi təqdirdə hansı

sanksiyaların tətbiq olunacağı, beynəlxalq ictimaiyyətin hansı tədbirləri görəcəyi müəyyən edilsin. Qətnamələrə məhəl qoymayan, onları yerinə yetirməyən ölkələr cəzalandırılmalıdır. İlk olaraq onlara xəbərdarlıq edilməli və sonra isə onlar beynəlxalq təşkilatlardan xaric olunmalıdır. Yalnız bu təqdirdə onlar müəyyən addımların atılması üzərində düşünməyə başlayacaqlar. İndi onların vecinə deyil. Qətnamələr onlar üçün heç bir əhəmiyyət daşımır. Bu, islahatların çox vacib elementidir və biz də Pakistan kimi, bu məsələyə eyni gözlə baxırıq.

**S u a l: Ölkənizin gələcəyinə gəldikdə isə, Siz Azərbaycanı Qərbə doğru, Avropa İttifaqı ilə sıx əlaqələrin qurulması və yaxud Asiyaya doğru istiqamətdə görmək istərdiniz və daha çox Asiya ölkələri ilə möhkəm münasibətlər yaratmaq fikrindəsiniz?**

**C a v a b:** Biz dünyanın bütün ölkələri ilə möhkəm münasibətlər istəyirik. Azərbaycan gənc ölkədir. Müstəqil ölkədir. Ölkəmizin böyük potensialı var, dövlətimiz aydın siyasət yürüdür. Biz açıq qapı siyasətini həyata keçiririk. Avratlantik strukturlarına inteqrasiya ilə bağlı siyasətimiz qətidir və bu yolda böyük nailiyyətlər əldə etmişik.

Biz Avropa Şurasının üzvüyük, Avropa İttifaqının «Yeni qonşuluq siyasəti»nə daxil edilmişik. NATO ilə «Fərdi Tərəfdaşlıq Planı» əsasında çox sıx əlaqədəyik. Eyni zamanda, bizim Asiyadakı tərəfdaşlarımızla yaxşı münasibətlərimiz var. Bunlar bir-birinə mane olmur. Biz elə bir vəziyyətdə olmaq istəmirik ki, hər hansı seçim qarşısında qalaq. Biz inkişafımız üçün lazım olan, milli maraqlarımızın qorunması, Dağlıq Qarabağ münaqişəsinin həlli, vətəndaşlarımızın həyatının yaxşılaşdırılması üçün işləri yerinə yetiririk. Bütün bunlar – ölkədə insanların təhlükəsizliyi, sülhün və sabitliyin qorunması, Azərbaycan üçün ən önəmli şəraitlərin yaradılması bir prezident kimi, mənim borcumdur. Bu istiqamətdə nə lazımdırsa, biz bütün işləri görəcəyik.

**A p a r ı c ı:** Cənab Prezident, Pakistan Televiziyasının studiyasına gəldiyinizə görə Sizə çox minnətdarıq.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN PAKİSTANA RƏSMİ SƏFƏRİ

*13 aprel 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 13-də ölkəmizin Pakistan İslam Respublikasındakı səfirliyinə gəlmişdir. Burada dövlətimizin başçısını səfir Eynulla Mədətli, səfirliyin əməkdaşları, İslamabadda təhsil alan azərbaycanlı tələbələr hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev səfirliyin fəaliyyəti, iş şəraiti ilə yaxından tanış oldu, ümummilli liderimiz Heydər Əliyevin 1996-cı ildə İslamabada və Pakistan prezidenti Pərviz Müşərrəfin 2004-cü ildə Bakıya rəsmi səfərlərini əks etdirən fotostendə baxdı.*

*Dövlətimizin başçısı səfirliyin binasında Pakistan–Azərbaycan Dostluq Cəmiyyətinin üzvləri ilə görüşdü. Söhbət zamanı ölkələrimiz arasında bütün sahələrdə münasibətlərin daha da genişləndirilməsi və möhkəmləndirilməsində cəmiyyətin rolundan danışıldı. Prezident İlham Əliyev cəmiyyətin üzvlərinə tövsiyələrini söylədi, gələcək fəaliyyətlərində uğurlar dilədi.*

*Sonra Azərbaycan prezidenti səfirliyin əməkdaşları, cəmiyyətin üzvləri və tələbələrlə xatirə şəkli çəkdirdi. Cəmiyyətin adından prezidentə xatirə hədiyyəsi təqdim olundu.*

* * *

*Aprelin 13-də Azərbaycan Respublikasının prezidenti İlham Əliyev İslamabaddakı «Şəkərparyən» parkına gəlmişdir.*

*Bu parkın salınmasına Pakistan İslam Respublikasının yaradıldığı ilk ildən başlanmışdır.*

*Prezident İlham Əliyev burada 1996-cı ilin aprelində ümummilli liderimiz Heydər Əliyevin Pakistana rəsmi səfəri zamanı əkdiyi ağaca baxdı.*

*Dövlətimizin başçısına məlumat verildi ki, ötən illər ərzində Pakistan İslam Respublikasının qonaqları–xarici ölkələrin məşhur dövlət və hökumət başçıları, tanınmış ictimai və siyasi xadimlər bu parkda xatirə olaraq ağac əkmişlər və bunların hər birinə diqqətlə qulluq edilir.*

*Prezident İlham Əliyev parkla tanış oldu və xatirə ağacı əkdi, sonra İslamabad şəhərinin gözəl mənzərəsini seyr etdi. Ölkəmizin rəhbərinə məlumat verildi ki, paytaxtın genişləndirilməsi, yeni park və küçələrin salınması nəzərdə tutulur.*

*Azərbaycan prezidenti İlham Əliyev parkın xatirə kitabına ürək sözlərini yazdı. Dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim olundu.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev Pakistan İslam Respublikasına rəsmi səfərinin sonuncu günü qardaş ölkənin ən böyük dini ocaqlarından olan Faysal məscidini ziyarət etmişdir.*

*Dövlətimizin başçısına paytaxt İslamabadda bu məscidin yaranması, fəaliyyəti barədə məlumat verildi və bildirildi ki, burada Qurani-Kərimin on minlərlə nüsxəsi, islama aid dəyərli materiallar toplanmışdır və qorunub saxlanılır. Dini mərasimlər zamanı eyni vaxtda minlərlə insanın namaz qılması, dua etməsi üçün şərait vardır.*

*Prezident İlham Əliyev məscidlə tanışlıqdan məmnunluğunu bildirdi.*

* * *

*Pakistan İslam Respublikasının prezidenti Pərviz Müşərrəfin dəvəti ilə bu ölkədə rəsmi səfərdə olan Azərbaycan Respublikasının prezidenti İlham Əliyev aprelin 13-də Vətənə yola düşmüşdür.*

*Azərbaycanın və Pakistanın dövlət bayraqları asılmış «Çaklala» hərbi hava bazasında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısını Pakistanın Müdafiə Sənayesi naziri Həbibulla Xan Varraix, ölkənin digər yüksək vəzifəli şəxsləri, Azərbaycanın İslamabaddakı səfiri Eynulla Mədətli, Pakistanın Bakıdakı səfiri Məhəmməd Hafiz yola saldılar.*

*Prezident İlham Əliyevə təyyarənin pilləkəni yanında Pakistana rəsmi səfərini əks etdirən fotoalbom təqdim olundu.*

* * *

*Həmin gün Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Bakıya gəldi.*

## AZƏRBAYCAN BEYNƏLXALQ ƏMƏLİYYAT ŞİRKƏTİNİN (ABƏŞ) PREZİDENTİ DEVİD VUDVORDLA GÖRÜŞ

*Prezident sarayı*

*14 aprel 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Prezident sarayında Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin (ABƏŞ) prezidenti Devid Vudvordu qəbul etmişdir. Bu ilin fevralında Xəzər dənizinin Azərbaycan sektorundakı «Azəri»-«Çıraq»-«Günəşli» yataqlarının Mərkəzi Azəri platformasından ilk neftin çıxarılmasını çox əhəmiyyətli hadisə kimi qiymətləndirən cənab Devid Vudvord ötən dövr ərzində bu sahədə işlərin böyük uğurla davam etdirildiyini nəzərə çatdırdı. O, ümidvar olduğunu bildirdi ki, Bakı–Tbilisi–Ceyhan qlobal layihəsi yaxın vaxtlarda başa çatacaq və hasil olunan neft əsas ixrac boru kəməri ilə uğurla nəql ediləcəkdir.*

*Mərkəzi Azəri platformasından ilk neftin çıxarılmasını Azərbaycanın böyük neft erasının başlanması kimi yüksək dəyərləndirən dövlətimizin başçısı İlham Əliyev ölkəmizdə bu sahədə işlərin müvəffəqiyyətlə həyata keçirildiyini vurğuladı. Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, bu işlər bundan sonra da uğurla davam edəcək, Bakı–Tbilisi–Ceyhan qlobal enerji layihəsinin başa çatdırılması ölkəmizin ABƏŞ-lə əməkdaşlığının yeni mərhələsinin əsasını qoyacaqdır.*

**TANZANİYA BİRLƏŞMİŞ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BENCAMİN UİLYAM MKAPAYA**

*Hörmətli cənab Prezident!*

*Tanzaniya Birləşmiş Respublikasının milli bayramı – Birlik günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.*

*Ümidvaram ki, ölkələrimiz arasındakı münasibətlər daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.*

*Sizə ən xoş arzularımı yetirir, dost Tanzaniya xalqına sülh və rifah diləyirəm.*

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *18 aprel 2005-ci il*

**CƏNUBİ AFRİKA RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB TABO MBEKİYƏ**

*Hörmətli cənab Prezident!*

*Cənubi Afrika Respublikasının milli bayramı – Azadlıq günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.*

*Əminəm ki, Azərbaycan Respublikası ilə Cənubi Afrika Respublikası arasında dostluq əlaqələrinin genişlənməsi əməkdaşlıq imkanlarımızı daha da artıracaqdır.*

*Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.*

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı, 18 aprel 2005-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASI SAHİBKARLAR TƏŞKİLATLARI MİLLİ KONFEDERASİYASI I QURULTAYININ İŞTİRAKÇILARINA

Hörmətli qurultay iştirakçıları!

Sizi Azərbaycan Respublikası Sahibkarlar Təşkilatları Milli Konfederasiyasının I qurultayının açılışı münasibətilə təbrik edirəm.

İndi ölkəmizin iqtisadi inkişafı yeni mərhələyə qədəm qoymuşdur. Bu mərhələdə bizim əsas vəzifələrimiz ölkə iqtisadiyyatında zəruri struktur dəyişikliklərinin həyata keçirilməsindən, onun sahə və regional baxımdan tarazlığının təmin edilməsindən, iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsindən, yeni iş yerlərinin açılmasından, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasından və nəticə etibarilə ölkədə yoxsulluğun səviyyəsinin azaldılmasından ibarətdir.

Bu vəzifələrin müvəffəqiyyətlə həyata keçirilməsi və ölkənin sosial-iqtisadi tərəqqisi əhəmiyyətli dərəcədə sahibkarlığın inkişafından asılıdır.

Azərbaycan dövlətinin iqtisadi siyasətində sahibkarlığın inkişafı üçün əlverişli mühitin formalaşdırılması mərkəzi yer tutur. Ümummilli liderimiz Heydər Əliyevin üç il əvvəl yerli və xarici sahibkarlarla keçirdyi görüşlər, bu görüşlərin nəticəsində qəbul edilmiş tarixi qərarlar və onların icrası istiqamətində görülmüş işlər ölkədə sahibkarlığın inkişafında yeni mərhələ yaratmış, işgüzar fəaliyyəti əhəmiyyətli dərəcədə gücləndirmişdir.

Azərbaycan dövləti bundan sonra da ölkədə sahibkarlığın inkişafının sürətləndirilməsini bir strateji xətt olaraq ardıcıl şəkildə davam etdirəcəkdir.

Ölkədə sahibkarlığın inkişafı üçün iş adamları ilə dövlət hakimiyyəti orqanları arasında zəruru əlaqələrin qurulmasında,

sahibkarların hüquq və mənafelərinin qorunmasında, onların maarifləndirilməsi və informasiya təminatında sahibkarların ictimai təşkilatları böyük rol oynayırlar.

Bu gün Azərbaycan Respublikası Sahibkarlar Təşkilatları Milli Konfederasiyası sahibkarlıq subyektlərinin maraq və mənafelərinə uyğun olaraq, milli səviyyədə sosial-iqtisadi siyasəti həyata keçirən müvafiq mərkəzi icra hakimiyyəti orqanları ilə əməkdaşlıq əlaqələrini genişləndirir, sahibkarların sahə və regional ictimai təşkilatlarının yaradılmasına, onların fəaliyyətlərinin əlaqələndirilməsinə, sosial tərəfdaşlıq və əməkdaşlıq praktikasının gücləndirilməsinə kömək edir.

Ümidvaram ki, Konfederasiya bundan sonrakı fəaliyyəti ilə də ölkədə sahibkarlığın inkişafının sürətləndirilməsi sahəsində dövlət siyasətinin həyata keçirilməsində, sahibkarların qanuni mənafelərinin və hüquqlarının müdafiəsində, ictimai fəallıqlarının artırılmasında və digər sahələrdə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək, ölkənin sosial-iqtisadi həyatında iş adamlarının rolunun daha da artırılmasına xidmət edəcəkdir.

Bir daha hamınızı təbrik edir, qurultayın işinə uğurlar arzulayıram.

**İLHAM ƏLIYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *19 aprel 2005-ci il*

## MARİYA İŞLER BİGUİNİN BAŞÇILIĞI İLƏ AVROPA İTTİFAQI – AZƏRBAYCAN PARLAMENT ƏMƏKDAŞLIĞI KOMİTƏSİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 aprel 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev Avropa İttifaqı–Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin nümayəndə heyətinin üzvləri ilə görüşməkdən məmnunluğunu bildirdi və komitənin növbəti iclasının Bakıda uğurla keçməsini yüksək qiymətləndirdi. Ölkəmizin Avropa İttifaqı ilə əlaqələrə böyük əhəmiyyət verdiyini vurğulayan prezident İlham Əliyev dedi ki, Avropaya inteqrasiya Azərbaycan üçün prioritet məsələlərdən biridir. Son illər Azərbaycanla Avropa İttifaqı arasında çox gözəl işgüzar münasibətlərin yarandığını qeyd edən dövlətimizin başçısı ötən il Avropa İttifaqının tədbirlərində iştirakını məmnunluqla xatırladaraq bildirdi ki, bu tədbirlər zamanı keçirdiyi görüşlər həm Azərbaycanın, həm də Avropa İttifaqının əlaqələrin daha da genişləndirilməsi və inkişaf etdirilməsində maraqlı olduğunu göstərdi.*

*Azərbaycanın Avropanın yeni qonşuluq siyasətində fəal iştirakını vurğulayan prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, bu çərçivədə qarşılıqı əlaqələr bundan sonra da genişlənəcəkdir. Nəqliyyat, infrastruktur, enerji, mədəniyyət və digər sahələrdə əməkdaşlığın daha da inkişafı üçün böyük imkanlar olduğunu nəzərə çatdıran dövlətimizin başçısı bu işbirliyinin gələcəkdə də davam etdiriləcəyinə əminliyini vurğuladı.*

*Azərbaycanın Avropa İttifaqı ilə uğurlu əməkdaşlığının bölgədə sülh və sabitlik yaranması işinə xidmət etdiyini bildirən*

*prezident İlham Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə Avropa İttifaqının diqqətinin artdığını qeyd etdi və bu məsələ ilə əlaqədar Aİ-nin xüsusi nümayəndəsinin fəaliyyət göstərməsini həmin diqqətin təzahürü kimi qiymətləndirdi.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Avropa İttifaqının əməkdaşlığının gələcəkdə də uğurla inkişaf edəcəyinə əminliyini bir daha vurğuladı.*

*Bakıya səfərdən böyük məmnunluq duyduqlarını söyləyən, Azərbaycan prezidenti ilə əvvəlki görüşlərini razılıqla xatırlayan xanım Mariya İşler Biguin dövlətimizin başçısı ilə yenidən görüşmək imkanından məmnunluq hissi keçirdiklərini bildirdi. Geniş tərkibdə nümayəndə heyətinin Azərbaycana səfərini ölkəmizə olan marağın bariz nümunəsi kimi dəyərləndirən qonaq Avropa İttifaqının respublikamızla münasibətlərin inkişafına əhəmiyyət verdiyini vurğuladı.*

*Nümayəndə heyəti üzvlərinin Bərdədə məcburi köçkünlərlə görüşdüyünü bildirən xanım Biguin dedi ki, biz onların çətin şəraitdə yaşadıqlarının şahidi olduq. Bizdə bir daha belə qənaət yarandı ki, Avropa Parlamentinin üzvləri Dağlıq Qarabağ münaqişəsinin həlli işinə öz töhfələrini verməlidirlər.*

## 2005-ci İLİN BİRİNCİ RÜBÜNÜN İQTİSADİ YEKUNLARINA HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ NİTQ

*20 aprel 2005-ci il*

2005-ci ilin birinci rübü başa çatıb və mən istərdim ki, biz bu gün onun yekunlarını müzakirə edək. Ümumiyyətlə, 2005-ci ilin birinci rübündə iqtisadiyyatda müsbət meyllər daha da güclənibdir. Azərbaycanın iqtisadiyyatı inkişaf edib və bu onu göstərir ki, son illər ərzində ölkəmizdə aparılmış iqtisadi islahatlar öz nəticələrini verir.

2004-cü il də bu baxımdan uğurlu olubdur. 2004-cü ilin yekunlarını biz keçən ilin dekabr ayında geniş şəkildə müzakirə etmişdik və gördük ki, ötən il bütün iqtisadi göstəricilər yüksək olubdur. Dediyim kimi, bu meyllər 2005-ci ildə daha da güclənibdir. Əhalinin pul gəlirləri artıb, ümumi daxili məhsul, əməkhaqqı artıbdır. Beləliklə, demək olar ki, nəzərdə tutduğumuz planlar həyatda öz əksini tapmaqdadır. 2004-cü ildə struktur islahatları da aparılmışdır və hesab edirəm ki, iqtisadi inkişaf baxımından bunlar çox vacib məsələlər idi.

Yanvarın 1-dən minimum əməkhaqqı 25 faiz artıbdır və indi Azərbaycanda minimum əməkhaqqı 125 min manatdır. Bir il bundan əvvəl minimum əməkhaqqı 60 min manat idi. Belə demək olar ki, biz bunu iki dəfədən çox qaldırdıq və bu da son hədd deyildir. Mən hesab edirəm ki, bu yaxınlarda büdcəyə ediləcək dəyişikliklər minimum əməkhaqqının yenidən qaldırılmasına imkan verəcəkdir. Bu bizim məqsədimizdir. Azərbaycanda minimum əməkhaqqı ildən-ilə qalxmalıdır və xalqımız daha yaxşı yaşamalıdır.

2005-ci ildə sahibkarlara diqqət daha da artır. Bu məqsədlə – Azərbaycanda sahibkarlığı inkişaf etdirmək üçün əlavə vəsait

ayrılacaqdır. Əgər 2004-cü ildə güzəştli kreditlər üçün 100 milyard manat vəsait nəzərdə tutulmuşdusa, 2005-ci ildə biz bunu iki dəfə qaldırdıq və müvəkkil banklar vasitəsilə sahibkarlara 200 milyard manat güzəştli kreditlər veriləcəkdir. Mən İqtisadi İnkişaf Nazirliyinə tapşırmışam – maksimum dərəcədə çalışıb bu məbləği ilin birinci yarısında verək ki, sahibkarlar bundan faydalana bilsinlər. Əlbəttə ki, büdcədə də bunu nəzərdə tutmaq lazımdır.

Kənd təsərrüfatının inkişafı üçün lazımlı tədbirlər görülübdür. Struktur dəyişiklikləri, eyni zamanda digər istiqamətlərdə atılmış addımlar imkan verə bilər ki, kənd təsərrüfatında da ciddi irəliləyiş əldə olunsun. Bildiyiniz kimi, Aqrolizinq şirkətinin yaradılması və bu şirkət vasitəsilə yeni texnikanın alınması kənd təsərrüfatının inkişafına güclü təkan verəcəkdir. Həmin məqsədlərə bu il 100 milyard manat vəsait nəzərdə tutulubdur. Hesab edirəm, biz tezliklə həmin vəsaitdən istifadə etməliyik ki, fermerlər, kəndlilər bundan faydalansınlar. Gələn il isə 150 milyard manat nəzərdə tutulacaqdır. Əgər bizim iqtisadi inkişafımız imkan verərsə, bu məbləğ daha da artırıla bilər ki, kənd təsərrüfatı ilə məşğul olan insanlar lazımi texnika ilə tam həcmdə təmin edilsinlər.

Bütövlükdə 2005-ci ildə büdcəmiz təxminən 30 faiz artıbdır. Bu onu göstərir ki, həm maliyyə intizamı artıbdır, həm də bütün imkanlar səfərbər olunubdur. Amma hesab edirəm ki, bu da son hədd deyildir. Ehtiyatlarımız var və mən hesab edirəm ki, bu il büdcəyə ediləcək dəyişikliklər bunu göstərəcəkdir. Biz büdcəmizi ildən-ilə artırmalıyıq. Bu il ilk dəfə olaraq büdcəmiz 2 milyard dolları keçibdir. Amma, əlbəttə ki, bizim potensialımız daha da yüksəkdir və gələcəkdə ölkəmiz daha da inkişaf etdikcə büdcəmiz də artacaqdır.

Hesab edirəm ki, çox vacib məsələlərdən biri də budur ki, sosial sahəyə diqqət daha da artıbdır. Azərbaycanda bu sahəyə diqqət həmişə yüksək olub, imkan daxilində çalışmışıq və çalışırıq ki, mövcud olan bütün sosial məsələləri həll edək. Ən ağır sahələrdən biri olan səhiyyə sektoruna da ciddi şəkildə yardım-

lar göstərilir. 2005-ci ilin dövlət büdcəsində səhiyyəyə nəzərdə tutulmuş xərclər 44 faiz artıbdır. Hesab edirəm ki, bu əlavə vəsaitdən səmərəli istifadə olunacaq və hamımızı narahat edən bu sahədə ciddi dönüş yaranacaqdır.

Ordu quruculuğuna diqqətimiz həmişə yüksək olubdur və son illər ərzində bu özünü daha aşkar büruzə verir. Təsadüfi deyildir ki, hərbi xərclərə ayrılmış vəsait 30 faiz artıbdır. Bəziləri, xüsusilə xaricdən gələn qonaqlar və bölgədə gedən prosesləri izləyən qurumlar həyəcanla sual verirlər ki, nə üçün Azərbaycanda hərbi xərclər artır? Mən həmişə deyirəm ki, bizim bütün xərclərimiz artır. Büdcəmiz 30 faiz artıbdır. Təhsilə, səhiyyəyə, mədəniyyətə, başqa sahələrə ayrılan xərclər artıbdır və təbii ki, orduya da bu xərclər artıbdır və daha da artmalıdır. Ordunun böyük ehtiyacları var. Azərbaycanda ordu quruculuğunda böyük işlər görülübdür. Amma ordunun maddi-texniki bazası həmişə möhkəmlənməli, yeniləşməli, müasirləşməlidir. Bu sahəyə də ciddi diqqət göstərilir.

Regional inkişaf proqramı da uğurla icra edilir. Bu ilin fevralında biz proqramın bir illik yekunlarını müzakirə etdik. Çox şadam ki, nəzərdə tutulmuş proqramlar həyatda öz əksini tapır. İl yarım ərzində 200 min iş yerinin açılması, bəlkə də dünyada görünməmiş bir hadisədir. Əlbəttə, ölkəmizin ərazisi və əhalisi nəzərə alınmaq şərtilə. Bu onu göstərir ki, bizim nəzərdə tutduğumuz bütün məsələlər, planlar öz əksini tapır.

Çox şadam ki, iş yerlərinin böyük hissəsi, tam əksəriyyəti qeyri-neft sektorunda və bölgələrdə baş verib və gedən proseslər onu göstərir ki, bu, davam edəcəkdir. Mənə bu gün verilmiş məlumata görə, 2005-ci ildə 30 min yeni iş yeri açılıbdır. Bu onu göstərir ki, proses davam edir.

Ümumiyyətlə, bölgələrdə, rayonlarda vəziyyət yaxşılaşır, abadlıq-quruculuq işləri gedir, həm fərdi tikinti, həm də infrastruktur obyektlərinin tikintisi gedir.

İcra başçılarının dəyişməsi prosesi də gedir. Bir neçə rayonda yeni icra hakimiyyəti başçıları təyin edilibdir. Deyə bilərəm ki, onların böyük əksəriyyəti çox fəal işləyir və ən əsası odur ki,

əhali tərəfindən onların fəaliyyəti bəyənilir. Mən də təyin etdiyim bütün icra hakimiyyəti başçılarına ilk növbədə əhaliyə diqqət göstərmək tapşırığı vermişəm ki, insanlar dəyişikliyi hiss etsinlər. İcra hakimiyyətinin başçıları mənim yerlərdə nümayəndələrimdir və yerlərdə gedən proseslər xeyli dərəcədə onların fəaliyyətindən asılıdır. Ümumiyyətlə, kadr dəyişikliyi prosesi gedir. Bu da çox vacib məsələdir, yeniləşmə gedir. Azərbaycan gənc ölkədir. Artıq bizim qısa tariximiz onu göstərir ki, müxtəlif mərhələlərdə, əlbəttə ki, ciddi dəyişikliklər, xüsusilə kadr dəyişiklikləri olmalıdır. Mən çox şadam ki, ölkəmiz yeniləşir, müasirləşir. Bu proses davam edəcəkdir. Azərbaycana, ölkəmizə yeni, müasir düşüncəli, istedadlı, mütərəqqi kadrlar lazımdır. Biz istəyirik ki, hər bir məsul vəzifədə, hər bir sahədə geniş dünyagörüşü olan, dünyada gedən proseslərə bələd olan, müasir təfəkkürlü insanlar ön plana çıxsınlar və bu proses bundan sonra da davam edəcəkdir.

İnfrastruktur layihələri həyata keçirilir və biz buna böyük diqqət göstəririk. Yol tikintisi çox uğurla gedir, Bakı–Gəncə–Gürcüstan sərhəd avtomobil yolunun tikintisi davam edir. Hesab edirəm, 2007-ci ildə bu yol tamamilə istismara veriləcək və ən yüksək dünya standartları səviyyəsində olacaqdır. Eyni zamanda, bu il Bakı–Rusiya sərhədi istiqamətində yolun tikintisi başlanmalıdır. Verilən məlumata görə, artıq bütün maliyyə məsələləri öz həllini tapmaqdadır və beləliklə, qısa müddət ərzində bu yolun istismara verilməsini də qeyd edəcəyik. Üçüncü istiqamətdə Bakı–İran sərhədi istiqamətində yolun tikintisi üçün hazırlıq işləri gedir, danışıqlar aparılır. Bu çox vacibdir. Əgər biz ölkəmizi hərtərəfli inkişaf etdirmək istəyiriksə, bölgələri inkişaf etdirmək istəyiriksə, mütləq infrastruktur layihələrini həyata keçirməliyik. Yeni elektrik stansiyalarının tikintisi də nəzərdə tutulubdur. Sumqayıtda 500 meqavat gücündə olan stansiyanın tikintisi başlanıbdır.

Bu yaxınlarda Bakıda «Şimal» DRES-də 400 meqavat gücündə ikinci qurğunun tikintisinə başlanacaqdır və bütün razılaşmalar əldə edilibdir. Amma bu stansiyaların tikintisi uzun

prosesdir, minimum iki il vaxt tələb edir. Ona görə «Azərenerji»yə ciddi tapşırıqlar verilibdir ki, təxirəsalınmaz tədbirlər görülsün və artıq bu istiqamətdə işlər görülməkdədir. Kiçik həcmli elektrik stansiyalarının alınması məsələsi müzakirə edilir ki, biz qısa müddət ərzində bölgələrdə enerji qıtlığını aradan götürək. Düzdür, ildən-ilə vəziyyət yaxşılaşır. Amma bu bizi qane edə bilməz. Çünki Azərbaycanın hər bir yerində – hər bir şəhərində, hər bir qəsəbəsində, hər bir kəndində hər bir insan istənilən vaxt düyməni basıb işığını yandırmalıdır. Bu, insanlarımızın təbii tələbidir və biz də dövlət olaraq bunu təmin etməliyik.

Düzdür, obyektiv səbəblər var. Azərbaycanda gedən inkişaf, iş yerlərinin açılması, böyük tikinti-quruculuq işləri əlavə güc tələb edir. Verilən məlumata görə, bu iki il ərzində 800 meqavat əlavə güc tələb olunur. Amma heç bir stansiya tikilməyib, heç bir iş görülmür və belə olan halda təbiidir ki, enerji qıtlığı yaranır. Biz gərək öz işimizi elə quraq ki, artan tələbatı ödəyək və bunu edəcəyik.

Dünyada ən böyük enerji layihəsi də uğurla həyata keçirilir. Bakı–Tbilisi–Ceyhan neft kəməri gələn ay istismara veriləcəkdir və beləliklə, Azərbaycanın neft strategiyasının böyük mərhələsi başa çatacaqdır. Bu, tarixi hadisədir. Azərbaycanın iqtisadi və siyasi maraqlarını təmin edəcək bir layihədir. Mən çox şadam ki, 2004-cü ildə və 2005-ci ilin birinci rübündə Azərbaycan tərəfindən görülmüş bütün işlər imkan yaratdı ki, kəmər vaxtında istismara verilsin. «Şahdəniz» layihəsi də uğurla həyata keçirilir, qaz kəməri də tikilir və 2006-cı ildə o da istifadəyə veriləcəkdir. Eyni zamanda, qazın hasilatı da artacaq və biz insanlarımızı təbii qazla tam təmin edə biləcəyik.

2005-ci ilin birinci rübünün göstəriciləri də yaxşıdır. Ümumi daxili məhsul 10,8 faiz, sənaye istehsalı 10,3 faiz artıbdır. Əhalinin pul gəlirləri 24 faiz, əməkhaqqı təxminən 23 faiz, banklara qoyulan əmanətlərin həcmi 52 faiz artıbdır. Bəzi hallarda belə fikirlər səslənir ki, Azərbaycanda əhalinin həyat səviyyəsi o qədər də yüksək sürətlə yaxşılaşmır. Amma əgər üç ay ərzində banklara qoyulan əmanətlər 52 faiz artıbsa, bu onu göstərir ki, in-

sanlar nə qədər gəlir əldə ediblər. Ümumi daxili məhsulun 10,8 faiz artımı son hədd deyildir. Fərhad Əliyev bu yaxınlarda Amerikadaydı, Beynəlxalq Valyuta Fondunun toplantısında iştirak edibdir. Bu gün mənə məlumat verdi ki, Beynəlxalq Valyuta Fondunun rəsmi bəyanatında, açıqlamasında deyilir ki, 2005-ci ildə Azərbaycan ümumi daxili məhsulun artımına görə nəinki bölgədə və yaxud postsovet məkanında, hətta dünyada lider olacaqdır. – Əgər biz bu rəqəmi 14-15 faiz səviyyəsində nəzərdə tuturduqsa, indi görürük ki, daha da yüksələ, təxminən 18–20 faizə çata bilər.

Bu onu göstərir ki, ölkədə gedən proseslər, iqtisadi islahatlar, ümumiyyətlə, iqtisadi siyasətimiz uğurludur və öz nəticələrini verir. Bu bizə imkan verəcək ki, yoxsulluğun səviyyəsini aşağı salaq. Bu işdə də böyük nailiyyətlər var. Amma insanlarımızın 40 faizinin yoxsulluq içində yaşaması bizi çox narahat edir və mən vəzifə qoymuşam, tapşırıq vermişəm ki, bu, kəskin şəkildə azalmalıdır və biz müxtəlif yollarla buna nail olacağıq.

Qeyd etdiyim kimi, bu yaxınlarda büdcəyə yəqin ki, dəyişiklik edilməli və dəyişikliklərdə minimum əməkhaqqının qaldırılması da nəzərdə tutulmalıdır. İnsanlarımız daha yaxşı yaşamalı və müsbət dəyişiklikləri hiss etməlidirlər.

Əlbəttə ki, bütün bu müsbət nəticələrlə yanaşı, bizi narahat edən məsələlər də var və onları gərək ilk növbədə müzakirə edək və bu gün də müzakirə edəcəyik. Bu da ondan ibarətdir ki, son il ərzində qiymətlərin artımı müşahidə olunur, inflyasiya çox yüksəlibdir. Azərbaycanda heç vaxt inflyasiya bu səviyyəyə gəlib çatmamışdır. Bu gün inflyasiya 13 faizdir və əlbəttə ki, bu dözülməzdir. Bunun təbii səbəbləri də var: dünyada neftin qiymətinin qalxması idxal olunan malların qiymətinə təsir edir, nəqliyyat xərcləri artır, avronun dollara nisbətdə məzənnəsinin möhkəmlənməsi avro zonasından idxal edilən malların qiymətini artırır. Eyni zamanda, Azərbaycanda görülən işlər nəticəsində əhalinin daha yaxşı yaşaması, pul gəlirlərinin artması, pul kütləsinin çoxalması da buna təsir edir. Bütün bunlar, əlbəttə ki, təbii səbəblərdir və hər ölkədə bu səbəblər öz təsirini göstərir. Bilirik ki, başqa ölkələrdə də qiymət artımı baş verir.

Amma bununla yanaşı, süni səbəblər də var. Biz onları aradan qaldırmalıyıq. Qeyri-sağlam rəqabət bizim üçün ən böyük problemdir və qiymətlərin artımına ciddi şəkildə təsir edən amildir. İnhisarçılıq barədə çox danışılır. Ancaq deyə bilmərəm ki, bu, əsas səbəbdir. Amma şübhəsiz ki, qiymətlərin qalxmasına bunun təsiri var. Biz bunları aradan götürməliyik. Təbii səbəbləri biz aradan qaldıra bilmərik. Çünki bu, dünyada gedən proseslərlə bağlı olan məsələlərdir. Amma süni maneələri dərhal aradan götürməliyik.

Bir müddət bundan əvvəl mən Maliyyə Nazirliyinə, İqtisadi İnkişaf Nazirliyinə, Milli Banka, Vergilər Nazirliyinə, Gömrük Komitəsinə və digər qurumlara tapşırıqlar vermişəm ki, inflyasiyanın səviyyəsini aşağı salmaq üçün hansı tədbirlərin görülməsi barədə təkliflərini versinlər. Söhbət ondan getmir ki, inflyasiya qalxmasın. Ümumiyyətlə, indiki vəziyyət yolverilməzdir. Mən məsələni elə qoyuram ki, qiymətlər aşağı düşməlidir. Əlbəttə, iqtisadiyyatın öz qanunları var və hər bir ölkənin iqtisadi inkişafı üçün inflyasiyanın mövcudluğu vacibdir. Amma bunun bir həddi olmalıdır, o həddi keçməməlidir. İndi mən o rəqəmi demək istəmirəm ki, hansı həddi keçməməlidir. Çünki biz bu iqtisadi proseslərə belə kobud şəkildə müdaxilə edə bilmərik. Azərbaycan öz iqtisadiyyatını bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf etdirir. Amma tənzimləyici mexanizmlər – həm iqtisadi mexanizmlər, həm də inzibati mexanizmlər olmalıdır. Bax, bu gün biz bu barədə danışacağıq və elə eləməliyik ki, insanlarımızı narahat edən qiymət artımının qarşısı qısa müddət ərzində alınsın və qiymətlər kəskin şəkildə aşağı düşsün. Düzdür, əməkhaqqının artımı 23 faizdir. Əhalinin pul gəlirlərinin artımı 24 faizdir. İnflyasiyanın artımı 13 faizdir. Bu rəqəmlər bunu göstərir ki, inkişaf var və həyat səviyyəsinin yaxşılaşması istiqamətində addımlar var. Amma nə üçün inflyasiya insanlarımıza verilən əməkhaqqının böyük hissəsini yesin? Düzdür, mənə deyirlər ki, bazarda mal qalmır, bütün mallar satılır. Deməli, alıcılıq qabiliyyəti artıbdır. Amma biz bu islahatları ona görə aparmırıq ki, bundan ancaq bazarda malı satanlar faydalansın-

lar. Belə çıxır ki, biz əməkhaqqını qaldırırıq, digər pul gəlirləri artır və bundan da ticarətlə məşğul olan qurumlar faydalanır. Deməli, insanlarımızın əməkhaqqı və yaxud da ki, gəlir şəklində əldə etdikləri əlavə vəsait malsatanların cibinə gedir. Biz buna yol verə bilmərik. Ona görə də kəskin tədbirlər görülməlidir və görüləcəkdir. Mən bu gün bu barədə danışmaq istəyirdim. Əlbəttə, bütün uğurlar, müsbət nəticələr öz yerində, biz bunları bilirik və xalqımız da bunu bilməlidir. Amma bütün səylərimizi məhz dediyim mənfi halların aradan qaldırılmasına yönəltməliyik.

Bundan sonra mətbuat azaddır.

**ZATİ-MÜQƏDDƏSLƏRİ**
**ROMA PAPASI XVI BENEDİKTƏ**

Zati-müqəddəsləri!

Roma Papası seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Biz Azərbaycan Respublikası ilə Müqəddəs Taxt-Tac arasında münasibətlərin inkişafına böyük əhəmiyyət veririk. Ümidvaram ki, ümumbəşəri dəyərlərin, insanlar arasında qarşılıqlı anlaşmanın və həmrəyliyin bərqərar olması yolunda əməkdaşlığımızı və birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, müqəddəs amallar naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 aprel 2005-ci il*

## TRASEKA HÖKUMƏTLƏRARASI KOMİSSİYASININ 4-cü İLLİK KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Əziz qonaqlar!

Sizi – TRASEKA Hökumətlərarası Komissiyasının 4-cü illik Konfransının iştirakçılarını Azərbaycanın paytaxtı Bakı şəhərində böyük məmnuniyyət hissi ilə salamlayıram.

Azərbaycan Respublikası öz müstəqilliyinin ilk illərindən beynəlxalq aləmdə geniş iqtisadi əlaqələrini qurmaq məqsədi ilə kommunikasiya dəhlizlərinin yaradılmasını prioritet məsələ kimi müəyyən etmişdir.

Bu baxımdan Avropa İttifaqının dəstəyi ilə həyata keçirilən TRASEKA proqramı xüsusi əhəmiyyət kəsb edir. Böyük İpək Yolunun qədim tarixi ənənələrinin bərpasına yönəlmiş bu proqram bütün üzv dövlətlərin iqtisadi inkişafına xidmət edir, onların regional və regionlararası səviyyədə sıx inteqrasiyasını təmin edir.

7–8 sentyabr 1998-ci il tarixində prezident Heydər Əliyevin təşəbbüsü ilə Bakı şəhərində 13 beynəlxalq təşkilatın və 32 dövlətin nümayəndə heyətlərinin iştirakı ilə keçirilmiş «TRASEKA – Tarixi İpək Yolunun Bərpası» Beynəlxalq Konfransında Avropa–Qafqaz–Asiya dəhlizinin inkişafı üzrə çoxtərəfli saziş imzalanmış və beynəlxalq tranzit daşımalarının daha səmərəli təşkilinin hüquqi əsasları qoyulmuşdur.

Bu önəmli toplantıdan sonrakı müddət ərzində əsas məqsədlərə nail olunmuşdur. Ötən zaman kəsiyində nəqliyyat sektoru infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi, sərhəd-gömrük prosedurlarının sadələşdirilməsi, əlverişli investisiya mühitinin yaradılması, tarif siyasətinin uzlaşdırılması, kadrların hazırlanması sahəsində bir sıra perspektiv layihələr uğurla tət-

biq edilmişdir. Bu uzunmüddətli əməkdaşlıq nəticəsində Şərq–Qərb istiqamətində daşınan yüklərin həcmləri kəskin şəkildə artmışdır.

Böyük İpək Yolu keçmişdən başlasa da, gələcəyə gedən yoldur. Ümidvaram ki, bu yolda bizim strateji partnyorluğumuz xalqlarımızı firavanlığa və tərəqqiyə aparacaqdır.

Hörmətli konfrans iştirakçıları! Bir daha hamınıza Azərbaycana xoş gəldiniz deyirəm, sizə səmərəli iş, ölkələrinizə əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *20 aprel 2005-ci il*

## «AZƏRBAYCAN TİBB JURNALI»NA

Sizi respublikanın səhiyyə tarixində xüsusi yeri olan «Azərbaycan tibb jurnalı»nın 80 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan tibb elminin inkişafında müstəsna xidmətləri olan bu jurnal ötən illər ərzində böyük yol keçmişdir. Jurnalın səhifələrində səhiyyənin və tibb elminin ən mühüm məsələlərinə dair dərc edilmiş məqalələr respublikada tibb elminin inkişafına əhəmiyyətli təsir göstərmişdir. Təbabətin bütün sahələrində alimlərimizin nailiyyətlərini işıqlandırmaqla yanaşı, respublikamızda elmi-tibbi mühitin formalaşdırılmasında da jurnalın xidmətləri vardır. Onun səmərəli fəaliyyəti Azərbaycan tibb elminin dünya miqyasında layiqli təmsil olunmasına imkan vermişdir. Əhalinin tibbi maarifləndirilməsi sahəsində jurnalın apardığı işlər də təqdirəlayiqdir.

Əminəm ki, «Azərbaycan tibb jurnalı» bundan sonra da öz ənənələrinə sadiq qalacaq, xalqın sağlamlığının qorunması işində fəal iştirak edəcək, Azərbaycan alimlərinin əldə etdikləri elmi nəticələrin beynəlxalq aləmdə layiqli təmsilçisi olacaqdır.

Bu əlamətdar yubiley münasibətilə hamınızı bir daha ürəkdən təbrik edir, Azərbaycan səhiyyəsinin və tibb elminin inkişafı naminə məsuliyyətli və xeyirxah fəaliyyətinizdə Sizə böyük uğurlar, cansağlığı və səadət arzulayıram.

**İLHAM ƏLIYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *20 aprel 2005-ci il*

## RUSİYANIN P.İ.ÇAYKOVSKİ ADINA DÖVLƏT AKADEMİK BÖYÜK SİMFONİK ORKESTRİNİN BƏDİİ RƏHBƏRİ VƏ BAŞ DİRİJORU VLADİMİR FEDOSEYEV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 aprel 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Rusiya Federasiyasının P.İ.Çaykovski adına Dövlət Akademik Böyük Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijoru, SSRİ Xalq artisti Vladimir Fedoseyevi qəbul etmişdir.*

*Simfonik orkestrin Bakıda konsertinin böyük uğurla keçdiyini vurğulayan dövlətimizin başçısı Azərbaycan ilə Rusiya arasında humanitar sahədə, o cümlədən mədəniyyət, incəsənət sahəsində əlaqələrin yüksək səviyyədə olduğunu nəzərə çatdırdı.*

*Prezident İlham Əliyev bu il Rusiyada Azərbaycan ilinin, gələn il isə Azərbaycanda Rusiya ilinin keçirilməsini ölkələrimizin əlaqələrinin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi.*

*Vladimir Fedoseyev Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ilə Moskvada, Bakıda görüşlərini həmişə böyük məmnunluqla xatırladığını bildirdi. O bu dahi şəxsiyyətin onun konsertlərində iştirak etməsindən həmişə böyük şərəf duyduğunu vurğuladı.*

*Azərbaycanda ona və rəhbərlik etdiyi orkestrin üzvlərinə göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən qonaq ölkəmizdə musiqinin inkişafı üçün çox gözəl şərait yaradıldığını söylədi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MOLDOVAYA RƏSMİ SƏFƏRİ

*21 aprel 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev aprelin 21-də GUÖAM-ın üzvü olan ölkələrin dövlət başçılarının Kişinyovda keçiriləcək zirvə görüşündə də iştirak etmək üçün Moldova Respublikasının paytaxtına gəlmişdir.*

*Azərbaycanın və Moldovanın dövlət bayraqları ilə bəzədilmiş Kişinyov Beynəlxalq Hava Limanında Azərbaycan prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısı İlham Əliyevə təyyarənin pilləkəni yanında milli geyimli oğlan və qız gül dəstəsi və duz-çörək təqdim etdilər.*

*Prezident İlham Əliyevi Moldovanın Baş naziri Vasile Tarlev, Baş nazirin müavini, Xarici Işlər naziri Andrey Stratan, digər yüksək vəzifəli şəxslər, ölkəmizin Kişinyovdakı səfiri Tələt Əliyev, Moldovadakı Azərbaycan diasporunun üzvləri hörmət və ehtiramla qarşıladılar.*

*Azərbaycan prezidenti İlham Əliyev hava limanından maşın karvanının müşayiəti ilə onun üçün ayrılmış iqamətgaha gəldi.*

* * *

*Aprelin 21-də Moldova Respublikasının Prezident sarayında Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Dövlətimizin başçısının şərəfinə sarayın qarşısında fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Moldova prezidenti Vladimir Voronin Azərbaycan prezidenti İlham Əliyevi böyük səmimiyyətlə və mehribanlıqla qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi.*

*Azərbaycanın və Moldovanın dövlət himnləri səsləndi. Prezidentlər dövlət bayraqlarına təzim edərək, fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Moldovanın dövlət və hökumət nümayəndələri prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri prezident Vladimir Voroninə təqdim olundu.*

*Prezidentlər sarayın salonunda dövlət bayraqları önündə xatirə şəkli çəkdirdilər.*

* * *

*Aprelin 21-də Azərbaycan prezidenti İlham Əliyevin və Moldova prezidenti Vladimir Voroninin təkbətək görüşü olmuşdur.*

*Prezidentlər Azərbaycan və Moldova arasında ikitərəfli münasibətlərin inkişafı üçün dövlət başçılarının görüşlərinin əhəmiyyətini vurğuladılar, müxtəlif sahələrdə qarşılıqlı surətdə faydalı əməkdaşlığın gücləndirilməsi məqsədi ilə parlament, hökumət, nazirliklər səviyyəsində dialoqun inkişaf etdirilməsinin zəruri olduğunu bildirdilər.*

*Görüş zamanı beynəlxalq və regional xarakterli məsələlər geniş müzakirə olundu. Dövlət başçıları beynəlxalq səviyyədə tanınmış sərhədlərin zorla dəyişdirilməsinin yolverilməzliyini bir daha təsdiqləyərək, təcavüz aktlarına və suveren dövlətlərin ərazi bütövlüyünə qarşı yönəlmiş təhdidlərə qarşı beynəlxalq ictimaiyyətin səylərinin birləşdirilməsinin vacibliyini vurğuladılar.*

*Tərəflər terrorizmin, təcavüzkar separatçılığın bütün forma və təzahürlərini birmənalı şəkildə pisləyərək, bu sahədə əməkdaşlığın gücləndirilməsinin zəruriliyini bildirdilər.*

*Prezidentlər iqtisadi əlaqələrin inkişafı sahəsində hökumətlərarası komissiyanın rolunu qeyd etdilər, bu əlaqələrin inkişafı üçün geniş imkanlar olduğunu vurğuladılar.*

## AZƏRBAYCAN–MOLDOVA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*21 aprel 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin və Moldova Respublikasının prezidenti Vladimir Voroninin geniş tərkibdə görüşü keçirilmişdir.*

*Prezident Vladimir Voronin Azərbaycan prezidenti İlham Əliyevin Moldovaya səfərindən məmnunluğunu ifadə etdi və onu müşayiət edən nümayəndə heyətinin üzvlərini salamladı.*

*Azərbaycan prezidenti rəsmi səfərə dəvətinə görə Moldova rəhbərinə təşəkkürünü bildirdi və səfərin iki ölkə arasında münasibətlərin inkişafında yeni mərhələ olacağını söylədi.*

*Dövlət başçıları ikitərəfli münasibətlərin möhkəm hüquqi bazası olduğunu – 1997-ci il noyabrın 27-də imzalanmış dostluq və əməkdaşlıq haqqında müqavilənin və 2004-cü il oktyabrın 26-da imzalanmış Birgə Bəyannamənin bu əlaqələrin inkişafında mühüm rolunu qeyd etdilər.*

*Prezidentlər beynəlxalq və regional təşkilatlarda – BMT, ATƏT, Avropa Şurası, QDİƏT və GUÖAM çərçivəsində qarşılıqlı fəaliyyəti gücləndirmək niyyətlərini vurğuladılar. Onlar Avropa yeni qonşuluq siyasətinin Avropaya inteqrasiyaya, mövcud münaqişələrin nizamlanmasında Avropa Birliyinin daha fəal iştirakı daxil olmaqla, regionda sülh, sabitlik və əmin-amanlığın qorunub saxlanmasına yardım göstərəcəyini bildirdilər.*

*GUÖAM ölkələri dövlət başçılarının aprelin 22-də Moldovanın paytaxtında keçiriləcək zirvə görüşünün əhəmiyyətini vurğulayan prezidentlər bir sıra regional iqtisadi layihələrin həyata keçirilməsi ətrafında da fikir mübadiləsi apardılar.*

*Dövlət başçıları İNOGEYT proqramı və digər layihələr, o cümlədən Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi çərçivəsində regional əməkdaşlığın genişləndirilməsini dəstəklədiklərini bildirdilər.*

*Görüşdə ikitərəfli hökumətlərarası komissiyanın fəaliyyətinin birgə müəssisələrin yaradılmasına, Azərbaycan və Moldovanın iqtisadi subyektləri arasında birbaşa əlaqələrin qurulmasına yönəldilməsinin zəruriliyi vurğulandı.*

*Moldova prezidenti Azərbaycan sərmayəçilərinin müxtəlif iqtisadi layihələrdə fəal iştirakını, xüsusilə Curculeşt terminalının və neft emalı zavodunun tikintisində rolunu qeyd etdi.*

*Görüşdə prezident Vladimir Voronin prezident İlham Əliyevə dünya şöhrətli unudulmaz böyük şəxsiyyət, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş nəfis tərtibatlı fotoalbom təqdim etdi.*

## AZƏRBAYCAN – MOLDOVA SƏNƏDLƏRİNİN İMZALANMA MƏRASİMİ

*Kişinyov*

*21 aprel 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin və Moldova Respublikasının prezidenti Vladimir Voroninin iştirakı ilə sənədlərin imzalanma mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikası hökuməti və Moldova Respublikası hökuməti arasında Moldova Respublikasının ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası vətəndaşlarının və Azərbaycan Respublikasının ərazisində müvəqqəti işləyən Moldova Respublikası vətəndaşlarının əmək fəaliyyəti və sosial müdafiəsi haqqında saziş», «Azərbaycan Respublikası hökuməti və Moldova Respublikası hökuməti arasında baytarlıq-sanitariya Konvensiyası», «Azərbaycan Respublikası hökuməti və Moldova Respublikası hökuməti arasında hava əlaqəsi haqqında saziş», «Azərbaycan Respublikası hökuməti və Moldova Respublikası hökuməti arasında informatizasiya və informasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında saziş», «Azərbaycan Televiziya və Radio Verilişləri» Qapalı Səhmdar Cəmiyyəti və «Teleradio-Moldova» İctimai Şirkəti arasında əməkdaşlıq haqqında saziş» imzalandı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ MOLDOVANIN PREZİDENTİ VLADİMİR VORONİNİN BİRGƏ MƏTBUAT KONFRANSI

*21 aprel 2005-ci il*

*Azərbaycan prezidentinin Moldova respublikasına rəsmi səfəri çərçivəsində sənədlərin imzalanması mərasimindən sonra dövlət başçıları İlham Əliyev və Vladimir Voronin Kişinyovda aparılmış danışıqların yekunlarına dair birgə mətbuat konfransı keçirmişlər.*

*Prezidentlər jurnalistlər qarşısında bəyanatlarla çıxış etdilər.*

### Moldova prezidenti Vladimir Voroninin bəyanatı

Hörmətli İlham Heydəroviç!

Sizi bir daha ürəkdən salamlayıram. İkitərəfli münasibətlərimizin tarixində Moldova Respublikasına ilk rəsmi səfərə gəlməyinizə şadam. Mən azərbaycanlı dostlarımızı salamlayıram və Sizi ikitərəfli münasibətlərimizi daha da genişləndirəcək və dərinləşdirəcək beş mühüm sazişin imzalanması münasibətilə təbrik edirəm.

Ötən dəfə, Azərbaycan Respublikasına mənim rəsmi səfərim zamanı biz 9 saziş imzaladıq və bu günədək bizim 30 sazişimiz vardı və indi 5-i də əlavə edildi və ümumilikdə 35 sazişimiz var. Mən kütləvi informasiya vasitələrinin nümayəndələrinə bunu da bildirməyimə çox şadam ki, yeni yaradılan Azərbaycan–Moldova hökumətlərarası komissiyasının dünən və srağagün ilk iclası

olmuşdur. Komissiya ikitərəfli münasibətlərimizlə bağlı bütün problemləri, məsələləri müzakirə etmişdir. Düşünürəm ki, bu hüquqi baza – 35-dən çox saziş və hökumətlərarası komissiyanın yaradılması bizə birgə fəaliyyət yolu ilə daha da irəliləməyə imkan verəcəkdir.

İlham Heydəroviç, əminəm ki, Sizin iştirak edəcəyiniz GUÖAM ölkələrinin sabahkı sammiti də ikitərəfli münasibətlərin dərinləşməsində və genişlənməsində ciddi addım olacaqdır.

Bizi Azərbaycanla çoxdankı dostluq bağlayır. Bundan başqa, Azərbaycan diasporu Moldova Respublikasının ən fəal vətəndaşları sırasındadır, çox nizam-intizamlı, sosial baxımdan çox fəaldır. Digər diasporlarla birlikdə gənc dövlətimizi demokratiya, insan hüquqlarına əməl olunması və ölkəmizdəki bütün millətlərdən olan vətəndaşlar arasında hərtərəfli münasibətlərin inkişaf etdirilməsi prinsipləri əsasında qurmaq üçün bütün işləri görür.

Curculeşt terminalının başlıca sərmayəçisi olmaq barədə prezident İlham Əliyevin tapşırığı ilə Azərbaycan hökumətinin qəbul etdiyi cəsarətli qərar Moldovaya yönəldilən sərmayələrin həcmi baxımından misilsizdir, bir də o cəhətdən misilsizdir ki, bu terminalın köməyi ilə biz ölkəmizin yanacaq ehtiyatları ilə təmin olunması sahəsində çox ciddi problemləri həll edəcəyik. Bu, ölkələrimizi daha da birləşdirəcəkdir.

Bizim bütün sahələrdə bütöv bir fəaliyyət proqramımız var. Bizim tariximiz və gələcək üçün perspektivlərimiz var.

Prezident Əliyevlə biz beynəlxalq səviyyədə, ilk növbədə, Birləşmiş Millətlər Təşkilatında qarşılıqlı fəaliyyət haqqında razılığa gəlmişik. Ərazilərimizdəki silahlı münaqişələr məsələsini BMT Baş Məclisinin müzakirəsinə birgə çıxarmaq qərarındayıq, Birləşmiş Millətlər Təşkilatının müəyyən komitələrinə seçkilər zamanı bir-birimizi dəstəkləyəcəyik, Avropaya inteqrasiya yolunda təcrübə mübadiləsi üzrə birgə işləyəcəyik.

Bəyannaməni və GUÖAM sammitində qəbul olunacaq qərarları nəzərə alaraq, biz, əlbəttə, həmin istiqamətdə əməkdaşlığı da inkişaf etdirəcək və birgə işləyəcəyik.

Bizim həll etməli olduğumuz çoxlu problemimiz var. Ərazi bütövlüyü məsələsini xüsusi qeyd etmək istəyirəm. Biz ərazi bütövlüyü məsələsində Azərbaycanın mövqeyini dəstəkləyirik və bu problemin həllinə təkan verə biləcək bütün tədbirlərdə iştirak etməyə hazırıq. Biz onları dəstəkləyir və başa düşürük, çünki bizim də belə çox ciddi, sağalmayan yaramız vardır. Mən Dnestryanı bölgə problemini nəzərdə tuturam. Bu məsələdə Azərbaycanla həmişə birlikdə işləyəcək və çalışacağıq ki, bizdəki və Azərbaycandakı bu münaqişələr həll olunsun.

İlham Heydəroviç, yaxın dostlarımdan biri kimi, Sizi Moldovada bir daha ürəkdən salamlayıram və düşünürəm ki, Sizin səfəriniz münasibətlərimizdə yeni səhifə açacaq, ölkələrimizin xalqlarının rifahı naminə münasibətlərimizin yeni, keyfiyyətcə daha yüksək səviyyəyə qalxmasına kömək edəcəkdir.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Çox sağ olun, hörmətli Vladimir Nikolayeviç!

İlk növbədə, dost və qardaş ölkəyə – Moldovaya dəvətə görə bir daha təşəkkür etmək istərdim. Biz bu səfərə böyük əhəmiyyət verir və ümid edirik ki, bu səfər, danışıqlar və əldə olunacaq razılaşmalar ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaqdır.

Sizin ötən il Azərbaycana uğurlu səfərinizi və onun gedişində ikitərəfli, regional və beynəlxalq xarakterli çox geniş əhatəli məsələlər barəsində fikir mübadiləsi aparıldığını hamımız xatırlayırıq. Həmin səfər, əslində, bütün mövcud problemlərdə mövqelərimizin nə qədər yaxın olduğunu aydın şəkildə göstərdi. Biz ikitərəfli əməkdaşlığımıza çox böyük əhəmiyyət veririk. Bu yaxınlarda Azərbaycanın Moldovada səfirliyinin açılması haqqında qərar qəbul etməyimiz buna sübut ola bilər. Düşünürəm ki, səfirlik yaxın vaxtlarda işinə başlayacaqdır. Həmçinin demək istəyirəm ki, Azərbaycan parlamentində Moldova–Azərbaycan dostluq qrupu fəaliyyət göstərir. Əminəm ki, deputatlarımız arasında əməkdaşlığa bu qrup da kömək edəcəkdir.

Siyasi münasibətlərimiz çox yüksək səviyyədədir. Regionumuzda baş verən proseslər barədə baxışlarımız uyğun gəlir, Avropaya inteqrasiya məsələlərində bir-birimizi dəstəkləyirik. Azərbaycan Avropa Birliyinin yeni qonşuluq proqramına daxil edilmişdir və Avropa Birliyi ilə münasibətlərimiz uğurla inkişaf edir. Biz bu istiqamətdə Moldovanın uğurlarına da şadıq. Başqa sözlə, strateji xəttimiz çərçivəsində yollarımız uyğun gəlir. Biz GUÖAM çərçivəsində əməkdaşlığa da böyük əhəmiyyət veririk. Şübhə etmirəm ki, GUÖAM-ın sabahkı sammiti regional işlərdə getdikcə daha böyük nüfuz qazanan bu təşkilatın fəaliyyətində yeni mərhələ olacaqdır. Bu təşkilatın yaradıldığı ilk gündən Moldova da, Azərbaycan da burada çox mühüm və fəal rol oynamışlar.

Regional əməkdaşlıq məsələləri də ölkələrimiz üçün çox böyük əhəmiyyət kəsb edir və bu baxımdan bizim aramızda tam qarşılıqlı anlaşma var. Deməliyəm ki, biz iqtisadi əməkdaşlığa böyük diqqət yetiririk. Hökumətlərarası komissiya var və ümidvarıq ki, bu komissiyanın, habelə müxtəlif kommersiya və biznes qurumlarının fəaliyyəti ölkələrimizin daha güclü qarşılıqlı əlaqələrinə kömək edəcəkdir. Vladimir Nikolayeviç dedi ki, Azərbaycan sərmayəçiləri Moldovada həyata keçirilən layihələrə böyük maraq göstərmişlər və bu layihələr beynəlxalq maliyyə təsisatları tərəfindən dəstəklənmişdir və gerçəkləşdirilməyə başlanmışdır.

Düşünürəm ki, bu həm ikitərəfli əməkdaşlığın, həm də regional kooperasiyanın çox mühüm cəhətidir, habelə GUÖAM çərçivəsində əməkdaşlığın çox mühüm elementi kimi qiymətləndirilə bilər. Bizim energetika sahəsində, nəqliyyat dəhlizlərində əməkdaşlıqda çox yaxşı perspektivlərimiz var və bu istiqamətdə çox böyük iş görülür. Buna görə də Vladimir Nikolayeviçlə ötən il Bakıda başlanmış dialoqumuzu bu gün davam etdirmək, mövqelərimizin yaxınlaşdığını bir daha vurğulamaq mənim üçün çox xoş idi. Bizim aramızda heç bir fikir ayrılığı yoxdur, biz beynəlxalq aləmdə bir-birimizi dəstəkləyirik və razılığa gəl-

mişik ki, gələcəkdə də müxtəlif beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyəcəyik.

Amma təəssüflər olsun ki, bizi ümumi problemlər, ümumi yaralar da birləşdirir. Söhbət Azərbaycanda və Moldovadakı təcavüzkar separatizmdən gedir. Bu, dövlətlərimizin ərazi bütövlüyünün pozulmasına gətirib çıxarmışdır. Biz təcavüzkar separatizmdən zərər çəkən ölkələrik. Biz Moldovanın ərazi bütövlüyünün bərpa edilməsi, Dnestryanı bölgə probleminin nizama salınması sahəsində fəaliyyətini tamamilə dəstəkləyirik. Biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın fəaliyyətini və mövqeyini aydın şəkildə dəstəklədiklərinə görə Moldova prezidentinə və hökumətinə də çox minnətdarıq. Bu münaqişələrdən insanlar zərər çəkmişlər, ölkələrimiz zərər çəkmişlər. Münaqişələrin nəticələrinə nəzər salsaq görərik ki, separatçılar heç nə qazanmayıblar. Haqq bizim tərəfimizdədir, beynəlxalq normalar bizim tərəfimizdədir, ədalət bizim tərəfimizdədir. Düşünürəm ki, məsələnin mahiyyətinin başa düşülməsinə, habelə onun tənzimlənməsi yollarına dünya ictimaiyyətinin mümkün qədər daha geniş dairəsini cəlb edərək, birgə səylərlə biz ölkələrimizin ərazi bütövlüyünün bərpasına nail olacağıq.

Mən səfərə dəvətə görə, səmimi qəbula görə şəxsən prezident Vladimir Nikolayeviç Voroninə bir daha dərin təşəkkür etmək istəyirəm. Aramızda həqiqətən çox mehriban dostluq münasibətləri, səmimi münasibətlər yaranmışdır və biz bu münasibətləri çox əziz tuturuq. Ümidvaram ki, sizin gözəl ölkənizə səfərim də ikitərəfli münasibətlərin inkişafında növbəti mərhələ olacaqdır.

Diqqətinizə görə təşəkkür edirəm.

**S u a l: Mənim sualım cənab Əliyevədir. Moldova Azərbaycanın sərmayə qoyduğu ilk ölkədir. Əvvəla, məni maraqlandıran odur ki, bu, sadəcə olaraq, təsadüfdür, yoxsa strateji addımdır? İkincisi, terminaldan başqa, konkret olaraq, daha hansı biznes layihələri həyata keçiriləcəkdir?**

**İ l h a m  Ə l i y e v:** Bu gün biz həmin məsələni müzakirə etdik və belə bir ümumi rəydə olduğumuzu bildirdik ki, siyasi münasibətlər yüksək səviyyədə olmasa, regional əməkdaşlıq məsələlərində ümumi mövqelər olmasa, ümumi strateji xətt olmasa, əlbəttə, belə irimiqyaslı layihələri həyata keçirmək mümkün olmazdı. Yəni ikitərəfli əlaqələrimiz, regionda baş verən proseslərə vahid mövqedən yanaşmalarımız Azərbaycan sərmayəçilərinin Moldova iqtisadiyyatına arxayınca vəsait qoymaları üçün çox yaxşı baza yaratmışdır. Bu layihənin, əlbəttə, kommersiya dəyəri var, çünki belə biznes layihələrində ancaq strateji, siyasi məsələləri əsas tutmaq çətindir. Sözsüz ki, bu çox böyük strateji əhəmiyyətə malikdir. Şübhə etmirəm ki, bu layihənin həyata keçirilməsi və bütün lazımi infrastrukturun yaradılması regionda tamam yeni şərait yaradacaq, ölkələrimiz arasında, regionun ölkələri arasında əməkdaşlıq üçün yeni imkanlar açacaq, əlbəttə, iqtisadiyyatın digər sahələrində də əlaqələrimizin qaydaya düşməsinə təkan verəcəkdir.

Bu gün mən dedim ki, biz tezliklə Moldovada səfirlik açacağıq. Bu da bizi birləşdirən çox mühüm cəhətdir. Aviasiya xidmətlərinin rəhbərləri arasında saziş imzalanması da əlaqələr və qarşılıqlı gediş-gəliş üçün yaxşı imkanlar yarada bilər. Yəni, bütün bunlar ümumi strateji münasibətlərimiz çərçivəsində görülən işlərdir.

**S u a l: Mənim sualım hər iki prezidentədir. Ölkələrimizin Avropa qurumlarına inteqrasiya sahəsində əməkdaşlığının perspektivləri necədir?**

**V l a d i m i r  V o r o n i n:** Fevralın 22-də Moldovada biz Avropa Birliyi ilə iş planı imzaladıq. Bu iş planı onun həyata keçirilməsinə aidiyyəti olan hər bir nazirlik, idarə üçün konkret tapşırıqlarda öz əksini tapmışdır. Azərbaycan prezidenti cənab Əliyevlə strateji cəhətdən belə bir məsələdə razılığa gəldik ki, Avropaya inteqrasiyanın bu strateji vektoru bizim üçün müəyyənedicidir. Biz bu barədə GUÖAM-ın sammitində də danışacağıq. Biz belə bir məsələdə də ilkin razılığa gəldik ki, bu və ya digər problemlər, müxtəlif layihələrin həyata keçirilməsi, Avro-

inteqrasiya yolunda uğurlar və uğursuzluqlar barədə daim informasiya mübadiləsi aparacağıq. Biz bu məsələdə əməkdaşlıq edəcək, nail olduğumuz bütün müsbət təcrübəni bölüşəcəyik. Düşünürəm ki, bu xətt və birgə işimiz Avropa Birliyinin ölkələri tərəfindən də alqışlanacaq və dəstəklənəcəkdir. Həm də bu cür dəstək qarşılıqlı olacaqdır. O, Avropaya inteqrasiya yolunu daha az səhvlərlə, yaxud böyük səhvlər olmadan keçməkdə yəqin ki, bizə kömək edəcəkdir.

**İlham Əliyev:** Avropaya inteqrasiya yolu ilə birlikdə getmək təklikdə getməkdən daha rahat və asan olacaqdır. Bu istiqamətdə baxışlarımız və strateji xəttimiz uyğun gəldiyinə görə, Moldova kimi, Azərbaycan da öz gələcək inkişafını Avropa, Avratlantik qurumlarına inteqrasiyada görür. Əlbəttə ki, biz daim təcrübə mübadiləsi və məsləhətləşmələr aparacaq, Avropaya inteqrasiya üzrə birgə layihələr həyata keçirəcəyik. Zənnimcə belə, bu yolu tez keçmək bizə daha rahat olacaqdır. Əlbəttə ki, ölkələrimizin Avropaya inteqrasiyasına mane olan məsələlərin öz həllini tapması da vacibdir. Hamıya aydındır ki, ərazi bütövlüyü bərpa edilmədən, münaqişələr nizama salınmadan bu proseslər istədiyimiz kimi və ümidvaram ki, Avropa qurumlarının da istədiyi kimi tez getməyəcəkdir. Odur ki, Moldovada Dnestryanı bölgə münaqişəsinin və Azərbaycanda Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli təkcə ölkələrimizə aid olan məsələlər deyildir. Bu məsələlər həm də regional təhlükəsizlik üçün problemdir, Avropaya tam inteqrasiya yolunda problemdir. Ümidvaram ki, Avropaya inteqrasiya prosesi sürətləndikcə bu münaqişələrin beynəlxalq hüquq normaları və prinsipləri əsasında ədalətli həlli üçün daha əlverişli şərait yaranacaqdır.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MOLDOVAYA RƏSMİ SƏFƏRİ

*21 aprel 2005-ci il*

### Ştefan Çel Marenin abidəsi önünə əklilqoyma mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 21-də Kişinyovun mərkəzində moldav xalqının xilaskarı Ştefan Çel Mareninin (Böyük Ştefanin) xatirəsinə ucaldılmış abidə kompleksinə gəldi.*

*Burada dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyev hörmət və ehtiram əlaməti olaraq abidənin önünə əklil qoydu.*

*Hərbi orkestrin ifasında Azərbaycanın və Moldovanın dövlət himnləri səsləndi.*

* * *

### Moldovanin baş naziri Vasile Tarlev ilə görüş

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 21-də Moldovanın Baş naziri Vasile Tarlev ilə görüşmüşdür.*

*Dövlətimizin başçısı Moldovaya rəsmi səfərinin çox uğurlu keçdiyini bildirdi və prezident Vladimir Voronin ilə apardığı danışıqları yüksək qiymətləndirdi. O dedi ki, Azərbaycan ilə Moldova arasında beynəlxalq və regional səviyyədə uğurlu əməkdaşlıq bundan sonra da davam edəcəkdir. İqtisadi əməkdaşlığın inkişafı üçün də böyük potensial vardır. Hazırda azərbaycanlı iş adamlarının Moldova iqtisadiyyatında fəal iş-*

*tirakı təqdirəlayiqdir. Moldovada neft terminalının və neft emalı zavodunun tikintisində Azərbaycanın şirkətləri fəal iştirak edirlər. Bu uğurlu iqtisadi əməkdaşlığın davam etdirilməsi və regional layihələrin həyata keçirilməsi vacibdir.*

*Söhbət zamanı sahibkarlar və sənaye müəssisələri arasında birbaşa əlaqələrin inkişafının zəruriliyi vurğulandı və bildirildi ki, qarşılıqlı iqtisadi əməkdaşlıq xalqlarımızın rifahına xidmət edir.*

* * *

## Moldova parlamentinin sədri Marian Lupu ilə görüş

*Aprelin 21-də Azərbaycan prezidenti İlham Əliyev Moldova parlamentinə gəlmişdir.*

*Dövlətimizin başçısını binanın önündə parlamentin sədri Marian Lupu və onun müavinləri böyük hörmət və ehtiramla qarşıladılar.*

*Sonra Azərbaycan prezidenti ilə görüş oldu. Marian Lupu dövlətimizin başçısı İlham Əliyevi öz ölkəsinin ali qanunvericilik orqanında salamlamaqdan məmnunluğunu söylədi, Azərbaycan parlamenti ilə çox yaxşı əlaqələri olduğunu bildirdi. O, beynəlxalq təşkilatlar çərçivəsində Bakıda keçirilmiş konfransda iştirak etməsini də xatırlatdı.*

*Prezident İlham Əliyev cənab Marian Lupunu bu yüksək vəzifəyə seçilməsi münasibətilə təbrik etdi və dedi ki, prezident Vladimir Voroninin Bakıya rəsmi səfərindən sonra əlaqələrimiz sürətlə inkişaf edir. Mənim Moldovaya bugünkü rəsmi səfərim də iki ölkə arasındakı dialoqun davamı kimi qiymətləndirilməlidir.*

*Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycanla Moldova arasında regional və ikitərəfli məsələlər üzrə çox gözəl əməkdaşlıq yaranmışdır və bunun davam etdirilməsi zəruridir. İkitərəfli əlaqələrin inkişafında qanunverici orqanların çox mühüm rolu vardır və hazırda Azərbaycan və Moldova parlamentlərində dostluq qrupları fəaliyyət göstərir. Prezident*

*İlham Əliyev parlamentlər arasında qanun yaradıcılığı sahəsində əməkdaşlığın davam etdirilməsinin məqsədəuyğun olduğunu da vurğuladı.*

*Görüşdə Azərbaycan və Moldova arasında ikitərəfli əlaqələrin inkişafına, ölkələrimizin parlament nümayəndələrinin beynəlxalq və regional təşkilatlarda əməkdaşlığına dair fikir mübadiləsi aparıldı.*

* * *

## «Krikov» şərablarinin istehsali kombinati ilə tanişliq

*Aprelin 21-də Azərbaycan prezidenti İlham Əliyev və Moldova prezidenti Vladimir Voronin Kişinyovdakı «Krikov» şərab istehsalı kombinatına gəldilər.*

*Burada dövlət başçılarını müəssisənin rəhbərləri böyük hörmətlə qarşıladılar.*

*Prezident İlham Əliyev yüksək keyfiyyətli şərab məhsullarının istehsalı ilə maraqlandı. Dövlətimizin başçısına məlumat verildi ki, yerin altında inşa edilmiş bu nadir müəssisə ötən əsrin 50-ci illərində almanlar tərəfindən tikilmişdir və burada dünyanın ən məşhur şərabları, o cümlədən Azərbaycanın «Bayan» şərabı da saxlanılır.*

*Azərbaycan prezidenti kombinatın istehsal sahələrini gəzdi və şampan şərablarının hazırlanması prosesi ilə tanış oldu.*

## KİŞİNYOVDA DAHİ AZƏRBAYCAN ŞAİRİ VƏ MÜTƏFƏKKİRİ NİZAMİ GƏNCƏVİNİN ABİDƏSİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*21 aprel 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyevin Moldovaya rəsmi səfəri çərçivəsində Kişinyovda Tudor Vladimiresku küçəsində dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsinin açılış mərasimi olmuşdur.*

*Mərasimə toplaşan Moldova ictimaiyyətinin nümayəndələri, Kişinyov sakinləri və Azərbaycan diasporunun üzvləri Azərbaycan prezidenti İlham Əliyevi və Moldova prezidenti Vladimir Voronini hərarətlə qarşıladılar.*

*Moldovanın Mədəniyyət və Turizm naziri Artur Kozma mərasimi açaraq, prezident İlham Əliyevin rəsmi səfəri çərçivəsində Kişinyovda dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin açılmasını tarixi hadisə kimi qiymətləndirdi.*

*Prezidentlər İlham Əliyev və Vladimir Voronin mərasimdə nitq söylədilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, Moldova Respublikasına rəsmi səfərim zamanı mənə və nümayəndə heyətimizin üzvlərinə yüksək qonaqpərvərlik göstərildiyinə görə Moldova Respublikasının prezidenti çox hörmətli Vladimir Nikolayeviçə bir daha öz minnətdarlığımı bildirmək istərdim.

Məmnunluqla vurğulamaq istəyirəm ki, sizin gözəl ölkənizə səfərim daha bir əlamətdar hadisə ilə qeyd olunur. Bildiyiniz kimi, bugünkü görüşümüzdə məqsəd Azərbaycan xalqının dahi oğlu, XII əsrin şair və mütəfəkkiri Nizami Gəncəvinin abidəsini açmaqdır. Nizami təkcə şair, müdrik söz ustadı deyildi, həm də gözəl filosof idi. Onun əsərləri dünyanın azad fikir xəzinəsini layiqincə zənginləşdirmiş və bütün Şərq xalqlarını bəşəriyyətin firavanlığı naminə yaxşı, xeyirxah işlərə ruhlandırmışdır. Heç bir şübhə yoxdur ki, Azərbaycan xalqının böyük oğlu Nizami Gəncəvinin dahiyanə əsərləri dünya mədəniyyətinin qızıl fondunun ən parlaq nümunələrini təşkil edir və bəşəriyyətin böyük nümayəndələrinin yaratdıqları əbədiyaşar abidələr sırasında fəxri yer tutur.

Nizaminin bütün fəlsəfəsinin mərkəzində varlığın ali dəyəri, mənəvi zənginliyin və biliklərin tükənməz mənbəyi kimi insan durur. Nizami insanın cəmiyyətdə roluna öz baxışı prizmasından nəzər salaraq, antik irsi, Şərq fəlsəfəsini və Şərq poeziyasının çoxəsrlik poetik ənənələrini yaradıcılığında əks etdirə bilmişdir. Böyük sənətkarların yaratdıqlarının ümumbəşəri əhəmiyyətinin xüsusiyyətlərindən biri budur ki, onlar həyati əhəmiyyətlidir, əbədiyaşardır, çünki onların mənası gözəllik və əzəmətdədir. Bu əsərlərdə əks olunmuş ümdə arzu – insanları xoşbəxt etmək istəyi ümumbəşəri mədəniyyət inkişaf tapdıqca, dünya miqyasında sivilizasiyanın səviyyəsi yüksəldikcə açıqlanır. Nizaminin yaradıcılığı bunun aşkar təsdiqidir. Onun bəşər sivilizasiyasının inkişafındakı rolunu bütün zəmanələrin bədii və fəlsəfi təfəkkürünün katalizatorları olmuş Aristotel, İbn Sina, Dante, Şekspir və Puşkin kimi dühalarla müqayisə etmək olar. Nizaminin əsl humanizm ideyalarını özündə birləşdirən fəlsəfi konsepsiyası onun ilhamlı lirikasının və qəhrəmanlıq dastanının bənzərsiz dünyasında ifadəsini tapmışdır. Məhəbbətin əbədiliyi, həyat və ölümün mənası, cəmiyyətin ideal quruluşu, kainatın böyük sirləri haqqında onun yaratdığı poemalar bu günədək Şərqdə örnək üçün meyar olaraq qalır. Dünya şöhrətli ölməz «Xəmsə»nin müəllifi olan Nizami humanizm, insan şəxsiyyəti-

nin azadlığı ideologiyası, onun iradəsinin taleyin qaçılmaz iradəsindən və təbiətin fövqündə duran qüvvələrin hökmündən asılı olmaması kimi böyük fəlsəfi təlimlərin banilərindən biridir. O, bəşər tarixində ilk dəfə olaraq insan qəlbinin saf və ülvi amallarının gözəl aləmini ilahiləşdirmiş, nəcib və pak məhəbbətin mükəmməl nəzəriyyəsini yaratmışdır.

Nizami bu gün də müasirimiz olaraq qalır. O özünün ölməz humanist ideyaları ilə bəşəriyyətin işıqlı gələcəyinin qurulmasında iştirak edir. Xeyirin, ülvi olan hər bir şeyin gözəlliyinin mənəvi qüvvəsinə inamı ilə bu gün də bizimlədir. Fürsətdən istifadə edərək, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin sözlərini misal gətirmək istəyirəm. O demişdir: «Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir. Məhz mədəni əlaqələr, mənəvi yaxınlıq xalqları getdikcə daha çox yaxınlaşdırır və dostluq münasibətlərini möhkəmləndirir». Hesab edirik ki, bu baxımdan Azərbaycan və Moldova təkcə siyasi, iqtisadi və digər sahələrdə deyil, mədəniyyət və incəsənət sahəsində də ikitərəfli əməkdaşlığı genişləndirməlidir.

Əziz dostlar, fürsətdən istifadə edərək qonaqpərvərliyə görə, mənə və nümayəndə heyətimizə səmimi münasibətə görə, bu gün Moldova paytaxtında, Kişinyov şəhərində Azərbaycan xalqının dahi oğlu Nizami Gəncəvinin abidəsinin açılmasına görə Moldova prezidenti hörmətli Vladimir Nikolayeviç Voroninə, Moldova hökumətinə təşəkkürümü bildirmək istəyirəm.

İkitərəfli münasibətlərimiz çox uğurla inkişaf edir. Bu gün ölkələrimiz arasında siyasi dialoq ən yüksək səviyyədədir, mühüm sazişlər imzalanmışdır, onlar ölkələrimizin gələcək inkişafını müəyyən edəcəkdir. İkitərəfli miqyasda, regional kontekstdə və regionda təhlükəsizliyin qlobal sistemi məsələlərində Moldova ilə Azərbaycanın əməkdaşlığı birinci dərəcəli əhəmiyyətə malikdir. Biz dostuq, biz müttəfiqik, bizi çox şey birləşdirir. Ona görə də bundan sonra da çalışacağıq ki, ölkələrimiz və xalqlarımız arasında əməkdaşlıq genişlənsin və həm Moldova

vətəndaşlarına, həm də Azərbaycan vətəndaşlarına fayda gətirsin.

Bu imkandan istifadə edərək, sizin gözəl ölkənizdə yaşayan azərbaycanlılara xoş münasibətə görə də Moldova prezidentinə təşəkkürümü bildirmək istəyirəm. Moldovadakı Azərbaycan diasporu çox mütəşəkkildir, iqtisadiyyatın inkişafına böyük töhfə verir, Moldova cəmiyyətinə fəal inteqrasiya olunub və əminəm ki, ikitərəfli əlaqələrimizin mühüm vəsiləsidir. Sizə məmnunluqla demək istəyirəm ki, Azərbaycanın Moldovada səfirliyinin açılması haqqında bu yaxınlarda qərar qəbul edilmişdir. Səfirlik bir müddətdən sonra açılacaqdır. Əminəm ki, bundan sonra ölkələrimiz arasında ikitərəfli münasibətlər daha intensiv olacaqdır. Biz əməkdaşlığı bundan sonra da inkişaf etdirmək istəyirik. Bunun üçün yaxşı zəmin var. Ölkələrimizin iqtisadi potensialı artır, qarşılıqlı siyasi əlaqələr möhkəmlənir. Hesab edirəm ki, gələcəkdə ölkələrimiz Avropaya inteqrasiya yolu ilə, quruculuq yolu ilə, regionumuzda sülhün və təhlükəsizliyin təmin olunması yolu ilə birlikdə gedəcəklər.

Hörmətli Vladimir Nikolayeviç, qonaqpərvərliyə görə Sizə bir daha təşəkkürümü bildirmək və Azərbaycan xalqının ən dərin hörmətini ifadə etmək, bütün Moldova vətəndaşlarına sülh və firavanlıq arzulamaq istəyirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

## Moldova prezidenti Vladimir Voroninin nitqi

Hörmətli İlham Heydəroviç!

Hörmətli dostlar!

Bəşəriyyətin çoxəsrlik mədəni-tarixi inkişafının gedişində Yer üzündə planetar miqyaslı elə şəxsiyyətlər dünyaya gəlirlər ki, onlar bəşəriyyət qarşısında hədsiz mənəvi üfüqlər açırlar. Bəşər mənəviyyatının belə nəhənglərindən biri də görkəmli Azərbaycan şairi, mütəfəkkiri, humanisti Nizami Gəncəvidir. Onun dünya mədəniyyətinə töhfəsini, hörmətli Azərbaycan pre-

zidentinin burada dediyi kimi, Dantenin, Şekspirin, Puşkinin və bəşəriyyətin digər görkəmli mütəfəkkirlərinin misilsiz irsi ilə müqayisə etmək olar.

Qeyd etmək xoşdur ki, bu gün paytaxtımızın mərkəzində biz Azərbaycan xalqının adı dünya sivilizasiyasının xəzinəsinə daxil olan böyük oğlunun büstünü açırıq. 800 ildən də çox əvvəl Nizami Gəncəvi dünyaya bəyan etmişdir ki, xalqın böyüklüyü onun sayından və ya yaşadığı ərazinin sahəsindən deyil, onun dünya ədəbiyyatının inkişafına töhfəsindən və öz ağıl-zəkası və istedadı ilə insanı xoşbəxt etmək səylərindən asılıdır. Bu gün biz o alimləri, yazıçıları, şairləri minnətdarlıq hissi ilə xatırlayırıq ki, onların sayəsində Nizaminin «Leyli və Məcnun», «Yeddi gözəl», «Sirlər xəzinəsi» və digər ölməz əsərləri müxtəlif dillərə tərcümə edilmiş və bütün ziyalı bəşəriyyətin sərvətinə çevrilmişdir. Şair öz əsərlərində yaşadığı dövrün hadisələrini əks etdirmişdir. Lakin bu əsərlər bizim dövrümüzdə də heyrətamiz dərəcədə müasirdir və onlara ehtiyac var. Nizaminin humanist amallar tərənnüm olunan gözəl poeziyası bizim Moldovada da yaxşı məlumdur və sevilir.

Bu gün mən Moldova Respublikasındakı Azərbaycan diasporunun mədəniyyət sahəsində münasibətlərin möhkəmlənməsinə töhfəsini ayrıca qeyd etmək istərdim. Nizami Gəncəvinin büstünün qoyulması bu sahədə münasibətlərimizin daha bir təsdiqidir. Əminəm ki, ölkələrimiz arasında mədəni əlaqələrin, siyasi, iqtisadi, sosial münasibətlərin daha da möhkəmləndirilməsi dövlətlərarası münasibətlərin yüksək səviyyədə inkişafına lazımınca kömək edəcəkdir.

Hörmətli İlham Heydəroviç, Azərbaycan diasporunun, əslində, yarısından çoxunun yanında mən suveren dövlətlərimizin tarixində Moldova Respublikasına ilk rəsmi səfərə gəlməyə razılıq verdiyinizə görə və bu illər ərzində ikitərəfli əməkdaşlığımızda yaranmış qarşılıqlı anlaşmaya görə, münasibətlərə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Düşünürəm ki, bu, xalqlarımızın rifahı naminə Azərbaycanın da, Moldovanın da möhkəmlənməsinə və inkişafına kömək edəcəkdir. Sağ olun.

* * *

*Prezidentlər abidənin üzərindəki ağ örtüyü götürdülər. Büstün önünə dövlət başçılarının adından əklillər qoyuldu. Prezidentlər İlham Əliyev və Vladimir Voronin Moldovadakı Azərbaycanlılar Konqresinin sədri və diasporun üzvləri ilə səmimi söhbət etdilər. Prezidentlər xüsusi vurğuladılar ki, Moldovadakı Azərbaycan diasporu mütəşəkkildir və ölkənin ictimai-siyasi və iqtisadi həyatında çox fəal iştirak edir.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİNİN ADINDAN TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA NİTQ

*21 aprel 2005-ci il*

### Moldova prezidenti Vladimir Voroninin nitqi

Hörmətli İlham Heydəroviç!

Hörmətli azərbaycanlı dostlar və burada olan həmvətənlərimiz!

Yaxşı adamlar, yaxşı qonaqlar sarıdan bəxtim yaman gətirir və mən Azərbaycan prezidentinə Moldova torpağında bir daha xüsusi məmnunluqla deyirəm: «Xoş gəlmisiniz!».

Mən bayağılığa varmayacağam, lakin, İlham Heydəroviç, deməliyəm ki, Sizinlə birlikdə gördüyümüz iş böyük işdir. Mən bunu belə hiss edirəm. Münasibətlərimizin bu səhifələrinin uzunmüddətli perspektivləri var və onlar ölkələrimizin xalqlarına gərəkdir. Azərbaycanın çoxəsrlik tarixində Şərqin də, Qərbin də təsiri var. Bu, mədəni irsdə də özünü göstərir. Siz bütün yolların qovuşuğunda yerləşirsiniz, biz moldovanlar da Şərqlə Qərb arasında bir növ kiçik körpüyük. Ona görə də mənafelərimizin uyğun gəlməsi təsadüfi deyildir. Bu mənafelər qarşımızda duran çox böyük sayda problemlərin üst-üstə düşməsindən də irəli gəlir. Bir sözlə, bu gün Sizinlə birlikdə gördüyümüz işlər həmin problemlərdən çoxunun həllinə kömək edir. Biz insanların gözünə dik və açıq baxa bilərik, çünki görə bildiyimiz işləri görmüşük. Sonrasını tarix göstərəcəkdir. Xoş gəlmisiniz, səfərinizə görə sağ olun, Sizə ən xoş arzularımı

bildirirəm. Dost Azərbaycan xalqına uğurlar və tərəqqi arzulayıram.

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Əziz Vladimir Nikolayeviç!

Əziz dostlar!

Qonaqpərvərliyə görə bir daha təşəkkür etmək istəyirəm. Həqiqətən, bu gün səhər tezdən mən və nümayəndə heyətimizin üzvləri çox hərarət hiss edirik. Bu həm havada, həm görüşlərimizdə, həm ürəklərimizdə, həm də ünsiyyətimizdədir. Mən bundan çox məmnunam.

Münasibətlərimizin inkişafı sübut edir ki, uzunmüddətli perspektivdə Moldova və Azərbaycan regionda daha mühüm rol oynayacaqdır. Mən Sizinlə tam razıyam ki, bu gün, indiki vaxtda regionun gələcək dönməz inkişafının möhkəm təməli qoyulur. Azərbaycan da, Moldova da dinamik surətdə inkişaf edən ölkələrdir. Onlar Avropaya inteqrasiyaya, modernləşmə proseslərinə, təkmilləşməyə və tərəqqiyə meyllidir. İqtisadi və siyasi proseslərin, habelə regional əməkdaşlığın inkişafı çərçivəsində bizim çox böyük gələcəyimiz var.

Vladimir Nikolayeviç, fürsətdən istifadə edərək, Sizi ikinci müddətə Moldova Respublikasının prezidenti seçilməyiniz münasibətilə təbrik etmək istəyirəm. Moldova vətəndaşlarının Sizə böyük etimad göstərməsi münasibətilə təbrik edirəm, bu etimad prezident vəzifəsində göstərdiyiniz dörd illik fəaliyyətin nəticəsidir, siyasətinizin və konkret əməli işlərinizin nəticəsidir. Çünki insanlar sözə, vədlərə görə, şüarlara görə deyil, məhz işə görə səs verirlər. Onlar konkret işlərə görə, öz ölkəsinin xalqına xidmətə görə səs verirlər. Rəhbərin daha bir xoşbəxtliyi onun xalqın etimadını və dəstəyini hiss etməsindədir. Siz fəxr edə bilərsiniz ki, Moldova xalqı Sizə etimad göstərir və Siz bu etimadı şərəflə doğruldursunuz.

Əminəm ki, münasibətlərimizin gələcəyi çox uğurlu olacaqdır. Biz müttəfiqlik əlaqələrini bundan sonra da davam etdirəcə-

yik, məsələləri – həm energetika məsələlərini, həm də iqtisadi məsələləri, eləcə də ərazi bütövlüyümüzün bərpa olunması, Avropaya inteqrasiya və inkişaf məsələlərini bundan sonra da birlikdə həll edəcəyik. Bu yolda Sizə və bütün Moldova xalqına uğurlar, tərəqqi, xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Sizin sağlığınıza!

Dostluğumuzun şərəfinə!

## GUÖAM ÖLKƏLƏRİ DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNDƏ NİTQ

*Kişinyov,*
*Respublika sarayı*

*22 aprel 2005-ci il*

*Moldova Respublikasının prezidenti Vladimir Voronin zirvə görüşünü açaraq GUÖAM ölkələrinin dövlət başçılarını, habelə Rumıniyanın, Litvanın prezidentlərini, beynəlxalq təşkilatların nümayəndələrini salamladı və bildirdi ki, bu sammit region üçün xüsusi əhəmiyyət daşıyır. Rumıniya, Litva prezidentlərinin, digər beynəlxalq təşkilatların nümayəndələrinin görüşdə iştirakı GUÖAM-a olan marağın göstəricisidir. O bu qurumla Avropa Birliyi arasında əməkdaşlığın genişləndirilməsinin GUÖAM-ın üzvü olan ölkələrin ərazi bütövlüyünün təmin olunmasına, sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə xidmət edəcəyini söylədi.*

*Prezident Vladimir Voronin Azərbaycan prezidenti İlham Əliyevin Moldovaya rəsmi səfərini təşkilatın üzvü olan ölkələrin əməkdaşlığının daha bir bariz nümunəsi kimi dəyərləndirdi.*

*Gürcüstan prezidenti Mixail Saakaşvili GUÖAM-ın demokratik dövlətlərin birliyi olduğunu, Ukrayna prezidentinin təklifi ilə Dnestryanı bölgədəki və GUÖAM-ın üzvü olan digər ölkələrdəki mövcud münaqişələrin müzakirə ediləcəyini bildirdi.*

*Ukrayna prezidenti Viktor Yuşşenko GUÖAM çərçivəsində əməkdaşlığın gücləndirilməsinin və bu təşkilatın Parlament Assambleyasının, daimi ofisinin, katibliyinin yaradılmasının zəruriliyini vurğuladı, Dnestryanı bölgədə münaqişənin həlli ilə bağlı təkliflərini söylədi.*

*Azərbaycan prezidenti İlham Əliyev zirvə görüşündə nitq söylədi.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab sədr!

Hörmətli həmkarlar!

Xanımlar və cənablar!

İlk növbədə, görüşlərimizin gözəl hazırlandığına və əla təşkil olunduğuna görə ev sahiblərinə və təşkilatçılara dərin minnətdarlığımı bildirmək istərdim. Qonaqpərvərliyinə görə Moldova prezidenti Vladimir Voroninə də şəxsən təşəkkür etmək istərdim.

Qeyd etmək istəyirəm ki, mən dünəndən Moldovadayam. Dünən mən Moldovaya rəsmi səfərə gəldim və deməliyəm ki, bu səfərin yekunlarından çox məmnunam. Bir çox mühüm sazişlər imzalandı, regional təşkilatlar çərçivəsində və Avropaya inteqrasiya prosesində ikitərəfli əsasda əməkdaşlığa yönəldilmiş strateji xəttimiz bir daha təsdiq olundu. Mən sədr funksiyasının öhdəsindən layiqincə gələn bizim tərəfi də tərifləmək istərdim. Onun fəallığından və əzmkarlığından çox şey asılıdır. İndi təşkilatımız öz inkişafının yeni mərhələsini yaşayır. Düşünürəm ki, bu, ən mühüm mərhələlərdən biridir. Təşkilatımızın dünyada rolu və yeri, habelə onun səmərəliliyi də bu gün işimizi necə səmərəli quracağımızdan asılı olacaqdır. Elə etmək lazımdır ki, təşkilatımız konkret məsələləri həll etməyə qadir olsun, GUÖAM-ın ciddi regional təşkilata çevrilməsi üçün inteqrasiya proseslərinə, ikitərəfli əsasda, çoxtərəfli əsasda əməkdaşlığa təkan versin. Zənnimcə, GUÖAM-ı həqiqətən belə sanballı regional təşkilata çevirmək arzumuz tamamilə təbiidir. Bunun üçün bütün əsaslar, obyektiv səbəblər, habelə ölkələrimizin Xəzər dənizi – Qara dəniz regionunda təhlükəsizlik tədbirlərini möhkəmlətmək üzrə əməkdaşlıq etmək, Avropaya inteqrasiya proseslərinə qoşulmaq niyyəti var.

Bizi çox şey birləşdirir. Ölkələrimiz arasında ikitərəfli əsasda ən səmimi, ən mehriban münasibətlər, qardaşlıq münasibətləri mövcuddur. Odur ki, bu münasibətləri regional və beynəlxalq əməkdaşlıq formatında da möhkəmlətmək və inkişaf etdir-

mək arzumuz təbiidir. Mən təşkilatımızın işində dostlarımızın dost ölkələr olan Rumıniya və Litva prezidentlərinin də iştirak etməsindən çox məmnunam. Bu, təşkilatımızın əhəmiyyətinin və sanbalının artmasının daha bir göstəricisidir, habelə düşünürəm ki, daha geniş məkanda gələcək regional əməkdaşlıq üçün çox yaxşı zəmindir. Əminəm ki, qarşıya qoyulmuş bütün məqsədlərə çatsaq, planlarımızı həyata keçirə bilsək, şübhəsiz, GUÖAM regional planda çox mühüm rol oynayacaqdır.

Bizi həm də Avratlantik inteqrasiya prosesləri birləşdirir. Bir çox illər ərzində ölkələrimiz bu prosesləri əsas tutur və inteqrasiyaya doğru uğurla irəliləyirlər. Əlbəttə, heç kimə sirr deyil ki, birgə səylərlə inteqrasiya edilsə, bu daha əlverişli, daha asan və tez olar. Bu məsələdə aramızda heç bir fikir ayrılığı olmadığına, ancaq ümumi yanaşma olduğuna görə, düşünürəm ki, Avropa və Avratlantik strukturlarına inteqrasiya məsələsində səylərimizi necə birləşdirmək üzərində işləmək olar. Ölkələrimizin hamısı NATO, Avropa Birliyi ilə inteqrasiya proseslərinin fəal iştirakçısıdır, antiterror koalisiyasının üzvüdür. Buna görə də bizi birləşdirən olduqca çox amillər var və biz onlardan, əlbəttə, çox səmərəli istifadə etməliyik.

Təəssüf ki, bizi heç də təkcə xoş anlar bəxş edən, bizi ruhlandıran və müstəqilliyimizi möhkəmləndirən amillər birləşdirmir, bizi ağrı-acımız da birləşdirir. Söhbət ölkələrimizin ərazilərindəki münaqişələrdən gedir. İş elə gətirmişdir ki, postsovet məkanındakı bütün münaqişələr GUÖAM ölkələrinin ərazilərində baş verir. Onların hamısının mənşəyi eynidir. Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Abxaziyadakı münaqişə, Cənubi Osetiyadakı münaqişə və Dnestryanı bölgədəki münaqişə – bütün bunlar təcavüzkar separatizmdən, ölkələrimizin ərazi bütövlüyünün pozulmasından, təcavüzkar separatçı niyyətlərin qurbanları olan milyonlarla qaçqın-köçkünü əziyyətlərə və müsibətlərə düçar etmiş siyasi etnik təmizləmələrdən yaranmışdır. Bizi bu da birləşdirir.

Ona görə də hesab edirəm ki, səylərimizi bu münaqişələrin həllində də birləşdirmək məqsədəuyğun olardı, çünki onların

hamısının eyni təbiəti və eyni nizamasalma mexanizmi var. Zənnimcə, biz bu problemlərin nizama salınması üçün çox fəal işləməli və çərçivə prosesləri hazırlamalıyıq. Bu dörd çox kəskin münaqişənin həllinə vahid yanaşmaya malik ola bilməyimiz üçün həmin çərçivə proseslərini fəal əməkdaşlıq etdiyimiz təşkilatların – ATƏT-in, Avropa Birliyinin, Avropa Şurasının da təsdiqləməsi çox vacibdir. Bu münaqişələr bizə normal inkişaf etməyə imkan vermir. Bu münaqişələr Avropaya inteqrasiya proseslərini ləngidir. Başa düşürük ki, bu yük Avropaya inteqrasiyamız üzrə prosesi çətinləşdirəcəkdir. Biz ondan azad olmalıyıq. Bunu ancaq və yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında həll etmək olar və lazımdır. Biz belə yanaşmaya tərəfdarıq. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Ona görə də əminəm ki, bu münaqişələr öz həllini tapacaqdır. İstərdik ki, bu, mümkün qədər tez baş versin. Ölkələrimizə qarşı təcavüz edən separatçı qüvvələr və təcavüzkarlar da başa düşməlidirlər ki, indi dünyanın yolu tamam başqa istiqamətdədir. Dünya inteqrasiya, əməkdaşlıq, regional təhlükəsizliyin möhkəmləndirilməsi, qloballaşma istiqamətində gedir. Belə şəraitdə problemlərin həllinə mağara psixologiyası ilə yanaşmanın heç bir gələcəyi olmayacaqdır. Zənnimcə, bu nə qədər tez başa düşülərsə, həmin münaqişələrin ağır nəticələrindən qurtarmaq bir o qədər asan olacaqdır.

Regionumuzdakı separatizm problemlərinə beynəlxalq təşkilatların diqqətinin artmasını da müsbət addım kimi qeyd etmək istəyirəm. Avropa Şurasının bu məsələyə fəal qoşulması buna sübutdur. Bu ilin yanvarında Avropa Şurası Ermənistan – Azərbaycan münaqişəsinə dair qətnamə qəbul etmişdir. Burada hər şey öz adları ilə dəqiq və aydın şəkildə göstərilmişdir. Yəni göstərilmişdir ki, Ermənistan Azərbaycana qarşı təcavüz etmişdir, etnik təmizləmələr aparmışdır. Etnik təmizləmələr siyasəti nəticəsində bir milyon adam qaçqın və məcburi köçkünə çevrilmiş, Azərbaycanın ərazi bütövlüyü pozulmuşdur. Dünyada, o cümlədən də Avropada ölkələrin, xalqların normal yanaşı yaşamasına gözəl nümunələr var, yüksək muxtariyyət statusu vermək üçün bütün lazımi elementlər var. Azərbaycan dəfələrlə bəyan etmiş-

dir ki, Dağlıq Qarabağda yaşayan ermənilərə yüksək muxtariyyət statusu verməyə hazırdır. Lakin biz ərazi bütövlüyümüzün pozulması ilə heç zaman razılaşmayacağıq. Düşünürəm ki, Avropadakı müsbət muxtariyyət təcrübəsi əsas kimi götürülməlidir. Təbii ki, bu məsələlərin həllinə vahid yanaşma olmalıdır. Biz belə ədalətsizliyə və insanın ən adi hüquqlarının və beynəlxalq hüquq normalarının çox kobudcasına pozulmasına yalnız bu halda son qoya bilərik.

Təşkilatımız kommunikasiya, nəqliyyat məsələlərində çox səmərəli əməkdaşlıq edir. Əminəm ki, bu məsələlərin əhəmiyyəti daha da artacaqdır. Əlbəttə, münasibətlərimizin tərkib hissəsi olan nəqliyyat məsələsini ölkələrimizin coğrafi mövqeyinin özü əvvəlcədən müəyyənləşdirir. Biz bu proseslərə regional əməkdaşlığın tərkib hissəsi kimi, regionumuzda dərin inteqrasiya proseslərinə təkan verəcək, habelə ölkələrimizin iqtisadi vəziyyətinə də çox ciddi təsir göstərəcək amil kimi baxırıq. Yeri gəlmişkən, bizi birləşdirən daha bir cəhət var: ölkələrimizin hamısı çox dinamik inkişaf edir. Onlarda iqtisadi artım – ümumi daxili məhsulun artımı çox yüksəkdir, iqtisadi islahatlar aparılması, azad bazar prinsiplərinin bərqərar olması sürətlə gedir. Odur ki, bu məsələnin də, əlbəttə, çox ciddi əhəmiyyəti olacaqdır. TRASEKA proqramı beynəlxalq təşkilatların diqqətini çəkən proqramlar, habelə GUÖAM–ABŞ proqramı və onun həyata keçirilməsi dövlətlərimizə informasiya mübadiləsinin və təhlükəli cinayətlərə operativ münasibət göstərilməsinin tamamilə nadir sisteminə malik olmağa imkan verəcəkdir. Axı nəqliyyat layihələrindən təkcə xeyir gətirən qurumlar deyil, təəssüflər olsun ki, həm də cinayətkar ünsürlər, beynəlxalq cinayətkarlıq, narkotrafik istifadə edəcəkdir. Ona görə də özümüzü bütün xoşagəlməz hallardan qorumaq üçün kompleks tədbirlər görmək lazımdır. Biz Smart Dicit GUÖAM təşəbbüsünü də dəstəkləyirik. Bu təşəbbüs elektron ticarət, teletəbabət və məsafədən təhsil sahələri də daxil olmaqla, yüksək texnologiyalar sahəsində ABŞ ilə GUÖAM ölkələri arasında daha sıx əlaqələr yaranmasına kömək etməlidir. GUÖAM ölkələri bu layihəni əməkdaşlığımızın

daha da dərinləşməsi yolunda mühüm addım kimi qiymətləndirir.

Bugünkü sammit təşkilatımızın tarixinə bir sıra mühüm sənədlərin imzalanması ilə də daxil olacaqdır ki, onların da ən başlıcası, şübhəsiz, Kişinyov Bəyannaməsidir. Bu sənədlər ölkələrimizin, dövlətlərimizin demokratiya dəyərlərinə sadiqliyini, ölkəni və cəmiyyəti inkişaf etdirməyə çalışdığını bir daha təsdiqləyir, Avropa və Avratlantik inteqrasiyası istiqamətində getmək əzmində olduğumuzu göstərir. Əminəm ki, bütün xeyirxah təşəbbüslərimiz həyata keçiriləcək, təşkilatımız öz varlığını möhkəmləndirəcək və gələcək inteqrasiya proseslərinə fəal kömək edəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MOLDOVAYA RƏSMİ SƏFƏRİ

*22 aprel 2005-ci il*

### Ruminiya prezidenti Trayan Besesku ilə görüş

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Moldova Respublikasına rəsmi səfərinin ikinci günü, aprelin 22-də öz iqamətgahında GUÖAM-ın üzvü olan ölkələrin dövlət başçılarının Kişinyovdakı zirvə görüşündən əvvəl Rumıniya prezidenti Trayan Besesku ilə görüşmüşdür.*

*Səmimilik və dostluq şəraitində keçən görüşdə prezidentlər regional qurumlar kimi, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının və GUÖAM-ın fəaliyyətlərinin gücləndirilməsinin zəruriliyini vurğuladılar və bildirdilər ki, bu həm də regionda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi işinə öz töhfəsini verə bilər.*

*Tərəflər Avratlantik strukturlarına inteqrasiya məsələlərini də müzakirə etdilər. Prezident İlham Əliyev Rumıniyanın bu istiqamətdə fəaliyyətini yüksək qiymətləndirərək dedi ki, Azərbaycan da həmin strukturlara inteqrasiya sahəsində mühüm addımlar atmışdır və bu prosesi davam etdirir. Dövlətimizin başçısı Rumıniya ilə Azərbaycan arasında ikitərəfli əlaqələrdən danışdı. O, Buxarestə səfərini xatırladaraq bildirdi ki, orada keçirdiyi görüşlərdə ölkələrimiz arasında əlaqələrin inkişafı məsələləri geniş müzakirə olunmuşdur və Azərbaycan tərəfi əlaqələrimizin yüksək səviyyədə olmasından məmnundur.*

### Ukrayna prezidenti Viktor Yuşşenko ilə görüş

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev GUÖAM-ın üzvü olan ölkələrin dövlət başçılarının Kişinyovda*

*keçirilən zirvə görüşü çərçivəsində aprelin 22-də Ukrayna prezidenti Viktor Yuşşenko ilə görüşmüşdür.*

*Görüş zamanı prezident İlham Əliyev Ukraynaya səfərini xatırladaraq bildirdi ki, Ukrayna prezidentinin də Azərbaycana səfəri ilə əlaqədar hazırlıq işləri görülür. Ölkələrimiz arasında əlaqələri daha da inkişaf etdirmək üçün hökumətlərarası müqavilələrin hazırlanması və imzalanması prosesi davam edir.*

*Tərəflər regional və beynəlxalq məsələlər ətrafında geniş fikir mübadiləsi apardılar. Prezidentlər bildirdilər ki, GUÖAM-ın indiki zirvə görüşü Qara dəniz və Xəzər dənizi regionlarında əməkdaşlığın daha da inkişafına kömək edəcəkdir.*

## Gürcüstan prezidenti Mixail Saakaşvili ilə görüş

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev GUÖAM-ın üzvü olan ölkələrin dövlət başçılarının Kişinyovda keçirilən zirvə görüşü çərçivəsində aprelin 22-də Gürcüstan prezidenti Mixail Saakaşvili ilə görüşmüşdür.*

*Dövlət başçıları GUÖAM-ın zirvə görüşündə iştirakdan məmnunluqlarını bildirdilər və tədbiri yüksək qiymətləndirərək dedilər ki, bu sammit regional əməkdaşlıq baxımından çox uğurlu olmuşdur.*

*Görüşdə ikitərəfli əlaqələrin inkişaf etdirilməsi, regional və beynəlxalq təhlükəsizlik məsələləri ətrafında da geniş fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev və prezident Mixail Saakaşvili irimiqyaslı layihələrin həyata keçirilməsi, o cümlədən Bakı–Tbilisi–Ceyhan neft və Bakı–Tbilisi–Ərzurum qaz kəmərlərinin tikintisi barədə də söhbət açdılar və vurğuladılar ki, Gürcüstanla Azərbaycan arasında olan uğurlu əməkdaşlıq həm də regional təhlükəsizliyin möhkəmləndirilməsinə töhfəsini verir.*

## Litva prezidenti Valdas Adamkus ilə görüş

*Aprelin 22-də GUÖAM ölkələri dövlət başçılarının zirvə görüşü başa çatdıqdan sonra Kişinyovun «Respublika» sarayında Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin və Litva Respublikasının prezidenti Valdas Adamkusun görüşü olmuşdur.*

*Dövlət başçıları iki ölkə arasında müxtəlif sahələrdə əlaqələrin daha da genişləndirilməsi, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi apardılar.*

*Prezidentlər zirvə görüşünün yekunlarını yüksək qiymətləndirdilər.*

*Təşkilata üzv olan ölkələrin Avratlantik strukturlarına və NATO-ya inteqrasiyası məsələləri də görüşdə müzakirə olundu.*

* * *

*Aprelin 22-də axşam Moldova prezidenti Vladimir Voronin tərəfindən GUÖAM ölkələri dövlət başçılarının şərəfinə rəsmi qəbul təşkil olundu.*

## GUÖAM ÖLKƏLƏRİ DÖVLƏT BAŞÇILARININ MƏTBUAT KONFRANSI

*22 aprel 2005-ci il*

*GUÖAM-ın üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşü başa çatdıqdan sonra prezidentlər İlham Əliyev, Vladimir Voronin, Viktor Yuşşenko, Mixail Saakaşvili, habelə Litva və Rumıniya prezidentləri Valdas Adamkus və Trayan Besesku mətbuat konfransı keçirdilər. Prezidentlər bəyanatlarla çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli xanımlar və cənablar!

Qeyd etmək istəyirəm ki, GUÖAM ölkələri dövlət başçılarının bu gün keçirilən zirvə görüşü çox uğurlu oldu. Məsələlərin çox konstruktiv müzakirəsi getdi və Kişinyov Bəyannaməsi qəbul edildi. Zənnimcə, bu, təşkilatımızın regionda mövqelərinin daha da möhkəmlənməsi yolunda çox mühüm amildir. Əminəm ki, bu zirvə görüşündən sonra regional problemlər, demokratik proseslərin inkişafı, təhlükəsizliyin möhkəmlənməsi problemləri kontekstində GUÖAM-ın rolu və yeri artacaqdır. Təşkilat çox güclü, ciddi qüvvəyə çevrilir. O, Xəzər dənizi və Qara dəniz regionunda baş verən bütün proseslərdə fəal iştirak edəcəkdir.

Şübhə yoxdur ki, təşkilatın inkişafının bu yeni mərhələsi ölkələrimizdə baş verən proseslər üçün də çox mühüm olacaqdır. Bizi çox şey birləşdirir. Avropaya inteqrasiya məsələlərinə vahid yanaşmalar, terrorizmlə mübarizəyə, regional təhlükəsizlik və Avropa təhlükəsizliyi sisteminin möhkəmləndirilməsinə vahid yanaşmalar, təcavüzkar separatizmlə mübarizəyə vahid ya-

naşmalar – bütün bunlar Kişinyov Bəyannaməsində öz əksini tapmışdır. Bəyannamədə əməkdaşlığımızın ruhu ifadə edilmiş, habelə meyar və prinsiplər dəqiq göstərilmişdir. Bunların əsasında əməkdaşlığı inkişaf etdirəcək, ölkələrimizdə vəziyyəti təkmilləşdirəcəyik.

Ölkələrimizin ərazilərindəki münaqişələrin həlli prinsiplərinə vahid yanaşmanın ifadə olunmasını da çox mühüm məqam hesab edirəm. Bu çox vacibdir, çünki biz Moldova, Gürcüstan və Azərbaycandakı münaqişələrin beynəlxalq hüquq prinsipləri əsasında dincliklə həllinə nail olmaq istəyirik və bu zaman vahid, eyniləşdirilmiş yanaşma olmalıdır. Çox şadam ki, buna müvəffəq ola bildik. Əlbəttə, çalışacağıq ki, əməkdaşlığımız region üçün, ölkələrimiz üçün bütün təhlükələrin aradan qaldırılmasını mümkün etsin ki, Avropa və Avratlantik qurumlarına normal inteqrasiya edə bilək.

Zirvə görüşündə dost ölkələrin – Rumıniya və Litvanın prezidentlərinin iştirakını da çox mühüm və əlamətdar hadisə hesab edirəm. Bu həm təşkilatımıza olan hörmətin, həm də regional əməkdaşlıq məsələlərinə münasibətin ifadəsidir. Təşkilatımız əməkdaşlıq üçün açıqdır. Hesab edirik ki, regional proseslərin gələcək inkişafı GUÖAM-ı regional miqyasda ciddi qüvvəyə çevirəcəkdir.

Fürsətdən bir daha istifadə edərək, zirvə görüşünün gözəl təşkilinə və bizə göstərilən qonaqpərvərliyə görə ev sahiblərinə – Moldova tərəfinə, şəxsən prezident Vladimir Nikolayeviç Voroninə təşəkkür etmək istəyirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

Sonra zirvə görüşündə sədrlik edən Moldova prezidenti Vladimir Voronin kütləvi informasiya vasitələrinin nümayəndələrinə sammitin yekunları barədə məlumat verərək dedi ki, GUÖAM ölkələri demokratiya, qanunun aliliyi və insanın əsas hüquq və azadlıqlarına hörmət prinsiplərinə sadiqliyini, öz xalqlarının firavanlığı naminə GUÖAM dövlətlərinin demokratik sabitliyini dönmədən möhkəmlətməyə və onların iqtisadi əməkdaşlığını inkişaf etdirməyə səy göstərdiklərini bildirdilər.

* * *

*Moldova Respublikasında rəsmi səfərdə olan və GUÖAM ölkələri dövlət başçılarının Kişinyovda keçirilən zirvə görüşündə iştirak edən Azərbaycan Respublikasının prezidenti İlham Əliyev aprelin 22-də Vətənə yola düşmüşdür.*

*Prezident İlham Əliyev həmin gün gecə Bakıya gəldi.*

# «HEYDƏR ƏLİYEV» ORDENİNİN TƏSİS EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin çoxillik zəngin siyasi fəaliyyəti xalqımızın dövlətçilik tarixində müstəsna rol oynamışdır.

Müstəqil Azərbaycanın sosial-iqtisadi bünövrəsi məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində ötən əsrin 70-ci illərində qoyulmuşdur. 1969–1982-ci illərdə Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan SSRİ-nin tərkibində o zaman üçün müasir iqtisadi potensiala malik olan respublikaya çevrilmiş, ölkəmizin gələcək dövlət müstəqilliyi üçün möhkəm təməl yaradılmışdır. Sürətli iqtisadi inkişaf nəticəsində Azərbaycan İttifaq büdcəsindən dotasiya almayan, öz-özünü təmin edə bilən az sayda respublikalardan biri olmuşdur. Həmin illərdə Heydər Əliyevin səyləri ilə xalqımızın milli mənlik şüurunun, mədəniyyətinin və dilinin inkişafına güclü təkan verən tədbirlər həyata keçirilmişdir. Azərbaycan SSRİ-nin tərkibindəki üç respublikadan biri idi ki, onun Konstitusiyasında xalqın danışdığı əsas dilə – Azərbaycan dilinə dövlət statusu verilmişdi.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonrakı ilk illərdə bir-birinin ardınca hakimiyyətə gələn qüvvələrin səriştəsiz siyasəti nəticəsində ölkənin parçalanması və milli dövlətçiliyin süquta uğraması təhlükəsi yarandı. Azərbaycan vətəndaş müharibəsi astanasında idi. Ermənistanın işğalçılıq siyasəti, ölkə daxilində hökm sürən siyasi çəkişmələr Azərbaycan dövlətinin varlığını təhlükə altında qoydu. Belə bir ağır və mürəkkəb dövrdə xalqın təkidi, tələbi ilə böyük siyasi təcrübəyə malik olan Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı Azərbaycanın dövlət müstəqilliyinin qorunub

saxlanmasına və möhkəmləndirilməsinə xidmət edən başlıca amil oldu.

1993-cü ilin iyununda Azərbaycan parlamentinin sədri seçilən Heydər Əliyev ölkədə yaranmış siyasi böhranın və hakimiyyət boşluğunun aradan qaldırılmasına nail oldu. Hərc-mərclik, özbaşınalıq hallarına, zorakılıq, silah işlətmək yolu ilə hakimiyyətə gəlmək praktikasına son qoyuldu, ictimai-siyasi sabitlik bərqərar edildi. Ölkədə peşəkar parlament yaradıldı. Bütün bu işlərin həyata keçirilməsində Heydər Əliyev həmişə xalqa arxalanmış və onun tam dəstəyini almışdır.

Heydər Əliyevin rəhbərliyi və bilavasitə iştirakı ilə hazırlanaraq qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə müasir dövlətçilik sisteminin bərqərar edilməsi üçün möhkəm hüquqi baza yaratdı. Məhkəmə islahatlarının həyata keçirilməsi, Konstitusiya Məhkəməsinə və digər mühüm təsisatların yaradılması ölkədə demokratikləşdirmə prosesinin irəliyə aparılmasında mühüm rol oynadı.

Müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi on illik dövr ərzində Heydər Əliyev ölkəmizi təhlükə və çətinliklərdən qurtararaq ardıcıl inkişaf yoluna çıxarmışdır. Bu illər ərzində dövlət idarəçiliyi mexanizmi yenidən yaradılmış, nizami ordu qurulmuş, genişmiqyaslı siyasi, hüquqi, iqtisadi, sosial və mədəni islahatlar həyata keçirilmiş, ölkə iqtisadiyyatının dinamik inkişafı təmin edilmiş, müstəqil Azərbaycan üçün böyük əhəmiyyət kəsb edən yeni neft strategiyası hazırlanaraq uğurla gerçəkləşdirilməyə başlanmışdır. Nəticə etibarilə Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət qurulmuş, vətəndaş cəmiyyətinin bərqərar edilməsi istiqamətində ciddi addımlar atılmışdır. Dövlətimiz Dünya Birliyində layiqli yerini tutmuş, bölgədə geosiyası mövqelərini möhkəmləndirərək böyük beynəlxalq nüfuz qazanmışdır. Azərbaycançılıq ideyası süurlara hakim kəsilmiş, milli birlik və həmrəylik təmin edilmişdir.

Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında müstəsna tarixi xidmətlərini nəzərə

alaraq və onun xatirəsini əbədiləşdirmək məqsədi ilə Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. «Heydər Əliyev» ordeni təsis edilsin.

II. «Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında» Azərbaycan Respublikasının 1992-ci il 10 noyabr tarixli Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992-ci il, № 23, maddə 996, 1993-cü il, № 23, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il № 12 (I kitab), maddə 677) 1-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

«1. Azərbaycan Respublikasının aşağıdakı ordenləri təsis edilsin.

Azərbaycan Respublikasının ən yüksək təltifi – «Heydər Əliyev» ordeni;

«İstiqlal» ordeni;

Azərbaycan Respublikasının ali hərbi ordeni – «Şah İsmayıl» ordeni;

«Azərbaycan bayrağı» ordeni;

«Şöhrət» ordeni;

«Vətənə xidmətə görə» ordeni».

III. «Heydər Əliyev» ordeninin statusu və təsviri təsdiq edilsin (əlavə olunur).

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *22 aprel 2005-ci il*

## ABŞ DÖVLƏT DEPARTAMENTİNİN AVRASİYA ÜZRƏ BÖYÜK MƏSLƏHƏTÇİSİ STİVEN MƏNN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 aprel 2005-ci il*

*Görüş zamanı cənab Mənn Bakıya səfərindən və Kişinyovda GUÖAM təşkilatının sammiti zamanı Azərbaycan prezidenti ilə görüşündən məmnunluq hissi keçirdiyini vurğulamışdır. Qonaq bu tədbirdə Rumıniya və Litva prezidentlərinin də iştirakını GUÖAM-a olan marağın artmasının ifadəsi kimi dəyərləndirmişdir.*

*Dövlətimizin başçısı GUÖAM sammitinin uğurla keçdiyini qeyd edərək, bu təşkilatın beynəlxalq münasibətlər sistemində rolunun getdikcə artdığını vurğulamışdır. Prezident İlham Əliyev Kişinyov sammitində qəbul olunmuş bəyannamədə, həmçinin orada iştirak edən dövlət başçılarının bəyanatlarında münaqişələrin beynəlxalq hüquq prinsipləri – ölkələrin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı əsasında həllinin vacibliyinin vurğulanmasını, təcavüzkar separatizmin pislənilməsini yüksək qiymətləndirmişdir. O, GUÖAM təşkilatının möhkəmlənməsinin gələcəkdə regional sülhün və təhlükəsizliyin təmin olunması işinə xidmət edəcəyinə əminliyini vurğulamışdır.*

*Görüşdə Azərbaycan–ABŞ ikitərəfli münasibətlərinin daha da inkişaf etdirilməsi, ölkəmizdə uğurla həyata keçirilən iri enerji layihələrinin perspektivləri, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞAMAXI RAYONUNA SƏFƏRİ

*26 aprel 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev bir sıra obyektlərin açılış mərasimində iştirak etmək üçün Şamaxı şəhərinə gəlmişdir.*

*Yol boyu yerləşən kənd və qəsəbələrin sakinləri dövlətimizin başçısını hərarətlə salamlayırdılar. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva yolüstü Pirsaat pirini ziyarət etdilər və nəzir verdilər. Azərbaycan prezidenti buraya ziyarətə gələnlərlə səmimiyyətlə görüşdü. Dindarlar prezidentlə görüşdən məmnun qaldıqlarını bildirdilər, onun milli, mənəvi dəyərlərimizə yüksək hörmət bəsləməsini müsbət qiymətləndirdilər.*

*Dövlətimizin başçısı Şamaxı şəhərində Olimpiya İdman Kompleksinin açılış mərasimində iştirak etdi. Kompleksin qarşısına toplaşan və prezidenti hərarətlə, böyük hörmətlə qarşılayan şamaxılıların əllərində Azərbaycanın dövlət bayraqları, dövlətimizin başçısını salamlayan şüarlar, idmana həmişə diqqət və qayğı göstərmiş ümummilli lider Heydər Əliyevin müdrik kəlamları yazılmış transparantlar var idi. Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya gül-çiçək təqdim olundu.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Milli Olimpiya Komitəsinin vəsaiti hesabına il yarım ərzində tikilmiş kompleksdə 725 nəfərlik tamaşaçı yeri olan böyük idman salonunda bütün əl oyunları, mini futbol, güləş və digər idman növləri üzrə beynəlxalq səviyyəli yarışlar keçirmək mümkündür. Eni 12,5 metr, uzunluğu 25 metr olan üzgüçülük hovuzu vardır. Hovuz*

*Fransa layihəsi əsasında inşa olunmuşdur və beynəlxalq standartlara uyğundur. Kompleksdən Şirvan zonasında yerləşən digər rayonlar da istifadə edə bilər. Burada süni örtüklə örtülmüş voleybol və basketbol meydançası, tennis kortu, mini futbol meydançası da vardır. Respublikamızda sayca doqquzuncu olan bu kompleksdə idmançıların istirahəti üçün dördulduzlu hotel səviyyəsində 15 kottec də tikilmişdir. 60 nəfərlik yeməkxana müasir tələblərə cavab verən mətbəx avadanlığı ilə təchiz edilmişdir.*

*Olimpiya İdman Kompleksinin təntənəli açılış mərasimi oldu.*

## ŞAMAXI OLİMPİYA İDMAN KOMPLEKSİNİN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*26 aprel 2005-ci il*

Əziz şamaxılılar!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və bu gün bu gözəl idman kompleksinin açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm.

Bu kompleksin tikintisi 2003-cü ildə başlanmışdır. Mən xatırlayıram ki, 2003-cü ildə prezident seçkiləri ərəfəsində şamaxılılarla görüş məhz bu kompleksin, bu tikintinin önündə keçirilmişdi. O da xatirimdədir, söz vermişdim ki, kompleksin tikintisi başa çatacaq və bunun açılışını biz bir yerdə qeyd edəcəyik. Bu gün çox şadam ki, yenidən Şamaxıdayam, sizinlə görüşürəm, bu gözəl idman obyektinin açılışını biz bir yerdə qeyd edirik. Bu kompleks şamaxılılar üçün tikilib, gənclər, idmançılar üçün tikilibdir. Burada ən yüksək dünya standartları nəzərdə tutulubdur. Böyük oyun zalı, üzgüçülük hovuzu, digər oyun meydançaları var, başqa obyektlər, tikililər var. Bir sözlə, dünyanın ən yüksək standartlarına cavab verən bu qurğu şamaxılılara xidmət edəcəkdir. Mən də çox şadam ki, biz buna nail olduq. Çox şadam ki, Azərbaycanın gözəl diyarında, qədim Şamaxı torpağında bu gözəl memarlıq abidəsi ucaldılıbdır. Bilirsiniz ki, Azərbaycanda idmana böyük diqqət verilir və bu diqqət həmişə hiss olunubdur. Xalqımızın ümummilli lideri Heydər Əliyev gənclərə, idmana, idmançılara daim diqqət göstərirdi. Bu gün də bu siyasət davam edir və idmanda son illər ərzində əldə edilmiş uğurlar bizim işimizin ən gözəl təzahürüdür. İdmançılarımız beynəlxalq yarışlarda uğurlar qazanır, dünya, olimpiya, Avropa çempionları, mükafatçıları adına layiq görülürlər. Eyni zaman-

da, ölkə daxilində idman geniş vüsət alır, Azərbaycanda yeni idman növləri çox sürətlə inkişaf edir, bizim üçün ənənəvi olan idman növləri də güclənir. Bu gün heç kim üçün sirr deyil ki, Azərbaycan dünya idman aləmində özünə layiq yerini tuta bilibdir, bizə böyük hörmət var, bizim qazandığımız uğurlar digər ölkələr üçün də bir nümunə, örnək olubdur.

Bütün bunlara nail olmaq üçün, əlbəttə ki, idman sahəsində hərtərəfli işlər aparılmalı idi. İdmana cavabdehlik daşıyan bütün qurumlar vahid komanda kimi fəaliyyət göstərməli idilər və biz buna nail ola bildik. Milli Olimpiya Komitəsi, Gənclər, İdman və Turizm Nazirliyi, bizim federasiyalarımız, idman cəmiyyətləri, əlbəttə ki, idmançılar, məşqçilər, idman mütəxəssisləri – biz hamımız vahid komanda kimi işləmişik və bu gün Azərbaycanın idmandakı uğurları məhz bu ardıcıl, məqsədyönlü işin nəticəsidir.

Mən çox sevinirəm ki, Azərbaycanda çox gözəl yeni nəsil yetişir, yeni idmançılar yetişir. Bu onu göstərir ki, yeniyetmə, uşaq idmanına da diqqət göstərilir. Bu ən mühüm məsələlərdən biridir. Biz istəyirik ki, hər bir növdə Azərbaycanı təmsil edən milli idmançılarımız öz səviyyələrini daha da qaldıra bilsinlər. Bunu etmək üçün, əlbəttə ki, şərait olmalıdır. Təkcə Bakıda yox, Azərbaycanın hər bir yerində olmalıdır və Milli Olimpiya Komitəsi öz əməli, praktiki işləri ilə artıq bunu sübut edibdir. 2000-ci ildə bizim təşəbbüsümüzlə başlanmış bu quruculuq işləri indi çox gözəl nəticələrini verir. Azərbaycanın müxtəlif yerlərində gözəl, müasir idman kompleksləri istifadəyə verilir, insanlarımızın, gənclərimizin sərəncamına verilir ki, burada həm idmançılar yarışsın, eyni zamanda da hər bir insan öz sağlamlığını möhkəmləndirə bilsin. Biz istəyirik ki, gənc nəsil fiziki və mənəvi cəhətdən sağlam olsun. Bunu etmək üçün idmanla məşğul olmaq çox vacibdir.

Azərbaycanda gözəl yeni nəsil – bizim gələcəyimiz, gənclər yetişir. Mən çox şadam ki, onlar vətənpərvərlik ruhunda tərbiyə alırlar. İdman vətənpərvərlik ruhunun daha da yüksəlməsində çox mühüm rol oynayır. Hər dəfə beynəlxalq yarışlarda Azərbaycanın milli bayrağı qaldırılanda, dövlət himni səslənəndə hər

birimizin qəlbi qürur hissi ilə dolur. Bu vətənpərvərlik bizə lazımdır.

Azərbaycan gənc, müstəqil dövlətdir. Ölkəmizin qarşısında çoxlu problemlər, çoxlu məsələlər durur. Bütün bu problemləri həll etmək üçün xalqımızın birliyi, səfərbərliyi lazımdır və əlbəttə ki, vətənpərvərlik ruhu burada çox mühüm rol oynayır. Mən çox şadam ki, Azərbaycan gəncləri bu gün ölkəmizin inkişafı, Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi işində fəal iştirak edirlər. Çox istərdim ki, bu iştirak daha da fəal olsun.

Biz əlimizdən gələni edəcəyik ki, gənclərə göstərilən diqqət ildən-ilə artsın. Gənclərin problemləri öz həllini tezliklə tapsın. Gənclər işlə təmin olunsunlar. Onların məişət problemləri öz həllini tapsın. Bu istiqamətdə işlər görülür. Qəbul edilmiş qanunlar, qərarlar bu istiqamətdə böyük inkişafı təmin edəcəkdir. Çünki 10 ildən, 20 ildən, 30 ildən sonra indiki gənclər Azərbaycanın bütün istiqamətlərdə görülən işlərində fəal iştirak edəcəklər. Azərbaycanı idarə edəcəklər. Ölkəmizi inkişaf etdirəcəklər. Bunu etmək üçün, əlbəttə ki, təhsil məsələlərinə böyük diqqət verilməlidir. Mən çox şadam ki, bu gün gənclər bunu çox gözəl dərk edirlər və gözəl savad almaq əzmindədirlər. Bu istiqamətdə də lazımi tədbirlər görüləcəkdir.

Bütün orta məktəblərdə kompüter sinifləri yaranacaq və bu siniflər birbaşa internetə bağlanacaqdır. Bu üçillik proqrama artıq başlanmışdır. Mən hesab edirəm ki, əgər çox sürətlə həyata keçirsək, bu proqram üç ildə deyil, iki ildə başa çata bilər. Bir sözlə, yeni bilik, yeni dünyagörüşü hər bir ölkə üçün lazımdır.

İnkişaf etmiş ölkələrin fəaliyyətinə nəzər salsaq, görərik ki, orada ən mühüm amil elmdir, təhsildir, savaddır. Bu gün dünya bu istiqamətdə inkişaf edir, Azərbaycanın da bu sahədə böyük potensialı, imkanları var. Eyni zamanda, bizim gözəl təbiətimiz və təbii sərvətlərimiz var. Biz bütün bu amillərdən istifadə etməliyik. Ən başlıcası odur ki, dünyada gedən yeni proseslər, dünyada tətbiq olunan texnologiyalar Azərbaycana da gəlsin. Biz bunu etmək üçün gərək Dünya Birliyinə daha tez və sürətlə inteqrasiya olunaq, bütün müsbət prosesləri Azərbaycanda tət-

biq edək. Ölkəmizi hərtərəfli inkişaf etdirək, ölkəmizi müasirləşdirək ki, Azərbaycan həm regionda, həm də dünyada öz mövqelərini möhkəmləndirə bilsin. Mövqelərimiz bu gün də kifayət qədər möhkəmdir. Ölkəmizdə gedən inkişaf, iqtisadi islahatlar, aparılan siyasət ölkəmizi regionda lider dövlətə çeviribdir. Mənim xarici ölkələrə etdiyim bütün səfərlər bir daha göstərir ki, dünyada Azərbaycana olan hörmət artıbdır. Azərbaycanda həm siyasi, həm iqtisadi, həm də bütün başqa sahələrdə görülən işlər təqdirlə qarşılanır.

Bizim vəzifəmiz odur ki, ölkəmizi daha da güclü edək. Bunu etmək üçün hər bir vətəndaş, hər bir insan ümumi işimizə öz töhfəsini verməlidir. Regional inkişaf proqramının rolu bu baxımdan çox mühümdür. Təsadüfi deyil ki, prezident seçkilərindən, demək olar ki, dərhal sonra mənim təşəbbüsümlə Azərbaycanda regional inkişaf proqramı qəbul edildi və indi uğurla icra olunur. Biz fevral ayında bu proqramın birillik yekunlarını müzakirə etdik və gördük ki, nəzərdə tutulmuş bütün planlar həyatda öz əksini tapır. İş yerlərinin açılması, regionda infrastrukturun, yeni müəssisələrin yaradılması öz əksini tapır. Əlbəttə, biz istərdik ki, bu proseslər daha da sürətlə getsin, nəzərdə tutduğumuz bütün proqramlar, vəzifələr daha da səmərəli və sürətlə həyata keçirilsin. Biz buna çalışırıq və bunun üçün lazımi addımlar atılır. Görülən işlər artıq deməyə əsas verir ki, bizim atdığımız addımlar uğurlu olubdur. Azərbaycan bu son il yarım ərzində həm beynəlxalq müstəvidə, həm də regional çərçivədə, ölkə daxilində öz gücünü daha da möhkəmləndiribdir. Prezident kimi, mənim də vəzifəm ondan ibarətdir ki, ölkəmiz daha zəngin olsun, insanlarımız daha yaxşı yaşasın, bölgələrimiz daha da inkişaf etsin. Bir sözlə, Azərbaycan çox qüdrətli və regionda aparıcı dövlətə çevrilsin.

Biz bu istiqamətdə əlimizdən gələni edirik və edəcəyik. Amma yenə də deyirəm ki, bütün dövlət strukturları, bütün qurumlar çox fəal işləməlidir. Biz əldə edilmiş uğurlarla kifayətlənməməliyik və arxayınlıq hissi də yaranmamalıdır. Biz hər gün, hər saat işləməliyik ki, ölkəmizdə gedən proseslər daha da sürətlən-

sin və Azərbaycan xalqı məhz bu görülən işlərin nəticəsində daha da yaxşı yaşasın.

Sosial məsələlərə diqqət göstərilir. Bu yaxınlarda əmək haqları, pensiyalar artırılmışdır. Yenidən biz bu məsələyə baxacağıq, yenidən sosial ödəmələrin qaldırılması üçün lazımi tədbirlər görüləcəkdir. Bunu etmək üçün, əlbəttə ki, iqtisadi inkişaf lazımdır, iqtisadi potensial lazımdır. Bu potensial Azərbaycanda var, lakin bizim bütün ehtiyaclarımızı, tələbatımızı ödəmir. Amma biz elə etməliyik ki, həm iqtisadi inkişaf olsun, həm də insanlar bundan bəhrələnə bilsinlər. Bu istiqamətdə əməkhaqqının qaldırılması ən vacib məsələlərdən biridir. Biz bunu bundan sonra da edəcəyik. Elə etməliyik ki, Azərbaycan xalqı ildən-ilə daha da yaxşı yaşasın.

Sizə deyə bilərəm ki, 2005-ci ilin büdcəsi 2004-cü illə müqayisədə təxminən 30 faiz artıbdır. Yəni, büdcəyə daxilolmalar 30 faiz artıbdır. Bu yaxınlarda yenidən büdcəyə dəyişiklik edilməlidir və əlavə artım nəzərdə tutulubdur. Eyni zamanda, bütün sosial ödəmələr də qaldırılmalıdır. Buna imkan var, Azərbaycanın potensialı güclənir və biz qarşıda duran bütün məsələlərin həllinə nail olacağıq. Amma bunu etmək üçün hərə öz yerində vicdanla işləməlidir, öz vəzifə borcunu yerinə yetirməlidir və əlbəttə ki, hamımız Azərbaycanın gələcək inkişafına öz töhfəmizi verməliyik. Qəbul edilmiş proqramlar bunu etmək üçün gözəl əsas yaradıbdır. İndi əsas məsələ odur ki, bunu icra edən qurumlar səmərəli işləsinlər və bütün nəzərdə tutulanlar həyatda öz əksini tapsın. Mən şübhə etmirəm ki, biz buna nail olacağıq.

Bu gün artıq burada qeyd olundu ki, Şamaxıda televizor istehsalı zavodu açılır. Mən buna çox sevinirəm. Çox şadam ki, yüksək texnologiyaya malik müəssisə Bakıda yox, məhz Şamaxıda açılır. Bu, inkişafın göstəricisidir. Əgər Yaponiya texnologiyası ilə Şamaxıda televizor istehsalı mümkündürsə, bu onu göstərir ki, bizim ölkə düzgün istiqamətdə inkişaf edir və ölkəmiz ildən-ilə güclənəcək, potensialımız ildən-ilə daha da böyük olacaq və nəticədə Azərbaycan hərtərəfli inkişaf edəcəkdir. Azərbaycanın hər bir rayonu, hər bir şəhəri, hər bir kəndi, qəsə-

bəsi mənim üçün əzizdir və mənim vətənimdir. Mən çalışmalıyam ki, Azərbaycanın bütün rayonları, bütün şəhərləri ölkədə gedən gözəl inkişaf prosesindən faydalansın.

Əziz şamaxılılar, mən sizi bir daha ürəkdən salamlayıram. Mən doğrudan da çox şadam ki, bu gün sizinlə birlikdə bu gözəl idman kompleksinin açılışını qeyd edirik. Əlbəttə ki, bu kompleksdən ilk növbədə idmançılar istifadə edəcəklər, amma onu da bilməliyik ki, burada digər tədbirlər də keçiriləcəkdir. Çünki bu, Şamaxı rayonu üçün yeni bir obyektdir, yeni infrastrukturdur, gözəl binadır və burada müxtəlif tədbirlər təşkil olunacaqdır. Onu da deməliyəm ki, bu gün, bu açılışdan sonra Şamaxıda məhz bu binada kredit yarmarkası keçiriləcəkdir. Bu da bir yenilikdir, bizim gördüyümüz işlərin əlamətidir.

Onu da bildirmək istəyirəm ki, sahibkarlara 2005-ci ildə kredit şəklində güzəştli şərtlərlə 200 milyard manat vəsait veriləcəkdir. 2004-cü ildə bu məbləğ 100 milyard manat idi, 2003-cü ildə cüzi bir rəqəm, haradasa 30–40 milyon manat idi. Builki 200 milyard manat dövlət büdcəsindən və müvəkkil banklar vasitəsilə sahibkarlara kredit veriləcək ki, onlar iş görsünlər, yeni iş yerləri açsınlar, yeni müəssisələr yaratsınlar. Yenə deyirəm, bu gün burada, bu idman kompleksində kredit yarmarkası keçiriləcəkdir. Bir sözlə, bu kompleks şamaxılılara xidmət edəcək və mən şübhə etmirəm ki, şamaxılılar bundan çox səmərəli istifadə edəcəklər.

Hamımız görürük ki, bu kompleks memarlıq baxımından da gözəldir və deyə bilərəm ki, son illər ərzində Şamaxıda tikilmiş bəlkə də ən yaraşıqlı binadır. Bu da çox vacibdir, çünki yeni infrastrukturun yaranması, yeni, yaraşıqlı binaların tikilməsi bizim şəhərlərimizi gözəlləşdirir. Bu binaları tikənlərə həmişə bir tövsiyəm var ki, onlar memarlıq baxımından da gözəl olmalıdır. Mən istəyirəm, hamımız istəyirik ki, Azərbaycanda tikilən bütün binalar gözəl olsun. Həm rahat, həm də memarlıq baxımından yaraşıqlı olsun. Hesab edirəm ki, bu binada bütün bu amillər öz əksini tapmışdır.

İdman kompleksinin açılışı münasibətilə sizin hamınızı bir daha ürəkdən təbrik edirəm, sizə uğurlar, cansağlığı arzulayıram.

Sağ olun.

* * *

*Sonra prezident İlham Əliyev mərasimə toplaşan sakinlərlə görüşüb, səmimi söhbət etdi, onların qayğıları, problemləri ilə maraqlandı. Dövlətimizin başçısına minnətdarlıqlarını bildirən sakinlər ümummilli liderimiz Heydər Əliyevin layiqli davamçısının apardığı siyasəti dəstəklədiklərini və bundan sonra da ona arxa olacaqlarını bildirdilər. Prezident İlham Əliyev Şamaxı Olimpiya İdman Kompleksinin ərazisini gəzdi, üzgüçülük hovuzu, voleybol, basketbol, tennis, mini futbol meydançaları ilə, habelə yeməkxana, idmançıların istirahəti üçün nəzərdə tutulan kotteclərlə yaxından tanış oldu, idmançı gənclərin çıxışlarına tamaşa etdi.*

*Sonra dövlətimizin başçısı kompleksin rəmzi açılışını bildirən qırmızı lenti kəsdi. Kompleksdə ümummilli liderimiz Heydər Əliyevin və prezident İlham Əliyevin təşəbbüsü, diqqət və qayğısı ilə müxtəlif illərdə respublikamızda inşa olunmuş olimpiya idman komplekslərindən və digər sosial obyektlərdən bəhs edən daimi fotoguşə yaradılmışdır.*

## ŞAMAXI OLİMPİYA İDMAN KOMPLEKSİNDƏ KEÇİRİLMİŞ KREDİT YARMARKASINDA NİTQ

*26 aprel 2005-ci il*

Bu gün çox gözəl tədbirlər keçirilir. Gözəl idman sarayı istismara verilibdir. Bu, regional proqramın icrası baxımından çox mühüm bir addımdır. Burada yeni, gözəl infrastruktur yaradılır. Eyni zamanda, mən bu gün açılışda qeyd etdiyim kimi, bu idman kompleksi təkcə idmançılara yox, ümumiyyətlə, bütün ictimaiyyətə xidmət edəcəkdir. Çox şadam ki, açılışdan sonra kompleksdə ilk tədbir sahibkarların iştirakı ilə keçirilən kredit yarmarkasıdır. Bu da çox əlamətdar hadisədir, indiki zəmanənin əlamətidir. Çünki indiki şəraitdə Azərbaycanın hərtərəfli inkişafını təmin etmək üçün ilk növbədə ölkədə güclü sahibkarlar sinfi, orta təbəqə yaranmalı, azad sahibkarlar formalaşmalıdır. Hər bir dövrün öz tələbi var, öz hökmü var. İndiki dövrün də tələbi budur.

Azərbaycan artıq bir neçə ildir ki, öz iqtisadiyyatını bazar iqtisadiyyatı prinsipləri əsasında qurubdur. Bu gün ümumi daxili məhsulumuzda özəl sektorun faizi çox yüksəkdir, təxminən 75 faizdir. Əminəm ki, sahibkarlar sinfinin güclənməsi ilə bu göstərici daha da yüksək olacaqdır. Azərbaycanda sərbəst, azad iqtisadiyyat hökm sürür. Bu bizim siyasətimizdir və o dəfələrlə yüksək kürsülərdən bəyan edilmişdir. Mən əminəm ki, əgər Azərbaycanda güclü sahibkarlar sinfi formalaşarsa, ölkəmizin hərtərəfli inkişafı üçün daha gözəl şərait yaranacaqdır.

Dövlət öz üzərinə düşən vəzifəni icra edir. Hesab edirəm ki, ölkə basçısının sahibkarlara açıq dəstəyi onların fəaliyyətinə kömək olubdur. Eyni zamanda mənəvi, siyasi dəstəkdən əlavə, dövlət əməli-praktiki işlərlə də kömək göstərir. Bu gün qeyd

olundu ki, sahibkarlara ayrılan kreditlərin həcmi ildən-ilə artır və bu il 200 milyard manata çatıbdır. Mən əminəm ki, gələn ilin büdcəsində bu rəqəm daha da artacaqdır və artmalıdır. Çünki bizneslə məşğul olmaq istəyənlər gərək ilkin kapital əldə etsinlər. Onu haradan əldə edəcək?! Əgər dövlət müvəkkil banklar vasitəsilə güzəştli kreditlər ayırmasa, bunu etmək mümkün olmayacaqdır. Bizim isə məqsədimiz ölkəmizi hərtərəfli inkişaf etdirməkdir. Ölkəmizin qeyri-neft sektorunu inkişaf etdirməkdir ki, Azərbaycanın  iqtisadiyyatı gələcəkdə neft amilindən asılı olmasın.

Bu istiqamətdə regional inkişaf proqramları müstəsna rol oynayır. Təsadüfi deyildir ki, prezident seçkilərindən sonra 2004-cü ilin əvvəlində bizim qəbul etdiyimiz ən mühüm proqramlardan biri də məhz regional inkişaf proqramıdır. Biz bu gün onun nəticələrini görürük. İndiyədək ayrılmış kreditlər işləyir, sahibkarlar bu kreditlərdən faydalanırlar. Hesab edirəm ki, bu yaxınlarda çox önəmli qərar qəbul edilmişdir. Bu qərar sahibkarların xahişi ilə, onların məsləhəti ilə qəbul edilib ki, verilən kreditlərin həcmini yüksək həddə qaldıraq. Bu vaxta qədər hardasa 500 milyon manat həcmində kredit verilirdisə, biz bunu artırdıq və indi bir sahibkara 5 milyard manat həcmində kredit verilə bilər.

Biz bundan sonra da öz üzərimizə düşən vəzifələri yerinə yetirməyə çalışacağıq. Mən əminəm ki, biz bu templə getsək, sahibkarlara ayrılan kreditlərin həcmini ildən-ilə artırsaq, digər tədbirləri görsək, aqrar sektorda qəbul edilmiş çox vacib qərarların icrasına nail olsaq, bir neçə ildən sonra Azərbaycanın qeyri-neft sektoru çox sürətlə inkişaf edəcəkdir.

«Aqrolizinq» şirkətinin yaradılması bu istiqamətdə atılmış gözəl addımdır. «Aqrolizinq» dövlət şirkətidir və büdcədən vəsait alır və kəndlilərə, fermerlərə yeni texnika verəcəkdir.

Mən hesab edirəm ki, bugünkü yarmarka indi kreditləri alan sahibkarların fəaliyyəti üçün çox mühüm bir tədbir olacaqdır. Arzu edirəm ki, bu kreditlərdən səmərəli istifadə olunsun, Azərbaycanda sahibkarlıq daha da inkişaf etsin, sahibkarlar sinfi daha da güclənsin. Mən də həmişə olduğu kimi, bundan sonra da

Azərbaycanın gələcəyi üçün böyük əhəmiyyət daşıyan sahibkarlığın inkişafı üçün əlimdən gələni edəcəyəm.

Mən bu gün kredit alacaq sahibkarlara uğurlar arzulayıram. Mənə məruzə edildi ki, kreditlər bu gün veriləcək, pullar alınacaqdır. Ümid edirəm ki, alınan bu kreditlərin nəticələrini biz yaxın illərdə görəcəyik. Sizə uğurlar arzulayıram və hesab edirəm ki, Azərbaycan sahibkarları ölkəmizin gələcək inkişafı istiqamətində bundan sonra da fəal çalışmalıdırlar.

Sağ olun.

* * *

*Sonra prezident İlham Əliyev sahibkarlarla səmimi görüşdü, onlara 5 milyard manat məbləğində kreditləri təqdim etdi. Sahibkarlarla 24 müvəkkil bank və digər kredit təşkilatlar arasında müvafiq müqavilələr imzalandı.*

*Dövlətimizin başçısı olimpiya kompleksinin həyətində təşkil olunmuş, Regionların Sosial-iqtisadi İnkişafı Dövlət Proqramı çərçivəsində Şamaxı, Qobustan, İsmayıllı, Ağsu, Qəbələ rayonlarında ayrı-ayrı iş adamları tərəfindən yaradılmış müəssisələrin məhsullarının nümayiş etdirildiyi sərgi ilə tanış oldu, iş adamları ilə söhbət etdi, onların problemləri ilə maraqlandı.*

*Sərgidə arıçılıq, ipəkçilik, xalçaçılıq, quşçuluq, yemçilik, damazlıq təsərrüfatlarının məhsulları, ərzaq, konservlər, şərablar, mebel və s. nümayiş etdirildi.*

*Azərbaycan prezidenti məhsulların keyfiyyəti ilə maraqlandı, hökumət üzvlərinə və iş adamlarına tövsiyə və tapşırıqlarını verdi. İş adamları onlara göstərdiyi diqqət və qayğıya, ölkədə sahibkarlığın inkişafı üçün yaradılan əlverişli şəraitə görə dövlətimizin başçısına minnətdarlığını bildirdilər.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ŞAMAXI RAYONUNDA

*26 aprel 2005-ci il*

### Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva xalqımızın ümummilli lideri Heydər Əliyevin Şamaxı Rayon İcra Hakimiyyəti binasının qarşısında ucaldılmış abidəsini ziyarət etmiş, gül dəstələri qoymuşlar.*

*Buraya gələn rayon sakinləri dövlətimizin başçısını böyük səmimiyyətlə salamladılar, ürək sözlərini çatdırdılar və problemlərindən söz açdılar.*

*Prezident İlham Əliyev hər bir məsələnin araşdırılacağını, ciddi tədbirlər görüləcəyini və vətəndaşların rahat yaşaması üçün bundan sonra da əlindən gələni edəcəyini söylədi.*

*Şamaxı rayon Icra Hakimiyyəti başçısının Çuxuryurd kəndi üzrə nümayəndəsi, Prezident təqaüdçüsü, «Şöhrət» ordeninə layiq görülmüş Mariya Kojevnikova ulu öndər Heydər Əliyevin tarixi xidmətlərindən danışaraq dedi ki, insan həyatdan gedərkən özünə abidə qoyur. Heydər Əliyeviç özünün uzun illər ərzində titanik əməyi ilə, xalqın xoşbəxtliyi naminə, respublikamızın tərəqqisi naminə böyük hünəri ilə bizə fundamental dəyərlər, ilk növbədə, dünyada hörmət və nüfuz qoyub getmişdir. Təsadüfi deyil ki, mən Heydər Əliyeviçə vida şeiri yazmağa çalışdım. Bu zaman belə bir qəti fikirdə oldum ki, Heydər Əliyev bizimlə olmuşdur, bizimlədir və bizimlə olacaqdır. Cənab Prezident, Heydər Əliyeviç gözəl Şirvan torpağında, Şirvanın paytaxtında tez-tez olurdu. O mənə «Şöhrət» ordenini təqdim edəndə Siz onun yanında dayanmışdınız. Mən buna da*

*şeir həsr etmişəm. (M.Kojevnikova xalqımızın ümummilli liderinə həsr etdiyi şeirləri rus dilində oxudu).*

*Dövlətimizin başçısı səmimi və xoş sözlərə görə minnətdarlığını bildirdi.*

*Sonra prezident İlham Əliyev ulu öndərin xatirə guşəsi ilə tanış oldu, burada toplanan dəyərli eksponatlara, fotoşəkillərə baxdı.*

**«Star ltd» televizor zavodunun açiliş mərasimi**

*Aprelin 26-da Şamaxıda «Star Ltd» televizor zavodunun təntənəli açılışı olmuşdur. Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmək üçün zavoda gəldilər. Burada dövlətimizin başçısını və xanımını hərarətlə, gül-çiçəklə qarşıladılar.*

*Prezident İlham Əliyev zavodun rəmzi açılışını bildirən qırmızı lenti kəsdi, foyedə ümummilli liderimiz Heydər Əliyevə həsr olunmuş guşəyə, ulu öndərin büstünə baxdı.*

*Sonra prezident müəssisənin kollektivi ilə səmimi görüşdü və xatirə şəkli çəkdirdi.*

*Türkiyə, Cənubi Koreya və Çin birgə müəssisəsi olan zavodun direktoru Əli Evsan dövlətimizin başçısına məlumat verdi ki, hazırda burada 250 nəfər işləyir. Burada müasir standartlara cavab verən müxtəlif ölçülü televizorlar istehsal edilir, minimum əməkhaqqı 500 min manatdır.*

*Məhsullar əsasən Ukraynaya, Orta Asiya ölkələrinə ixrac olunur. İstehsal üçün lazım olan hissələr Cənubi Koreyadan və Yaponiyadan gətirilir. Qiymətlər münasibdir və bazarda məhsula tələbat çoxdur.*

*Prezident İlham Əliyev ayrı-ayrı sexlərlə tanış oldu, istehsal prosesi ilə yaxından maraqlandı və zavodun fəaliyyətini yüksək qiymətləndirdi.*

*Daha sonra müəssisənin istehsalı olan televizorlarda prezident İlham Əliyevin fəaliyyətindən bəhs edən videokadrlar nümayiş etdirildi.*

## BÖYÜK AZƏRBAYCAN ŞAİRİ İMADƏDDİN NƏSİMİNİN HEYKƏLİNİN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*26 aprel 2005-ci il*

*Şamaxı şəhərinin mərkəzində, İmadəddin Nəsiminin adını daşıyan parkda şairin heykəlinin təntənəli açılışı olmuşdur. Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.*

*Buraya toplaşan minlərlə sakin, rayon ictimaiyyətinin nümayəndələri Azərbaycan prezidentini hərarətli alqışlarla qarşıladılar. Onların əllərində ümummilli lider Heydər Əliyevin, dövlətimizin başçısının portretləri, Azərbaycanın dövlət bayraqları, ulu öndərin müdrik kəlamları yazılmış transparantlar var idi.*

*Azərbaycan prezidenti İlham Əliyev heykəlin üstündən ağ örtüyü götürdü və abidənin önünə əklil qoydu. Dövlətimizin başçısı abidənin müəllifləri – heykəltəraş Cavanşir Dadaşovla və Şamaxı rayonunun Baş memarı Rüstəm Əliyevlə səmimi görüşdü, onlara təşəkkürünü bildirdi.*

Əziz şamaxılılar!

Əziz dostlar!

Mən sizin hamınızı bir daha ürəkdən salamlayıram. Mən çox şadam ki, bu gün Şamaxıdayam, səhərdən burada müxtəlif tədbirlərdə iştirak edirəm. Mənim üçün bu gün xüsusi əzizdir ona görə ki, bu gün Azərbaycan xalqının dahi şairi İmadəddin Nəsiminin heykəlinin açılışında iştirak edirəm. Hesab edirəm ki, bu bizim həyatımızda çox əhəmiyyətli bir hadisədir.

Otuz ildir ki, heykəlin ucaldılması haqqında qərar qəbul edilmişdir. Amma müəyyən səbəblərə görə biz buna nail ola bilməmişdik. Amma indi, bu gözəl gündə dahi Nəsiminin vətənində, gözəl Şamaxıda Nəsiminin heykəli ucaldılır və biz bunu qeyd edirik. Bu çox əlamətdar hadisədir, onu göstərir ki, biz öz tarixi-

mizə, öz mədəniyyətimizə, öz ədəbiyyatımıza böyük hörmətlə yanaşırıq. Başqa cür ola da bilməz.

Düzdür, bu gün bütün inkişaf etmiş ölkələrdə bazar iqtisadiyyatı prinsipləri hökm sürür. Azərbaycan da istisna deyildir. Azərbaycan da bu yolu seçibdir. Çünki ölkəmizi hərtərəfli inkişaf etdirmək üçün başqa yol yoxdur. Bazar iqtisadiyyatı prinsipləri əsasında yaşayan dövlətlərdə, əlbəttə ki, iqtisadi inkişafa, maddi dəyərlərə daha çox üstünlük verilir. Bu da təbiidir. Çünki zaman bunu tələb edir. Azərbaycan öz potensialını daha da sürətlə inkişaf etdirməlidir. Bu istiqamətdə önəmli addımlar atılır və bundan sonra da atılacaqdır. Amma mən bu gün çox şadam, ona görə ki, biz öz milli dəyərlərimizi də unutmuruq və bu çox gözəldir. Bu onu göstərir ki, Azərbaycan cəmiyyəti düz istiqamətdə inkişaf edir.

Azərbaycan, Azərbaycan xalqı uzun illər, onilliklər, əsrlər boyu müstəmləkə vəziyyətində yaşamışdır. Müstəqil respublika kimi də yaşamışdır. Azərbaycan xalqının, bizim hamımızın xüsusiyyətlərini qoruyub saxlamaq üçün, əlbəttə ki, ədəbiyyatımızın, mədəniyyətimizin böyük rolu olmuşdur. Əgər bunlar olmasaydı, əgər Azərbaycan xalqı öz tarixi köklərinə bağlı olmasaydı, bizim bugünkü taleyimiz başqa cür ola bilərdi. Məhz Azərbaycanın zəngin tarixi, mədəniyyəti, Azərbaycan dili bizə – Azərbaycan xalqının nümayəndələrinə bu gün də öz keçmişimizə hörmətlə yanaşmağımıza imkan verir.

Bu gün, Azərbaycan müstəqil dövlət kimi inkişaf etdikcə, biz heç vaxt öz milli köklərimizi unutmamalıyıq. Azərbaycan tarixində müstəsna xidmətləri olmuş şəxslərin xatirəsinə həmişə hörmətlə yanaşmalıyıq, onları həmişə ehtiramla yad etməliyik.

Öz keçmişini bilməyən, dərk etməyən, düzgün başa düşməyən insanın gələcəyi də ola bilməz. Bizim xoşbəxtliyimiz bundadır ki, Azərbaycanda görülən bütün işlər məhz milli zəmində görülür. Azərbaycanın bundan sonrakı inkişafı da bunu tələb edir. Biz Dünya Birliyinə inteqrasiya edirik. Azərbaycan beynəlxalq aləmin çox dəyərli üzvünə çevrilibdir və əlbəttə ki, dünyada gedən proseslərdən kənarda qala bilməz. Amma eyni zamanda, biz heç vaxt öz

milli xüsusiyyətlərimizi unutmamalıyıq, öz keçmişimizi unutmamalıyıq. Əksinə, bunu daim yadda saxlamalıyıq. Keçmişimizin və bu günümüzün gözəl nümunələrini təbliğ etməliyik, dünyada yaymalıyıq. Bütün bu məsələlər öz həllini tapmalıdır. Ona görə mən çox şadam ki, bu gün Şamaxıda həm idmanın inkişafı üçün, infrastrukturun möhkəmlənməsi üçün gözəl Olimpiya İdman Kompleksi istifadəyə verilibdir. Azərbaycanın iqtisadi inkişafı üçün lazım olan televizor istehsalı zavodu istismara verilibdir. Həm də dahi şairimiz Nəsiminin heykəli ucaldılıbdır və biz bu gün bunu qeyd edirik.

Mən çox şadam ki, Şamaxı inkişaf edir. Şamaxı Azərbaycanın inkişaf proqramında xüsusi yerə malikdir. Burada gedən inkişaf prosesləri onu göstərir ki, biz düz yoldayıq. Bundan bir qədər əvvəl burada bu zonanın sahibkarları ilə görüşdə də bunu hiss elədim. Canlanma var, fəallıq var, insanlarımızın gələcəyə ümidi var. Ən önəmlisi budur. Azərbaycan düz istiqamətdə inkişaf edir. Hamımız çalışmalıyıq ki, əldə edilmiş nailiyyətləri daha da möhkəmləndirək və ölkəmizi hərtərəfli inkişaf etdirərək zəngin, həm iqtisadi, həm də mənəvi cəhətdən qüdrətli dövlətə çevirək. Əminəm ki, biz bunu edəcəyik.

Mən dəfələrlə Şamaxıda olmuşam. Bu şəhər, bu diyar mənim üçün çox əzizdir. Burada çox gözəl təbiət var, gözəl insanlar var. Azərbaycanın müstəqilliyinin möhkəmlənməsində şamaxılıların həmişə çox fəal iştirakı olubdur və bu gün də, Azərbaycanın gələcək inkişafında da şamaxılıların rolu çox böyükdür.

Mən əminəm ki, bundan sonra da biz hamımız ölkəmizin inkişafı üçün əlimizdən gələni edəcəyik. Azərbaycanın bütün regionlarını inkişaf etdirəcək, qarşıda duran bütün vəzifələri uğurla həyata keçirəcək, yoxsulluğun azaldılması, işsizliyin aradan qaldırılması istiqamətində görülmüş tədbirləri davam etdirəcəyik və nəhayət, ölkəmizi müasir, zəngin dövlətə çevirəcəyik. Bu işdə sizin hamınıza uğurlar arzulayıram. Bu gözəl abidənin açılışı münasibətilə sizi bir daha təbrik edirəm. Bu işdə əməyi olan heykəltəraşa, memara dərin minnətdarlığımı bildirirəm. Sağ olun.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ŞAMAXI RAYONUNDA

*26 aprel 2005-ci il*

### Şamaxı sakinləri ilə görüş

*Azərbaycan prezidenti İlham Əliyev Şamaxıya səfəri çərçivəsində rayonun mərkəzi bazarına da baş çəkmiş, yerli sakinlərlə görüşüb söhbət etmiş, onların problemləri, qayğıları ilə maraqlanmışdır. Sakinlərdən biri övladının ağır xəstə olduğunu bildirərək dedi ki, həkimlər onun xaricdə müalicə edilməsini məsləhət görürlər. Mənim isə buna imkanım yoxdur. Prezident İlham Əliyev bu işdə kömək edəcəyini bildirdi.*

*Vətəndaşlar dövlətimizin başçısına müraciətlə dedilər ki, cənab Prezident, rayonumuza xoş gəlmisiniz. Biz Sizin fəaliyyətinizi yüksək qiymətləndiririk, Siz ulu öndərin siyasətini layiqincə yaşadır və davam etdirirsiniz. Amma təbii ki, çətinliklər də az deyildir. Camaata əsasən iş yerləri lazımdır. Bilirik ki, bu istiqamətdə xeyli işlər görmüsünüz. Ailə üzvlərimiz iş qabiliyyətlidir, amma işləməyə yer yoxdur.*

**İ l h a m  Ə l i y e v:** Mən bunları bilirəm. Ümumi inkişaf onu göstərir ki, irəliləyiş var. Amma işsiz olan adamlar əziyyət çəkirlər. Mən bunu başa düşürəm. Ona görə də rayonları gəzirəm, sahibkarlarla görüşürəm, büdcəmizi artırırıq, kreditlər veririk ki, yeni müəssisələr, fabriklər, zavodlar yaransın. Nə üçün bunu edirəm?! Yoxsa elə mən Bakıda oturardım. Elədir?!

**S a k i n:** Bəli, çalışırsınız. Gördüyünüz işləri hamı görür, hər şey göz qabağındadır. Ancaq Sizin ətrafınız da gərək bunu istəsinlər, bunu yerlərdə də istəsinlər.

**İ l h a m  Ə l i  y e v:** Yerlərdə də dəyişmə gedir. Sizə yeni icra hakimiyyətinin başçısı təyin etmişəm. Mənə məlumat gəlir ki, yaxşı işləyir.

**S a k i n:** Bəli, yaxşı işlər görür, yeniləşmə gedir.

**İ l h a m Ə l i y e v:** Bilirsiniz, mən müasir dünyagörüşü olan, iş qabiliyyəti olan insanları irəli çəkirəm və çəkəcəyəm də. Təkcə Bakıda deyil, yerlərdə də. Vəzifəyə təyin edəndə hamısına tapşırıq vermişəm ki, ilk növbədə, gedin insanların qayğıları ilə məşğul olun, görün camaatı nə narahat edir. Mən ona görə buraya gəldim, iş proqramımda bu yox idi. İstədim gəlim, soruşum ki, sizi nə narahat edir, hansı problem var. Bəlkə şikayətiniz var, bəlkə dərdiniz var. Mənim yerlərdəki nümayəndələrim də belə işləməlidirlər. Belə işləməsələr, mən onları işdən götürəcəyəm. Mən işə ona görə təyin etmirəm ki, burada kiməsə imtiyaz yaradılsın. Ona görə təyin edirəm ki, getsin, xalqın xidmətçisi olsun.

**S a k i n:** Cənab Prezident, mən xəstə adamam, 100 manat pensiya alıram. Amma işıq, qaz pulunu ödəyə bilmirəm. Xahiş edirəm, mənə kömək edin.

**İ l h a m Ə l i y e v:** Sizə qaz verilir?

**S a k i n:** Verilir. Allah ömrünüzü həmişə uzun eləsin. Mən ayaqüstə əsirəm, dura bilmirəm. Mənim bu halımda gəlib başımın üstünü kəsdirirlər ki, 100 min manat pul verməlisən. Sənin dərdin alım, mən o pulu haradan alım? 100 min manat pensiya alıram. Onu da işığa, qaza verim, bəs nə ilə dolanım?

**İ l h a m Ə l i y e v:** Mən dəfələrlə «Azəriqaz»a da, işıqla məşğul olanlara da demişəm ki, kasıb şəraitində yaşayanlardan pul alınmamalıdır. İmkanın olanda verərsən.

**S a k i n:** Mənim gözlərim üstə. İmkanım olsa, niyə verməməliyəm ki?! Amma imkanım yoxdur axı. Bir adam göndərin mənim evimə baxsın. Görün ki, evim nə vəziyyətdədir. Vallah mümkünatım yoxdur.

**İ l h a m Ə l i y e v:** Amma bəzi pulu olanlar vermirlər. Sən pul vermə.

**S a k i n:** Sənin qadan alım, verməmək də olmur. Deyirlər ki, gəlib qazı, işığı kəsəcəyik.

**İ l h a m Ə l i y e v:** Rayon icra hakimiyyətinin başçısına tapşırıram ki, məşğul olsun.

**S a k i n:** Çox sağ olun, Allah Sizdən razı olsun.

## Azərbaycan prezidenti İlham Əliyevin jurnalistlərə verdiyi müsahibə

**S u a l: Cənab Prezident, ilk dəfədir elektoratla, sadə insanlarla birbaşa ünsiyyətdəsiniz və onların şikayətlərini dinləyirsiniz. Təəssüratınız necədir?**

**C a v a b:** Mənə elə gəlmir ki, bu ilk dəfədir. Bu, mütəmadi qaydada baş verir. Mən həmişə Bakıda, rayonlarda insanlarla görüşürəm. Çalışıram ki, yerlərdə vəziyyətlə tanış olum. Ona görə mən sizin belə şərhinizlə razı deyiləm ki, bu ilk dəfədir. İlk dəfə deyil. Çünki bu lazımdır, mən hər şeyi bilməliyəm.

Əlbəttə ki, mənim məlumat mənbələrim kifayət qədərdir, məlumat alıram. Bilirəm vəziyyət necədir. Amma mən gərək adi insanlarla görüşdə həyatı hiss edəm. Özü də bu görüş nəzərdə tutulmamışdı. Ona görə mən bilirdim ki, burada heç nə təşkil olunmayacaq, heç kim heç kimi öyrətməyəcək, yaxud da təlimatlandırmayacaqdır. Ona görə bu mənim üçün vacibdir, lazımdır. Elə də olmalıdır.

**S u a l: Cənab Prezident, sakinlərin iki fikri var. Onları Sizin diqqətinizə çatdırmaq istəyirik. Bura kənd təsərrüfatı rayonudur deyə, texnika əsas problemdir. Burada Qızmeydan kəndi var, 1200-ə yaxın adam yaşayır. Sovet vaxtından körpü yoxdur.**

**İ l h a m Ə l i y e v:** Bunu mənə dedilər. Mən onu bilirəm, bu məsələ ilə məşğul olacağıq. Kənd təsərrüfatının inkişafı üçün də addımlar atılır. «Aqrolizinq» şirkətinin yaradılması məhz bu məqsədi güdür. Çünki fermerin texnikası yoxdur, pulu yoxdur. Neyləsin?! Tutaq ki, pulu var, amma texnika yoxdur. Gedib haradan alsın? Ona görə «Aqrolizinq» şirkətinin kənd təsərrüfatının inkişafında böyük rolu olacaqdır.

Siz yəqin bilirsiniz ki, təkcə bu il texnikanın alınmasına 100 milyard manat vəsait nəzərdə tutulubdur. Tapşırıq vermişəm ki,

bu texnika tezliklə alınıb gətirilsin. Gələn il bu məqsədlə 150 milyard manat ayrılacaqdır. Amma əgər imkan olsa, 150 yox, 250 milyard manat da ola bilər. Yəni, biz gərək bunu alaq, kəndlilərə icarəyə verək. Pulunu lap 10 ildən sonra, 5 ildən sonra qaytarsın. Bu, məqsəd deyil ki, icarə haqqından dövlət qazansın. Əsas məqsəd bu imkanı yaratmaqdır. Bu olmasa, kənd təsərrüfatı inkişaf etməyəcəkdir.

Bir tərəfdən bu, digər tərəfdən də dövlətin özəl sektora verilən kreditləri. Əgər biz ümumiləşdirsək, təkcə bu il sahibkarlara haradasa 350 milyard vəsait verilir. Əlbəttə, özəl sektorun özü də fəaliyyət göstərməlidir. Bilirsiniz ki, indi Azərbaycanda özəl sektora tam sərbəstlik verilibdir. İqtisadiyyatımız liberallaşıbdır. Problemlər var, biz də onları bilirik və aradan götürəcəyik ki, sahibkarlıqla məşğul olmaq istəyən hər bir şəxsin qarşısında heç bir süni maneə olmasın. Hamı eyni səviyyədə, eyni, bərabər hüquqa malik olsun. Amma özəl sektor da gərək bu məsələlərə daha böyük diqqət göstərsin. Çünki sirr deyil ki, əsas kapital paytaxtdadır. Təkcə Azərbaycanda deyil, bütün postsovet məkanında paytaxtla regionlar arasında fərq çox böyükdür. Əlbəttə, sahibkarlar daha çox çalışırlar ki, Bakıda nə isə əldə etsinlər. Çünki daha çox pul qazana bilərlər, daha böyük fayda götürə bilərlər. Amma mən bununla razı deyiləm. Mən bütün sahibkarlara, digər qurumlara yolu göstərirəm – rayonlar, bölgələr, qəsəbələr, kəndlər.

İndi Şamaxıda televizor zavodu istifadəyə verilmişdir. Mənə deyirlər ki, 250 adam işləyir. Yeni xətlər də açılacaqdır. Artıq dünya bazarına çıxan televizorun üstündə «Şamaxı» yazılır. Bu nə deməkdir? Bu, məhz apardığımız siyasətin təzahürüdür. Əgər bu olmasa, onda Azərbaycanın inkişafı uğurlu ola bilməz. Paytaxtla regionlar arasında fərq azalmalı və aradan qaldırılmalıdır.

**S u a l: Cənab Prezident, Siz müşavirə keçirmişdiniz, amma biz inflyasiya və qiymətlərlə bağlı ətraflı məlumat ala bilmədik. Yəqin ki, Siz təhlil etmisiniz, bunun qarşısını almaq mümkün olacaqmı?**

**C a v a b:** Müşavirə mətbuat üçün yarımqapalı keçdi. Çünki mən istəyirdim açıq söhbət aparılsın. Bilirsiniz ki, adətən, bütün müşavirələrdə mətbuat iştirak edir və söhbət efirə də gedir. Bu dəfə isə mən müzakirə hissəsini bir az qapalı şəkildə keçirdim. Məqsəd o idi ki, istəyirdim açıq söhbət aparılsın. Çünki bəziləri mətbuat qarşısında bir şey deyirlər, amma sonra başqa şey deyirlər. Mən hesab edirəm ki, məqsədə nail ola bildim. Müşavirə çox işgüzar şəraitdə keçdi və bütün ölçülər götürüləcəkdir. Ciddi tapşırıq verilibdir ki, bu məsələyə dair müfəssəl sərəncam layihəsi hazırlansın. Biz bunu yaxınlarda qəbul edəcəyik. Eyni zamanda, mövcud olan qanun pozuntuları nəticəsində yaranan problemlər aradan götürülməlidir. Əminəm ki, bütün tədbirlər qısa müddət ərzində inflyasiyanın aşağı salınmasına imkan yaradacaq və qiymətlər aşağı düşəcəkdir. Əgər xatırlayırsınızsa, mən demişəm ki, inflyasiyanın qarşısını almaq bizim üçün məqsəd deyildir. Qiymətlər aşağı düşməlidir ki, əldə edilmiş inkişaf inflyasiya tərəfindən heçə endirilməsin.

**S u a l: Cənab Prezident, qiymət artımının arxasında inhisarçıların, onların da arxasında bəzi məmurların olduğu deyilir. Ümumiyyətlə, bununla bağlı Sizdə faktlar varmı?**

**C a v a b:** Müxtəlif faktlar var. Mən bu barədə müşavirədə də öz fikirlərimi bildirdim. Əlbəttə, iqtisadi amillər var, süni amillər var, inhisarçılıq var, qeyri-sağlam rəqabət var. Bunların hamısı var. Biz gərək bunları aradan götürək. Mən ciddi tapşırıq vermişəm ki, qısa müddət ərzində bütün bu süni maneələr aradan götürülməlidir.Əminəm ki, tapşırıqlarım yerinə yetiriləcəkdir.

**S u a l: Cənab Prezident, korrupsiyaya qarşı mübarizədə bir çox ölkələrin praktikasında pullara nəzarət etmək üçün maliyyə amnistiyası verilməsindən istifadə olunur. Ümumiyyətlə, Azərbaycanda bu məsələyə baxıla bilərmi?**

**C a v a b:** Başqa ölkələrin təcrübəsi onu göstərir ki bu, böyük səmərə verməyibdir. Qonşu dövlətlərdə, postsovet məkanında, digər ölkələrdə də belə addımlar atılıbdır. Biz bu təcrübəni dərindən olmasa da, öyrənmişik. Bəlkə də yenə öyrənməyə

ehtiyac var. Amma ilkin məlumat belədir ki, bu, rəmzi xarakter daşıyır. Əsas gizlədilmiş pullar üzə çıxmır. Pulları gizlədənlər də onları çıxarmağa risk etmirlər ki, amnistiya şəklində iqtisadiyyata yatırsınlar.

Amma bununla yanaşı, şəxsən mən hesab edirəm ki, keçmişdə nə olubsa, olub. Gərək onun üstündən xətt çəkək. Amma Azərbaycanda iqtisadiyyatı inkişaf etdirmək üçün gərək bütün mənbələrdən istifadə edək. Xarici, daxili sərmayələr, kreditlər və bəzi o qədər də qanuni olmayan yolla qazanılmış vəsaitlər də gərək Azərbaycan iqtisadiyyatına işləsin. Əgər bu barədə tədbirlər görülərsə, biz buna nail ola bilərik.

Digər tərəfdən, onu da deməliyik ki, bizdə o qədər də maliyyə qıtlığı da olmayacaqdır. Bu, indi də o qədər hiss edilmir. Gələcəkdə, ümumiyyətlə, olmayacaqdır. Onu demək kifayətdir ki, təkcə Bakı–Tbilisi–Ceyhan neft kəmərinin işləməsi nəticəsində 2006-cı ildə, dünyada neftin qiymətindən asılı olaraq, Azərbaycana yüz milyonlarla dollar vəsait gələcəkdir. Biz indi bu barədə fikirləşirik ki, onu hara yatıraq, necə edək ki, əlavə vəsait həmin o dediyiniz inflyasiyanın qalxmasına təkan verməsin.

Biz maaşları qaldırmalıyıq, qaldırırıq və qaldıracağıq. Onu da bilirik ki, hər dəfə maaşlar qalxanda istər-istəməz alıcılıq qabiliyyətinə müsbət təsir göstərir. Bazar da dərhal buna reaksiya verir və nəticədə əldə edilmiş əlavə vəsait malsatanın cibinə gedir. Ona görə biz indi bu barədə fikirləşirik ki, gələn illərdə gələcək böyük məbləğdə, milyardlarla dollarla ölçülən vəsaiti necə idarə edək. Maliyyə qurumları ilə məsləhətləşmələr aparılır. Əlbəttə, ilk növbədə, gərək bunu infrastruktur layihələrinə yönəldək. İmkanlar yaradaq ki, Azərbaycanda biznes daha da sürətlə inkişaf etsin.

**S u a l: Cənab Prezident, Avropa Şurası Parlament Assambleyasının monitorinq qrupu bildirir ki, Seçki Məcəlləsinə dəyişikliklərlə bağlı Sizin təklifləriniz olacaqdır. Bu təkliflər nədən ibarətdir?**

**İ l h a m Ə l i y e v:** Kimin təklifi olacaqdır?!

**J u r n a l i s t:** Deyirlər ki, bizə Prezidentin İcra Aparatından bir həftə müddətində təkliflər göndəriləcəkdir. Ümumiyyətlə, Seçki Məcəlləsinə və Mərkəzi Seçki Komissiyasına dəyişikliklərlə bağlı beynəlxalq təşkilatlardan müraciətlər olunur.

**İ l h a m  Ə l i y e v:** İndi bu məsələyə baxılır. Bilirsiniz, mən bu komissiya ilə bağlı məsələyə toxunmaq istəməzdim. Çünki bu, parlamentin işidir və qərarı parlament verməlidir. Bizi yeganə narahat edən bir məsələdir, bunu həmməruzəçilər də bilir. Əgər 2003-cü ilin prezident seçkilərini yada salsaq, görərsiniz ki, o vaxt Mərkəzi Seçki Komissiyasında müxalifət nümayəndələrinin hamısı mənim namizədliyimi qeydə almamaq üçün səs verdilər. Mən o zaman həm Baş nazir, həm də Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini idim. AŞPA sədrinin müavini, 10 ilə yaxın Milli Məclisin deputatı idim. Yəni mənim tam hüququm var idi ki, prezidentliyə namizədliyim qeydə alınsın. Elədirmi?! Yəni mən siyasətdən gəlmişəm. Amma onların hamısı bunun əleyhinə səs verdilər. Bu nəyi göstərir?! Onu göstərir ki, əgər onların əlində maneə törədən imkan olarsa, bundan istifadə edəcəklər. Onda böhran yarana bilər.

Biz bunu aradan necə götürəcəyik? Mən həmməruzəçilərlə bu barədə də söhbət etdim. Onlar da bu məsələni başa düşürlər. Mənə deyirlər ki, müxalifət nümayəndələrinin belə addımı çox səhv idi. Kim təminat verir ki, bu səhv təkrarlanmayacaqdır. Ona görə gərək biz buna hərtərəfli yanaşaq. Elə etməliyik ki, Azərbaycanın inkişafını istəməyən, Azərbaycanda vəziyyətin pisləşməsini istəyən qüvvələrin əlində elə bir alət, mexanizm olmasın ki, seçkilər pozulsun, yaxud da baş tutmasın, ümumiyyətlə, burada böhran yaransın. Mən buna imkan verə bilmərəm. Mən Azərbaycan Respublikasının prezidentiyəm. Azərbaycan xalqının təhlükəsiz şəraitdə yaşamasının təminatçısıyam və heç cür imkan verməyərəm ki, kimsə burada vəziyyəti ya gərginləşdirsin və yaxud da süni şəkildə böhran yaratsın. Biz buna imkan verməyəcəyik.

Sağ olun.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVƏ ÖLKƏMİZİN ƏN ALİ MÜKAFATININ, XALQIMIZIN ÜMUMMİLLİ LİDERİ, MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN MEMARI VƏ QURUCUSUNUN ŞƏRƏFİNƏ TƏSİS EDİLMİŞ «HEYDƏR ƏLİYEV» ORDENİNİN VƏ ONUN BİR NÖMRƏLİ VƏSİQƏSİNİN TƏQDİM OLUNMASI MƏRASİMİ

*Prezident sarayı*

*28 aprel 2005-ci il*

**F ə r h a d   A b d u l l a y e v** (*Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri*): Zati-aliləri, cənab Prezident!

Bu gün Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev irsinin layiqli davamçısı, öz fəaliyyəti ilə tanınmış siyasi və dövlət xadimi kimi, dünya ictimaiyyətinin rəğbətini qazanmış möhtərəm prezidentimiz İlham Əliyevə Azərbaycanın ali mükafatı olan «Heydər Əliyev» ordeninin təqdim edilməsinin Konstitusiya Məhkəməsinin sədri kimi, mənə nəsib olmasından hədsiz şərəf və iftixar hissi keçirir, bu hadisəni həyatımın ən unudulmaz və əlamətdar məqamı hesab edirəm.

«Heydər Əliyev» ordeninin statutunda müəyyən edilmişdir ki, o, Azərbaycan Respublikasının Prezidentinə onun statusuna görə verilir. Bu, qanunun tələbidir.

Möhtərəm Prezidentimiz, eyni zamanda, Sizin həyat yolunuza, siyasi fəaliyyətinizə nəzər salınsa, aydın görünər ki, ordenin statutunda müəyyən edilmiş digər müddəalar da Sizin çoxşaxəli

fəaliyyətinizi məhz bu ordenlə qiymətləndirmək üçün tam əsas verir.

Azərbaycan xalqına qarşı törədilmiş Qanlı yanvar faciəsinə öz qəti etirazını bildirmək üçün 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələn Heydər Əliyevi müşayiət etməklə Siz xalqımızın bu ağır günündə siyasi mövqeyinizi, ümummilli liderimizlə siyasi həmfikir olduğunuzu nümayiş etdirərkən artıq öz siyasi platformanızı müəyyən etdiyinizi göstərdiniz. Bu, Azərbaycan xalqının haqq işinin müdafiəsinə, onun hüquqlarının qorunmasına xidmət edən prinsipləri əhatə edən bir platforma idi. Siz həmin prinsiplərə sonralar da sadiq qalaraq bir siyasi xadim kimi, öz məfkurənizi konkret fəaliyyətinizdə parlaq surətdə nümayiş etdirməyə başladınız.

Möhtərəm Prezident, xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycana rəhbərliyə qayıdışı ilə ölkəmizdə başlanan böyük quruculuq işləri Sizin öz bilik və bacarığınızı Azərbaycanın mənafeyinə daha səmərəli sərf etməyiniz üçün imkan yaratdı.

1994–2003-cü illərdə Azərbaycan Dövlət Neft Şirkətinin əvvəlcə vitse-prezidenti, sonra birinci vitse-prezidenti kimi Sizin fəaliyyətinizin ölkəmizin iqtisadi dirçəlişində mühüm rol oynadığını desək, yanılmarıq. Heydər Əliyevin böyük müdrikliklə hazırladığı neft strategiyasının gerçəkləşməsində fəal iştirak edərək «Əsrin müqaviləsi»nin ərsəyə gətirilib həyata keçirilməsində müstəsna xidmətləriniz danılmazdır.

Bu il mayın 25-də Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan neft kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsini biz hamımız böyük bayram kimi qeyd edəcəyik. Azərbaycan üçün taleyüklü əhəmiyyəti olan bu layihənin həyata keçirilməsi Sizin daxili və xarici siyasətinizin böyük uğurudur. Budur siyasətdə varislik, budur ölkənin iqtisadi inkişafına xidmət, budur dünya iqtisadiyyatına inteqrasiya!

Möhtərəm cənab Prezident!

1995 və 2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilməyiniz Sizin siyasi fəaliyyət dairənizi daha

da genişləndirdi. Xüsusilə Milli Məclisin Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin başçısı kimi, Azərbaycanın mənafelərinin müdafiəsinə yönəlmiş fəaliyyətiniz nəinki xalqımız tərəfindən, eləcə də bu nüfuzlu beynəlxalq təşkilat tərəfindən yüksək qiymətləndirilmişdir. Sizin Avropa Şurası Parlament Assambleyası sədrinin müavini və Büro üzvü seçilməyiniz bunun parlaq təzahürüdür. Avropa ideallarına nümayiş etdirdiyiniz sadiqliyə görə 2004-cü ildə Avropa Şurası Parlament Assambleyasının medalı ilə təltif olunmağınız bu uğurlarınızın beynəlxalq miqyasda tanınması demək idi.

1997-ci ildən Milli Olimpiya Komitəsinin prezidenti kimi, ölkəmizdə Olimpiya hərəkatının görünməmiş miqyasda vüsət almasına təkan vermiş fəaliyyətinizi xüsusilə qeyd etmək lazımdır. Ölkəmizdə idmanın və Olimpiya hərəkatının qısa müddət ərzində belə sürətlə inkişafı məhz Sizin yüksək təşkilatçılıq və məqsədyönlü iş aparmaq bacarığınıza dəlalət edir. İdmanın və Olimpiya hərəkatının inkişafındakı xidmətlərinizə görə Beynəlxalq Olimpiya Komitəsinin ali ordeni ilə təltif edilməyiniz Sizin bu sahədəki fəaliyyətinizin beynəlxalq miqyasda yüksək qiymətləndirildiyini nümayiş etdirir.

2003-cü il avqustun 4-də Siz Azərbaycan Respublikasının Baş naziri təyin olundunuz. Bu vəzifədə az müddət işləsəniz də, qəbul etdiyiniz qərarlarla, həyata keçirməyə başladığınız işlərlə ölkəyə rəhbərlik etmək bacarığına və səriştəsinə malik olduğunuzu bir daha sübut etdiniz.

Cənab Prezident, xalqımız Sizi 2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti seçdi. Elə ilk bəyanatlarınızda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasi xəttinə sadiq qalacağınızı bildirərək bu xəttin uğurlu davamçısı olduğunuzu öz əməli fəaliyyətinizdə nümayiş etdirdiniz.

Sizin prezidentliyə başladığınız vaxtdan bəri həyata keçirdiyiniz işlər göz qabağındadır. Təməli Heydər Əliyev tərəfindən qoyulmuş geniş islahatlar xəttinin uğurla davam etdirilməsi, demokratikləşmə prosesinin geniş vüsət alması, ölkədə vətəndaş

cəmiyyətinin bərqərar edilməsi yolunda atılan addımlar dövlət quruculuğu sahəsində qazandığınız nailiyyətlərin bir qismidir. Ölkə regionlarının inkişafını xüsusilə qeyd etmək lazımdır. Rəsmi statistikanın rəqəmləri dediklərimizi təsdiq edərək bunların obyektiv qiymət olduğunu sübut edir.

Siz andiçmə zamanı bəyan etdiyiniz prinsiplərə sadiq qaldığınızı bütün fəaliyyətinizlə sübuta yetirirsiniz. Bu həm də bölgələrə səfərlər zamanı əhali ilə son dərəcə səmimi ünsiyyətinizdə, bütün problemləri yerindəcə həll etməyinizdə öz parlaq əksini tapır.

Azərbaycanın beynəlxalq nüfuzunun artmasına, ölkəmizin mənafeyinin müdafiəsinə, xüsusilə Ermənistan –Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həlli işinə xidmət edən xarici siyasət xəttinizi xüsusi vurğulamaq istəyirəm. Xarici ölkələrə işgüzar və rəsmi səfərləriniz, müxtəlif ölkələrin rəhbərləri, siyasi xadimləri, beynəlxalq qurumların tanınmış nümayəndələri ilə Azərbaycandakı görüşləriniz zamanı xalqımızın milli mənafeyinin müdafiəsi işinə yönəldilmiş tarazlaşdırılmış xarici siyasət xəttiniz yüksək qiymətə layiqdir.

Möhtərəm cənab Prezident!

Azərbaycanın hərtərəfli inkişafı yolunda göstərdiyiniz xidmətlərin sayını daha da artırmaq olar. Lakin mən buna ehtiyac duymuram. Belə ki, bu fəaliyyət hamımızın gözü qarşısında həyata keçir və biz hamımız onun uğurlu nəticələrinin canlı şahidləriyik. Görülmüş işləri obyektiv qiymətləndirə bilən hər bir sağlam düşüncəli insan bu uğurları lazımınca dəyərləndirməlidir.

Xalqımızın ümummilli lideri Heydər Əliyev öz sağlığında Azərbaycanın hər hansı dövlət ordeni və medalı ilə təltif edilməsinə razılıq verməmişdir. Hesab edirəm ki, dahi rəhbərin adını daşıyan bu ordenin onun layiqli davamçısı olduğunu artıq sübut etmiş İlham Əliyevə verilməsi təkcə Sizin Azərbaycan Respublikasının Prezidenti olduğunuz, eləcə də ordenin statutunda deyildiyi kimi, Azərbaycanın tərəqqisinə, əzəməti və şöhrətinin artmasına töhfə verən müstəsna xidmətlərinə görə verilən ali

mükafat deyil, həm də Heydər Əliyev tərəfindən əsası qoyulmuş və hazırda uğurla həyata keçirilən siyasi xəttə verilən yüksək qiymətdir.

Zati-aliləri, bu yüksək mükafat münasibətilə Sizi ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycanın tərəqqisi naminə göstərdiyiniz fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

İndi isə icazə verin, «Heydər Əliyev» ordenini və onun bir nömrəli vəsiqəsini Sizə təqdim edim.

* * *

*Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev «Heydər Əliyev» ordenini və onun bir nömrəli vəsiqəsini prezident İlham Əliyevə təqdim etdi.*

**İlham Əliyev:** Bu gün mənim həyatımda tarixi bir gündür. Azərbaycan Respublikasının ən ali mükafatı, xalqımızın ümummilli lideri Heydər Əliyevin adını daşıyan orden mənə təqdim edildi. Sizin qeyd etdiyiniz kimi, bu orden Azərbaycan Respublikasının Prezidentinə onun statusuna görə verilir. Ancaq, əlbəttə, mənim üçün xüsusi əhəmiyyət kəsb edən odur ki, son müddət ərzində Azərbaycanda aparılmış siyasət, iqtisadi-siyasi sahələrdə əldə edilmiş uğurlar Azərbaycanın hərtərəfli inkişaf etdirilməsi üçün gözəl şərait yaradıbdır.

Bu gün Azərbaycanda Heydər Əliyev siyasəti bütün istiqamətlərdə öz əksini tapır. Mən prezident vəzifəsinə seçiləndə bəyan etmişdim ki, bu siyasətə sadiq qalacağam, Heydər Əliyev siyasətini Azərbaycanda bütün istiqamətlərdə həyata keçirəcəyəm. Çox şadam ki, son il yarım ərzində əldə olunmuş uğurlar Azərbaycanın düzgün istiqamətdə inkişaf etdiyini deməyə əsas verir. Azərbaycan həm öz xarici siyasətinin aparılmasında, həm də iqtisadi islahatların həyata keçirilməsində böyük uğurlar əldə edibdir. Ölkəmiz artıq dünya miqyasında böyük hörmətlə qarşılanır və Azərbaycanın xarici siyasəti çox uğurludur.

Bizim üçün bir nömrəli problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində də Azərbaycanın mövqeyi daha da möhkəmlənir, danışıqlar prosesində müsbət meyllər güclənibdir. Artıq beynəlxalq ictimaiyyət daha da aydın görür ki, bu münaqişənin həlli yalnız və yalnız beynəlxalq hüquq normaları əsasında mümkün ola bilər. Bu məsələdə Azərbaycanın mövqeyində heç bir dəyişiklik yoxdur və olmayacaq da. Dağlıq Qarabağ Azərbaycan torpağıdır və Azərbaycan öz torpaqlarını azad edəcəkdir. Mən ümid etmək istəyirəm ki, sülh danışıqları nəticə verəcək və beynəlxalq hüquq normalarına əsaslanmış müqavilə imzalana bilər.

İqtisadi islahatların daha da dərinləşdirilməsi sahəsində böyük addımlar atılır. Bu islahatlar 1995-ci ildə xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən başlanmışdır. Bu gün, sadəcə olaraq, onların növbəti mərhələsi başlanmışdır. Görülən işlər Azərbaycanı regionda iqtisadi cəhətdən lider dövlətə çeviribdir. Beynəlxalq maliyyə qurumlarının verdiyi bəyanatlara görə, bu il Azərbaycan ümumi daxili məhsulun artım sürətinə görə dünyada lider ölkə olacaqdır. Əlbəttə, bu bizim hamımızın uğurudur. İlk növbədə, Azərbaycanda 1993-cü ildən başlanmış siyasətin təzahürüdür.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycanın müstəqil dövlət kimi yaşamasında müstəsna xidmətləri olubdur. Həm xarici siyasətdə, həm də daxili siyasətdə, iqtisadi islahatların aparılmasında, Azərbaycanda sabitliyin qorunmasında, vətəndaşlarımızın təhlükəsizlik şəraitində yaşamasında Heydər Əliyevin xidmətləri əvəzsizdir. Bizim isə borcumuz ondan ibarətdir ki, bu siyasəti davam etdirək, müsbət meylləri daha da gücləndirək və Azərbaycanı qüdrətli dövlətə çevirək.

Mən şübhə etmirəm ki, gələcəkdə bizi böyük uğurlar gözləyir. Heydər Əliyevin adını daşıyan, Azərbaycanın gələcəyini yüksək dərəcədə müəyyən edəcək Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istismara verilməsindən sonra ölkə vətəndaşları daha da yaxşı yaşayacaqlar. Aparılmış islahatların nəticəsində sosial məsələlərə daha da böyük diqqət göstəriləcəkdir. Ən çətin, ən

ağır vəziyyətdə yaşayan soydaşlarımız – qaçqınlarımız, köçkünlərimiz də bundan faydalanmalıdır. Bildiyiniz kimi, indi biz xüsusi proqramlar üzərində işləyirik. Mən prezident seçkiləri ərəfəsində də, seçkilərdən sonra da bəyan etmişdim ki, Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmayacaqdır. Bu gün çadır şəhərciklərinin ləğvi üçün işlər görülür. Yeni qəsəbələr, şəhərciklər salınır ki, bizim soydaşlarımız müvəqqəti olaraq normal şəraitlə təmin edilsinlər. Təbii ki, torpaqlarımız azad olunandan sonra biz onlar üçün azad edilmiş torpaqlarda yeni binalar, evlər və digər infrastruktur obyektləri tikəcəyik.

Bir sözlə, mən demək istəyirəm ki, bu gün Azərbaycanda Heydər Əliyev siyasəti yaşayır. Bu siyasət davam etdirilir və ona alternativ siyasət yoxdur. Alternativ siyasət aparmaq istəyənlər iflasa uğradılar. Həm özlərini, həm də ölkəmizi uçurum kənarına gətirib çıxardılar. Biz buna yol verə bilmərik. Azərbaycanın qarşısında gözəl perspektivlər var. Çox aydın üfüqlər var. Biz hamımız elə etməliyik ki, ölkəmiz müasir dövlətə çevrilsin. Azərbaycanda demokratikləşmə prosesləri daha geniş vüsət almalıdır, insan hüquqlarının qorunması sahəsində daha fəal işləməliyik.

Azərbaycan Dünya Birliyinə sürətlə inteqrasiya edir və biz hamımız bu prosesin nəticələrini görürük. Həm qanunvericilik yeniləşir, həm də müasir tələblərə uyğun olan qərarlar qəbul edilir. Mən şübhə etmirəm ki, ölkəmiz ildən-ilə öz siyasi və iqtisadi potensialını gücləndirəcəkdir. Buna nail olmaq üçün cəmiyyətdə birlik olmalıdır, səfərbərlik olmalıdır, xalqla iqtidarın birliyi olmalıdır. Mənim bölgələrə etdiyim səfərlər, Bakıda keçirdiyim görüşlər, digər tədbirlər onu göstərir ki, bunların hamısı var. Bu gün Azərbaycanda ölkəmizi hərtərəfli inkişaf etdirmək üçün çox gözəl şərait var. Biz bundan sonra da fəal işləməliyik. Hərə öz üzərinə düşən vəzifə borclarını şərəflə və vicdanla yerinə yetirməlidir.

Heydər Əliyevin Azərbaycan tarixində rolu müstəsna əhəmiyyət daşıyır. Əgər Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə Azərbaycanda rəhbərliyə gəlməsəydi, bilmək olmazdı ki,

Azərbaycanın taleyi necə olacaqdı, ümumiyyətlə, ölkəmiz müstəqil dövlət kimi qalacaqdı, yoxsa yox. Xüsusən də nəzərə alsaq ki, dünyada bizim düşmənlərimiz də az deyil və Azərbaycanın normal inkişafını istəməyən qüvvələr də var və əlbəttə, bizim əleyhimizə dünya ermənilərinin çox güclü lobbisi işləyir. Bəlkə də biz dünyada çox az ölkələrdən idik ki, əleyhimizə mütəmadi qaydada, bütün istiqamətlərdə güclü beynəlxalq qüvvə işləyirdi. Əlbəttə, belə şəraitdə Heydər Əliyevin qətiyyəti, müdrikliyi, siyasi təcrübəsi, cəsarəti, xalqın ona olan inamı Azərbaycanı bəlalardan xilas etdi və bu gün ölkəmiz normal inkişaf edir.

Əlbəttə, mənim üçün çox önəmli və həm də çox əzizdir ki, Heydər Əliyevin adını daşıyan orden mənə təqdim edilibdir. Mən bu yüksək etimadı bundan sonra da doğrultmağa çalışacağam və var gücümlə Azərbaycanın xoşbəxt gələcəyi naminə çalışacağam. Sizə təşəkkür edirəm.

## BEYNƏLXALQ XİLASETMƏ KOMİTƏSİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 aprel 2005-ci il*

*Görüş zamanı Azərbaycan Respublikasının prezidenti İlham Əliyev nümayəndə heyətinin keçirdiyi bir sıra görüşlər haqqında məlumatı olduğunu bildirərək, onların ölkəmizdə qaçqın və məcburi köçkünlərə yardım göstərmələrini alicənab missiya kimi dəyərləndirdi.*

*Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan prezident İlham Əliyev Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan torpaqlarının 20 faizinin işğal edildiyini və bu işğal nəticəsində bir milyondan çox vətəndaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü xatırlatdı. Beynəlxalq donor təşkilatlarının bəzilərinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin uzanması üzündən qaçqınlara və məcburi köçkünlərə humanitar yardımı azaltdığını vurğulayan dövlətimizin başçısı Beynəlxalq Xilasetmə Komitəsinin bu yardımı davam etdirməsini yüksək qiymətləndirdi. Prezident İlham Əliyev qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün Azərbaycan hökuməti tərəfindən də mümkün olan bütün tədbirlərin görüldüyünü bildirdi.*

*Ölkəmizdə qaçqın və məcburi köçkünlər üçün yeni qəsəbələr salındığını nəzərə çatdıran dövlətimizin başçısı onların çadır şəhərciklərindən hər cür şəraiti olan müasir tipli qəsəbələrə köçürüldüyünü vurğuladı. Prezident İlham Əliyev dedi ki, işğalçı Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarından çıxarılandan, qaçqınlar və məcburi köçkünlər öz doğma*

*torpaqlarına qayıtdıqdan sonra bu məsələnin tam həll edilməsi mümkün olacaqdır.*

*Dövlətimizin başçısı bir daha əmin olduğunu bildirdi ki, Azərbaycanın Beynəlxalq Xilasetmə Komitəsi ilə əməkdaşlığı bundan sonra da uğurla davam edəcəkdir.*

*Beynəlxalq Xilasetmə Komitəsinin prezidenti Corc Rup onun başçılıq etdiyi nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə və ölkəmizin müvafiq təşkilatları tərəfindən onların səfərinin təşkilinə göstərilən köməyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.*

*Qonaq qeyd etdi ki, Beynəlxalq Xilasetmə Komitəsi Azərbaycanda fəaliyyətə başladığı ilk gündən bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünə yardım göstərməyi qarşıya məqsəd qoymuşdusa, indi bu komitənin ölkəmizdə fəaliyyəti daha da genişlənmişdir. Hazırda onlar Azərbaycanın bir sıra regionlarında iqtisadiyyatın müxtəlif sahələrinin inkişafında da iştirak edirlər.*

*Cənab Corc Rup Azərbaycanda yerli qeyri-hökumət təşkilatlarının qeydiyyatının asanlaşdırılması istiqamətində görülən işləri yüksək dəyərləndirdi. Qonaq rəhbərlik etdiyi komitənin son illərdəki fəaliyyəti barədə dövlətimizin başçısına məlumat verdi.*

**POLŞA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ALEKSANDR KVASNEVSKİYƏ**

Hörmətli cənab Prezident!

Polşa Respublikasının milli bayramı – Konstitusiya günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə Polşa Respublikası arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı məsələləri xarici siyasətimizin öncül istiqamətlərindəndir.

Əlaqələrimizi bütün sahələrdə dərinləşdirmək yolunda atdığımız addımlar, ölkənizə səfərim zamanı qarşıdakı dövr üçün müəyyən etdiyimiz vəzifələr xalqlarımızın rifahı naminə əməkdaşlığımız üçün geniş imkanlar açır. Əminəm ki, bu imkanlardan səmərəli istifadə etmək məqsədi ilə qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Polşa xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 aprel 2005-ci il*

## AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ FƏXRİ ÜZVÜ, DÜNYA ŞÖHRƏTLİ ALİM İHSAN DOĞRAMACI AZƏRBAYCANA GƏLMİŞDİR

*28 aprel 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin dəvəti ilə aprelin 28-də dünya şöhrətli alim, görkəmli ictimai xadim, məşhur xeyriyyəçi, Azərbaycan Milli Elmlər Akademiyasının fəxri üzvü İhsan Doğramacı 90 illik yubileyinin keçirilməsi ilə bağlı Bakıya gəlmişdir.*

*Heydər Əliyev adına Beynəlxalq Hava Limanında hörmətli qonağı və onu müşayiət edən şəxsləri böyük hörmətlə qarşıladılar.*

*İhsan Doğramacı jurnalistlərə qısa müsahibə verdi: «Hər kəs bilir ki, mənim iki vətənimdən biri Azərbaycandır. Beləcə, iki vətəndən birində olmaqdan özümü çox xoşbəxt hiss edirəm. Nümayəndə heyətimizlə birlikdə iki gün buradayıq. Azərbaycana prezident İlham Əliyevin dəvəti ilə gəlmişəm. Özümüzü çox şad hiss edirik».*

## TÜRK DÜNYASININ BÖYÜK OĞLU İHSAN DOĞRAMACININ ANADAN OLMASININ 90 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YUBİLEY GECƏSİNDƏ NİTQ

*Müslüm Maqomayev adına*
*Azərbaycan Dövlət Filarmoniyası*

*29 aprel 2005-ci il*

Əziz İhsan bəy!

Mən Sizi Azərbaycanda bir daha ürəkdən salamlayıram və bu gözəl yubiley münasibətilə təbrik edirəm. Sizə cansağlığı, uzun ömür, bütün işlərinizdə uğurlar arzulayıram.

Siz dəfələrlə qeyd etmisiniz ki, Sizin iki vətəniniz var, onlardan biri də Azərbaycandır. Doğma vətəninizə xoş gəlmisiniz!

Siz Azərbaycanı çox sevirsiniz. Azərbaycan haqqında bütün məlumatları, Azərbaycan həqiqətlərini bütün dünyada təbliğ edirsiniz. Biz bunu çox gözəl bilirik. Xüsusilə müstəqilliyinin ilk illərində Azərbaycan informasiya blokadasında qaldığı halda Sizin səsiniz, Dünya Birliyinə etdiyiniz müraciətlər, əlbəttə, Azərbaycanın çətin vəziyyətdən çıxarılması üçün çox mühüm rol oynayırdı. Bu gün də Siz bütün fəaliyyətinizdə daim Azərbaycan haqqında düşünürsünüz, Azərbaycanın uğurlarına sevinirsiniz və bütün tədbirlərdə bizim ölkəmiz haqqında dolğun, ədalətli məlumatları bütün səviyyələrə çatdırırsınız. Azərbaycan da Sizi çox sevir, Azərbaycan xalqı da Sizi ürəkdən sevir. Bu münasibət, bu duyğular qarşılıqlıdır.

Bu gün İhsan Doğramacının təhsil, səhiyyə, başqa sahələrdəki fəaliyyətindən söhbət açıldı. Biz bunların hamısını bilirik. İhsan bəyin həyat və fəaliyyəti ilə yaxşı tanışıq. Onu da qeyd etmək istəyirəm ki, İhsan bəy böyük ictimai xadimdir.

Bütün türk dünyasının ağsaqqalıdır. Bütün türk dünyası Sizi sevir və Siz bütün türk dünyasının fəxrisiniz.

Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq münasibətlərinin inkişafı işində də Sizin böyük xidmətləriniz olubdur. Biz çox məmnunuq ki, Türkiyə ilə Azərbaycan arasında ənənəvi dostluq, qardaşlıq münasibətləri günü-gündən güclənir. Bu bizi çox sevindirir. Bizim dostluğumuz, qardaşlığımız sarsılmazdır, əbədidir.

Əziz İhsan bəy, Siz 90 yaşınızda da gəncsiniz, bizə də enerji verirsiniz. Öz fəaliyyətinizlə, öz işlərinizlə bizi də ruhlandırırsınız. Mən bilirəm ki, Siz bu gün də axtarışdasınız, təhsil, səhiyyə, mədəniyyət sahələrində müxtəlif layihələr üzərində işləyirsiniz. Onu da qeyd etmək istəyirəm ki, Azərbaycan gənclərinə Sizin həmişə böyük diqqətiniz olubdur, qayğınız olubdur. Rəhbərlik etdiyiniz Bilkənd Universitetində, Türkiyənin başqa təhsil ocaqlarında həmişə Azərbaycan gənclərinə, Azərbaycandan gəlmiş tələbələrə böyük diqqətlə, böyük qayğı ilə yanaşmısınız.

Eyni zamanda, biz hamımız yaxşı bilirik ki, Siz insan kimi çox gözəl insansınız. İnsan siyasətdə, hansısa sahədə istedadlı olur, böyük uğurlar qazanır. Amma bu heç də o demək deyil ki, bu və ya digər adamda insani keyfiyyətlər də o səviyyədədir. Siz isə insana xas olan bütün ən müsbət xüsusiyyətləri özünüzdə təcəssüm etdirirsiniz. Sizin dostluğa münasibətiniz bizə çox yaxşı məlumdur. Uzun illər atam Heydər Əliyevlə Sizi çox mehriban, səmimi dostluq telləri bağlayırdı və bizim üçün, Sizdən sonra gələn nəsillər üçün bu dostluq bir nümunə idi, bir örnək idi. Əsl mənada dostluq rəmzi idi. Mən bu dostluğun canlı şahidi idim və görürdüm ki, Sizinlə xalqımızın ümummilli lideri Heydər Əliyev arasında nə dərəcədə səmimi münasibətlər var idi. Siz bütün məsələləri müzakirə edirdiniz. Bu bizim üçün çox böyük məktəb olmuşdur. Mən də çox şadam ki, o görüşlərin bəzilərində iştirak etmişəm.

Onu da xatırlayıram ki, Heydər Əliyev üçün çətin dövrdə Siz daim onun yanında olmusunuz. 1999-cu ildə Klivlend şəhərində

Heydər Əliyevin üzərində cərrahiyyə əməliyyatı aparılanda Siz bundan xəbər tutub dərhal öz dostunuzun yanına gəldiniz. Türkiyədən Amerikaya uçdunuz və Heydər Əliyevin ad günündə – 1999-cu ilin may ayının 10-da onunla bərabər idiniz. Biz o günləri heç vaxt unutmayacağıq. Bu, əsl dostluq rəmzi idi, əsl qardaşlığın təzahürü idi.

Bizim hamımız üçün ən çətin anlarda – 2003-cü ilin dekabrında da Siz bizimlə bərabər idiniz. Bakıya dostunuzla vidalaşmağa gəlmişdiniz. O faciə Sizin də faciəniz idi, o itki Sizin də itkiniz idi. Bütün bunlar onu bir daha göstərir ki, Siz fenomenal insansınız. Təsadüfi deyil ki, Azərbaycan xalqı Sizi ürəkdən sevir və təsadüfi deyil ki, Sizin 90 illik yubileyiniz Azərbaycanda qeyd edilir.

Siz dünyada çox məşhur adamsınız və müxtəlif ölkələrin ən yüksək mükafatlarını, ordenlərini almısınız. O cümlədən 2000-ci ildə Azərbaycan dövlətinin o vaxtkı ən ali mükafatı olan «İstiqlal» ordeni ilə təltif olunmusunuz. Bu günlərdə qəbul edilmiş qanuna əsasən Azərbaycanın ən yüksək mükafatı, ən ali ordeni – «Heydər Əliyev» ordeni təsis edilmişdir. Həmin orden hazırda Azərbaycan dövlətinin ən ali mükafatıdır və xalqımızın ümummilli lideri Heydər Əliyevin adını, Sizin dostunuzun adını daşıyır.

Mən bu gün imzaladığım Sərəncamla Sizi «Heydər Əliyev» ordeni ilə təltif etmişəm. Sizi bir daha ürəkdən təbrik edirəm, cansağlığı, uğurlar arzulayıram.

*Prezident İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının fəxri üzvü, Azərbaycan Tibb Universitetinin fəxri doktoru, türk dünyasının böyük oğlu İhsan Doğramacıya ölkəmizin ən ali mükafatını – «Heydər Əliyev» ordenini və onun iki nömrəli vəsiqəsini təqdim etdi.*

## AZƏRBAYCAN RESPUBLİKASI «AZƏRİKİMYA» DÖVLƏT ŞİRKƏTİNİN SƏTHİ AKTİV MADDƏLƏR ZAVODUNUN KOLLEKTİVİNƏ

Hörmətli kimyaçılar!

Sizi–Səthi Aktiv Maddələr Zavodunun kollektivini müəssisənin istismara verilməsinin 60 illiyi münasibətilə ürəkdən təbrik edirəm!

Bu zavodun yaradılması ilə Azərbaycanda kimya sənayesinin təməli qoyulmuşdur. İlk gündən müəssisə Azərbaycan kimya sənayesinin flaqmanına çevrilmiş, onun tikintisində və istismarında qazanılmış bilik və təcrübədən Sumqayıt şəhərində yeni kimya müəssisələrinin yaradılmasında geniş istifadə olunmuşdur.

Azərbaycanda kimya sənayesinin çox zəngin ənənələri vardır. Hələ XX əsrin 40–60-cı illərində Sumqayıt şəhərində istifadəyə verilən kimya müəssisələri keçmiş Sovet İttifaqında ən nəhəng və iqtisadiyyat üçün önəmli obyektlər sayılırdı.

Kimya sənayesinin intibah dövrü ümummilli liderimiz Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 70–80-ci illərə təsadüf etmişdir. Bilavasitə onun şəxsi təşəbbüsü nəticəsində kimya müəssisələrində rekonstruksiya və yenidənqurma işləri geniş vüsət almış və kimya sənayesi ölkə iqtisadiyyatının mühüm sahələrindən biri olmuşdur.

Yarım əsrdən artıq tarixi ərzində Səthi Aktiv Maddələr Zavodunun kollektivi öz fədakar əməyi və peşəkarlığı ilə daim seçilmişdir. Bu gün də zavodun fəaliyyətini səciyyələndirən əsas cəhətlərdən biri işçilərin və mühəndis-texnik heyətinin zəhmətsevərliyi, yüksək əmək məhsuldarlığı və buraxılan məhsulun keyfiyyətidir.

Əminəm ki, Səthi Aktiv Maddələr Zavodunun kollektivi milli iqtisadiyyatımızın inkişafında gələcəkdə də səylərini əsirgəmədən çalışacaq və ölkəmizin dünya iqtisadiyyatına inteqrasiya olunmasına öz layiqli töhfəsini verəcəkdir.

Sizi bu əlamətdar yubiley münasibətilə bir daha təbrik edir, əmək fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

**İLHAM ƏLIYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 aprel 2005-ci il*

**AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİANLARINA**

Hörmətli həmvətənlər!

Sizi xristianların müqəddəs Pasxa bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə cansağlığı, xoşbəxtlik və həyatda uğurlar arzulayıram.

Gözəl bahar günlərində qeyd olunan Pasxa bayramı insanlarda yüksək əhval-ruhiyyə və nikbinlik yaradan, şəfqət və mərhəmət hisslərini artıran, cəmiyyətdə əmin-amanlıq və həmrəylik prinsiplərinin bərqərar olmasına xidmət edən əlamətdar günlərdəndir. Bu bayram müxtəlif dini konfessiyaların əsrlər boyu qarşılıqlı ehtiram şəraitində dinc yanaşı yaşadığı Azərbaycanda geniş surətdə qeyd edilir. Xristian həmvətənlərimiz ölkəmizdə təşəkkül tapmış dini dözümlülük və tolerantlıq mühitində Pasxa ilə bağlı dini mərasim və ayinlərini sərbəst şəkildə həyata keçirirlər.

Azərbaycanda yaşayan xristian icmasının nümayəndələri ölkənin ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirak edərək, onun hərtərəfli inkişafı işinə öz layiqli töhfələrini verirlər. Müstəqil Azərbaycan Respublikasında formalaşmış dövlət-din münasibətləri cəmiyyətin bütün təbəqələri kimi, xristian pravoslavlarına da öz dini-mənəvi dəyərlərindən lazımınca faydalanmaq imkanı yaradır.

Ümidvaram ki, Azərbaycanın daha da qüvvətlənməsi naminə xristian həmvətənlərimiz öz səylərini bundan sonra da səfərbər edəcək və var qüvvələrini əsirgəməyəcəklər. Bu gözəl yaz günlərində sizə bayram ovqatı, ailələrinizə xoşbəxtlik diləyirəm.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLIYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı şəhəri, *30 aprel 2005-ci il*

**İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MOŞE KATSAVA**

Hörmətli cənab Prezident!

İsrail dövlətinin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə İsrail arasında təşəkkül tapmış münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 may 2005-ci il*

## TÜRKİYƏNİN İSGƏNDƏRUN, PAYAS, CEYHAN, SARIMAZI, MƏRSİN-TOROSLAR, LAPSEKİ ŞƏHƏRLƏRİNİN BƏLƏDİYYƏ BAŞÇILARI VƏ BU ÖLKƏDƏ FƏALİYYƏT GÖSTƏRƏN AZƏRBAYCAN DƏRNƏKLƏRİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 may 2005-ci il*

Azərbaycan prezidenti İlham Əliyev qardaş ölkədən Azərbaycana böyük heyətin gəlməsindən məmnunluğunu, onların Bakıda çoxlu görüşlərinin gözəl nəticələri olacağını bildirdi. Prezident İlham Əliyev ölkələrimizin əlaqələrinin çox yüksək səviyyədə olduğunu söyləyərək dedi ki, Türkiyə ilə Azərbaycan arasında qardaşlıq, dostluq münasibətlərinin daha da möhkəmlənməsi bizim üçün önəmli bir vəzifədir. Mən çox şadam ki, bizim ənənəvi əlaqələrimiz sürətlə inkişaf edir.

Azərbaycan prezidenti Türkiyəyə ötənilki rəsmi səfərinin nəticələrinin uğurlu olduğunu xatırladaraq dedi ki, biz Türkiyənin Qars vilayətində Baş konsulluq açdıq. Siyasi, iqtisadi, mədəni əlaqələrimiz dərinləşir. Bizi iqtisadi cəhətdən daha da sıx birləşdirən Bakı–Tbilisi–Ceyhan neft kəməri inşa edilir, bu ay onun istismara verilməsini qeyd edəcəyik. Eyni zamanda, qaz kəməri də tikilir. Bütün bunlar həm iqtisadiyyatımız üçün önəmli olacaq, həm də regionda və dünyada bizim mövqelərimizi daha da möhkəmləndirəcəkdir. Türkiyə və Azərbaycan çox dinamik inkişaf edən ölkələrdir. Bizim iqtisadiyyatımız böyük sürətlə artır və ölkəmizin iqtisadi

vəziyyəti yaxşılaşır. İqtisadi cəhətdən nə qədər güclü olsaq, bizim maraqlarımız da o qədər təmin olunacaqdır.

Dövlətimizin başçısı eyni zamanda Azərbaycan ilə Türkiyə arasında işbirliyinə, nəhəng enerji layihələrinin həyata keçirilməsinə və digər məsələlərə əngəl törətməyə çalışan qüvvələrin mövcud olduğunu qeyd edərək, bu baxımdan bölgədə gedən proseslərdə xalqımızın birliyinin və sıx əməkdaşlığın daha da möhkəmlənməsinin vacibliyini vurğuladı.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin «Biz bir millət, iki dövlətik» kəlamını xatırladan prezident İlham Əliyev Türkiyə ilə Azərbaycanın bu prinsiplə yaşadığını və gücləndiyini diqqətə çatdırdı.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinə toxunan dövlətimizin başçısı bu təcavüz nəticəsində bir milyondan çox soydaşımızın yerindən-yurdundan didərgin düşərək, ağır şəraitdə yaşamasından söhbət açaraq dedi ki, buna baxmayaraq Azərbaycan inkişaf edir, ölkəmizdə bütün sahələrdə islahatlar həyata keçirilir, Azərbaycan iqtisadi cəhətdən ildən-ilə daha da güclənir.

Prezident İlham Əliyev dövlət və hökumət səviyyəsində əlaqələrlə yanaşı, ölkələrimizin şəhərləri, bələdiyyələri səviyyəsində də münasibətlərin, qarşılıqlı səfərlərin əhəmiyyətini vurğuladı.

Almaniyanın Maynts şəhərindəki Azərbaycan Mərkəzinin sədri, Avropa Azərbaycanlıları Konqresi Mərkəzi Şurasının üzvü, türk icmalarının əlaqələndiricisi Bəşar Kömür onlara göstərilən qonaqpərvərliyə görə prezident İlham Əliyevə təşəkkür edərək dedi ki, biz Sizi atanızın vəsiyyətinə sahib çıxan insan kimi tanıyırıq. Bu ölkə və Siz bizim ürəyimizdəsiniz. Xaricdə yaşayan soydaşlarımıza göstərdiyiniz diqqətə görə Sizə onların təşəkkürlərini çatdırıram. Başda Siz olmaqla, bu işlərin həyata keçirilməsində xidmət göstərən Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinə minnətdarlığımızı bildiririk.

Cənab Prezident, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin bizə «Hansı ölkədə olursunuz olun, siz oranın vətəndaşı olun. Amma öz mədəniyyətinizi, ənənənizi və ən əhəmiyyətlisi, öz dilinizi unutmayın» müdrik kəlamını söyləmişdir. Mən bunların unudulmadığını Sizə çatdırmaq istəyirəm. Atanız onu da demişdir ki, «Azərbaycanın məsələlərini yaşadığınız ölkədə dövlət başçısına, siyasətçilərə, ziyalılara çatdırın ki, onlar da bizi tanısınlar, bizim məsələmizə kömək etsinlər».

Bəşar Kömür 25 ildir Almaniyanın Maynts şəhərində yaşadığını söylədi və Reynland-Pfalts əyalətinin hökumət başçısının Azərbaycan prezidentinə ehtiramını və səmimi arzularını əks etdirən məktubunu oxudu.

İsgəndərin bələdiyyəsinin sədri Mete Aslan səmimi qəbula görə minnətdarlığını bildirərək dedi ki, biz burada ulu öndər Heydər Əliyevin dediyi kimi, millət anlayışının ən gözəl örnəklərini yaşamağa başladıq. Bizlər, bələdiyyə başçıları hər zaman Azərbaycanın arxasında olduğumuzu, dəstək verdiyimizi və verəcəyimizi bildirmişik. Bunu bir daha hüzurunuzda bəyan edirik. Həm də hamımız üçün ağrılı problem olan Qarabağ məsələsində dəstək vermək üçün gəlmişik.

Prezident İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradıldığını bildirərək son illər dünya azərbaycanlılarının təşkilatlanması, onların fəaliyyətinin daha da möhkəmləndirilməsi istiqamətində çox uğurlu işlər görüldüyünü vurğuladı.

Sonra Ceyhan bələdiyyəsinin sədri Hüseyn Sözlü bu görüşdən böyük şərəf duyduğunu söylədi, Azərbaycan prezidentinə Ceyhan əhalisinin, Milliyyətçi Hərəkat Partiyasının sədri Dövlət Baxçalının səmimi salamlarını çatdıraraq dedi ki, Bakı–Tbilisi–Ceyhan neft kəməri bizim üçün həm də qardaşlıq kəməridir. Bunu qardaşlarımızla yaxınlaşmağımızda bir vasitə kimi görür və açılışını həyəcanla gözləyirik. Prezident İlham Əliyevin himayəsilə Azərbaycan Xalq Cümhuriyyətinin 86-cı

ildönümü ilə əlaqədar Ceyhanda tədbirlər keçirdik. Biz bundan böyük məmnunluq duyduq. Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi eyni zamanda bütün türklərin təşkilatıdır. Biz bütün bunlara görə rəhmətlik Heydər Əliyevə və Sizə təşəkkürümüzü yetiririk.

Daha sonra Hüseyn Sözlü Bakı–Tbilisi–Ceyhan neft kəmərinin açılışına hazırlıq işləri ilə bağlı Ceyhan bələdiyyəsində görüləcək tədbirlər barədə dövlətimizin başçısına məlumat verərək dedi ki, Ceyhan şəhərinin mərkəzində, ən görkəmli yerdə Heydər Əliyevin və Atatürkün üzbəüz abidələri ucaldılacaqdır. İstəyirik boru kəmərinin istismara veriləcəyi gündə həmin abidənin açılışını edək. Türk dünyasının böyük oğlu Heydər Əliyev daim Türkiyə Cümhuriyyətinin qəlbində olacaqdır. Biz «bir millət, iki dövlət» həqiqətini bütün dünyaya duydurmaq istəyirik. Bu heykəllər Azərbaycanda hazırlanacaqdır. Eyni zamanda, Ceyhanın ən gəzməli-görməli yerində, gözəl bir «Türk dünyası» parkı salacağıq. Biz bütün bunları zati-alinizin himayəsində başa çatdıracağıq.

Prezident İlham Əliyev deyilənləri yüksək qiymətləndirdi, nəzərdə tutulan tədbirlərin Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəmərinin istifadəyə veriləcəyi gündə keçirilməsi təşəbbüsünü müsbət qarşıladı.

Türkiyə nümayəndə heyətinin üzvləri Azərbaycan prezidentinə xatirə hədiyyələri təqdim etdilər.

Prezident İlham Əliyev qonaqlarla xatirə şəkli çəkdirdi.

## AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Hörmətli həmvətənlər!

Hər il bütün mütərəqqi bəşəriyyət Yəhudi Xalqının Müsibəti və Qəhrəmanlığı Gününü böyük ehtiramla yad edir.

1943-cü ilin aprelində Varşava gettosu məhbuslarının faşizmə, milli-dini ayrı-seçkiliyə qarşı ölüm-dirim mübarizəsinə qalxması və bu yolda qurban getməsi bütövlükdə bəşər tarixinin parlaq səhifələrindən biridir. Bu hadisə insani ləyaqətin şər və zorakılıq üzərində mənəvi qələbəsi kimi rəmzləşmiş, tarixə təkcə yəhudilərin müsibəti günü kimi deyil, həm də yəhudi xalqının öz milli haqları uğrunda göstərdiyi qəhrəmanlıq nümunəsi kimi daxil olmuşdur.

Tarix boyu yəhudi xalqının başı çox bəlalar çəkmişdir. Lakin İkinci dünya müharibəsi zamanı bu xalqa qarşı törədilmiş soyqırımı və altı milyon günahsız insanın faşizmin, irqi ayrı-seçkiliyin qurbanı olması öz kütləviliyi və amansızlığı ilə bəşəriyyətin yaddaşında qara ləkə kimi yaşamaqdadır.

Bu milli müsibətə Azərbaycan xalqı heç zaman biganə yanaşmamış, yəhudilərin kədərinə, dərdinə yaxından şərik olmuşdur. Belə faciələr xalqımızın taleyindən də yan keçməmiş, son iki yüz illik tarixin ayrı-ayrı mərhələlərində, eyni zamanda, 1988-ci ildən sonrakı dövrdə erməni faşizmi Azərbaycan torpaqlarında kütləvi qırğınlar, talanlar və qarətlər, dəhşətli terror aktları törətmiş, xalqımıza qarşı soyqırımı, deportasiya və etnik təmizləmə siyasəti həyata keçirilmişdir. Təəssüflə qeyd etmək istəyirəm ki, bütün bunlar dünyanın və sivilizasiyalı bəşəriyyətin gözü qarşısında baş versə də, tarixi ədalət hələ də bərpa edilməmişdir.

Biz hansı məkanda və coğrafiyada törədilməsindən asılı olmayaraq, milli-irqi ayrı-seçkiliyi, etnik-dini dözümsüzlüyü, soyqırımı və terror cinayətlərini qətiyyətlə pislədiyimizi bir daha

bəyan edir, beynəlxalq ictimaiyyəti, qabaqcıl dünya dövlətlərini bütövlükdə bəşər sivilizasiyasını hədəf almış bu cür bəlalara qarşı mübarizədə səfərbər olmağa çağırırıq.

Əziz həmvətənlər!

Yəhudi xalqının müsibətinin builki anım günü faşizm üzərində Böyük Qələbənin altmışıncı ildönümü ərəfəsində qeyd olunur. Bu qələbə sevincini milli hüzn gününüzdə faşizm qurbanlarının ruhuna təsəlli hesab edir, Azərbaycan xalqı adından kədərinizə şərik olduğumu bildirirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Baki şəhəri, *2 may 2005-ci il*

## LATVİYA SEYMİNİN LATVİYA – AZƏRBAYCAN PARLAMENTLƏRARASI ƏMƏKDAŞLIQ QRUPUNUN ÜZVLƏRİNDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*3 may 2005-ci il*

*Ölkələrimiz arasında müxtəlif sahələrdə ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğulayan Azərbaycan prezidenti İlham Əliyev Latviyada Azərbaycan səfirliyinin açılmasının ölkələrimizin əlaqələrinin daha da inkişaf etməsi işinə xidmət göstərəcəyinə əmin olduğunu bildirdi. Azərbaycanın Latviyada güclü diasporu olduğunu bildirən prezident İlham Əliyev bir neçə il bundan əvvəl bu diasporun üzvləri ilə keçirdiyi görüşü məmnunluqla xatırlatdı və Azərbaycan diasporunun Latviyanın ictimai, siyasi həyatında fəal iştirakı üçün yaradılmış şəraiti yüksək qiymətləndirdi. Beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan – Latviya əməkdaşlığının genişləndiyini qeyd edən prezident İlham Əliyev Avropa və Avratlantik strukturlarına inteqrasiya prosesində ölkələrimiz arasında yaxşı əlaqələrin olduğunu vurğuladı.*

*Azərbaycanın Avropa Birliyinin yeni qonşuluq siyasətində fəal iştirakını bildirən dövlətimizin başçısı AB çərçivəsində də ölkələrimizin əlaqələrinin uğurla inkişaf etdiyini bildirdi.*

*Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan prezident İlham Əliyev dedi ki, Ermənistan silahlı qüvvələri tərəfindən torpaqlarımızın 20 faizi işğal edilmiş, etnik təmizləmə nəticəsində 1 milyondan çox soydaşımız yerindən-yurdundan zorla qovularaq qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Dövlətimizin başçısı bildirdi ki, erməni*

*separatizmi və Cənubi Qafqazda mövcud olan münaqişələr bu regionun Avropa inteqrasiyasına çox böyük əngəllər törədir.*

*Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, nümayəndə heyətinin Azərbaycana səfəri ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsinə xidmət edəcəkdir.*

*Nümayəndə heyətinin başçısı Oleqs Denisovs Azərbaycan torpağında ilk saatlardan onlara göstərilən yüksək qonaqpərvərliyə görə dövlətimizin başçısı İlham Əliyevə minnətdarlığını bildirdi. Azərbaycan diasporunun Latviyada ölkənin ictimai, siyasi, iqtisadi həyatında mühüm rol oynadığını qeyd edən Oleqs Denisovs bildirdi ki, Riqada Azərbaycan mədəniyyət mərkəzinin açılması və park salınması üçün yer ayrılması planlaşdırılır. Latviya tərəfi orada Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi üçün konkret işlər görür.*

*O, ölkəmizə ötən səfərlərindən keçən qısa vaxt ərzində Bakıda çox böyük quruculuq işləri aparıldığının şahidi olduqlarını söylədi.*

*Ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişaf etdiyini vurğulayan qonaq prezident İlham Əliyevi əmin etdi ki, Latviya Avropaya inteqrasiya prosesində Azərbaycanı daim dəstəkləyəcəkdir.*

*Qonaq ümidvar olduğunu bildirdi ki, ölkələrimiz arasında əlaqələr bundan sonra da uğurla inkişaf edəcək və möhkəmlənəcəkdir.*

## AZƏRBAYCANDA SOSİAL-İQTİSADİ İNKİŞAF MƏSƏLƏSİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ NİTQ

*Prezident sarayı*

*4 may 2005-ci il*

Bugünkü müşavirədə Azərbaycanın müxtəlif rayonlarından gəlmiş rəhbər işçilər–icra hakimiyyəti başçıları, habelə nazirlər, Yeni Azərbaycan Partiyasının fəalları iştirak edirlər. Məqsəd də ondan ibarətdir ki, biz ölkədə gedən prosesləri bir daha təhlil edək, görülən işlər haqqında fikir mübadiləsi aparaq və 2005-ci ildə keçiriləcək parlament seçkilərinə hazırlıq prosesini müzakirə edək.

Ümumiyyətlə, ölkədəki vəziyyət müsbətdir. Hər yerdə inkişaf gedir. Görülən işlərin nəticəsində ölkə iqtisadiyyatı güclənir, regionların inkişafı məsələləri öz həllini tapır. Əlbəttə, regionlarda problemlər hələ çoxdur. Amma əgər bu problemlər olmasaydı, şübhəsiz ki, regionların vəziyyətinə o qədər ciddi diqqət göstərməzdik. Regionların inkişaf proqramı icra edilir. Artıq bir ildən çoxdur, regionların sosial-iqtisadi inkişafı məsələlərinə çox diqqətlə yanaşılır və bir il ərzində görülmüş işlər deməyə əsas verir ki, istiqamət düzgün seçilmişdir. Regionlarda gedən quruculuq və abadlıq işləri, yeni müəssisələrin, fabriklərin yaranması, fərdi tikintinin geniş vüsət alması və əlbəttə, 200 mindən artıq yeni iş yerinin açılması bir daha onu göstərir ki, regionların inkişaf proqramı öz funksiyasını yerinə yetirir. Bildiyiniz kimi, mən mütəmadi qaydada bölgələrə, rayonlara səfərlər edirəm və özüm şəxsən vəziyyətlə tanış oluram. Əlbəttə ki, problemlər çoxdur. Onları heç kim inkar etmir. Bizim vəzifəmiz də məhz

odur ki, bütün bu problemləri operativ qaydada və yüksək səviyyədə aradan götürək.

Bu istiqamətdə işlər gedir. Deyə bilmərəm ki, bütün rayonlarda görülən işlər məni qane edir. Amma bütövlükdə, vəziyyət müsbət istiqamətdə inkişaf edir.

Bizi ən çox narahat edən məsələlərdən biri də ondan ibarətdir ki, qış mövsümündə bölgələrdə elektrik enerjisi ilə təminatla bağlı problemlər yaranır. Bu problemlərin obyektiv səbəbləri var, biz onların hamısını bilirik. Ölkədə gedən inkişaf, yeni yaranmış müəssisələr, fabriklər, yeni tikilmiş evlər təbii ki, yeni enerji yükü tələb edir, o da yoxdur. Çünki son illər ərzində Azərbaycanda «Şimal» DRES-dən başqa, heç bir elektrik stansiyası tikilməmişdir. Ancaq bu il yeni stansiyaların tikintisinin başlanması nəzərdə tutulub və bildiyiniz kimi, böyük stansiyaların tikintisi də vaxt aparır. Buna təxminən iki il vaxt lazımdır. Ona görə də qərar qəbul edilmişdir ki, təxirəsalınmaz ölçülər götürülsün və yeni, kiçik həcmli müasir elektrik stansiyaları tezliklə alınsın və quraşdırılsın. Bu barədə artıq bütün göstərişlər verilibdir və 2005-ci ildə, yəni bu il Azərbaycanın cənub bölgəsində on kiçik stansiyanın tikintisi nəzərdə tutulur ki, orada vəziyyət yüngülləşsin. 2006-cı ildə isə respublikada əlavə 40 kiçik elektrik stansiyasının quraşdırılması bizə imkan verəcəkdir ki, qış aylarında enerji qıtlığını maksimum dərəcədə aradan götürək.

Eyni zamanda, tezliklə sayğaclar da quraşdırılmalıdır. İnsanlar bilməlidirlər ki, onlar nəyə görə pul ödəyirlər.

Qaz sektorunda da vəziyyət buna bənzərdir. Mən bu yaxınlarda Şamaxı rayonunda olarkən bu barədə öz fikirlərimi bildirmişəm. Demişəm ki, kimin imkanı yoxdur, ondan pul tələb olunmamalıdır. «Azəriqaz» rəhbərliyinə də bu göstərişləri vermişəm. Bu gün burada oturan şəhər və rayon icra hakimiyyəti başçıları da bunu bilməlidirlər. Azərbaycanda yoxsulluq şəraitində yaşayan insanların sayı az deyildir. Düzdür, ildən-ilə bu insanların sayı azalır – 46 faizdən 42-yə düşübdür. Bu yaxınlarda mənə verilən məlumata görə, bu rəqəm yenə də azalıbdır.

Amma bütün bunlara baxmayaraq, biz gərək çətin, kasıb şəraitdə yaşayanların vəziyyətini anlayaq, başa düşək və onlara diqqətlə yanaşaq. Kimin imkanı var, ondan ciddi tələb olunmalıdır. Çünki bütün ölkələrdə işıq, qaz pulu yığılır və yığılmalıdır. Amma kasıb təbəqəyə böyük diqqətlə yanaşmaq lazımdır.

Eyni zamanda, bu yaxınlarda verilmiş göstərişlərə görə normativlər də yenidən nəzərdən keçirildi. Sayğaclar olmayan yerdə normativlər aşağı düşməlidir. Bu barədə qərar qəbul edilibdir və mənə bu gün verilən məlumata görə bu normativ 25 faiz azaldılmalıdır.

Sayğac olan yerdə hər kəs işığın, qazın haqqını işlətdiyi qədər ödəməlidir. Sayğac olmayan yerdə normativlər aşağı düşməlidir. Hesab edirəm ki, bu, sosial baxımdan çox mühüm və ədalətli bir addımdır.

Sosial məsələlərə diqqət getdikcə artır. Minimum əməkhaqqının və pensiyanın məbləği artırılmışdır. Bu il də büdcəyə yenidən baxılacaq, minimum əmək haqqının və digər ödənişlərin artırılması nəzərdə tutulur. Bu bizim prioritet məsələlərimizdən biridir. Mən demişəm ki, Azərbaycan xalqı ildən-ilə daha yaxşı yaşamalıdır. Hökumət bunu təmin etmək üçün əlindən gələni edir. Büdcəmiz təxminən 30 faiz artıb və bu da son hədd deyildir. Yenə də artmalıdır. Çünki ehtiyatlar var və biz bunları bilirik. Bizi narahat edən qiymətlərin artımı məsələsinə də ciddi yanaşılır və ötən müddət ərzində görülən tədbirlərin nəticəsində qiymətlər aşağı düşməyə başladı. Bu yaxınlarda yeni sərəncamlar, fərmanlar qəbul ediləcək ki, Azərbaycanda süni şəkildə və yaxud hansısa obyektiv səbəblərə görə yaranmış qiymət artımı dayansın və qiymətlər aşağı düşsün.

Bütün bu məsələləri biz gərək həll edək. Çünki insanlarımızın həyat səviyyəsinin yaxşılaşdırılması bizim üçün prioritet məsələdir. Bu istiqamətdə, əlbəttə ki, bütün lazımi tədbirlər görüləcək, lazımi fərmanlar və sərəncamlar, qərarlar qəbul ediləcəkdir. Amma bununla yanaşı, şübhəsiz ki, yerlərdə əhalinin həyat səviyyəsinə diqqət göstərilməlidir. Ümumiyyətlə, mənim yerlərdəki nümayəndələrim – icra hakimiyyəti başçıları əhalini

narahat edən məsələlərə çox ciddi yanaşmalıdırlar, qayğı ilə, diqqətlə yanaşmalıdırlar. Mən bilirəm ki, bu istiqamətdə də müsbətə doğru dəyişikliklər baş verir. Səfər etdiyim bölgələrdə həmişə insanlardan soruşuram ki, icra hakimiyyəti başçısının fəaliyyətindən razısınızmı, sizi qane edirmi, yoxsa yox. Eşidəndə ki, müsbət dəyişikliklər baş verir, əlbəttə ki, mən çox sevinirəm. İcra hakimiyyəti başçılarından da tələb edirəm ki, gündəlik fəaliyyətlərində bu məsələyə diqqət göstərsinlər.

Mən şübhə etmirəm ki, Azərbaycanın iqtisadi inkişafı, görüləcək tədbirlər nəticəsində əldə olunacaq böyük həcmdə vəsait bizə imkan verəcək ki, ölkəmizi hərtərəfli inkişaf etdirək, regionları, qeyri-neft sektorunu inkişaf etdirək. Bütün bunlar olacaq. Amma əgər insan amili olmasa, əlbəttə ki, biz istədiyimizə nail ola bilmərik. Ona görə yenə də deyirəm, insanların qayğıları ilə yaşamaq lazımdır, onlara diqqət göstərmək lazımdır və problemləri həll etmək lazımdır. Elə problem var ki, onu yerli icra orqanı həll edə bilmir, mərkəzi orqanlar həll etməlidir. Amma bir çox hallarda problemlər yerlərdə həll oluna bilər.

Mənə verilən məlumata görə, bəzən çox da böyük vəsait tələb etməyən məsələlər tezliklə həll oluna bilər. Amma biganəlik ucbatından, yaxud da ki, səhlənkarlıq ucbatından bunlar illərlə yığılıb qalır, öz həllini tapmır.

2005-ci ildə Azərbaycanda çox mühüm hadisələr baş verəcəkdir. İlk növbədə, bizim gələcəyimizi böyük dərəcədə təmin edəcək, xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə tikilən Bakı–Tbilisi–Ceyhan neft kəməri işə düşəcəkdir. Bu, dünya miqyaslı bir hadisədir və təkcə Azərbaycanın deyil, bütün qonşu region ölkələrin gələcəyinə güclü təsir edəcəkdir. İlk növbədə isə Azərbaycan xalqının inkişafı üçün, onun rifah halının yaxşılaşması üçün və ümumiyyətlə, iqtisadiyyatımızın inkişafı üçün mühüm rol oynayacaqdır. Bu, tarixi hadisədir. Bu ayın sonunda Bakıda biz Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istismara verilməsini qeyd edəcəyik və bir neçə aydan sonra kəmər tamamilə işə düşəcəkdir.

Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin tikintisi uğurla gedir. Eyni zamanda, «Şahdəniz» yatağından çıxarılacaq qaz Azərbaycana xidmət edəcəkdir. Bir neçə ildən sonra Azərbaycanda qaz qıtlığı tamamilə aradan götürüləcəkdir. Əlbəttə, bütün bu görülən işlər imkan verəcək ki, Azərbaycan daha da inamla inkişaf etsin, Azərbaycanda demokratikləşmə prosesləri sürətlə getsin və ölkəmiz daha da müasirləşsin.

2005-ci ildə parlament seçkiləri keçiriləcəkdir. Parlament seçkiləri hər bir ölkə üçün, həmçinin Azərbaycan üçün mühüm hadisədir. Şübhə etmirəm ki, seçkilər demokratik və şəffaf şəkildə keçiriləcəkdir. Biz hökumət olaraq bütün tədbirləri görəcəyik ki, parlament seçkiləri Azərbaycan xalqının iradəsini əks etdirsin və şübhə etmirəm ki, bu belə də olacaqdır. 2003-cü ildə prezident seçkiləri də məhz belə keçdi. Azərbaycan xalqının iradəsi seçkilərin nəticələrində öz əksini tapmışdı. Biz çalışmalıyıq ki, parlament seçkiləri də yüksək səviyyədə keçirilsin, artıq bizə bəlli olan müəyyən qüsurlar aradan götürülsün və beləliklə, Azərbaycan seçkilərdən sonra inamla, uğurla öz inkişafını davam etdirsin. Parlament seçkilərinin keçirilməsində seçki ərəfəsində görülən işlər çox mühümdür. Çünki seçkilər bir hadisə deyil, seçkilər bir prosesdir. Biz elə etməliyik ki, bu prosesin bütün mərhələlərində heç bir qanun pozuntularına yol verməyək və bütün namizədlər üçün eyni, bərabər şərait yaradaq. Bu çox vacibdir, çünki hər bir namizəd eyni hüquqa malikdir və burada heç bir ayrı-seçkilik edilməməlidir. Bu, eyni zamanda mətbuatda, televiziya kanallarında da öz əksini tapmalıdır. Biz özəl televiziya kanallarına göstəriş verə bilmərik.

Amma hesab edirəm ki, onlar da bu vəziyyəti başa düşməlidirlər və heç bir ayrı-seçkiliyə yol verilməməlidir. Eyni zamanda yerlərdə hər bir namizədə öz kampaniyasını aparmaq üçün bərabər imkanlar yaradılmalıdır. Həm qapalı şəkildə, eyni zamanda, açıq meydanlarda mitinqlərin keçirilməsi üçün şərait yaradılmalıdır. Seçki kampaniyası çərçivəsində bütün mitinqlərə icazə verilməlidir. Heç bir yerdə buna maneçilik törətmək olmaz. Bu hər bir vətəndaşın hüququdur və biz elə etməliyik ki,

bütün hüquqlar təmin edilsin. Ona görə indidən fikirləşmək lazımdır ki, müəyyən yerlər ayrılsın, bunlar həm namizədləri və onları dəstəkləyən insanları qane etsin, eyni zamanda, vətəndaşlarımızın gündəlik həyatına maneçilik törətməsin. Onu da deməliyəm ki, kompüterləşmiş dəqiq seçici siyahıları tərtib edilməli və bütün seçki məntəqələrində nümayiş etdirilməlidir.

Bu seçkilərdə ictimai rəyçilər iştirak edəcəklər. Düzdür, prezident seçkilərində də belə bir təcrübə olmuşdur və ictimai rəyçilər fəaliyyət göstərirdilər. Əlbəttə ki, bu dəfə də onlara şərait yaratmaq lazımdır və onların tərəfindən aparılacaq seçkilərdən sonrakı sorğular, yəni ekzitpollar da sərbəst şəkildə keçirilməlidir. Buna heç bir maneçilik törədilməməlidir, əksinə, əgər müraciət olunarsa, kömək göstərilməlidir.

Seçkilər ərəfəsində müxtəlif tədris proqramları keçiriləcək və seçki rəsmiləri bu tədris proqramlarında iştirak etməli və əməkdaşlıq etməlidirlər.

Əlbəttə ki, səslərin sayılması prosesi tam açıq və şəffaf olmalıdır və heç bir saxtakarlığa yol verilməməlidir. Əgər kimsə saxtakarlıqla məşğul olarsa, onlara qarşı ciddi tədbirlər görüləcək, ölçülər götürüləcək və o insanlar məsuliyyətə cəlb ediləcəklər. Biz seçkiləri tam şəffaf, ədalətli, demokratik şəraitdə keçirməliyik və əminəm ki, belə də olacaqdır.

* * *

*Prezidentin Administrasiyasının rəhbəri Ramiz Mehdiyev öz çıxışında qeyd etdi ki, Azərbaycan rəhbərliyinin uğurlu daxili və xarici siyasəti nəticəsində Dünya Birliyində ölkəmizin nüfuzu xeyli artıb, Avropa Birliyinə inteqrasiya prosesi sürətlənib. Odur ki, növbəti parlament seçkilərinin mütəşəkkil, demokratik və aşkarlıq şəraitində keçirilməsi son dərəcədə vacibdir. Prezident və bələdiyyə seçkilərində dünya standartlarına uyğun hüquqi baza əsasında seçki keçirmək təcrübəsi artıb, bu sahədə müsbət irəliləyişlər vardır.*

*Xüsusilə də seçicilərin fəallığı və mütəşəkkilliyi artır. Unutmaq olmaz ki, bu parlament seçkilərinin nəticələrinə əsasən öl-*

*kəmizə Dünya Birliyinin münasibəti müəyyənləşəcəkdir. Ötən seçkilərdə beynəlxalq müşahidəçilərin rəylərində özünə yer almış bəzi iradların və tənqidi qeydlərin tam aradan qaldırılması məqsədi ilə maarifləndirmə işlərinin gücləndirilməli olduğunu söyləyən natiq vurğuladı ki, həm seçicilərin, həm də seçki komissiyaları üzvlərinin qanunu tam bilmələri və ona riayət etmələri böyük əhəmiyyət daşıyır.*

*Prezidentin Administrasiyasının rəhbəri daha sonra dedi: «Seçicilərlə ciddi maarifləndirmə işi aparılmalı, məntəqə seçki komissiyaları üzvlərinin məsuliyyəti artırılmalı, səsvermə günü məntəqələrə kənar şəxslərin daxil olmasına yol verilməməlidir. Məlumdur ki, Milli Məclisə builki seçkilər əvvəlkindən fərqli olaraq, birmandatlı seçki dairələri üzrə keçiriləcəkdir. Siyasi partiyalar, siyasi partiya blokları, seçicilərin təşəbbüs qrupları və vətəndaşlar Milli Məclisə seçilmək üçün namizədləri hər bir seçki dairələri üzrə fərqli qaydada irəli sürəcəklər. Bu isə seçki dairələrində mübarizəni daha da gərginləşdirəcəkdir».*

*Seçki ərəfəsində yerinə yetirilməsi vacib olan tədbirlərdən bəhs edən natiq bununla bağlı qanunun tələb etdiyi şəkildə görülməli işlərlə əlaqədar tövsiyələri bir daha müşavirə iştirakçılarının nəzərinə çatdırdı, təşkilati, texniki tədbirlərin tam dəqiqliklə həyata keçirilməsinin vacibliyini vurğuladı.*

*Prezidentin Administrasiyasının rəhbəri Ramiz Mehdiyev yerli icra orqanları qarşısında duran vəzifələrdən də danışdı.*

* * *

*Müşavirəyə yekun vuran Azərbaycan prezidenti İlham Əliyev əlaqədar qurumların rəhbərlərinə müvafiq tapşırıqlar verdi.*

## ANS ŞİRKƏTLƏR QRUPUNUN PREZİDENTİ VAHİD NAXIŞ VƏ VİTSE-PREZİDENT MİRŞAHİN AĞAYEV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 may 2005-ci il*

**İ l h a m  Ə l i y e v**: Mən sizin verilişlərə baxıram, izləyirəm, həmişə olduğu kimi, çox yüksək səviyyədədir. Mən bunu bir dəfə demişəm, ANS telekanalı Azərbaycanda aparıcı telekanaldır. Siz bu yüksək səviyyəni saxlayırsınız, öz müstəqilliyinizi saxlayırsınız. Bu çox vacibdir. Artıq Azərbaycanda müstəqil mətbuat formalaşıbdır. Bu bizim cəmiyyətimizin gələcək inkişafı üçün çox lazımdır. Bütün demokratik ölkələrdə, o cümlədən Azərbaycanda da mühüm rol oynayır. Bilirsiniz ki, sabiq prezident Heydər Əliyev də bu məsələlərə daim böyük diqqət göstərirdi, kömək göstərirdi. Özü də baxmırdı ki, bu orqanlar hansı istiqaməti tutur, siyasi baxışları necədir. Çünki burada heç bir ayrı-seçkilik olmamalıdır. Biz ümumi dövlət qururuq. Qanunun aliliyi məsələsi çox mühümdür. Hər bir cəmiyyət, hər bir insan, hər bir mətbu orqan öz fikrini sərbəst, azad şəkildə bildirməlidir. Bu siyasət indi də davam etdirilir və mən çalışıram ki, əgər ehtiyac varsa, bütün bu mətbu orqanlara kömək göstərim.

Mən istəyirəm ki, bu sahədə azadlıq olsun, sərbəstlik olsun. Çünki hər bir demokratik cəmiyyətin formalaşmasında, güclənməsində kütləvi mətbuat mühüm rol oynayır. Ona görə demək istəyirəm ki, sizin telekanalın verilişlərinə maraqla baxıram. Xüsusilə tənqidi verilişlərə. Bu mənim üçün də bir siqnaldır. Əlbəttə, prezidentin müxtəlif mənbələrdən məlumatı var, yerlərdən, müxtəlif qurumlardan mənə məlumatlar daxil olur. Amma yeni bir baxış, məsələyə yeni bir yanaşma, hansı ki, sizin kanalınızda öz əksini tapıbdır, bu da çox vacibdir.

Onu da bilirsiniz ki, xalqımızın ümummilli lideri həmişə sizin kanala baxandan sonra, o tənqidi verilişləri görəndə dərhal reaksiya verirdi, dərhal göstərişlər verirdi. Yəni bu daha çox faydalıdır, cəmiyyət üçün faydalıdır, fikir müxtəlifliyi, söz azadlığı mühüm amillərdir. Əgər biz doğrudan da demokratik cəmiyyət qurmaq istəyiriksə – mənim məqsədim bundan ibarətdir – hamı bunu bilməlidir.

Mətbuata heç bir təzyiq olunmamalıdır. Şəxsən mən heç vaxt mətbuata qarşı heç bir addım atmamışam və atmayacağam da və heç vaxt məhkəməyə də verməyəcəyəm. Baxmayaraq ki, müxtəlif mətbuat orqanlarında mənim haqqımda da yalan və təxribat xarakterli məlumatlar mütəmadi qaydada verilir. Mən bunu özümə rəva bilmərəm, dövlət məmurlarına da, hökumət işində işləyənlərə də tövsiyə etmişdim ki, onlar da etməsinlər. Bu bir keçid dövrüdür. Mən əminəm ki, bir neçə ildən sonra Azərbaycanda bu sahədə normal münasibətlər yaranacaqdır.

Gərək mətbuat heç bir siyasi qüvvənin təsiri altına düşməsin. Müstəqil olsun, heç bir siyasi sifarişi yerinə yetirməsin, heç bir partiyaya xidmət etməsin. Əgər biz inkişaf etmiş ölkələrin televiziya kanallarına və yaxud mətbuatına fikir versək görərik ki, orada əksər mətbuat heç bir partiyaya məxsus deyildir. Çox nadir hallarda bunlara rast gəlmək mümkündür. Amma əksər telekanallar müstəqildir, ictimai əsaslarla fəaliyyət göstərir. Əsas aparıcı qəzetlər də həmçinin. Bu, Azərbaycanda da yaranacaqdır. Sizin kimi kanalın fəaliyyəti məhz bu istiqamətdə atılmış addımları gücləndirir. Çünki siz müstəqil telekanalsınız, heç bir siyasi qüvvəyə xidmət etmirsiniz. Sizin böyük təcrübəniz, Azərbaycanda özünəməxsus yeriniz var. Belələri nə qədər çox açılsa, bizim üçün o qədər də yaxşıdır. Mən ümid edirəm ki, bir neçə ildən sonra Azərbaycanda mətbuat tam mənada müstəqil olacaq, siyasi sifarişlərdən və siyasi partiyaların təsirindən çıxa biləcəkdir. Amma buna vaxt lazımdır və burada həm hökumətin üzərinə vəzifələr düşür, həm də mətbuatın məsuliyyəti artır.

Mən bu gün bu fikirləri sizinlə bölüşmək istəyirəm. Xüsusilə qeyd etmək lazımdır ki, biz bu yaxınlarda mətbuat gününü qeyd

etdik. Hesab edirəm ki, bizim mətbuatımız bundan sonra da dövlətimizə, dövlətçiliyimizə xidmət edəcəkdir. Müxtəlif baxışlar ola bilər, necə deyərlər, müxtəlif siyasi tərəflər ola bilər, amma bizim bir vətənimiz var, bir müstəqil dövlətimiz var. Biz hamımız çalışmalıyıq ki, hərə öz yerində bunu gücləndirək. Siz də bu işdə çox mühüm funksiyanı daşıyırsınız.

Mən dünən sizin «Xəbərçi» verilişinə baxanda öz çıxışımı da gördüm. Mən yenə də o fikirdə qalıram ki, doğrudan da siz gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunmasında çox mühüm rol oynayırsınız. Sizin mövqeyiniz var, vətəndaş mövqeyiniz var. Mən də bunu dəstəkləyirəm və bəyənirəm. Bilirəm ki, sizin müxtəlif sahələrə dair mətbu orqanlarınız da çıxır. Bu da normal prosesdir. Yəni bu sahədə də təcrübəyə, çəkiyə malik bir qurumsunuz. Sizə yeni uğurlar arzulayıram. Arzu edirəm ki, siz bundan sonra da Azərbaycanın dövlət maraqlarına indiki kimi xidmət edəsiniz.

**V a h i d  N a x i ş**: Cənab Prezident, çox sağ olun ki, bizi dəvət etdiniz və bizimlə görüşdünüz. Doğrudan da, bu gün bu görüş lazım idi və yerinə düşür. Ona görə ki, son vaxtlar mediaya münasibət, demək olar ki, bir az fərqlidir. Ona görə ki, bunun bir tərəfini iqtidarla da bağlamaq olar, o biri tərəfini isə müxalifətlə bağlamaq olar. Bizim iqtidar tərəfdən çox böyük problemlərimiz onunla bağlıdır ki, bəzi məmurlar tərəfindən tənqidlərə və təhqirlərə məruz qalırıq. İkinci tərəfdən, peşə tərəfdən onu demək istəyirəm ki, lazım gələndə məmurlardan müsahibə ala bilmirik. Onları tapa bilmirik və əksər hallarda onlar, sadəcə olaraq, müsahibə vermək istəmirlər. Bu da bizim işimizdə çox böyük problemlər yaradır. Niyə? Ona görə ki, bizim verilişlərimiz birtərəfli olur və bu da öz növbəsində, bizim obyektivliyimizə və qərəzsizliyimizə böyük zərbə vurur.

Biz uzun müddət özümüz yaratdığımız konsepsiya əsasında çalışırıq və bu konsepsiya obyektivlik, qərəzsizlik və vicdanlılıq prinsipləri üzərində qurulubdur. Hər zaman çalışırıq ki, hər iki tərəfin mövqeyini səsləndirək, hər iki tərəfin mövqeyini göstərək. Lakin dediyim kimi, bu, son vaxtlar çox çətin başa gəlir.

Yəni Sizdən müsahibə götürmək daha asandır, nəinki məmurlardan. Siz bu gün mətbuat üçün daha açıqsınız, nəinki bəzi məmurlar. Hansılar ki, doğrudan da, məlumat verməklə bu və ya digər sahədə hansısa bir problemin həllinə yardımçı ola bilərlər. Yaxud hər hansı bir sahədə anlaşılmazlıq varsa, dəqiq məlumatla məsələni daha da aydınlaşdıra bilərik.

Mən təhqirlərlə əlaqədar məlumatı Sizə çatdırmaq istərdim. Son vaxtlar, doğrudan da Sizin dediyiniz kimi, rəhmətlik prezidentimiz Heydər Əliyev tərəfindən, Sizin tərəfinizdən həmişə biz dəstək görmüşük. 1994-cü ildə bizim telekanalımız sonuncu dəfə bağlananda mən məhz Sizə müraciət etmişdim və rəhmətlik prezidentimiz Heydər Əliyevlə bizim görüşümüzü Siz təşkil etmişdiniz. Onda o bizim fəaliyyətimizi bərpa etmişdi və o gündən bu günə qədər bizə qarşı belə bir bağlanma təhlükəsi və yaxud hansısa bir təzyiqlər yoxdur. Lakin sözsüz ki, müxtəlif səviyyələrdə təzyiqlər də olur. Bu, sadəcə olaraq bizim işimizdir, olmalıdır. Biz bunu bilirik və bu bizim gündəlik fəaliyyətimizin bir hissəsidir. Lakin çox təəssüflər olsun ki, bəzi hallarda bu təzyiqlər öz həddini aşır və açıq təhqirlərə keçir. Sözsüz ki, belə olan təqdirdə biz aciz qalırıq və yalnız və yalnız dövlətimizin mövcud qanunları çərçivəsində fəaliyyət göstərməyə məcbur oluruq.

**İ l h a m Ə l i y e v:** Əlbəttə ki, buna yol vermək olmaz. Heç bir təhqirlərə, təzyiqlərə yol vermək olmaz. Ümumiyyətlə, mətbuata aid olmayan məsələlərdə də bütün etika qaydalara riayət edilməlidir. Azərbaycan öz gələcəyini bu istiqamətdə görür. Biz artıq o çətin dövrdən çıxmışıq. Müstəqilliyimizin ilk illərində özbaşınalıq və anarxiya, saymamazlıq hökm sürürdü. Biz, Azərbaycan dövlətinin bütün vətəndaşları bundan çox böyük əziyyətlər çəkirdik. Bu gün Azərbaycan normal şəkildə inkişaf edir, demokratik inkişaf mövcuddur, ölkəmiz Avropa Birliyinə, Avropa strukturlarına inteqrasiya edir. Bizdə yeni mütərəqqi qanunlar qəbul edilir. Bizim mədəni həyatımız da çox zənginləşibdir. Belə olan halda, biz keçmişə qayıda bilmərik. Mən buna imkan verə bilmərəm.

Mən Azərbaycan dövlətinin demokratik inkişafının təminatçısıyam. Heç cür imkan verə bilmərəm ki, cəmiyyətimizdə yenidən qeyri-normal, qeyri-etik münasibətlər üzə çıxsın. Buna yol vermək olmaz. Xüsusilə mətbuatla münasibətlərdə çox təmkinli olmaq lazımdır, dözümlü olmaq lazımdır. Mətbuata heç vaxt hücum etmək olmaz. Xüsusilə dövlət işində işləyənlər tərəfindən, məmurlar tərəfindən, digər vəzifəli şəxslər tərəfindən bu yolverilməzdir. Mən yenə də deyirəm ki, özüm heç vaxt bunu etməmişəm, etməyəcəyəm də və bütün məmurlara deyirəm ki, məndən nümunə götürsünlər.

Bu məsələyə bu yaxınlarda keçirdiyim müşavirədə də toxunuldu. Mən də sizin fikirlərinizi bölüşürəm. Bizim nazirlərə də dedim ki, gedin, mətbuatla işləyin, müsahibə verin, bizim siyasətimizi izah edin. Azərbaycanın reallıqlarını, gerçəkliklərini əhaliyə, tamaşaçılara çatdırın. Çünki tamaşaçılarımızın hüququdur ki, bilsinlər hökumət necə işləyir, nazirlər necə işləyir, hansı məsələlər həll olunur, çatışmayan hansı cəhətlər var. Biz gərək bunu təmin edək.

Mən həmişə, keçmişdə də, bu gün də mətbuat üçün açıq olmuşam. Baxmayaraq ki, prezidentin çoxlu vəzifələri var və iş cədvəlim də çox gərgindir. Amma bütün hallarda mənə müraciət olunanda heç vaxt imtina etməmişəm. Çünki bu belə olmalıdır və normal cəmiyyətlərdə belə olmalıdır. Ona görə mən yenə də demək istəyirəm ki, mətbuata münasibətdə kobudluğa yol vermək olmaz, təhqirlərə yol vermək olmaz. Əksinə, hamı çalışmalıdır ki, Azərbaycanda mətbuat daha da inkişaf etsin. Çünki bizim ölkəmiz gəncdir. Əlbəttə, bizim böyük tariximiz var, zəngin mədəniyyətimiz var, çox şanlı tariximiz var. Amma müstəqil dövlət kimi, biz gəncik. Gənc müstəqil dövlətdə mətbuat da gəncdir.

Keçmiş sovet dövründə Azərbaycanda mətbuat yox idi. Biz kommunist sistemində yaşadığımız dövrdəki mətbuata mətbuat demək olmazdı. O, ideoloji sistemin, yaxud da proqramın tərkib hissəsi idi. Ona görə bizdə mətbuat sıfırdan yaranır, yenidən başlayır. Əlbəttə ki, bunun çətinlikləri var. Mətbuatın qüsurları

var. Mən deyə bilmərəm ki, burada vəziyyət bizi tam qane edir. Amma gərək biz reallıqla da hesablaşaq. Biz indiki bütün mətbu orqanlardan yüksək peşəkarlıq, yüksək səviyyə, yaxud da yüksək etika nümunələri gözləyə bilmərik. Buna vaxt lazımdır.

Yenə də deyirəm, sizin kimi müstəqil telekanalın fəaliyyəti məhz bu istiqamətdə də çox vacib bir addımdır. Necə deyərlər, sizin fəaliyyətiniz və mövcudluğunuz başqa yeni mətbu orqanlar üçün də bir yol göstərir. Ona görə mən hesab edirəm ki, bütövlükdə cəmiyyətimizdə bu fikirlər kifayət qədər yüksək səviyyədə qarşılanır. Amma ayrı-ayrı hadisələr ümumi mənzərəyə ləkə gətirməməlidir.

Əlbəttə, mətbuatın da məsuliyyəti vacibdir. Bəzi hallarda bu sahədə də müəyyən narazılıqlar mövcuddur. Amma, yenə də deyirəm, dövlət işində, hökumət işində çalışan hər bir insan gərək bu prinsipləri rəhbər tutsun. Əgər prezident bu mövqedədirsə, onun tabeçiliyindəki məmurlar lap belə fikirdə olmasalar da, bu siyasəti aparmalıdırlar. Yox, aparmasalar, mən onları dəyişəcəyəm. Çünki həm xarici, həm də daxili siyasəti biz müəyyən edirik və bütün məsuliyyəti də prezident kimi, mən öz üzərimə götürmüşəm. Azərbaycanda baş verən bütün hadisələr – tutaq ki, bilavasitə bununla əlaqəm olmasa da – cəmiyyətimizin, inkişafımızın müsbət və mənfi tərəfləri yenə də prezidentin adı ilə bağlıdır. Bu məsuliyyəti dərk edirəm. Mən buna hazıram və əlimdən gələni etməyə çalışacağam ki, bütün sahələrdə ölkəmiz müasirləşsin, demokratik dövlətə çevrilsin, insanlar rahat yaşasın, münasibətlər normal müstəvidə inkişaf etsin və Azərbaycan xalqının rifah halı yaxşılaşsın.

## BAKIDA «GÖN-DƏRİ» AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN MÜƏSSİSƏSİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*5 may 2005-ci il*

*Müəssisənin kollektivi mərasimdə iştirak etmək üçün buraya gələn Azərbaycan prezidenti İlham Əliyevi böyük hörmətlə və ehtiramla qarşıladı.*

*Prezident İlham Əliyev əvvəlcə müəssisənin sexləri, yardımçı sahələri ilə, quraşdırılmış müasir avadanlıqlarla yaxından tanış oldu. Respublikamızın başçısına məlumat verildi ki, 12 milyon ABŞ dollarından çox sərmayə qoyulmuş və yerli xammal əsasında fəaliyyət göstərəcək müəssisədə hazırda 600-dən çox işçi çalışır. Onların əməkhaqları 300 min manatdan 1 milyon manatadəkdir. Gələcəkdə yeni istehsal sahələrinin yaradılması ilə müəssisənin genişləndirilməsi hesabına əlavə iş yerləri də açılacaqdır. Hazırda işçilər pulsuz yeməklə təmin olunur, onların sağlamlığı ciddi nəzarətdə saxlanılır. Məhsullar Azərbaycan markası ilə buraxılır və xarici ölkələrə də ixrac olunur. Quraşdırılmış avadanlıq əsasən Türkiyədən, Rusiyadan, İtaliyadan, Monqolustandan, Almaniyadan gətirilmişdir. İldə 400–500 min ton qoyun, min ton qaramal dərisi qəbul olunacaqdır.*

*Azərbaycan prezidenti dərinin qəbulu, aşılanması, ilkin məhsula hazırlıq və ixrac üçün göndərilən malların tikilişi proseslərini yaxından izlədi, müəssisənin firma mağazalarındakı yüksək keyfiyyətli ayaqqabılara, çanta və gödəkçələrə baxdı.*

*«Gön-dəri» ASC-nin Baş direktoru Şirin Şuminov Azərbaycan prezidentini müəssisənin fəaliyyətinin genişləndirilməsini nəzərdə tutan yeni layihələr və idxal-ixracla bağlı təkliflərlə*

*tanış etdi. O, müəssisədə toxunmuş, üzərində xalqımızın ümummilli lideri Heydər Əliyevin və prezident İlham Əliyevin portretləri olan xalçaları dövlətimizin başçısına hədiyyə edərək dedi ki, cənab Prezident, bütün bu işlərin yaradıcısı ümummilli liderimiz Heydər Əliyev olmuşdur. Məhz onun seçdiyi bazar iqtisadiyyatı yolu bizi bu günə gətirib çıxarmışdır. Yoxsa indi bizim müəssisəmiz olmazdı, yəni Azərbaycanda çox şeylər olmazdı. Biz çalışacağıq ki, işimizlə Sizə dəstək verək. Çünki Sizin sosial-iqtisadi inkişaf proqramınıza uyğun çalışırıq. Siz hər zaman bizə, bütün sahibkarlara qayğı göstərirsiniz.*

*Prezident İlham Əliyev təşəkkür edərək dedi ki, bizim məqsədimiz yerli istehsalçıya çox əlverişli şərait yaratmaqdır. Bu bizim üçün yeni sahədir. Bütün bunlar aparılan islahatların nəticəsidir. Sahibkarlıq da inkişaf edir və güclənir. Biz kömək etməliyik. Dövlət gərək kömək etsin, sahibkar da işlə məşğul olsun, müasir səviyyədə müəssisə yaratsın, iş yeri açsın. Bundan həm özü, həm də dövlət xeyir götürəcəkdir. Burada şərait yaxşıdır, müasir müəssisədir. Gərək bizdə hər şey müasir olsun, yüksək səviyyədə olsun.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.*

**İ l h a m Ə l i y e v:** Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün çox gözəl bir gündür. Bu gün Bakıda gözəl bir müəssisənin açılışına toplaşmışıq. Mən bu münasibətlə sizin hamınızı ürəkdən təbrik edirəm.

Bu müəssisə dünyanın ən yüksək standartlarına cavab verir. Mən bu gün, demək olar, bütün sexlərlə tanış oldum və gördüm ki, burada ən yüksək səviyyə mövcuddur. Burada dünyanın ən gözəl avadanlığı quraşdırılıb, gözəl şərait yaradılıbdır. Bir sözlə, «Gön-dəri» fabriki Azərbaycanın yüngül sənayesinin flaqmanı hesab oluna bilər.

Mən çox şadam ki, burada həm böyük həcmdə investisiya qoyulur, eyni zamanda, işləyənlərin problemləri də öz həllini tapır. Sosial məsələlərə böyük diqqət göstərilir. Bina çox yüksək

zövqlə təmir olunub, çox bahalı materiallardan istifadə edilibdir. Mən bu gün qeyd etdim ki, burada təkcə müasir avadanlıqdan söhbət getmir, eyni zamanda, təmir işləri də çox yüksək səviyyədə görülübdür. Bu ümumi mədəniyyətin təzahürüdür və onu göstərir ki, burada işləyənlər, mütəxəssislər diqqətlə, qayğıyla əhatə olunublar.

Bu müəssisə bir müddət bundan əvvəl özəlləşdirilmişdir. O vaxta qədər bu müəssisə təxminən ətrafdakı müəssisələrə, binalara, sağdakı, soldakı binalara bənzəyirdi. O binalar da özəlləşdirilibdir. Amma baxın, onlar nə gündədir, bu bina necədir. Hesab edirəm ki, bu müəssisələri özəlləşdirənlər gərək utansınlar. Bir halda ki, müəssisələr özəlləşdirilib, gərək onlar yüksək səviyyədə fəaliyyət göstərsinlər. Ona görə mən hesab edirəm ki, əgər Azərbaycanda bütün sahibkarlar öz işinə, müəssisələrinə bu cür yanaşsalar, Azərbaycanda nəzərdə tutulmuş inkişaf daha da sürətlə gedə bilər.

Ölkəmizdə sahibkarlıq inkişaf edir. Bilirsiniz ki, bu sahəyə diqqət göstərilir və mənim sahibkarlarla dəfələrlə keçirdiyim görüşlərin məqsədlərindən biri də odur ki, sahibkara dəstək verilsin. Mən bu dəstəyi verirəm və sahibkarların da öz işlərinə böyük məsuliyyətlə yanaşdıqlarını görəndə çox sevinirəm.

Azərbaycanda sahibkarlıq daha da sürətlə inkişaf etməlidir. Bunun üçün dövlət və hökumət tərəfindən bütün lazımi tədbirlər görülür və görüləcəkdir. Sahibkarlara diqqət daha da artacaqdır. Özəlləşdirmə prosesi daha da sürətlə gedəcəkdir. Kreditlərin verilməsi davam etdiriləcək və onların həcmi də artırılacaqdır. Azərbaycanın iqtisadi inkişafı bu istiqamətdə davam edəcəkdir. Bütün inkişaf etmiş dövlətlərdə sahibkarlıq o ölkələrin iqtisadiyyatını müəyyən edir. Azərbaycan da bu yolu seçib və son illər ərzində sahibkarların fəallaşması, sahibkarlar sinfinin yaranması məni çox sevindirir.

Bu gün bizim iqtisadiyyatımızın təxminən 75 faizi özəl sektorda cəmləşib və gələcəkdə bu rəqəm artacaqdır. Güclü sahibkarlar sinfi Azərbaycanı gələcəkdə hərtərəfli inkişaf etdirmək

üçün çox mühüm rol oynayacaqdır. Mən gələcəkdə də sahibkarları dəstəkləyəcək və kömək edəcəyəm.

Bu müəssisədə Azərbaycanda son müddət ərzində aparılmış iqtisadi siyasətin müxtəlif istiqamətləri öz əksini tapıbdır. Bir tərəfdən bu, qeyri-neft sektorunun inkişafı deməkdir. Digər tərəfdən, yeni iş yerlərinin açılması deməkdir. İdxal olunan məhsulları əvəzləyən istehsalın yaranması deməkdir. Bir sözlə, bizim əsas iqtisadi inkişafımızın istiqamətləri burada təzahür edir və bu onu göstərir ki, bütün bu amillər bir yerdə cəmləşəndə nəticə də olur. Təsadüfi deyil ki, bizim iqtisadi siyasətimizin əsas istiqamətləri məhz bu prinsiplərə əsaslanır. Əgər biz bütün işlərdə, bütün sahələrdə bu prinsiplərə sadiq qalsaq və onları öz əməli işlərimizlə reallaşdırsaq, sübhəsiz ki, nəzərdə tutulmuş bütün proqramlar – iqtisadi inkişaf proqramları, regional proqramlar öz həllini tapacaq və sürətlə həyata keçiriləcəkdir.

Burada sosial məsələlərə diqqət göstərilir, sexlərdə gördüm ki, işçilər razıdırlar, insanların üzü gülür, əhval-ruhiyyə də yaxşıdır. Yüksək maaş olanda, yaxşı şərait olanda, qayğı göstəriləndə, əlbəttə ki, insanlar da razı olacaqlar. Bu çox vacib məsələdir. Əlbəttə, biz iqtisadiyyatımızı bazar münasibətləri əsasında qururuq və buna başqa alternativ ola bilməz. Amma eyni zamanda, insan amilini də unutmamalıyıq. İnsanlarımızın həyat səviyyəsinin yaxşılaşması üçün hamımız çalışmalıyıq. Həm dövlət, hökumət və həm də özəl sektor. Mən özəl sektorda da buna böyük diqqət göstərildiyini görəndə çox sevinirəm.

Mən bu fabriki inkişaf etdirən, buraya böyük məbləğdə investisiya qoyan insanları bir tərəfdən, təbrik edirəm, digər tərəfdən, Azərbaycan Respublikasının prezidenti kimi, onlara öz təşəkkürümü bildirirəm. Onlar böyük iş görüblər, gözəl müəssisə yaradıblar. Gözəl şərait yaradıblar. Biz bu müəssisənin gələcəyi haqqında qısa da olsa söhbət etdik. Mən çox şadam ki, burada genişlənmə aparılacaqdır. Əgər bu gün burada 600-dən çox adam işləyirsə, gələcəkdə onların sayı 1000–1500 nəfər olacaqdır.

Mən hesab edirəm ki, bu fabriki idarə edən insanlar gərək özlərini müxtəlif sahələrdə göstərsinlər. Bir halda ki, qısa müddət ərzində belə gözəl müəssisə yaradıblar, bu, deməyə əsas verir ki, onlar başqa sahələrdə də uğur qazana bilərlər və onlara bütün səviyyələrdə dəstək verilməlidir.

Ümumi iqtisadi inkişafımız da uğurla davam edir. Birinci rübün yekunlarının göstəriciləri müsbətdir. İqtisadiyyatımız təxminən 11 faiz artıbdır. Bu il Dünya Bankının verdiyi məlumata əsasən, Azərbaycan iqtisadi atrımın sürətinə görə dünyada lider ölkə olacaqdır. Əgər biz ilin əvvəlində iqtisadi artımı 14-15 faiz nəzərdə tutmuşduqsa, bu gün bizim apardığımız işlər, apardığımız islahatlar ona gətirib çıxarıb ki, Azərbaycanda iqtisadi artım təxminən 18 faiz olacaqdır. Digər iqtisadi göstəricilərdən də görünür ki, ölkə iqtisadiyyatı sürətlə inkişaf edir. Əhalinin pul gəlirləri birinci rübdə 23 faiz artıbdır. Qeyri-neft sektoruna investisiyalar 25 faiz artıbdır. Regionların sosial-iqtisadi inkişaf proqramı uğurla icra edilir, yeni iş yerləri açılır.

Əlbəttə, bütün bunlarla yanaşı, problemlər də az deyil və biz bunları bilirik, həll etməyə çalışırıq. Son aylar ərzində bizi ən çox narahat edən problem qiymətlərin artımı ilə bağlıdır. Bu məsələ dəfələrlə müzakirə edilibdir, bütün lazımi göstərişlər verilibdir. Artıq ilkin görülmüş tədbirlərin nəticəsində qiymətlər aşağı düşməyə başlayıbdır. Mən də məsələni məhz belə qoyuram ki, qiymətlər aşağı düşməlidir, 2004-cü ilin səviyyəsinə düşməlidir.

Sosial məsələlər həmişə bizim diqqət mərkəzimizdə olubdur. Bunlar prioritet məsələlərdir. Biz bu yaxınlarda minimum əməkhaqqının qaldırılması haqqında yenidən qərar qəbul edəcəyik və hər il, bəlkə də, ildə iki dəfə minimum əməkhaqqı qalxmalıdır. Minimum əməkhaqqının qalxması təkcə onu alanlara təsir göstərmir. Eyni zamanda, büdcədən maaş alan bütün başqa insanların məvacibinə təsir göstərəcəkdir.

Bir sözlə, bir tərəfdən sahibkarların, sahibkarlığın inkişafı, özəl sektorun güclənməsi, daxili investisiyaların artırılması, sahibkarlara gözəl şəraitin yaradılması, onların dəstəklənməsi və

digər tərəfdən, dövlətin sosial siyasəti, insanlara qayğının, diqqətin artırılması bizə imkan verir ki, qısa müddət ərzində Azərbaycanda mövcud olan problemlərin böyük əksəriyyətini aradan götürək. Bu istiqamətdə işlər görülür. Mövcud olan problemlər tədricən aradan qalxır və yeni problemlər yaranmır. Bu gün həllini tələb edən problemlər mövcud olan məsələlərdir. Yeni ciddi məsələlər qarşıya çıxmır. Prezident kimi, mən də çalışacağam ki, öz fəaliyyətimdə bütün bu məqsədlərə nail olmaq üçün əlimdən gələni əsirgəməyim.

Əziz dostlar, bu gün öz sevincimi ifadə etmək istəyirəm. Əlbəttə, mən buraya gələrkən mənə fabrikin inkişafı haqqında arayış verilmişdi, məruzə edilmişdi. Amma sözün doğrusu, mən təsəvvür etmirdim ki, burada bu dərəcədə yüksək səviyyədə işlər görülübdür. Bir daha demək istəyirəm ki, bu məni çox sevindirir. Çünki bilirsiniz, burada təkcə biznesdən söhbət getmir. Biznes vacibdir və bu, iqtisadiyyatın lokomotividir. Bunsuz heç bir ölkə, heç bir iqtisadiyyat inkişaf edə bilməz. Amma burada insanlara münasibəti görəndə, sosial məsələlərə diqqəti görəndə, ümumiyyətlə, bunu yaradan insanların fədakarlığını, işə məhəbbətini görəndə, görəndə ki, doğrudan da, necə deyərlər, ürəkləri yanır, istəyirlər ki, gözəl bir müəssisə yaratsınlar, əlbəttə, bu onlara olan hörmətimi daha da artırır.

Mən sizin hamınızı bir daha ürəkdən təbrik edirəm. Burada işləyənlərə uğurlar arzulayıram. Buranı idarə edənlərə də arzulayıram ki, gələcəkdə daha da böyük işlər görsünlər. Mən də onları həmişə dəstəkləyəcəyəm. Sağ olun.

## «AZƏRİQAZ» VƏ «AZƏRENERJİ» SƏHMDAR CƏMİYYƏTLƏRİNİN SƏDRLƏRİ İLƏ GÖRÜŞ

*6 may 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Sabunçu rayon sakinləri ilə görüşdən sonra əhalini narahat edən problemlərin operativ həlli üçün «Azəriqaz» və «Azərenerji» səhmdar cəmiyyətlərinin sədrlərini qəbul etmişdir.*

*Prezident İlham Əliyev respublikanın yanacaq və enerji təchizatı ilə əlaqədar real vəziyyətə toxundu, əhalinin elektrik enerjisinə tələbatının ödənilməsi istiqamətində mühüm tədbirlərin görülməsinə baxmayaraq, bu sahədə çatışmazlıqların hələ də olduğunu və əhalinin bundan çox əziyyət çəkdiyini bildirərək dedi:*

– Siz məni həmişə inandırırsınız ki, bu sahədə vəziyyət yaxşıdır. Amma insanlar başqa cür fikirləşirlər. Hər halda onlar mənə yalan danışmazlar. Ona görə bu sahədə ciddi tədbirlər görülməlidir. Bütün obyektiv səbəblər bəllidir və bu barədə dəfələrlə müzakirələr aparmışıq. Amma eyni zamanda elə etmək lazımdır ki, burada heç bir problem olmasın.

Biz Rusiyadan ildə 5 milyard kubmetr qaz alırıq.

Ölkə daxilində 4 milyard kubmetr qaz hasil edirik. Amma əhalini qazla təmin edə bilmirik. Azərbaycanda elektrik enerjisinin istehsalı artır, idxalı da artır, amma problemlər həll olunmamış qalır. Bu yaxınlarda elektrik enerjisinin təminatının yaxşılaşdırılması ilə bağlı qərar qəbul edilib, proqram təsdiq edilibdir. Bu il kiçik həcmli stansiyalar quraşdırılacaqdır. Bu, vəziyyəti yüngülləşdirəcəkdir. Ancaq bununla yanaşı, başqa imkanlardan istifadə edib mütləq tezliklə təxirəsalınmaz ölçülər götürülməli-

dir ki, vəziyyət yaxşılaşsın, elektrik enerjisi və qazla təminat yaxşılaşsın.

Sayğacların quraşdırılması da gərək sürətlə getsin, əgər indiki templə davam etsək, ancaq 5 ildən sonra bütün sayğacları quraşdıra bilərik. İndi bəzi rayonlarda, harada ki, sayğaclar quraşdırılıb, həm insanlar az pul ödəyirlər, həm də elektrik enerjisi az sərf olunur. Ona görə sayğacların quraşdırılmasına ciddi fikir verilməlidir. Əgər əlavə vəsait lazım olarsa, biz onu ayırarıq. Bu məsələlərlə ciddi məşğul olmaq lazımdır. Əhalini bu gün ən çox narahat edən məsələlər elektrik enerjisi və qazla təminat sahəsində olan qüsurlardır.

*«Azəriqaz» Səhmdar Cəmiyyətinin sədri Əlixan Məlikov və «Azərenerji» Səhmdar Cəmiyyətinin prezidenti Etibar Pirverdiyev dövlətimizin başçısına qaz və elektrik enerjisi ilə təchizat sahəsindəki vəziyyət barədə ətraflı məlumat verdilər.*

*Prezident İlham Əliyev onları dinlədikdən sonra bu sahədə çatışmazlıqların aradan qaldırılması üçün ciddi tapşırıqlar verərək dedi:*

– Bu yaxınlarda səmt qazının hasil olunmasına başlanacaqdır və bu bizə imkan verəcək ki, əlavə həcm yaransın. Siz onu ilk növbədə, əhalinin təminatına verməlisiniz. «Azərenerji»yə verilən qazın həcmi artırılmamalıdır. Səmt qazının hamısı əhaliyə verilməlidir. «Azəri» yatağından səmt qazının çıxarılması may ayında nəzərdə tutulub və ilin sonuna qədər onun həcmi artaraq təxminən gündə 4 milyon kubmetr təşkil edəcəkdir. Elə etməlisiniz ki, Bakı şəhərində qaz qıtlığı aradan götürülsün.

Biz ildən-ilə qazın idxalını artırırıq. Səhv etmirəmsə, buna 2001-ci ildə başlamışıq və ilk illərdə 1 milyard kubmetr alırdıq, sonra 2 milyard, indi 5 milyard kubmetr qaz alırıq və buna ildə 300 milyon dollar pul ödəyirik. Amma yenə də qaz çatmır. Mən başa düşürəm ki, tələbat da artır. Amma elə çalışmalısınız ki, itkilər azalsın, nasaz vəziyyətdə olan xətlər təmir olunsun. Buna çox böyük diqqətlə yanaşın. Biz gərək əhalini narahat edən bütün problemləri operativ qaydada həll edək, o cümlədən bu problemi də.

İndi «Barmek» bu məsələlərlə məşğuldur, işlər görür. Ancaq insanları incitmək olmaz. Mən demişəm ki, kasıb təbəqədən pul yığılmamalıdır və bunu bir daha deyirəm. Biz kasıbçılıq şəraitində yaşayan insanların problemlərini anlamalıyıq. Kimin imkanı var, hamısını verməlidir, kimin imkanı yoxdursa, onlara diqqətlə yanaşmaq lazımdır. Əgər bu, dövlət başçısının siyasətidirsə, Azərbaycanda bütün qurumlar bu siyasətə uyğun fəaliyyət göstərməlidir. O cümlədən «Barmek» şirkəti. Mən başa düşürəm ki, bu, özəl şirkətdir və kommersiya əsasları ilə işləyir, amma Azərbaycanda fəaliyyət göstərir, Azərbaycan vətəndaşlarına xidmət göstərir. Ona görə Azərbaycanda gedən proseslərə uyğun formada fəaliyyət göstərməlidir. Siz də öz tərəfinizdən bu məsələlərə diqqəti artırın.

Ümumiyyətlə, Azərbaycanda elektrik enerjisi təminatı ilə bağlı heç bir problem olmamalıdır. Biz buna nail olacağıq. 52 ədəd kiçik həcmli elektrik stansiyasının alınması imkan verəcək ki, bu gərginlik aradan götürülsün. Biz ilk stansiyaları cənub bölgəsində tikəcəyik. Bu işlər nə vaxt başa çatacaq?

**Etibar Pirverdiyev:** Cənab Prezident, cənub bölgəsində, Astara rayonu ərazisində 10 ədəd modul tipli elektrik stansiyasının qurulması bu ilin sonunadək başa çatmalıdır.

**İlham Əliyev:** Bununla cənub bölgəsinin elektrik enerjisi ilə təminatında dönüş yaranacaqdır?

**Etibar Pirverdiyev:** Bəli, ciddi dönüş yaranacaqdır. Eyni zamanda, texniki itkilər tam azalacaqdır.

**İlham Əliyev:** Çox yaxşı. Hesab edirəm ki, bu çox düzgün addımdır. Çünki böyük stansiyaların tikintisi çox vaxt aparır. Biz onları da edəcəyik. Amma bu haradasa iki ilə başa çatacaqdır. Bu stansiyaları isə biz 2006-cı ilin sonuna qədər Azərbaycanın müxtəlif yerlərində tikib istifadəyə verəcəyik ki, vətəndaşlarımız elektrik enerjisi ilə təmin olunsun.

Sizə tapşırıram, sabah Sabunçu rayonuna gedin, vəziyyətlə tanış olun və orada camaatı narahat edən problemləri həll edin.

## FAŞİZM ÜZƏRİNDƏ QƏLƏBƏNİN 60-cı İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT

Əziz həmvətənlər!

Hörmətli müharibə veteranları!

Bu il İkinci dünya müharibəsində faşizm üzərində Qələbənin 60-cı ildönümü tamam olur. Bu müharibə miqyasına, iştirakçı dövlətlərin və döyüşən orduların sayına, vurulan maddi zərərin və insan tələfatının həcminə görə bəşər tarixində baş vermiş müharibələrin ən böyüyü və ən dəhşətlisi olmuşdur. İkinci dünya müharibəsi Yer üzünə hökmranlıq etmək iddiasında olan militarist qüvvələr, ilk növbədə isə faşist Almaniyası tərəfindən törədilmişdi. 1939-cu ilin sentyabrında başlanan müharibə qısa müddətdə bütün Avropanı bürümüş, daha sonra digər qitələrə də yayılaraq altı il davam etmişdi. 1941-ci il iyunun 22-də faşist Almaniyasının SSRİ üzərinə hücumu ilə Azərbaycanın da daxil olduğu Sovet İttifaqı faşizmlə ölüm-dirim mübarizəsinə qoşulmuş, tarixdə Böyük Vətən müharibəsi kimi tanınan müharibə başlanmışdı.

Müharibənin gedişində təcavüzkarlar ağlagəlməz vəhşiliklər törədərək milyonlarla insanı qətlə yetirmiş, şəhər və kəndləri xarabazarlığa çevirmiş, istehsal müəssisələrini və mədəniyyət abidələrini darmadağın etmişdilər. Lakin bəşəriyyətə fəlakət gətirən faşistlərin ağalığı uzun müddət davam edə bilməzdi. Müharibə illərində formalaşan antihitler koalisiyası ölkələrinin birgə səyləri nəticəsində 1945-ci ildə faşist Almaniyası və onun müttəfiqləri darmadağın edildi, İkinci dünya müharibəsi başa çatdı. Bu müharibədəki qələbə mütərəqqi qüvvələrin irtica, sivilizasiyanın barbarlıq, humanizmin insanlığa nifrət ideologiyası üzərində təntənəsi oldu.

Faşizm üzərində qələbənin qazanılmasına Azərbaycan xalqı da öz sanballı töhfəsini vermişdir. Rusiya, Ukrayna, Moldova və

Belarusun, Baltikyanı respublikaların, Şərqi Avropa ölkələrinin faşist əsarətindən azad edilməsində, Qərbi Avropada genişlənən Müqavimət Hərəkatının uğur qazanmasında həmvətənlərimiz mühüm rol oynamışlar. 1941–1945-ci illərdə 700 minə yaxın həmvətənimiz ön cəbhəyə yollanmış, qəddar düşmənlə mərdliklə vuruşmuşdur. Onların yarısı döyüş meydanlarında qəhrəmancasına həlak olaraq geri qayıtmamışdır.

Azərbaycanlılar ön cəbhədə qəhrəmanlıq göstərməklə yanaşı, arxa cəbhədə də misilsiz fədakarlıq nümayiş etdirmiş, döyüşən ordunun yanacaq, silah, ərzaq və geyimlə təchiz olunmasına böyük kömək göstərmişlər. İkinci dünya müharibəsi əvvəlki müharibələrdən fərqli olaraq süvari və piyadaların deyil, ilk növbədə motorların – tankların, qırıcı və bombardmançı təyyarələrin, digər döyüş maşınlarının müharibəsi olmuşdur. Neft və neft məhsulları olmadan hərbçilər bu texnikanı hərəkətə gətirib düşmən üzərində qələbə qazana bilməzdilər. Müharibə illərində Azərbaycan neftçiləri bütün çətinliklərə baxmayaraq, misli görünməmiş rəşadət və fədakarlıq göstərərək silahlı qüvvələri kifayət qədər yanacaqla təmin etdilər. Bu gün hər bir azərbaycanlı fəxr edir ki, o dövrdə Sovet İttifaqında hasil edilən neftin 70 faizindən çoxu məhz bizim respublikanın payına düşmüşdür. Həmin illərdə azərbaycanlı neftçilər nəinki Bakı nefti ilə ön cəbhəni təmin etdilər, həm də Rusiyada yeni yataqlar açaraq neft sənayesi tarixinə «İkinci Bakı» ifadəsini yazdılar.

İkinci dünya müharibəsinin tarixi də göstərir ki, zora, işğala və təcavüzə əsaslanan, başqa xalqlara nifrət və düşmənçiliyə söykənən siyasət və ideologiya son nəticədə məğlubiyyətə və məhvə məhkumdur. Müharibənin məşəqqətlərini və məhrumiyyətlərini görmüş və indinin özündə də üzərində hiss edən xalqımız qətiyyətlə yeni qanlı müharibələrin və münaqişələrin əleyhinə çıxış edir. Biz on ildən artıq bir müddətdə Ermənistanın ərazi iddiaları və hərbi təcavüzü nəticəsində başlanmış Dağlıq Qarabağ münaqişəsinin dinc şəkildə, danışıqlar yolu ilə həllinə tərəfdar olduğumuzu dəfələrlə bəyan etmişik və bu gün də torpaqlarımızın Ermənistanın işğalından azad edilməsi üçün bey-

nəlxalq hüququn və diplomatiyanın verdiyi bütün imkanlardan istifadə edirik.

Azərbaycan rəhbərliyi ölkəmizin ərazi bütövlüyünün və suveren hüquqlarının tam bərpa ediləcəyinə, haqqın və ədalətin təntənəsinə inanır. Getdikcə güclənməkdə olan Milli Ordumuzun qüdrəti, Azərbaycan diplomatiyasının bütün istiqamətlər üzrə fəal hücumu, ölkəmizin iqtisadi potensialının dönmədən yüksəlməsi isə bizə haqq işimizdə uğur qazanmağa etibarlı təminat yaradır.

Faşizm üzərində qələbənin qazanılması zamanı və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda döyüşlərdə həyatını qurban vermiş bütün oğul və qızlarımızın xatirəsini bu əziz gündə dərin hörmət və ehtiramla yad edir və onlara Allahdan rəhmət diləyirəm. Əlamətdar hadisə – Qələbənin 60 illiyi münasibətilə həm ön cəbhədə vuruşmuş, həm də arxada fədakarlıq göstərmiş müharibə veteranlarını, Azərbaycanın hər bir vətəndaşını səmimi-qəlbdən təbrik edir, xalqımıza sülh, əmin-amanlıq, rifah və firavanlıq arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *6 may 2005-ci il*

## BÖYÜK VƏTƏN MÜHARİBƏSİNDƏ QƏLƏBƏNİN 60 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ NİTQ

*Heydər Əliyev Fondu*

*7 may 2005-ci il*

*Mayın 7-də Heydər Əliyev Fondunda Böyük Vətən müharibəsində Qələbənin 60 illik yubileyinə həsr olunmuş mərasim keçirilmişdir. Mərasimdə Azərbaycan Respublikasının prezidenti İlham Əliyev iştirak etmişdir. Veteranlar ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərinə aid eksponatlarla, o cümlədən həyatının ən müxtəlif anlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxsaylı fotoşəkillərlə, xalqımızın böyük oğluna həsr edilmiş kitablarla tanış oldular. Nadir fotolar bu dahi insanın olduqca zəngin və mənalı həyat yolu keçdiyini bir daha təsdiqləyir. Onun şəxsən özünün istifadə etdiyi əşyalar nadir və qiymətli eksponat kimi, müharibədə çətin yol keçmiş şəxslərin hər birinin diqqətini cəlb etdi. Veteranlar müstəqil Azərbaycanın qurucusunun respublikamıza rəhbərlik etdiyi təxminən 35 illik bir dövrün fotosalnaməsinə tamaşa etdilər. Son 10 ildə irimiqyaslı layihələrlə təkcə Azərbaycanı deyil, həm də Cənubi Qafqaz regionunu dünyaya bağlayan Heydər Əliyev neft strategiyasının həyata keçirilməsini əks etdirən fotolar, Azərbaycanın dünya ölkələri ilə dostluğunun möhkəmləndirilməsi istiqamətində ümummilli liderimizin xidmətləri xüsusi maraq oyatdı. Azərbaycan dövlətinin başçısı İlham Əliyev Böyük Vətən müharibəsi iştirakçılarının hər biri ilə səmimi görüşdü, onların qayğı və problemləri ilə*

*maraqlandı, veteranlara bundan sonra da daim diqqətlə yanaşılacağını və kömək göstəriləcəyini bildirdi.*

*Veteranlar ulu öndər Heydər Əliyevin tarixi xidmətlərini yada salaraq, onunla çəkdirdikləri fotoşəkilləri respublikamızın rəhbərinə göstərdilər və dedilər ki, cənab Prezident, bu gün xalqımızın, eləcə də bizim xilaskarımız Heydər Əliyevin bizə göstərdiyi diqqət və qayğını unutmuruq. Allah atanıza rəhmət eləsin, Siz onun xəttini bütün sahələrdə uğurla davam etdirirsiniz. Bütün bunlara görə Sizə təşəkkür edirik.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimlə nitq söylədi.*

**İlham Əliyev:** Əziz veteranlar!

Əziz dostlar!

Hörmətli xanımlar və cənablar!

Mən sizin hamınızı İkinci dünya müharibəsində faşizm üzərində Qələbənin 60-cı ildönümü münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, uzun ömür arzulayıram.

Mən çox şadam ki, biz bu gün birlikdəyik, bu qələbəni qeyd edirik. İstəyirəm biləsiniz ki, mən veteranlara bundan sonra da böyük qayğı ilə yanaşacağam. Sizin böyük xidmətləriniz olubdur, böyük yol keçmisiniz. Azərbaycan üçün, dövlətimizin inkişafı üçün böyük töhfələr vermisiniz. Hər bir vətəndaş, hər bir insan, xüsusilə vəzifəli şəxs sizə böyük diqqət və qayğı göstərməlidir. Mən tabeliyimdə olan bütün məmurlara da tapşırmışam ki, sizin problemlərinizlə məşğul olsunlar, lazımi işləri görsünlər ki, siz rahat yaşayasınız. Sizin buna haqqınız çatır. Siz Azərbaycan xalqının rifahı naminə fədakarcasına çalışmısınız.

İkinci dünya müharibəsi bəşər tarixində ən dəhşətli müharibə idi, ən qanlı müharibə idi. Azərbaycan Sovet İttifaqı tərkibində bu müharibədə fəal iştirak etmişdir. 700 minə yaxın Azərbaycan vətəndaşı müharibədə iştirak etmiş, qəhrəmancasına vuruşmuş, onların yarısı geri dönməmiş, həlak olmuşdur. Bu, böyük qəhrəmanlıqdır. Heç kim bu qəhrəmanlığı unutmamalıdır.

İkinci dünya müharibəsindən sonra, qələbədən sonra Avropada yaşayan bir çox xalqlar azadlıq əldə etmişlər. Ancaq Azər-

baycanın əsl azadlığı müstəqilliyimiz bərpa olunandan sonra əldə edildi. Ağır, çətin dövrdə Azərbaycan müstəqil dövlət kimi yaşamağa başlamışdır. Müstəqilliyimizin ilk illəri də ölkəmiz üçün çox çətin keçirdi, böyük təhlükələr mövcud idi. Yalnız və yalnız xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycana rəhbərliyə qayıdışından sonra vəziyyət dəyişməyə başladı, bütün təhlükələr aradan götürüldü və ölkəmiz inamla inkişaf etməyə başladı.

Bu illər ərzində, son 10-11 il ərzində Azərbaycan böyük uğurlar əldə etmişdir. Ölkəmiz dünyadakı mövqelərini möhkəmləndirmiş, iqtisadi islahatlar prosesi daha da sürətlənmişdir. Bu gün Azərbaycan regionda tutduğu mövqelərə görə lider ölkədir.

Bilirsiniz ki, İkinci dünya müharibəsində arxa cəbhədə fəaliyyət göstərən insanların əməyindən çox şey asılı idi. Onu da hamımız bilirik ki, İkinci dünya müharibəsi motorlar, tanklar, təyyarələr müharibəsi idi. O vaxt Sovet İttifaqının neft potensialının, demək olar ki, böyük əksəriyyəti Azərbaycanda cəmləşmişdi. Sovet İttifaqında hasil olunan neftin 75 faizini Azərbaycan neftçiləri çıxarmışdı. Həmin neft emal olunub, yanacağa çevrilib ümumi qələbəmizə xidmət etmişdir. Bunu indi hamı etiraf edir, bütün dünyada etiraf edirlər ki, əgər Azərbaycan nefti olmasaydı, müharibənin nəticələri tam başqa ola bilərdi.

Ön cəbhədə vuruşmuş, arxa cəbhədə çalışmış bütün insanlar böyük hörmətə layiqdirlər. Gələcək nəsillərin formalaşması üçün sizin nümunəniz çox önəmlidir. Bizim gənc nəslimiz vətənpərvərlik ruhunda tərbiyə olunmalıdır, böyüməlidir. Bu istiqamətdə sizin müharibədən sonrakı fəaliyyətiniz, o cümlədən ictimai fəaliyyətiniz böyük əhəmiyyət kəsb edir.

Mən çox şadam ki, Azərbaycanda xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş ənənələr bu gün davam etdirilir. Bilirsiniz ki, müstəqilliyimizin ilk illərində bəzi qüvvələr 9 May bayramını da ləğv etmək istəmişdilər və veteranlara münasibət dəyişmişdi. Biz bunu indi də bəzi ölkələrdə görürük. Görürük ki, bəzi ölkələrdə veteranlara münasibət o qədər də

ədalətli deyildir. Amma xalqımızın ümummilli lideri 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıdandan sonra vəziyyət tamamilə dəyişdi, bütün o mənfi meyllər aradan götürüldü və veteranlara layiq olduqları münasibət göstərilməyə başlandı. Ədalət bərpa edildi və 9 May Qələbə günü Azərbaycanda geniş qeyd olunur.

Bu gün bu siyasət Azərbaycanda davam etdirilir. Mən dəfələrlə bəyan etmişəm ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasəti bütün sahələrdə davam etdiriləcəkdir. Bu bizə yeni uğurlar, yeni qələbələr gətirəcək, Azərbaycan xalqı daha yaxşı yaşayacaq, sosial məsələlər daha sürətlə öz həllini tapacaqdır. Xüsusilə sosial müdafiəyə ehtiyacı olan təbəqələrə daha böyük yardımlar göstəriləcək, əməkhaqları, pensiyalar qaldırılacaqdır. Əlbəttə, veteranlara diqqət bundan sonra da yüksək səviyyədə olacaqdır.

Mən çox şadam ki, bu gün Heydər Əliyev Fondu belə gözəl tədbir keçirir. Heydər Əliyev Fondu Azərbaycanın ictimai həyatında çox fəal iştirak edir, çoxlu proqramlar həyata keçirir, xüsusilə əsas diqqət sosial məsələlərə göstərilir. Kimsəsiz uşaqlara, çətin vəziyyətdə yaşayan insanlara yardım olunur. Hesab edirəm ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin adı verilmiş fondun fəaliyyəti daşıdığı ada layiqdir.

Mən bu gün çox şadam ki, biz burada sizinlə birlikdəyik, Qələbə gününü birlikdə qeyd edirik. Mən sizin hamınızı yenidən görməyimə çox şadam. Çox şadam ki, siz gümrahsınız, həmişə olduğu kimi cavansınız.

Arzu edirəm ki, həmişə belə qalasınız. Mən sizin hamınızı Qələbə günü münasibətilə bir daha ürəkdən təbrik edirəm. Arzu edirəm ki, ömrünüz uzun olsun, çox yaşayasınız və doğma xalqımıza, millətimizə bundan sonra da ləyaqətlə xidmət edəsiniz.

Bayramınız mübarək olsun!

## BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB TONİ BLEYRƏ

Hörmətli cənab Baş nazir!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Sizin Baş nazir kimi fəaliyyətiniz dövründə Azərbaycan ilə Birləşmiş Krallıq arasındakı münasibətlər yeni inkişaf mərhələsinə qədəm qoymuş, əməkdaşlığımızın daha da dərinləşdirilməsi, əlaqələrimizin hərtərəfli genişləndirilməsi istiqamətində ciddi addımlar atılmışdır.

Bu gün bizim həyata keçirdiyimiz irimiqyaslı transmilli layihələrdə ölkənizin yaxından iştirakı və əhəmiyyətli rolu xüsusi məmnunluq doğurur. Ümidvaram ki, biz bundan sonra da xalqlarımızın mənafelərinə uyğun olaraq, əməkdaşlığımızın inkişafı üçün ardıcıl səylər göstərəcəyik.

Bir daha Sizə öz təbriklərimi yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, dost xalqınızın rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 may 2005-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MOSKVAYA İŞGÜZAR SƏFƏRİ

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev faşizm üzərində Qələbənin 60 illiyinə həsr olunmuş tədbirlərdə iştirak etmək üçün mayın 8-də axşam Rusiya Federasiyasının paytaxtı Moskvaya işgüzar səfərə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev adına Beynəlxalq hava limanında Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola salmışlar.*

* * *

*Prezident İlham Əliyev həmin gün gecə Moskvaya gəlmişdir. Dövlətimizin başçısını «Vnukovo-2» hava limanında Rusiya Xarici İşlər nazirinin müavini Sergey Kislyak, Azərbaycanın Moskvadakı səfiri Ramiz Rizayev, səfirliyin əməkdaşları qarşıladılar.*

* * *

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev 1941–1945-ci illərin Böyük Vətən müharibəsində Qələbənin 60 illiyi münasibətilə mayın 9-da Moskvada keçirilən şənliklərdə iştirak etmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Kremlin yanında Rusiya prezidenti Vladimir Putin və xanımı səmimiyyətlə qarşıladılar.*

*Yubiley şənliklərinin başlıca hadisəsi Moskva qarnizonunun və müharibə veteranlarının iştirakı ilə Qızıl meydanda keçirilmiş parad olmuşdur. Tribunalardakı fəxri qonaqlar arasında öz misilsiz şücaətləri ilə böyük Qələbəni qazanmış,*

*dünyanı nasizm bəlasından qurtarmış İkinci Dünya müharibəsinin veteranları əyləşmişdilər.*

*Paradın başlanmasından əvvəl çıxış edən prezident Vladimir Putin dedi ki, «biz qələbəni özümüzün və başqalarının qələbəsinə bölməmişik. Müttəfiqlərin–Amerika Birləşmiş Ştatlarının, Böyük Britaniyanın, Fransanın və antihitler koalisiyasına daxil olan digər dövlətlərin, Almaniya və İtaliya antifaşistlərinin köməyini heç vaxt unutmayacağıq. Bu gün biz nasizmə müqavimət göstərmiş bütün avropalıların igidliyini layiqincə qiymətləndiririk. Ancaq biz onu da bilirik ki, Sovet İttifaqı müharibə illərində on milyonlarla vətəndaşını itirmişdir.Döyüş meydanlarında həlak olmuş əsgərlər arasında keçmiş SSRİ-nin bütün millətlərinin nümayəndələri vardır».*

*Rusiya prezidenti vurğuladı ki, 9 May bütün MDB ölkələri üçün müqəddəs tarixdir və biz o illərin hadisələri ilə bağlı xatirələri gələcək nəsillərə çatdırmağa borcluyuq.*

*Sonra hərbi parad başlandı. Paradda 700-dən çox hərbi qulluqcu, 2600 nəfər müharibə veteranı iştirak edirdi. Paradı 53 ölkədən gəlmiş dövlət və hökumət başçısı, habelə beynəlxalq təşkilatların rəhbərləri izləyirdilər.*

*Azərbaycan prezidenti İlham Əliyev həmin gün Rusiya prezidenti Vladimir Putin, ABŞ prezidenti Corc Buş, Polşa prezidenti Aleksandr Kvasnevski, Bolqarıstan prezidenti Georgi Pirvanov, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan, İtaliyanın Baş naziri Silvio Berluskoni və Belçika parlamentinin sədri Herman de Kroo ilə görüşüb söhbət etdi.*

*Hərbi paraddan sonra dövlət və hökumət başçıları adından Kremlin divarı yanında, Aleksandr bağında Naməlum əsgərin məzarı önünə əklil qoyuldu. Ali qonaqlar xatirə şəkli çəkdirdilər.*

*Həmin gün Dövlət Kreml sarayında Rusiya Federasiyasının prezidenti Vladimir Putinin və onun xanımının adından Böyük Vətən müharibəsində Qələbənin 60 illiyi münasibətilə təntənəli qəbul təşkil olundu. Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva qəbulda iştirak edirdilər.*

* * *

*1941–1945-ci illərin Böyük Vətən müharibəsində Qələbənin 60 illiyinə həsr olunmuş mərasimlərdə iştirak etmək üçün Moskvada səfərdə olan Azərbaycan Respublikasının prezidenti İlham Əliyev mayın 9-da Vətənə qayıtmışdır.*

## BAKIDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*Mayın 10-da, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin doğum günündə Bakı şəhərində, Heydər Əliyev adına sarayın qarşısında ulu öndərin abidəsinin təntənəli açılışı olmuşdur.*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Abidənin müəllifləri moskvalı heykəltəraşlar Mixail Nogin və Salavat Şerbakovdur. Hündürlüyü 5,2 metr, ağırlığı 2,4 ton olan abidə Rusiyanın Smolensk şəhərindəki «Olaks» Səhmdar Şirkətində tuncdan tökülmüşdür.*

*Açılış mərasimi münasibətilə fəxri qarovul dəstəsi düzülmüşdü. Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev abidənin rəmzi açılışını bildirən lenti kəsdi, abidə önünə əklil qoydu.*

*Müdafiə Nazirliyinin hərbi orkestrinin ifasında Azərbaycanın dövlət himni səsləndi.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.*

**İlham Əliyev:** Əziz xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 82-ci ildönümüdür. Bu gün biz burada Heydər Əliyevin abidəsinin açılışına toplaşmışıq. Abidə üçün yer axtaranda biz buranı seçdik. Çünki bura Heydər Əliyevin 1970-ci illərdə tikdirdiyi və bu gün onun adını daşıdığı sarayın önü-

dür. Eyni zamanda, bu yer həmişə insanlarla dolu olur. Bakı sakinlərinin və şəhərimizin qonaqlarının ən sevimli yerlərindən biridir. İnsanlar buraya tez-tez gəlirlər, dincəlirlər, istirahət edirlər. Heydər Əliyev həmişə insanlarla birlikdə idi, öz doğma xalqı ilə birlikdə idi. Bu abidə də həmişə insanlarla əhatə olunacaqdır.

Xalqımızın ümummilli lideri Heydər Əliyev bütün dövrlərdə Azərbaycana, Azərbaycan xalqına sədaqətlə xidmət etmişdir. Onun bütün həyat və fəaliyyəti bu məqsədə qulluq edirdi. Hələ 1970-ci illərdə Azərbaycana ilk dəfə rəhbər seçiləndə respublikanın hərtərəfli inkişafı üçün çox böyük işlər görmüşdür, Azərbaycanı irəliyə aparmışdır.

1969-cu ildə Azərbaycan Sovet İttifaqının tərkibində yaşayırdı və başqa respublikalarla müqayisədə ən geridə qalmış respublikalardan idi. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə ölkəmiz hərtərəfli inkişaf etdi, yeni müəssisələr, fabriklər, zavodlar tikildi. Bu gün Azərbaycanın iqtisadi və sənaye potensialını xeyli dərəcədə müəyyən edən zavodlar tikildi. Neft infrastrukturu yarandı. Əgər o vaxt bu infrastruktur yaranmasaydı, indi Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsində böyük çətinliklərlə üzləşə bilərdik. Məhz o illərdə Azərbaycan üçün və bugünkü müstəqil Azərbaycan üçün lazımlı infrastruktur yarandı. Kənd təsərrüfatında böyük inkişaf baş verdi. Kənddə yaşayan insanların rifah halı yaxşılaşdı. Azərbaycanın mədəni həyatında böyük hadisələr baş verdi.

Bir sözlə, 1970-ci illər Azərbaycanın inkişaf dövrü idi. Düzdür, biz o vaxt başqa ictimai-siyasi quruluşda yaşayırdıq. Amma buna baxmayaraq, əsl lider istənilən şəraitdə öz xalqına xidmət etməyə, onu gələcəyə aparmağa qadirdir. Təsadüfi deyil ki, 1982-ci ildə Heydər Əliyev Azərbaycanda rəhbər kimi öz vəzifəsini başa çatdıranda və Moskvaya Siyasi Büroya üzv seçiləndə Azərbaycan müttəfiq respublikalar arasında öndə gedirdi.

Ondan sonrakı dövr də Heydər Əliyevin həyatında çox əhəmiyyətli idi. O, Sovet İttifaqının rəhbərlərindən biri idi. İlk dəfə azərbaycanlı Sovet İttifaqında partiyanın Siyasi Bürosunun tər-

kibinə seçilmişdi. Əlbəttə, Moskvada işlədiyi beş il ərzində əlindən gələni edirdi ki, Azərbaycan daha da inkişaf etsin, öz imkanlarından istifadə edib Azərbaycanın sənaye və iqtisadi potensialının güclənməsinə öz köməyini göstərsin. O illərdə də Azərbaycan üçün çox əhəmiyyətli işlər görürdü.

Heydər Əliyev bütün dövrlərdə xalqı düşünürdü, milləti düşünürdü. 1970-ci illərdə ölkəmiz üçün yeni kadrların hazırlanmasına da böyük diqqət göstərirdi. Sovet İttifaqının aparıcı ali məktəblərinə minlərlə azərbaycanlı oxumağa getmişdi və bu gün o insanlar, gözəl peşəkarlar müstəqil Azərbaycana xidmət edirlər. 1970-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış məktəb fəaliyyətə başladı və bu gün Azərbaycanın Milli Ordusunda böyük vəzifələrdə xidmət edən insanlar məhz o məktəbin yetirmələridir. Sanki o, Azərbaycanın gələcəyini görürdü. Sanki bilirdi ki, Azərbaycan müstəqil olacaq, xalqımız azad olacaq, Azərbaycan Dünya Birliyinin üzvü olacaqdır.

Ondan sonrakı dövrdə müxtəlif hadisələr baş vermişdi. Amma bütün hallarda Heydər Əliyev öz səsini, öz sözünü həmişə deyirdi. 1990-cı ilin qanlı Yanvar hadisələrindən sonra, xalqımız üçün o çətin, ağır dövrdə öz haqq səsini ucaltdı, Sovet İttifaqı Kommunist Partiyasının və onun rəhbərliyinin apardığı siyasəti qətiyyətlə pislədi. O, xalqla birlikdə idi. Təsadüfi deyil ki, dərhal ona qarşı təzyiqlər başladı, təqiblər başladı. Ancaq bütün bunlara dözdü, əyilmədi, öz sözünü axıra qədər dedi və etiraz əlaməti olaraq uzun illər və sədaqətlə xidmət etdiyi Kommunist Partiyasından imtina etdi.

Ondan sonrakı dövr həm onun gələcək fəaliyyəti üçün, həm də Azərbaycanın müstəqilliyi üçün çox əhəmiyyətli və həlledici dövr olmuşdur. Artıq Moskvada o çətin şəraitdə, daim təhlükə altında qalmaq mümkün deyildi və Heydər Əliyev Azərbaycana gəldi. Amma Azərbaycanın o vaxtkı və ondan sonrakı rəhbərliyi onun nüfuzundan qorxaraq, Bakıda qalmasına imkan yaratmadı. O, Naxçıvana, doğulduğu yerə getdi və naxçıvanlılar onu dəstəklədilər. Naxçıvanlılar onu qorudular, o da naxçıvanlıları və

Naxçıvanı qorudu. Ermənilər bütün cəhdlərinə baxmayaraq, Naxçıvan barədə planlarını həyata keçirə bilmədilər. Heydər Əliyevin rəhbərliyi ilə əhali öz torpağını müdafiə etdi.

Çətin günlər idi, ağır anlar idi. Azərbaycanda gedən proseslər ölkəni uçuruma aparırdı. Ölkə faktiki olaraq dağılırdı. Total böhran, hakimiyyətsizlik, özbaşınalıq hökm sürürdü. Azərbaycanın gələcəyi, müqəddəratı şübhə altında idi. O illər xalqımızın gələcəyi üçün həlledici illər olmuşdur. Xalqın müdrikliyi özünü yenə də göstərdi, öz liderinə üz tutdu, onu dəvət etdi və xalqın tələbi ilə Heydər Əliyev 1993-cü ildə Azərbaycana qayıtdı, prezident seçildi. Ondan sonra ölkədə vəziyyət tədricən yaxşılığa doğru inkişaf etməyə başladı. Bütün təhlükəli amillər aradan götürüldü, qanunsuz silahlı dəstələr, silahlı birləşmələr tərksilah edildi, vətəndaş müharibəsinə son qoyuldu, atəşkəs əldə olundu və ölkə inkişaf etməyə başladı. Sabitlik, əmin-amanlıq yarandı ki, bunlar da hər bir ölkənin inkişafı üçün başlıca şərtdir.

1993-cü ildən 2003-cü ilə qədər, on il ərzində Azərbaycanın keçdiyi inkişaf, quruculuq yolu bir daha göstərdi ki, liderdən, onun apardığı siyasətdən çox şey asılıdır. Azərbaycan çətin vəziyyətdən şərəflə çıxdı. Ölkəmiz Dünya Birliyində özünə layiq yerini tuta bildi. İnteqrasiya proseslərinə qoşuldu. Azərbaycan dünyada böyük hörmətə malik bir ölkəyə, regionda lider dövlətə çevrildi. Azərbaycanda iqtisadi islahatlar aparılmağa başladı və nəticədə ölkəmizin iqtisadiyyatı sürətlə inkişaf etdi. Əgər 1993-cü ildə Azərbaycan regionun ən geridə qalmış ölkəsi idisə, bu gün ən aparıcı ölkədir. Əgər 1993-cü ildə Azərbaycanın xəzinəsi boş idisə, bu gün bizim valyuta ehtiyatlarımız 2 milyard dollara bərabərdir. Əgər o vaxt Azərbaycanda ordu çox ağır vəziyyətdə idisə, bu gün Azərbaycanda nizami ordu var və istənilən vəzifəni həll etməyə qadirdir.

1993-cü ildə Azərbaycan iqtisadiyyatı tənəzzülə uğrayan, geridə qalmış ölkə idisə, bu gün iqtisadi inkişaf sürətinə görə nəinki regionda, həm də dünyada lider dövlətdir. Bu yaxınlarda Dünya Bankı tərəfindən verilmiş açıqlamaya görə, iqtisadi inkişaf sürətinə görə Azərbaycan bu il dünyada birinci yeri tutacaq-

dır. Bütün bunlar Heydər Əliyevin siyasətinin nəticələridir və onlar bu gün də özünü göstərir, büruzə verir. Ardıcıl, məqsədyönlü, düşünülmüş siyasət nəticəsində Azərbaycan inamla inkişaf edir. Azərbaycan öz dövlət müstəqilliyini möhkəmləndirir, sözün əsl mənasında, tam müstəqil siyasət aparır. Bu, böyük xoşbəxtlikdir, böyük nemətdir. Bütün bunları bizə bəxş edən, vətəninə sədaqətlə xidmət edən ümummilli lider Heydər Əliyev Azərbaycan xalqının qəlbində daim yaşayacaqdır.

1990-cı illərdə Azərbaycan üçün, Azərbaycanın gələcəyi üçün, regionun inkişafı üçün çox əhəmiyyətli hadisələr baş verdi. Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə hazırlanmış Azərbaycanın neft strategiyası uğurla həyata keçirilməyə başladı. İndi biz bu strategiyanın nəticələrini görürük. İki həftədən sonra Heydər Əliyevin adını daşıyan Bakı–Tbilisi–Ceyhan neft kəməri istismara veriləcəkdir. Bu, Azərbaycanın gələcəyi üçün müstəsna əhəmiyyətə malik bir hadisədir. Ölkəmizə imkan verəcək ki, insanlarımız daha da yaxşı yaşasınlar, daha da yüksək maaş alsınlar, xalqımızın rifah halı yaxşılaşsın. İqtisadi inkişaf daha da sürətlə getsin. Gələcək illərdə Azərbaycanda bu vaxta qədər görünməmiş işlər görüləcəkdir. Sürətlə abadlıq, quruculuq işləri aparılacaqdır, ölkəmiz güclənəcək və müasir dövlətə çevriləcəkdir. Biz bunun əlamətlərini bu gün də görürük. Bütün görülən bu işlərin nəticəsində ölkədə gedən proseslər, ictimai-siyasi vəziyyət, sabitlik, iqtisadi inkişaf Azərbaycanı sözün əsl mənasında, çox inamla inkişaf edən ölkə kimi, dünyaya təqdim edir.

1990-cı illərdə ölkəmizin qarşısında duran bir çox məsələ öz həllini tapdı. Azərbaycan öz xarici siyasətini xalqın milli maraqlarına uyğun şəkildə apardı, iqtisadi inkişaf sürətlə getdi və bütün başqa sahələrdə uğurlar göz qabağındadır. Amma problemlər də var və bizim ən başlıca, ən əsas problemimiz olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həll edilməmişdir. Hamımız bilirik ki, bu məsələdə də Heydər Əliyev həmişə birmənalı və çox qətiyyətli mövqe tuturdu ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalı, işğalçı qüvvələr işğal edil-

miş torpaqlardan çıxmalı və Azərbaycanın suverenliyi bərpa olunmalıdır. Bu, prinsipial mövqedir və danışıqlar prosesində bizim üçün əsas məsələdir. Biz heç vaxt torpaqlarımızın itirilməsi ilə barışmayacağıq. Dağlıq Qarabağ problemi yalnız və yalnız beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü prinsipi əsasında öz həllini tapmalıdır. Çox sevindirici haldır ki, artıq dünya ictimaiyyəti də bunu gözəl dərk edir.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin insani keyfiyyətləri də çox yüksək idi. Demək olar ki, Azərbaycan xalqına xas olan bütün xüsusiyyətləri özündə əks etdirirdi. Müdriklik, mərdlik, güclü iradə, cəsarət – Azərbaycan xalqına xas olan bütün bu keyfiyyətlər Heydər Əliyevdə var idi.

İki il bundan əvvəl, 2003-cü il aprelin 21-də o, sarayda gələcək zabitlər qarşısında çıxış edərkən səhhəti pisləşəndə özündə güc tapıb iki dəfə yenidən kürsüyə qayıtmışdı. O həmin gün səhnədə yıxılmadı, ucaldı. O, bir liderlik nümunəsi idi. Dəmir iradə nümunəsi idi. Heydər Əliyev o səhnəni qalib kimi, qəhrəman kimi tərk etdi. Salonda oturanlara əl elədi və səhnəni tərk etdi.

O həmişə qalib gəlirdi. Heç kim və heç nə onu məğlub edə bilmədi. Qalib kimi yaşadı, öz xalqına xidmət etdi, qalib kimi də dünyadan getdi. Bizim vəzifəmiz, bizim borcumuz ondan ibarətdir ki, bu siyasəti davam etdirək. Prezident seçkiləri ərəfəsində və ondan sonrakı dövrdə bəyan etmişəm ki, mən bu yoldan dönməyəcəyəm, bu siyasətə sadiq olacağam və Azərbaycan xalqının dəstəyi ilə biz bu siyasəti bundan sonra da həyata keçirəcəyik. Azərbaycan qüdrətli dövlətə çevriləcəkdir, insanlarımız ildən-ilə daha da yaxşı yaşayacaqlar. Azərbaycan dünyadakı mövqelərini daha da inamla möhkəmləndirəcəkdir. Biz öz doğma torpaqlarımızı işğalçı qüvvələrdən azad edəcəyik.

Sülh yolu artıq 10 il davam edir. Amma biz ordumuzu da gücləndirməliyik. Bilirsiniz ki, orduya ayrılan xərclər ildən-ilə artır. Ordumuz bu gün istənilən vəzifəni yerinə yetirməyə qadirdir. Heydər Əliyevin siyasətini həm iqtisadi islahatların aparılmasında, həm də xarici siyasətin aparılmasında və bütün başqa

sahələrdə davam etdirəcəyik. Əlbəttə ki, onun sadiq olduğu azərbaycançılıq ideologiyasını biz bundan sonra da həyata keçirəcəyik.

Heydər Əliyev bizim aramızda deyildir. Amma onun siyasəti yaşayır, onun ideyaları yaşayır. Onun yaratdığı, qurduğu müstəqil Azərbaycan yaşayır və bundan sonra da yaşayacaqdır. Xalqımızın ümummilli lideri Heydər Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.

* * *

*Fəxri qarovul dəstəsi hərbi marş sədaları altında abidənin önündən keçdi.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yaxın qohumları ilə abidənin önündə xatirə şəkli çəkdirdi. Onlarla birlikdə bu əzəmətli abidəyə tamaşa etdilər.*

*Sonra dövlətimizin başçısı abidənin ucaldıldığı parkla tanış oldu.*

*Bildirildi ki, 23 min kvadratmetr sahəsi olan bu parkın yenidən qurulmasında xarici ölkələrdən gətirilmiş və yerli tikinti materiallarından istifadə olunmuşdur. Bu istirahət guşəsinə xüsusi yaraşıq verən səkkizguşəli fəvvarələr bütöv qranitlərdən hazırlanmışdır və dünyada bənzəri yoxdur.*

*Azərbaycan prezidenti İlham Əliyev paytaxt sakinlərinin ixtiyarına verilmiş bu istirahət guşəsində yaradılmış şəraitdən razı qaldığını bildirdi, görülmüş işləri yüksək qiymətləndirdi.*

**KAMERUN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB POL BİYYAYA**

Hörmətli cənab Prezident!

Kamerun Respublikasının milli bayramı – Respublika günü münasibətilə Sizi və bütün Kamerun xalqını öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 may 2005-ci il*

**YƏMƏN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ƏLİ ABDULLA SALEHƏ**

Hörmətli cənab Prezident!

Yəmən Respublikasının milli bayramı – Birlik günü münasibətilə Sizi və Sizin simanızda bütün Yəmən xalqını öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Yəmən arasındakı dostluq və əməkdaşlıq ənənələrinə əsaslanan münasibətlərin inkişafı bundan sonra da xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Yəmən xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 may 2005-ci il*

## BMT-nin UŞAQ FONDUNUN (YUNİSEF), İNKİŞAF PROQRAMININ (UNDP), ƏHALİ FONDUNUN (UNFPA) VƏ ÜMUMDÜNYA ƏRZAQ PROQRAMININ (WFP) İCRAİYYƏ ŞURALARININ ÜZVLƏRİNDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 may 2005-ci il*

*Dövlətimizin başçısı Azərbaycanın BMT strukturları ilə əməkdaşlığından məmnunluğunu ifadə edərək bu əlaqələrə ölkəmizin böyük əhəmiyyət verdiyini vurğuladı. Prezident İlham Əliyev BMT tərəfindən əvvəllər ölkəmizə göstərilən yardımların əhəmiyyətli olduğunu qeyd etdi.*

*Beynəlxalq təşkilatlarla, o cümlədən BMT ilə əlaqələrin yaxşı inkişaf etdiyini bildirən dövlətimizin başçısı BMT strukturları ilə birgə ölkəmizdə həyata keçirilən layihələrin əhalimizin, o cümlədən uşaqların, yaşlıların, kasıb təbəqənin, qaçqın və köçkünlərin vəziyyətinin yaxşılaşdırılmasına xidmət etdiyini söylədi.*

*Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, nümayəndə heyətinin bu səfəri BMT strukturlarının Azərbaycanda əldə olunmuş uğurlarla, inkişafla daha yaxından tanış olması üçün yaxşı imkan yaradacaqdır.*

*BMT-nin ölkəmizdəki rezident-əlaqələndiricisi Marko Borsotti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ildönümü günündə vaxt tapıb nümayəndə heyətini qəbul etdiyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi,*

*belə geniş tərkibdə heyətin Azərbaycana səfərinin BMT-də islahatlar çərçivəsində həyata keçirildiyini söylədi.*

*Nümayəndə heyətinin rəhbəri Forsyth Mejia dedi:*

– Cənab Prezident, nümayəndə heyətimizin ölkənizə səfərinin Azərbaycan xalqının böyük lideri, həyata keçirdiyi işlərlə dünya şöhrəti qazanmış siyasi xadim Heydər Əliyevin doğum gününə təsadüf etməsindən məmnunluq duyuruq. Biz BMT-nin müxtəlif strukturlarının Azərbaycandakı fəaliyyəti ilə tanış olmuşuq. Azərbaycan BMT-nin dörd mühüm təşkilatı tərəfindən bir nümunə kimi seçilmişdir. Biz əminik ki, ölkəniz haqqında hazırlayacağımız məruzə təkcə Azərbaycan üçün deyil, BMT-nin təmsil etdiyimiz dörd təşkilatı üçün də çox əhəmiyyətli olacaqdır.

## NORVEÇİN KRALI ƏLAHƏZRƏT V HARALDA

Əlahəzrət!

Norveç Krallığının milli bayramı – Konstitusiya günü münasibətilə Sizi və Sizin simanızda bütün Norveç xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Norveç arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətləri böyük məmnunluq doğurur. Ümidvaram ki, əlaqələrimizin hərtərəfli inkişafı daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Norveç xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 may 2005-ci il*

**NORVEÇ KRALLIĞININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB KYEL MAQNE BUNDEVİKƏ**

Hörmətli cənab Baş nazir!

Norveç Krallığının milli bayramı – Konstitusiya günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram.

Biz Azərbaycan–Norveç əlaqələrinin inkişafına xüsusi əhəmiyyət veririk. Əminəm ki, ölkələrimiz arasındakı dostluq münasibətlərinin, əməkdaşlığımızın daha da genişlənməsi üçün bundan sonra da ardıcıl səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 may 2005-ci il*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HEYKİ TALVİTİYE İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 may 2005-ci il*

*Görüş zamanı Avropa İttifaqı ilə əməkdaşlığın perspektivləri, regional sabitlik və təhlükəsizlik, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

## «AZƏRBAYCAN MÜƏLLİMİ» QƏZETİNƏ

Hörmətli jurnalistlər!

Azərbaycanda təhsilin inkişafında, maarifçilik ənənələrinin təşəkkülü və qorunub saxlanılmasında mühüm rol oynayan «Azərbaycan müəllimi» qəzetinin 70 illik yubileyi müstəqil respublikamızın ictimai həyatında əlamətdar bir hadisədir. «Azərbaycan müəllimi» qəzeti təsis olunduğu gündən etibarən Azərbaycanda təhsilin aktual problemlərinin işıqlandırılmasında, qabaqcıl pedaqoji təcrübənin təbliğində böyük xidmətlər göstərmiş, təhsil məsələləri üzrə ixtisaslaşmış jurnalistlərin formalaşmasında aparıcı rol oynamışdır.

Pedaqoji aləmdə nüfuz qazanmış qəzet təhsil işçilərinin elmi-metodik hazırlığının artırılması, peşəkarlıq səviyyəsinin yüksəldilməsi, müasir pedaqoji ideyaların yayılmasına xidmət etmişdir. Yüzlərlə müəllim, pedaqoq və alim bu mətbuat orqanında formalaşaraq cəmiyyətdə təhsil mütəxəssisi kimi tanınmışdır.

Müstəqil Azərbaycanda ümummilli liderimiz Heydər Əliyev tərəfindən təməli qoyulmuş islahatlar proqramının tərkib hissəsi olan təhsil strategiyasının həyata keçirilməsi və təbliğində, eləcə də təhsil sahəsində dövlət siyasətinin geniş ictimaiyyətə çatdırılmasında qəzetinizin fəaliyyəti təqdirəlayiqdir. İnanıram ki, «Azərbaycan müəllimi» qəzetinin kollektivi öz mütərəqqi ənənələrinə sadiq qalaraq bundan sonra da təhsilimizin inkişafına əzmlə xidmət edəcək, bu nəcib işdə qüvvə və bacarığını əsirgəməyəcəkdir.

Bu əlamətdar yubiley münasibətilə sizi səmimi-qəlbdən təbrik edir, hər birinizə cansağlığı və yeni nailiyyətlər arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *12 may 2005-ci il*

## YOXSULLUĞUN AZALDILMASI VƏ İQTİSADİ İNKİŞAF ÜZRƏ DÖVLƏT PROQRAMININ İCRASINA DAİR İLLİK KONFRANSDA NİTQ

*12 may 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev əvvəlcə sosial-iqtisadi inkişafa həsr edilmiş sərginin eksponatları ilə, burada toplanmış müxtəlif müvafiq ədəbiyyatla, beynəlxalq təşkilatların Azərbaycandakı iqtisadi göstəricilərə dair hesabatlarla yaxından tanış oldu.*

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bildiyimiz kimi, 2003-cü ildə Azərbaycanda Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı təsdiq edilmişdir. Bu gün bu konfransda görülən işlər təhlil ediləcək və əlbəttə ki, mövcud problemlər də diqqət mərkəzində olmalıdır.

Burada nümayiş etdirilən qısa film bir daha göstərdi ki, bu iki il ərzində yoxsulluğun azaldılması istiqamətində həqiqətən böyük işlər görülübdür. Amma bununla yanaşı, biz hamımız yaxşı bilirik ki, Azərbaycanda yoxsulluq şəraitində yaşayanların sayı hələ çoxdur. Düzdür, əgər biz bu məsələyə dünya miqyası baxımından yanaşsaq, görərik ki, dünya əhalisinin təxminən yarısı yoxsulluq şəraitində yaşayır. Azərbaycanda da bu proqram qəbul olunanda vəziyyət eyni idi. Amma görülən işlər nəticəsində, Azərbaycanda davam etdirilən islahatlar nəticəsində yoxsulluq şəraitində yaşayanların sayı ildən-ilə aşağı düşüb və bu gün haradasa 40 faiz təşkil edir.

Mən şübhə etmirəm ki, növbəti illərdə bu rəqəm kəskin şəkildə aşağı düşəcəkdir. Bunu deməyə əsas var. Çünki Azərbay-

can iqtisadiyyatının inkişaf sürəti, sosial sahəyə göstərilən diqqət onu göstərir ki, yoxsulluq şəraitində yaşayanların sayı yaxın zamanlarda kəskin şəkildə aşağı düşəcəkdir. Son nəticədə Azərbaycanda yoxsul adam olmamalıdır. Bu bizim hamımızın vəzifəsidir. Mən hesab edirəm ki, hamımız bu məqsədə qulluq etməliyik.

Mən çox şadam ki, Azərbaycanda bu ciddi məsələ ilə məşğul olan qurumlar çox fəal işləyirlər. Həm hökumət, həm sahibkarlar, həm qeyri-hökumət təşkilatları, həm də beynəlxalq təşkilatlar, həm dünyanın maliyyə təsisatları – biz hamımız birlikdə işləyirik. Çünki bu bizim ümummilli məsələmizdir, Azərbaycanın ən böyük problemlərindən biridir. Azərbaycanda son illər ərzində qəbul edilmiş müxtəlif proqramlar, sosial-iqtisadi, regional inkişaf proqramları məhz bu məqsədi güdür. Bu proqramların əsas məqsədi Azərbaycan xalqının rifah halını yaxşılaşdırmaq, Azərbaycanda güclü iqtisadiyyatın yaranmasına nail olmaqdır.

Təbii ki, əgər biz buna nail olsaq, Azərbaycanda yoxsulluğun səviyyəsi də aşağı düşəcəkdir. Bu gün Azərbaycan inkişaf sürətini gücləndirir. 2005-ci ilin birinci rübündə bu meyllər daha da güclənibdir və ümumi daxili məhsulun artım səviyyəsi təxminən 11 faizə çatmışdır. Dörd ayın yekunları isə onu göstərir ki, sənaye potensialının artımı təxminən 15 faizdir. Azərbaycanda heç vaxt müstəqillik illərində sənaye belə yüksək sürətlə artmırdı. Son on il ərzində bizim sənayenin artımı təxminən 5-6 faiz səviyyəsində idi. Bu ilin 4 ayında isə bu rəqəm 15 faizə gəlib çatıbdır. Yəni, bütün bu iqtisadi və makroiqtisadi göstəricilər bir daha sübut edir ki, bizim seçdiyimiz yol düzgün yoldur və biz bu yolla Azərbaycanı hərtərəfli inkişaf etdirə bilərik.

Bizim iqtisadi siyasətimizin müxtəlif istiqamətləri vardır. Bu barədə kifayət qədər danışılıbdır. Amma bir daha qeyd etmək istəyirəm ki, yalnız və yalnız bütün bu amillərin birləşdirilməsi nəticəsində biz qarşımızda duran məqsədə nail ola bilərik. Hökumət də öz tərəfindən əlindən gələni edir ki, Azərbaycanda biznes mühitinin yaxşılaşması da, sahibkarlığın inkişafı da daha

yüksək sürətlə getsin. Bilirsiniz ki, hökumət tərəfindən ayrılan kreditlərin həcmi ildən-ilə artır və bu il sahibkarlara güzəştli şərtlərlə 200 milyard manat kredit veriləcəkdir. Biz indiyədək verilmiş kreditlərin nəticələrini görməkdəyik. Həmin kreditlərin hesabına regionlarda çoxlu işlər görülübdür və biz bu il qərara gəldik ki, verilən kreditlərin həcmini və həddini qaldıraq. İndi 1 milyon dollara qədər kreditlər verilə bilər.

Hökumət sahibkarların digər problemləri ilə də məşğul olur. Məqsədimiz də ondan ibarətdir ki, Azərbaycanda güclü sahibkarlar sinfi yaransın. Hər bir inkişaf etmiş dövlətdə ölkənin iqtisadiyyatının inkişaf etdirilməsində sahibkarların müstəsna rolu vardır. Azərbaycan da bu yolu seçibdir. Dünya Birliyinə inteqrasiya yolunu seçibdir. Azərbaycanın iqtisadiyyatı bazar iqtisadiyyatı prinsipləri üzərində qurulub və təbii ki, bu istiqamətdə sahibkarların fəaliyyətindən çox şey asılı olacaqdır.

Digər tərəfdən, bildiyiniz kimi, Azərbaycanda əhalinin yarısı kəndlərdə yaşayır və aqrar sektorda çalışır. Aqrar sektorun inkişafında da artıq müsbət meyllər görünməkdədir. Əminəm ki, bizim qəbul etdiyimiz qərara əsasən yaradılmış «Aqrolizinq» şirkətinin fəaliyyəti nəticəsində kənddə yaşayan insanlar qısa müddət ərzində bu müsbət dəyişiklikləri hiss edəcəkdir. «Aqrolizinq» şirkətinin xətti ilə yeni texnika gətiriləcək, kəndlilərə, fermerlərə veriləcəklər. Onlara verilən kreditlərlə yanaşı, bu da imkan yaradacaq ki, kənd təsərrüfatı da sürətlə inkişaf etsin.

Kənd təsərrüfatında böyük potensial var. Həm iqtisadi potensial var, həm də təbiidir ki, bunun sosial mənası var. Çünki görülən işlərin son məqsədi Azərbaycan xalqının, Azərbaycan insanlarının daha da yaxşı yaşamasıdır, həyat səviyyəsinin qaldırılmasıdır. Bunu etmək üçün bizim düşünülmüş konsepsiyamız, proqramımız var və yoxsulluqla mübarizə proqramları da bu ümumi konsepsiyanın tərkib hissəsidir. Həm regionların inkişafı proqramının, həm yoxsulluğun azaldılması proqramının, həm də digər proqramların məqsədi birdir.

Mən çox şadam ki, keçən ilin fevralında qəbul etdiyimiz regionların inkişafı proqramı da uğurla icra edilir. O gündən bu

günə qədər Azərbaycanda 200 mindən çox yeni iş yeri açılıb və onların böyük əksəriyyəti daimi iş yerləridir. Çox sevindirici haldır ki, bu iş yerlərinin açılması regionlarda baş verir, qeyri-neft sektorunda baş verir. Əgər biz öz iqtisadiyyatımızı şaxələndirməsək, yalnız və yalnız iqtisadiyyatımızı neft amili üzərində qursaq, böyük uğurlar əldə edə bilmərik. Neft hasil edən ölkələrin təcrübələri onu göstərir ki, bu, yanlış yoldur. Biz neft amilindən sadəcə olaraq çox məharətlə istifadə etməliyik və edirik ki, Azərbaycanın iqtisadiyyatı hərtərəfli inkişaf etsin və gələcək nəsillərimiz neft amilindən asılı olmasınlar.

Əlbəttə, yoxsulluğun azaldılması üçün müasir infrastrukturun yaradılması da vacibdir. Biz bu istiqamətdə də böyük addımlar atırıq. Beynəlxalq maliyyə qurumlarının köməyi ilə Azərbaycanda yol layihələri həyata keçirilir, yeni müasir yollar tikilir, digər infrastrukturun yaranması üçün işlər görülür.

Bizim əhalimizi ən çox narahat edən elektrik enerjisi və qaz məsələləridir. Əminəm ki, bu sahədə görüləcək işlər qısa müddət ərzində öz bəhrəsini verəcəkdir. Artıq Azərbaycanda iki böyük elektrik stansiyasının tikintisi başlanır. Bu, əlavə 1000 meqavat güc yaradacaqdır. Amma bilirsiniz ki, bu çox böyük vaxt aparır. Ona görə də məsələni operativ qaydada həll etmək üçün təxirəsalınmaz tədbirlər görülməli və kiçik həcmli elektrik stansiyaları alınmalıdır. Artıq bu il Azərbaycanın cənub bölgəsində belə stansiyaların quraşdırılması nəzərdə tutulubdur. 2006-cı ildə isə Azərbaycanın bütün regionlarında bu stansiyalar quraşdırılacaqdır. Mən şübhə etmirəm ki, ondan sonra Azərbaycanda enerji qıtlığı çox kəskin şəkildə aşağı düşəcəkdir. Məqsəd isə ondan ibarətdir ki, neftlə zəngin olan Azərbaycanda heç vaxt enerji ilə bağlı heç bir problem yaranmasın. Mən əminəm ki, biz buna nail olacağıq.

Azərbaycanın gələcək iqtisadi perspektivləri də çox ürəkaçandır. Bu yaxınlarda Beynəlxalq Valyuta Fondunun verdiyi məlumata görə, Azərbaycan ümumi daxili məhsulun artım sürətinə görə 2005-ci ildə dünyada lider dövlət olacaqdır. Bu, böyük nailiyyətdir. Bu, böyük işlərin təzahürüdür.

Biz qarşımıza məqsəd qoymuşuq ki, ümumi daxili məhsulun həcmini iki dəfə artıraq. Mən şübhə etmirəm ki, biz buna qısa müddət ərzində nail olacağıq.

Azərbaycan şəraitində yoxsulluğu daha da çətinləşdirən Ermənistanın Azərbaycana qarşı etdiyi təcavüzün acı nəticələridir. Ermənistan rəhbərliyinin azərbaycanlılara qarşı apardığı etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq soydaşımız qaçqın-köçkün vəziyyətinə düşübdür. Biz çalışırıq ki, onların vəziyyətini yaxşılaşdıraq. Bilirsiniz ki, Dövlət Neft Fondundan ilk ödəmələr məhz qaçqınların və köçkünlərin sosial şəraitinin yaxşılaşdırılmasına yönəldilmişdir. Bu proses indi də davam edir. Hazırda Ağdam rayonu ərazisində yeni böyük şəhərcik tikilir, orada bütün müasir infrastruktur da nəzərdə tutulur. Mən prezident seçkiləri ərəfəsində verdiyim vədə sadiqəm və yenə də deyirəm ki, Azərbaycanda bir dənə də çadır şəhərciyi olmayacaqdır.

Mən bu yaxınlarda hökumətə və Dövlətqaçqınkoma göstəriş vermişəm ki, şəhərlərdə çətin şəraitdə yaşayan qaçqın-köçkünlərin problemləri ilə konkret məşğul olsunlar. Burada çoxlu yataqxanalar var ki, biz orada da şəraiti yaxşılaşdırmaq üçün onları təmir etməliyik.

Təhsil, səhiyyə sahələrinə də diqqət artırılır. Bilirsiniz ki, Azərbaycanın müstəqilliyinin ilk illəri çox ağır keçmişdir. İqtisadiyyatımız tamamilə dağıdılmışdı, iqtisadi böhran hökm sürürdü. Belə olan halda, əlbəttə, sosial məsələlərə diqqət göstərmək çətin idi. Çünki buna maliyyə resurslarımız çatmırdı. Bu gün Azərbaycan inamla inkişaf etdikcə, öz iqtisadi potensialını gücləndirdikcə, əlbəttə, bizim üçün ən önəmli sahələrə də diqqət artırılır. Təsadüfi deyil ki, 2005-ci ilin büdcəsində təhsil problemlərinin həllinə ayrılan xərclər 25 faiz artıbdır. Səhiyyə sahəsinə ayrılan xərclər isə 44 faiz artıbdır.

Əlbəttə, faizlər yüksəkdir. Amma onu da deməliyəm ki, bu bizi hələ ki, qane edə bilmir. Ancaq imkanımız buna çatır. İmkan daha da çox olduqca, əlbəttə ki, bu sahələrə daha böyük vəsait ayrılacaqdır. Uzun illər, onilliklər ərzində təhsil, səhiyyə infrastrukturlarına investisiyalar qoyulmamışdır. Ona görə bi-

zim məktəblərimiz, səhiyyə ocaqlarımız bu gün lazımi standartlara cavab vermir. Bu ona görə deyil ki, buraya diqqət az göstərilir, yaxud da biganəlik var. Sadəcə olaraq, buna imkanlar çatmır. İndi imkanlar yaranır və bizim niyyətimiz də artırılmış o xərclərdə öz əksini tapır. Mən əminəm ki, yaxın gələcəkdə bu sahələrə daha çox vəsait qoyulacaq və Azərbaycanda bu sahələr də inkişaf edəcək, dünya standartlarına cavab verəcəkdir.

Ətraf mühitin qorunması da bizim üçün çox vacib məsələdir. Xüsusilə neftin qalıqları ilə çirklənmiş torpaqların təmizlənməsi, meşə təsərrüfatının bərpası və digər məsələlər öz həllini tapmalıdır. Bu məsələlərlə bağlı bir neçə qərar qəbul edilib, sərəncamlar verilib, milli parklar yaradılıbdır. Keçmişdə ətraf mühitin qorunmasına böyük diqqət göstərilmirdi. Əgər xatırlayırsınızsa, Azərbaycan Sovet İttifaqının tərkibində olan zaman, ümumiyyətlə, biz «ekologiya» sözü eşitmirdik, heç belə bir məfhum da yox idi. Amma indi biz Azərbaycanın hərtərəfli inkişafı üçün, gənc nəslin sağlam böyüməsi üçün bu sahəyə də diqqət göstərməliyik.

Nəhayət, sosial sahənin ən başlıca istiqamətlərindən biri olan sosial müdafiənin güclənməsi məsələsi də gündəlikdədir. Burada nümayiş etdirilən qısa filmdə göstərildi ki, son müddət ərzində minimum əməkhaqqı, orta əməkhaqqı, orta aylıq pensiyalar dəfələrlə və kəskin surətdə qaldırılıb və bu proses davam edir. Minimum əməkhaqqının yenidən qaldırılması artıq müzakirə olunur və biz bunu edəcəyik. Hesab edirəm ki, bu, insanlarımızın həyat səviyyəsinə yaxşı təsir göstərəcəkdir.

Yenə də demək istəyirəm ki, bu bizi qane etmir. Bu gün Azərbaycanda minimum əməkhaqqı 125 min manatdır. Əlbəttə, bu, insanın normal yaşaması üçün imkan yaratmır. Amma əgər biz keçmişə nəzər salsaq görərik ki, il yarım bundan əvvəl bu məbləğ 60 min manat idi.

Bu gün Azərbaycanda orta əməkhaqqı ilk dəfə olaraq 500 min manatı keçmişdir. Yenə də əgər biz qonşu dövlətlərin təcrübəsinə nəzər salsaq, yaxud da keçmiş Sovet İttifaqı respublikalarına, MDB-nin üzvü olan ölkələrin təcrübəsinə nəzər salsaq

görərik ki, bu rəqəm, hər halda, böyük olmasa da, müqayisədə biz daha da öndəyik. Amma bu bizi qane etmir. Bizdə minimum əməkhaqqı da, orta əməkhaqqı da daha yüksək olmalıdır. Amma bunu etmək üçün gərək iqtisadiyyat inkişaf etsin. Sadəcə olaraq, məhsul olmayan yerdə, yaxud yüksək səviyyədə istehsal təşkil edilməyən yerdə maaşları qaldırmaq mümkün olmayacaqdır. Ona görə biz bütün səylərimizi iqtisadiyyatımızın inkişafına yönəldirik. Həm dövlət tərəfindən investisiya xərcləri artır, götürülən kreditlər bizə kömək edir və həm də sahibkarlar da öz sözlərini deməlidirlər. Bu da var və gedən proseslər məni sevindirir. Sahibkarlar artıq Azərbaycanda bir sinif kimi formalaşır, bir amil kimi Azərbaycanın həyatında mövcuddurlar. Arzu edirəm ki, onların cəmiyyətdə olan təsiri və çəkisi bundan sonra da artsın.

Mən güman edirəm ki, yoxsulluğun azaldılması istiqamətində bundan sonra da atılacaq addımlar bizə imkan verəcək ki, növbəti konfransda biz daha da sevindirici mənzərəni görək. Hər halda, bu vaxta qədər görülmüş və nəzərdə tutulan işlər belə deməyə əsas verir. Yoxsulluq səviyyəsinin 49 faizdən 40 faizə azaldılması artıq özü-özlüyündə çox gözəl göstəricidir. Amma vəzifəmiz də aydındır. Azərbaycanda heç kim yoxsulluq şəraitində yaşamamalıdır, yoxsul insan olmamalıdır. Mən ümid edirəm ki, gələcəkdə də bütün əlaqədar tərəflər – hökumət, beynəlxalq təşkilatlar, dünyanın maliyyə qurumları, sahibkarlar, qeyri-hökumət təşkilatları – biz hamımız bu məqsədə xidmət etməliyik. Əminəm ki, məqsədimizə çatacağıq. Bu yolda hamımıza uğurlar arzulayıram. Sağ olun.

## YAZIÇI ELÇİNƏ «İSTİQLAL»ORDENİNİN VƏ «XALQ YAZIÇISI» FƏXRİ ADININ VƏSİQƏSİNİN VƏ NİŞANININ TƏQDİMETMƏ MƏRASİMİ

*Prezident sarayı*

*13 may 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev 2003-cü ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin yazıçı Elçini Azərbaycanın yüksək mükafatı – «İstiqlal» ordeni ilə təltif etdiyini, 1998-ci ildə isə ona «Xalq yazıçısı» fəxri adı verildiyini xatırlatdı.*

*Prezident İlham Əliyev ad günü və həmin mükafatları alması münasibətilə yazıçını təbrik edərək dedi ki, siz uzun illər Heydər Əliyevlə birlikdə yüksək vəzifədə işləmisiniz. Bilirsiniz ki, onun sizə münasibəti çox müsbət olubdur, böyük hörmətlə yanaşırdı. Artıq bir ildən çoxdur ki, biz birlikdə işləyirik. Mən də birgə fəaliyyətimizdən çox razıyam. Həm hökumətdə, həm də ictimai həyatda sizin böyük rolunuz vardır. Bu gün böyük məmnuniyyətlə yüksək mükafatları sizə təqdim etmək istəyirəm.*

*Azərbaycan prezidentinə dərin təşəkkürünü bildirən yazıçı Elçin bildirdi ki, ötən əsrin 60-cı illərinin nəsli – yalnız ədəbiyyatda yox, musiqidə də, sənətdə də, rəngkarlıqda da, kinoda da – əslində, Heydər Əliyev məktəbinin nümayəndələri idi. Heydər Əliyev məktəbi həqiqi sənət nümunələrinin yarandığı bir dövrdür. O, ədəbiyyatın, sənətin qədrini bilən insan idi. Nə üçün?! Ona görə ki, xalqın marağı ilə nəfəs alırdı. O hamıdan yaxşı bilirdi ki, sənət nə deməkdir, sənət xalqa xidmət etməkdir. Əgər sən yaxşı bir əsər ortaya qoyursansa, bu, xalqa xidmətdir. Güman edirəm, inanıram və bilirəm ki, onun ruhu*

*çox şaddır. Ona görə ki, bu münasibət sizin simanızda davam edir. Həm şəxsi münasibət, həm də ədəbiyyata, sənətə, mədəniyyətə münasibət davam etdirilir. Sizə bir daha təşəkkür edir, cansağlığı, xoşbəxtlik arzulayıram.*

*Sonra prezident İlham Əliyev «İstiqlal» ordenini və «Xalq yazıçısı» fəxri adının vəsiqəsini və nişanını yazıçı Elçinə təqdim etdi.*

## XALQ YAZIÇISI MAQSUD İBRAHİMBƏYOVA «İSTİQLAL» ORDENİNİN TƏQDİMETMƏ MƏRASİMİ

*Prezident sarayı*

*13 may 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev Xalq yazıçısı, Milli Məclisin deputatı Maqsud İbrahimbəyovu 70 illik yubileyi münasibətilə təbrik etdi, Azərbaycan ədəbiyyatında onun rolunu, ictimai-siyasi fəaliyyətini yüksək qiymətləndirərək dedi ki, sizin böyük ictimai fəaliyyətiniz var. Eyni zamanda, cəmiyyətimizi narahat edən məsələlərə də özünəməxsus tərzdə həmişə münasibət bildirirsiniz. Bu da çox vacibdir. Siz cəmiyyətimizin çox fəal üzvüsünüz. Biz hamımız sizi sevirik və böyük hörmət bəsləyirik. Arzu edirəm ki, bu fəaliyyəti bundan sonra da davam etdirəsiniz və xalqımıza ləyaqətlə xidmət edəsiniz. Dövlətimizin başçısı İlham Əliyev «İstiqlal» ordenini Xalq yazıçısına təqdim etdi.*

*Maqsud İbrahimbəyov dövlətimizin başçısına təşəkkür edərək dedi ki, hörmətli cənab Prezident, bu gün mənə təqdim etdiyiniz «İstiqlal» ordenini ən yüksək mükafat kimi qəbul edirəm. Çox sağ olun. Sizə dərin minnətdarlığımı bildirirəm.*

* * *

*Mayın 14-də «Gülüstan» sarayında Xalq yazıçısı, Milli Məclisin deputatı Maqsud İbrahimbəyovun anadan olmasının 70 illiyinə həsr olunmuş yubiley mərasimi keçirilmişdir.*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev mərasimdə iştirak edirdi.*

*Prezident İlham Əliyev mərasimdə çıxış edərək, Xalq yazıçısı Maqsud İbrahimbəyovu 70 illik yubileyi münasibətilə təbrik etdi, onun ölkəmizin ictimai-siyasi həyatındakı fəaliyyətini yüksək qiymətləndirdi. Dövlətimizin başçısı yazıçının Azərbaycan ədəbiyyatında özünəməxsus dəst-xətti olduğunu, əsərlərinin respublikamızın tanınmasında mühüm rol oynadığını vurğuladı, ona yeni yaradıcılıq uğurları arzuladı.*

*Mərasimdə ölkəmizin ədəbiyyat, mədəniyyət, incəsənət xadimləri, respublika ictimaiyyətinin nümayəndələri iştirak edirdilər.*

# Q E Y D L Ə R

**1. Novruz bayramı** – qədim xalq bayramı. Şimal yarımkürəsində astronomik yazın başlandığı gecə-gündüz bərabərliyi günündə (martın 21–22-də ) keçirilir. Qədim zamanlardan başlayaraq İran, Azərbaycan, Əfqanıstan, Tacikistan, Özbəkistan və bəzi Şərq ölkələri baharın – yeni ilin gəlişini şənliklərlə qarşılayırlar. Respublikamız müstəqillik qazanandan sonra Novruz bayramı rəsmi ümumxalq bayramı və istirahət günü elan edilmişdir. – 5–6,7–17,20,21.

**2. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 5,9,14,35,37,40,41,42,53, 56,80,146,170,181,221,252,255,259,273,275,276,284,315.

**3. İçərişəhər** – Bakının qala divarları ilə əhatə olunan qədim hissəsi. Ərazisi 22 hektardır. Arxeoloji qazıntılar nəticəsində İçərişəhər ərazisində iki mədəni təbəqə müəyyənləşdirilmişdir. XIV–XVII əsrləri əhatə edən üst təbəqədən düzbucaqlı və dördkünc yaşayış evlərinin qalıqları, VIII–XIII əsrlərə aid alt təbəqədən düzbucaqlı formalı kiçik otaqların qalıqları, quyular və s. maddi mədəniyyət nümunələri aşkar edilmişdir.

İçərişəhər orta əsrlərdə Bakının əsas mərkəzinə çevrilmiş, XII əsrdə burada ilk qala divarları çəkilmişdir. Bu divarlar 25–30 m dənizin içərisinə uzanaraq İçərişəhərin qarşısında qapalı liman əmələ gətirmişdi. İçərişəhərin üç əsas – Şamaxı, Salyan və dəniz sahilinə açılan darvazası olmuşdur. İçərişəhərdəki Sınıqqala (1078), Qız qalası və s. Abidələr İçərişəhərin əvvəllər dənizə yaxın sahədə inkişaf etdiyini göstərir. XV

əsrdə Şirvanşahlar sarayı tikilmişdir. XVII əsrdə İçərişəhərdə çoxlu karvansara və ticarət binası inşa edilmiş, XVIII əsrdə isə Xan sarayı tikilmiş, yeni su kəmərləri çəkilmişdi. XIX əsrdə və XX əsrin əvvəllərində İçərişəhərin plan quruluşu dəyişdirilmədən köhnə binaların yerində əsaslı daş binalar tikilmişdir. Bu zaman qala divarlarının ikinci sırası sökülmüş və yalnız Şamaxı darvazasının yanında 2-ci darvaza tikilmişdir (1888). Beləliklə, qoşa darvaza əmələ gəlmişdir. 1977-ci ildə İçərişəhər Azərbaycan memarlığı tarixi qoruğuna çevrilmişdir. – 7–17,75.

**4. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–93-cü illərdə Krassnov adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan – İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talessimiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahı xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliginə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. – 7–17,20,59,75,91,92,93,110–111, 230,242,243,244,311,312,320.

**5. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qara-

bağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanları Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 8,9,12,13,31,33,34,36,37,44,45,80,83,109, 110,123,125,126,146,168,174,193,207,226–228,230,232,242,244, 254–261,267,268,269,273,274,275,276,284,288,291,295,306,307, 308,314–320,324,328,336.

**6. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Ərazisi 4 min km$^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 10,14,37,38,41,51,52,56,61,63,66, 69,70,85,86,87,88,98,99,132,136,137,138,140,143,145,155,157,

158,159,161,164,165,166,175,176,199,216,218,229,257,258,259,262,274,279,304,318,319.

**7. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətmizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 10,38,66,138,140, 143,155,157,158,164,165,192,196,323–324.

**8. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 10,38,62,72,87,121,122,162,166,192,217.

**9. Gürcüstan,** Gürcüstan Respublikası – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 5493 min nəfərdir. Dövlətin başçısı prezident,

qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 11,12–13,18,87,88,214,221–222,224.

**10. Mixail Nikolozoviç Saakaşvili** (d.1967) – hüquqşünas. 2003-cü ildən Gürcüstan Respublikasının prezidenti. 2000–2001-ci illərdə Gürcüstanda Ədliyyə naziri olmuşdur. Vahid Milli Hərəkat Partiyasının sədri, «məxməri inqilab»ın liderlərindən biridir. – 11,18,214,221–222,223–224.

**11. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti – YUNESKO-nun və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni numayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası fəaliyyət göstərir. Fondun strukturunda bir sıra qurumlar fəaliyyət göstərir. – 13, 18,110–111,306–309.

**12. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1219 milyon nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansiz), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszın) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı – Çin Xalq Respublikasının sədridir. Paytaxtı Pekindir. – 14,15,243.

**13. Atəşkəs rejimi** – 1994-cü il mayın 12-də Ermənistan–Azərbaycan arasında atəşin müvəqqəti dayandırılması (atəşkəs) haqqında müqavilə imzalandı. Müqaviləyə görə, müharibə

aparan tərəflər sülh müqaviləsi bağlanana qədər atəşin dayandırılması haqqında razılığa gəldilər. – 15.

**14. YUNESKO –** BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 17,110.

**15. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Ərazisi 9,14 milyon $km^2$, əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştata bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 19,21,22, 49–50,87,93,135,182,218,219,229,268,294.

**16. Mənsum İbrahimov,** M ə n s u m İ s r a f i l o ğ l u (d.1960) – muğam xanəndəsi, professor. Azərbaycan Respublikasının Xalq artisti. Azərbaycan Dövlət Opera və Balet Teatrının solistidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 20.

**17. Səkinə İsmayılova,** S ə k i n ə Q u l u q ı z ı (d.1956) – müğənni. Azərbaycan Respublikasının Xalq artisti. Səkinə İsmayılova muğamı qavalla ifa edən ilk qadın xanəndədir. Opera və Balet Teatrının səhnəsində əksər muğam operalarında aparıcı partiyaları – Leyli («Leyli və Məcnun»), Əsli («Əsli və Kərəm»), Gülbahar («Gəlin qayası») və s. ifa edir. – 20.

**18. «Azərbaycan Mədəniyyətinin Dostları»** – xeyriyyə fondu. 1995-ci ildə xeyriyyəçi, ictimai və siyasi xadim Mehriban xanım Əliyeva tərəfindən yaradılmışdır. Fəaliyyətə başladığı ilk günlərdən fond milli mədəniyyətimizin təbliği, inkişafı, ta-

nınması üçün çox böyük işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə təbliğ etmək üçün Azərbaycan, rus, ingilis dillərində «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. – 20.

**19. Con Horkins Universiteti** – ABŞ-ın Baltimor şəhərində (Merilend ştatı) əsası Con Horkins tərəfindən qoyulmuş özəl tədqiqat universiteti. Nankində, (Çin), Boloniyada (İtaliya) filialları var. Universitetin əsası 1876-cı ildə qoyulmuşdur və yaradılmasından 130 il keçməsinə baxmayaraq, dünyada ən qabaqcıl yerlərdən birini tutur. Universitetin elmi-tədqiqat işlərinə görə 34 Nobel mükafatçısı var. Universitetdə 150 dövlətdən –71 millətin nümayəndəsi olan 4400 tələbə təhsil alır. Burada görkəmli professor-müəllim heyəti tələbələrə incəsənət və musiqinin, humanitar, ictimai və təbiət elmlərinin, beynəlxalq tədqiqatların, təhsilin, biznesin və tibbin öyrənilməsində kömək edirlər. – 21.

**20. Cahangir Əsgərov,** C a h a n g i r C ə l a l o ğ l u (d.1950) – təyyarəçi. 1991–93-cü illərdə Aviasiya İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, 1996-cı ildən «Azərbaycan Hava Yolları» Dövlət Konserninin Baş direktorudur. – 22–24.

**21. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında,

nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə – Məsləhət Komitəsidir. – 22,25,28,105,335.

**22. «Boinq-747»** – amerikan sərnişindaşıma təyyarəsi. «Boinq-747» 13500 km məsafəyə 660 sərnişin aparır. Yükdaşıma qabiliyyəti 380 ton, sürəti saatda 940 km-dir. – 22.

**23. «AN-124»** – 4 motorlu sərnişin təyyarəsi. O.K.Antono-vun rəhbərliyi altında yaradılmışdır. Yükdaşıma qabiliyyəti 150 ton, sürəti saatda 850 km-dir. – 22.

**24. Lüksemburq,** Böyük Lüksemburq Hersoq-luğu – Qərbi Avropada dövlət. Sahəsi 2,6 min km$^2$, əhalisi 415 min nəfərdir. İnzibati cəhətdən 3 mahala bölünür. Lüksemburq konstitusiyalı irsi monarxiyadır. Dövlət başçısı böyük hersoqdur. Qanunverici orqanı Deputatlar palatasıdır (birpalatalı parlament). Paytaxtı Lüksemburqdur. – 25–26.

**25. Seneqal,** Seneqal Respublikası – Cənubi Afrikada dövlət. Sahəsi 196,2 min km$^2$, əhalisi 8,5 milyon nəfərdir. İnzibati ərazisi 10 vilayətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Dakardır. – 27.

**26. Abdulay Vad** (d.1926) – 2000-ci ildən Seneqal prezidenti. Abdulay Vad Afrika Birləşmş Ştatları yaratmaq ideyasının tərəfdarıdır. – 27.

**27. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Ərazisi 17075,4 min $km^2$, əhalisi 146,3 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı – Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir.–28–29,32,47–48,85,87,109–111,123–126,189,294, 303,304,311–313.

**28. Federasiya Şurası** – 1990-cı il Rusiya Federasiyası Konstitusiyasına əsasən yaradılan qanunverici orqanın yuxarı palatası. – 28–29.

**29. Svetlana Orlova** (d.1954) – iqtisadiyyat elmləri namizədi. Rusiya Federasiyası Şurasının sədr müavini (2001–2013). –28–29.

**30. P u t i n V l a d i m i r V l a d i m i r o v i ç** (d.1952) – 2000–08-ci illərdə Rusiya Federasiyasının prezidenti. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası prezidenti administrasiyasının rəhbəri, 1998–99-cu illərdə Federal Təhlükəsizlik Xidmətinin direktoru, 1999-cu ilin avqustundan ilin sonunadək Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. – 29,47,48,311–313.

**31. Vatikan** – Avropada Papa dövləti. Monte-Vatikano təpəliyində, İtaliyanın paytaxtı Roma şəhərinin qərb hissəsindədir. Roma-katolik kilsəsinin siyasi, inzibati və ideoloji mərkəzidir. Vatikan teokratik monarxiyadır. Dövlət başçısı Roma papasıdır. – 30–31,100,102–103,116.

**32. Pasxa bayramı** – yəhudi və xristian bayramı. Pasxa əvvəllər yəhudilərin Misirdən «çıxıb getmələri» münasibətilə, sonra isə yəhudi xalqının xilaskarının zühurunu gözləməklə, xristianlıqda isə İsanın iztirabları, din yolunda fəda olması, onun ölümü və yenidən dirilməsi ilə əlaqələndirilir. Əvvəllər yəhudi və xristian pasxaları eyni vaxta təsadüf edirdi. 325-ci ildə Ümumdünya xristian yığıncağı xristian pasxasını yəhudi pasxası qurtarandan bir həftə sonra qeyd etməyi qərara aldı. Bu tarix aprelin 4-dən mayın 8-dək olan dövrə təsadüf edir. – 30.

**33. İohann Pavel II,** dünyəvi adı K a r o l V o y t ı l a (1920–2005) – ilahiyyat elmləri doktoru. 1523-cü ildən bəri ilk qeyri-italyan mənşəli (polyak) Roma papasıdır. Sülh və beynəlxalq gərginliyin zəifədilməsində böyük xidmətləri var. II İohann Pavel 1978-ci ildə Roma papası seçilmişdir. Dünyanın bir çox ölkəsində, o cümlədən prezident Heydər Əliyevin dəvəti ilə 2002-ci ildə Azərbaycanda rəsmi səfərdə olmuşdur. – 30,31,100,102–103,116,119.

**34. Tatarıstan,** T a t a r ı s t a n R e s p u b l i k a s ı – Rusiya Federasiyası tərkibində federal vilayət. Sahəsi 68 min km$^2$, əhalisi 3773,8 min nəfərdir. – 32.

**35. Şaymiyev Mintemir Şaripoviç**(d.1937) – Rusiya dövlət xadimi. 1985–89-cu illərdə Tatarıstan MS SR Ali Sovetinin sədri, 1991–2011-ci illərdə Tatarıstan Respublikasının prezidenti olmuşdur. – 32.

**36. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5 minə yaxın ilk partiya təşkilatı var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Parlamentdə 73 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi

dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdi. 2005-ci il mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 33–44,253,281.

**37. «Əsrin müqaviləsi»** – 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 35,255.

**38. Avropa İttifaqı** – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderland, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına Avstriya, Finlandiya daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildən vahid valyuta–avro işlənir, vahid pul-kredit siyasəti aparılır. – 37,166,175–176,186,327.

**39. İslam Konfransı Təşkilatı (İKT)** – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nin üzvüdür. – 38,145

**40. NATO (**Ş i m a l i  A t l a n t i k a  M ü q a v i l ə s i  T ə ş - k i l a t ı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 38,61,62,64, 73,80,83,112,166,216,222.

**41. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti Azərbaycanın neft strategiyasından əldə edilən gəlirlərin idarə edilməsidir. – 42,43,333.

**42. Amerika Yəhudi Birgə Paylaşdırma Komitəsi** – 1914-cü ildə ABŞ-da yaradılan çox böyük yəhudi xeyriyyə təşkilatı. Təşkilat (ABŞ-dan kənarda) bütün dünyada yaşayan ehtiyacı olan yəhudiləri müdafiə edir. Təşkilatın əsas işi: yaşlı insanlara, ailə və uşaqlara, beynəlxalq aləmdə yəhudi cəmiyyətinin inkişafına kömək etməkdir. Mənzil –qərargahı Nyu-Yorkdadır. – 49–50.

**43. Elen Heller (**d.1941) – hüquqşünas. 2003-cü ildən Amerika Yəhudi Paylaşdırma Komitəsinin prezidenti və sədri. Elen Heller keçmiş SSRİ-də və Şərqi Avropada yaşayan ahıl yəhudilərin yorulmaz müdafiəçisidir. Elen Heller komitənin prezidenti kimi 2004-cü ildə sunamidən əziyyət çəkən İndoneziyaya, 2007-ci ildə iqtisadi böhrana düçar olan Zimbabveyə maliyyə cəhətdən kömək etmişdir. Elen Heller, həmçinin Ümumdünya Yəhudi Restitusiya (pozulmuş hüququ bərpaetmə və zərərlərini ödəmə) təşkilatının üzvüdür. – 49–50.

**44. 31 mart azərbaycanlıların soyqırımı,** 1905–18-ci illər soyqırımı – çarizmin fəal köməyi ilə erməni-daşnak silahlı birləşmələrinin Azərbaycanın türk-müsəlman əhalisinə qarşı törətdiyi genişmiqyaslı qanlı aksiyalar. Ermənilərin 1905-ci ilin fevralında Bakıdan başlanan vəhşilikləri bütün Azərbaycanı və indi Ermənistan adlanan Qərbi Azərbaycan ərazisindəki yaşayış məntəqələrini əhatə etdi. Yüzlərlə Azərbaycan kəndi dağıdıldı, yüz minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi, xalqımıza məxsus çoxlu milli mədəniyyət abidələri məhv və talan olundu. Bütün bu vəhşiliklər ermənilərin vaxtilə yerləşdirildikləri, lakin əhalinin milli tərkibində azlıq təşkil etdikləri Azərbaycan torpaqlarını zorla erməniləşdirmək, bədnam «azərbaycanlılarsız Ermənistan» kimi qeyri-insani planlarını azərbaycanlıların soyqırımı hesabına həyata keçirmək niyyətindən xəbər verir. – 51–54.

**45. Zəngəzur mahalı,** Zəngəzur qəzası – XIX əsrin 2-ci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil olunmuşdur. Çar Rusiyası hökumətinin 1867-ci il dekabr tarixli fərmanına əsasən yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdi. – 51,52.

**46. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələri və Xankəndində yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar; 1000 nəfərdən artıq azərbaycanlı qəddarcasına öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 52.

**47. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərq kənarında dövlət. Sahəsi 780,6 min km$^2$, əhalisi 78 milyon nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 53,56–57, 85,265,266–268,273–276,294.

**48. İndoneziya,** İ n d o n e z i y a  R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 1904,5 min km$^2$, əhalisi 198,2 milyon nəfərdir. İnzibati ərazisi 24 əyalətə, əyalət statusu olan 2 xüsusi inzibati əraziyə, 1 metropoliten mahalına (paytaxt) bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridir. – 55.

**49. Susilo Bambanq Yudhoyono** (d.1949) – istefada olan general-leytenant. 2004-cü ildən İndoneziyanın prezidentidir. – 55.

**50. Özdən Örnək** (d.1943) – Türkiyə hərbi xadimi, donanma admiralı. 2001–2003-cü illərdə Türkiyə Hərbi Dəniz Qüvvələrinin Komandanı olmuşdur. – 56–57.

**51. Polşa,** P o l ş a  R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km$^2$, əhalisi 38,7 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 58–94,102–103,264,312.

**52. Varşava** – Rolşa Respublikasının paytaxtı. Ölkənin siyasi, iqtisadi və mədəniyyət mərkəzidir. Varşava ərazisindəki ilk yaşayış məskənləri X əsrə aiddir. 1413-cü ildən Mazoviya knyazlığının, 1596-cı ildən isə Rolşanın paytaxtıdır. –58–91.

**53. Aleksandr Kvasnevski** (d.1954) – Polşanın siyasi və dövlət xadimi. 1991–95-ci illərdə Polşa Seyminin deputatı, 1995–2005-ci illərdə Polşa Respublikasının prezidenti olmuşdur. – 59,60–61, 62–71,79–81,103,264,312.

**54. Yeji Şmaydzinski (**1952–2010) – Rolşa siyasi və dövlət xadimi, Rolşa Respublikası Seyminin vitse-marşalı. Rolşa Müdafiə

naziri. 2010-cu ildə Smolensk yaxınlığında təyyarə qəzası zamanı həlak olmuşdur. – 61,63.

**55. Səfər Əbiyev,** S ə f ə r A x u n d b a l a o ğ l u (d.1950) – general-polkovnik. 1995-ci ildən Azərbaycan Respublikasının Müdafiə naziridir. – 61.

**56. Avropa Birliyi** (AB) – 1951–57-ci illərdə yaranmış üç Qərbi Avropa inteqrasiya təşkilatının ümumi adı (Avropa İqtisadi Birliyi – AİB, Avropa Kömür və Polad Birliyi – AKPB, Avropa Atom Enerjisi Birliyi – AAEB. AB ümumi prinsiplərin müəyyən edilməsindən birgə fəaliyyətə qədər (Avropa İnvestisiya Bankının, Avropa Regional İnkişaf Fondunun vahid valyuta qəbul etməsi – AVRO) bir neçə mərhələ keçmişdir. Mühüm mərhələ Vahid Avropa Aktının (1986-cı ildən qüvvəyə minmişdir) qəbul edilməsi olmuşdur. 1967-ci ildə rəhbər orqanların birləşməsindən sonra – AİB, AKPB və AAEB – Avropa Birliyi, 1993-cü ildə isə Avropa Şurası yarandı. – 62,64,70,73, 80,83,88,112,113,119,198,214,216,217,279,286,292.

**57. Yanvar üsyanı,** P o l ş a ü s y a n ı (1863–1864) – Rolşa krallığında (Rusiyaya məxsus Polşa torpaqlarında) çap Rusiyasının sosial və milli zülmünə qarşı üsyan. Yanvar üsyanı milli zülmün ləğvinə nail ola bilməsə də, çarizmə ağır zərbə vurdu. Rusiya hökuməti Polşa krallığında kapitalizmin inkişafına yol açan bir sıra islahatlar keçirməyə nail oldu. – 63.

**58. Vilayət Quliyev,** V i l a y ə t M u x t a r o ğ l u (d.1952) – filoloq, diplomat. Filologiya elmləri doktoru. 1996–2000-ci illərdə Milli Məclisin deputatı olmuşdur. 1999–2004-cü illərdə Azərbaycan Respublikası Xarici İşlər naziri vəzifəsində çalışmışdır. Hazırda Azərbaycan Respublikasının Macarıstan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiridir. – 63.

**59. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 63,66,68,69,98–99, 121–122,162,163,192,217.

**60. Kosovo problemi** – 1980-ci illərdən başlayaraq Yuqoslaviya (Yuqoslaviya Federativ Sosialist Respublikası) ciddi iqtisadi və siyasi çətinliklərlə qarşılaşdı. 1991-ci ildə millətlərarası qarşıdurma nəticəsində YFSR parçalandı. Federasiyanın tərkibindən Sloveniya, Xorvatiya, Bosniya və Hersoqovina, Makedoniya çıxdı və müstəqil dövlət oldular. 1992-ci ildə Serbiya və Çernoqoriya Yuqoslaviya Respublikası yaradıldı. 1999-cu ildə serb hökuməti tərəfindən Kosovoda (Serbiyanın tərkibində) yaşayan albanlara qarşı zorakılıq başlandı və nəticədə etnik qarşıdurma yarandı. Buna görə də NATO aviasiyası tərəfindən bombardman edildi. Məhz bundan sonra Yuqoslaviya öz ordusunu Kosovodan çıxartdı və NATO-nun sülhməramlı ordusu albanları serblərdən qorumaq üçün Kosovoya girdi. 2002-ci ildə Serbiya və Çernoqoriya adı ilə adlandırıldı. 2006-cı ildə keçirilən referendum nəticəsində Çernoqoriya Serbiyadan ayrıldı və müstəqil dövlət yaratdı. – 64, 90,91.

**61. Əfqanıstan,** Əfqanıstan İslam Dövləti – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,2 min km$^2$, əhalisi 22,7 milyon nəfərdir. İnzibati ərazisi 29 vilayətə və mərkəzə tabeli 2

mahala bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 64,144.

**62. İraq,** İ r a q R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada – Dəclə və Fərat çayları hövzəsində neft ixrac edən ölkə. Sahəsi 438,3 min km$^2$, əhalisi 22,4 milyon nəfərdir. İnzibati ərazisi 18 mühafazaya bölünür. Dövlət başçısı prezident, hökumət başçısı isə Baş nazirdir. Ölkə ABŞ və NATO ölkələri ilə müharibə vəziyyətində olduğu üçün ali qanunverici orqanı yoxdur. Paytaxtı Bağdaddır. – 64,91,108.

**63. Polşa Seymi** – Polşada dövlət hakimiyyətinin ali qanunverici orqanı. Seymi əhali gizli səsvermə ilə ümumi, birbaşa və bərabər seçki hüququ əsasında 4 il müddətinə seçir. Seym öz deputatları arasından Dövlət Şurasını seçir. – 67,72–73.

**64. Oktyabr inqilabı,** B ö y ü k O k t y a b r s o s i a l i s t i n q i l ab ı – müasir tarixşünaslıqda Oktyabr çevrilişi adlanır. 1917-ci il oktyabrın 24-dən 25-nə (noyabrın 6-dan 7-nə) keçən gecə V.İ.Leninin başçılığı ilə bolşeviklər silahlı üsyan edərək Müvəqqəti hökuməti devirdilər. Bunun nəticəsində, V.İ.Lenin başda olmaqla, Rusiyada Sovet hökuməti – Xalq Komissarları Soveti yarandı. – 66.

**65. Ukrayna,** U k r a y n a R e s p u b l i k a s ı – Cənub–Şərqi Avropada dövlət. Ərazisi 603,7 min km$^2$, əhalisi 51,3 milyon nəfərdir. Ukraynanın tərkibinə 24 vilayət və Krım Respublikası daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı – Ali RADA-dır. Paytaxtı Kiyev şəhəridir. – 68,214, 221,243,303.

**66. Viktor Yuşşenko** (d.1954) – Ukrayna dövlət və siyasi xadimi. 2005–2010-cu illərdə Ukraynanın prezidenti olmuşdur. – 68,116,214,221,223–224.

**67. Yuli Timoşenko** (d.1960) – Ukrayna siyasi xadimi. 2007–2010-cu illərdə Ukrayna Respublikasının Baş naziri olmuşdur. – 68.

**68. Marek Belka** (d.1952) – polyak iqtisadçısı və dövlət xadimi. 2003–2004-cü illərdə Rolşa Nazirlər Şurasının sədri olmuşdur. – 68,74.

**69. Dünya Ticarət Təşkilatı** – 1947-ci ildə qəbul edilmiş müqavilə 23 ölkənin beynəlxalq ticarətdə gömrük rüsumlarının aşağı salınması və başqa çətinliklərin aradan götürülməsində qəbul etdiyi hökumətlərarası çoxtərəfli müqavilədir. 1995-ci ildə beynəlxalq ticarətdə rüsumlar haqqında qəbul edilmiş müqavilə həmin müqavilənin hüquqi varisidir.

Təşkilatın əsas prinsipi bütün iştirakçılar üçün münasib mühit yaratmaqdır. Təşkilata 130 ölkə daxildir. – 70.

**70. İosif Ploşko** (1866– 30-cu illər) – polyak memarı. Ploşko 1897-ci ildə Bakıya gəlmiş, burada bir sıra yaşayış evlərinin layihəsini vermişdir. Bu binaların kompozisiyasında «Bakı moderni», klassik üslublar və barokko formAlarından istifadə edilmişdir. Ploşkonun ən məşhur işləri Bakıda fransız qotikası ruhunda tikilmiş M.Muxtarovun sarayı (indiki Səadət sarayı, 1911–12) və Venesiya qotikası üslubunda inşa edilən «İsmailliyyə» (indiki Azərbaycan MEA-nın Rəyasət Heyətinin binası, 1908–13) binasıdır. Ploşkonun layihəsi ilə Şamaxıda Cümə məscidi (1909–18), Vladiqafqazda sünni məscidi (1908–12; məscidi azərbaycanlı milyonçu Murtuza Muxtarov şəxsi vəsaiti ilə tikdirmişdir) inşa olunmuşdur. – 73.

**71. Böyük Vətən müharibəsi,** bax: İkinci dünya müharibəsi.

**72. İkinci dünya müharibəsi** (1939–45) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. 1942–43-cü illərdə Sovet Ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də Sovet Ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya

müharibəsində 72 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 73,75,77–78,123–126,277,303–305,306–309,311–313.

**73. Varşava üsyanı (**1943**) –** Varşava gettosunda əsirlərin alman-faşist işğalçılarına qarşı silahlı üsyanı. Aprelin 19-da başlanmışdı. Üsyanı yəhudi döyüş təşkilatı hazırlamışdı.

Üsyançıların qəhrəmancasına müqavimətinə baxmayaraq, üsyan iyulun əvvəllərində yatırıldı, hitlerçilər 7 min adamı öldürdü, 6 min adam isə yanğınlar zamanı tələf oldu. Faşistlər gettonun sağ qalan üzvlərini Treblinkadakı ölüm düşərgəsinə göndərdilər. – 75,77–78,277.

**74. Lex Koçinski** (1949–2010) – 2002–2005-ci illərdə Varşavanın meri, 2005–2010-cu illərdə Polşanın prezidenti olmuşdur. 2010-cu il aprelin 10-da Smolensk yaxınlığında təyyarə qəzasında həlak olmuşdur. Haqq və Ədalət Partiyasının liderlərindən biri olmuşdur. – 75,77–78.

**75. «Sülh naminə tərəfdaşlıq» proqramı** – NATO ilə Şərqi Avropa və keçmiş SSRİ ölkələri arasında siyasi və hərbi sahələrdə əməkdaşlıq sənədi. 1994-cü il yanvarın 10–11-də NATO Şurasının dövlət və hökumət başçıları səviyyəsində Brüsseldə keçirilən görüşdə ABŞ tərəfindən təklif edilmişdir.

Azərbaycan prezidenti Heydər Əliyev 1994-cü il mayın 4-də NATO-nun Brüsseldəki mənzil-qərargahında Azərbaycanın «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulması haqqında sənədi imzalamışdır. 1996-cı ilin aprelində Heydər Əliyev NATO-nun Brüsseldəki mənzil-qərargahında NATO-nun Baş katibi Havyer Solana ilə görüşündə Azərbaycan Respublikasının təqdimat sənədini ona vermişdir. Həmin sənəd əsasında Azərbaycanın NATO ilə tərəfdaşlığının fərdi proqramı hazırlanmışdır. – 80.

**76. Bakı– Tbilisi** – **Ərzurum** – Cənubi Qafqaz qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin diametri 420 mm, uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Gürcüstan–Türkiyə sərhədindən Ərzuruma qədərdir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 80, 146, 285.

**77. İpək Yolu**, B ö y ü k  İ p ə k  Y o l u – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Böyük İpək Yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək Yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – Böyük İpək Yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 80,146,186–187.

**78. TRASEKA,** T r a n s x ə z ə r  n ə q l i y y a t  d ə h l i -z i – Avropanı Asiya ilə birləşdirən yol. Bu nəqliyyat dəhlizini Şərqlə Qərbi birləşdirən orta materik xətti də adlandırmaq olar. Transxəzər nəqliyyat dəhlizi Azərbaycanı, bütünlükdə Qafqazı Avropa ilə birləşdirir. – 80,132,139,146,153,156,160, 186–187,218.

**79. SSRİ,** S o v e t  S o s i a l i s t  R e s p u b l i k a l a r ı  İ t- t i f a q ı – 1922–1991-ci illərdə dünyanın ən böyük və qüdrətli dövlətlərindən biri. Tərkibində 15 müttəfiq respublika, 20 muxtar respublika, 8 muxtar vilayət olmuşdur. – 86,124,226,303, 307,312,334.

**80. Abxaziya** – Gürcüstan Respublikasının tərkibində muxtar respublika. 1921-ci ildə təşkil olunmuşdur. Sahəsi 8,6 min km$^2$, əhalisi 501 min nəfərdir. Paytaxtı Suxumi şəhəridir. – 88,216.

**81. Cənubi Osetiya** – Cürcüstan Respublikasının tərkibində Cənubi Osetiya Muxtar Vilayəti. 1922-ci ildə yaradılmışdır. Sahəsi 3,9 min km$^2$, əhalisi 99 min nəfərdir. Mərkəzi Sxinvali şəhəri. – 88,216.

**82. Moldova,** M o l d o v a  R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 33,7 min km$^2$, əhalisi 4,36 milyon nəfərdir.

İnzibati ərazisi 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Kişinyov şəhəridir. – 88,101,190–225,303.

**83. Dnestryanı** – Moldovada Dnestr çayı sahilində tanınmamış bölgə. 1992-ci ildə Dnestryanıda hərbi münaqişə başladı. İyulun ortalarına qədər bir neçə ay davam edən silahlı toqquşmalar zamanı Lebedin komandanı olduğu Rusiyanın 14-cü ordusunun separatçılara yaxından dəstək verməsi nəticəsində Kişinyov sol sahildəki rayonlar üzərində nəzarətini itirdi və Dnestryanı Moldovanın nəzarətindən çıxmış əraziyə çevrildi. – 88,197,199,201,214,216.

**84. Krakov** – Polşanın cənubunda, Visla çayının yuxarı axınında şəhər və liman. Krakov şəhər voyevodalığının inzibati mərkəzi. Əhalisi 713 min nəfər.

Şəhər VIII–X əsrlərdə salınmış, XI–XVI əsrlərdə Polşa dövlətinin paytaxtı olmuşdur. – 92–94,103.

**85. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton–Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 96,298,317.

**86. Pol Vulfolits** (d.1943) – Amerika siyasətçisi. 2005–2007-ci illərdə Dünya Bankının prezidenti olmuşdur. – 96.

**87. Bilkənd Universiteti** – Türkiyənin görkəmli xadimi İhsan Doğramacı tərəfindən əsası 1984-cü ildə qoyulmuş ali təhsil müəssisəsi. Universitetin 1000-dən çox akademik heyəti, 539 doktoru, 13100 tələbəsi var. – 97,267.

**88. İhsan Doğramacı** (1915–2010) – türkdilli ölkələrin Milli Pediatriya Cəmiyyətləri Birliyinin fəxri prezidenti, elmlər doktoru, professor. 1963–65-ci illərdə Ankarada Uşaq Sağlamlığı İnstitutunun

direktoru, 1977–93-cü illərdə institutun icraçı direktoru, 1992-ci ildən isə fəxri prezidenti, 1968–73-cü illərdə Pediatorların Tibb Assosiasiyasının prezidenti, 1959-cu ildən YUNİSEF-in İcraiyyə Komitəsinin üzvü, iki dəfə Bilkənd Universitetinin sədri və rektoru, 1975-ci ildən isə universitetin fəxri rektoru olmuşdur. İ.Doğramacı Azərbaycan MEA-nın fəxri üzvü, Azərbaycan Dövlət Tibb Universitetinin fəxri doktorudur. Azərbaycan Respublikasının «İstiqlal» və «Heydər Əliyev» ordenləri ilə təltif olunmuşdur. – 97,265,266–268.

**89. Dimitri Rupel** (d.1946) – Sloveniya siyasətçisi. 2000–2004-cü illərdə Sloveniyanın Xarici İşlər naziri və ATƏT-in sədri olmuşdur. Rupel Pen-klubun üzvüdür. – 98–99.

**90. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və Fransa həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 98,134.

**91. Vladimir Voronin** (d.1941) **–** Moldova siyasi və dövlət xadimi. 2001–2005-ci illərdə Moldova prezidenti. – 101,190–191,192–193,194,195–201,202,203,204,205–210,211–213, 214–219,222,223–224.

**92. Pakistan,** P a k i s t a n İ s l a m R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 796 min km$^2$, əhalisi 133,5 milyon nəfərdir. Paytaxtı İslamabad şəhəridir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. – 104–169.

**93. Vladimir Ruşaylo** (d.1953) – 1972-ci ildən SSRİ Daxili İşlər Nazirliyində müxtəlif məsul vəzifələrdə işləmişdir. 1998-ci ildən Rusiya Daxili İşlər nazirinin müavini, 1999-cu ildən isə nazir, 2001-ci

ildə isə MDB ölkələri üzrə Kollektiv Təhlükəsizlik Şurasının sədri, 2003-cü ildə isə Rusiya Təhlükəsizlik Şurasının katibi olmuşdur. – 105.

**94. Rusiya telekanalı, Ümumrusiya Dövlət Televiziya və Radio Verilişləri Kompaniyası** (ÜDTRVK) – 1990-cı ildə yaradılmışdır, Rusiya Federasiyası ərazisində televiziya və radio verilişləri təşkil edir. 1998-ci ildən ÜDTRVK dövlət media holdinqı federal «Rossiya» və «Kultura» telekanalları, «Radio Rossii», «Mayak», «Orfey», «Yunost», «Qolos Rossii» radiostansiyalarını və 92 regional dövlət teleradio kompaniyalarını, Ostankino televiziya və Rusiya informasiya texniki mərkəzini, «Vesti» agentliyini əhatə edir. – 105.

**95. Monako,** M o n a k o  K n y a z l ı ğ ı – Cənubi Avropada, Aralıq dənizi sahilində dövlət. Sahəsi 1,95 km$^2$, əhalisi 32,1 min nəfərdir. İnzibati cəhətdən 3 mahal – şəhərdən ibarətdir. Monako Knyazlığı konstitusiyalı irsi monarxiyadır. Dövlət başçısı knyazdır. Qanunverici hakimiyyət knyaza və Milli Şuraya (parlamentə) məxsusdur. Paytaxtı Monako şəhəridir. – 106.

**96. Albert** (d.1958) – Monako şahzadəsi, 2005-ci ildə knyaz III Renye xəstələndikdən sonra (mart) atasının bütün səlahiyyətlərini icra etmiş, vəfatından sonra isə Monakonun hakim knyazı olmuşdur. – 106.

**97. Renye III** (1923–2005) – 1949–2005-ci illərdə Monakonun 12-ci knyazı. – 106.

**98. Suriya,** S u r i y a  Ə r ə b  R e s p u b l i k a s ı – Asiyada dövlət. Sahəsi 185,2 min km$^2$, əhalisi 14,8 milyon nəfərdir. İnzibati ərazisi 10 mühafazaya (qubernatorluğa) və Dəməşq bələdiyyəsinə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Xalq Şurasıdır. Paytaxtı Dəməşqdir. – 107.

**99. Bəşşar əl-Əsəd** (d.1965) – 2000-ci ildən Suriyanın prezidenti. – 107.

**100. Yeltsin Boris Nikolayeviç** (1931–2007) – Rusiyanın siyasi və dövlət xadimi. 1991–2000-ci illərdə Rusiya Federasiyasının ilk prezidenti olmuşdur. – 109–111.

**101. Zərifə xanım,** Ə l i y e v a  Z ə r i f ə  Ə z i z  q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 110,128.

**102. Belçika, B e l ç i k a  K r a l l ı ğ ı** – Qərbi Avropada dövlət. Sahəsi 30,5 min km$^2$, əhalisi 10,2 milyon nəfərdir. Belçika konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Brüsseldir. – 112–113.

**103. Gi Verhofstadt** (d.1953) – Belçika siyasi xadimi. 1999–2008-ci illərdə Belçika Baş naziri. – 112.

**104. Yunanıstan,** Y u n a n ı s t a n  R e s p u b l i k a s ı – Cənubi Avropada dövlət. Sahəsi 132 min km$^2$, əhalisi 10,5 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı prezident, Ali qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Afinadır. – 114–115.

**105. Afina** – Yunanıstanın paytaxtı, əhalisi 4 milyon nəfərdən çoxdur. Afina Yunanıstanın ən qədim şəhərlərindəndir; salındığı tarix dəqiq məlum deyil. Qədim Yunanıstanda Afina mühüm iqtisadi,

siyasi və mədəni mərkəz, şəhər-dövlət idi. E.ə. 146-cı ildən Romanın tabeliyində, IV əsrdən 1204-cü ilədək Bizans imperiyasının tərkibində olmuşdur. 1204–1458-ci illərdə Afina hersoqluğunun paytaxtı idi. 1458-ci ildə Afinanı türklər tutmuşdu. 1834-cü ildən Afina Yunanıstanın paytaxtıdır.

Afina Yunanıstanın siyasi, iqtisadi və mədəni mərkəzidir. Afinada qədim yunan memarlığının abidələri qorunub saxlanılır. – 114.

**106. Konstantinos Karamanlis** (1907–1998) – XX əsrin 2-ci yarısında yunan siyasətçilərinin ən məşhuru. 1955–63, 1974–80-ci illərdə Yunanıstanın Baş naziri, 1980–85, 1990–95-ci illərdə Yunanıstanın prezidenti olmuşdur. – 114,115.

**107. Roma** – İtaliyanın paytaxtı. Ölkənin siyasi, mədəni və iqtisadi mərkəzi. Dünyanın ən qədim şəhərlərindəndir. Onu «əbədi şəhər» də adlandırırlar. Ərazisində Vatikan dövləti yerləşir. Romanın adı şəhərin əfsanəvi banilərindən biri Romulun adından götürülmüşdür. E.ə. VI əsrin sonundan Roma quldarlıq respublikasının, e.ə. I əsrdən Roma imperiyasının, 1871-ci ildən Birləşmiş İtaliya krallığının, 1946-cı ildən isə İtaliya Respublikasının paytaxtıdır. – 116,119.

**108. Almaniya,** Almaniya Federativ Respub-likası – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min $km^2$, əhalisi 81,9 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı – parlamentdən – Bundestaq və Bundersatdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 116.

**109. Çerhard Şröder** (d.1944) – Almaniyanın dövlət və siyasi xadimi. 1980-ci ildən Almaniya Bundestaqının üzvü, 1990–98-ci illərdə Aşağı Saksoniya vilayətinin nazir-prezidenti, 2000–06-cı illərdə Almaniyanın federal kansleri olmuşdur. – 116.

**110. Fransa,** Fransa Respublikası – Qərbi Avropada dövlət. Sahəsi 551 min $km^2$, əhalisi 58,4 milyon nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanunverici hakimiyyəti iki palatadan (Milli Məclis və Senat) ibarət parlament həyata keçirir. İcra

hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 116,119–120,312.

**111. Jak Şirak** (d.1932) – Fransanın görkəmli siyasi və dövlət xadimi. 1974–76 və 1986–88-ci illərdə Fransanın Baş naziri, 1977–95-ci illərdə Paris şəhərinin meri, 1995–2007-ci illərdə Fransa Respublikasının prezidenti. «Heydər Əliyev» ordeni ilə təltif olunmuşdur. – 116,119.

**112. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 58,8 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 116,310,312.

**113. Toni Bleyr,** Entoni Çarlz Linton (d.1953) – B.Britaniyanın siyasi və dövlət xadimi. Hüquqşünas. 1983-cü ildən parlamentə deputat, 1994-cü ildən Leyboristlər Partiyasının sədri seçilmişdir. 1997–2007-ci illərdə B.Britaniyanın Baş naziri olmuşdur. 2007-ci ildən BMT-nin İsrail ilə Fələstin probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etmək üçün vasitəçi təyin edilmişdir. – 116,310.

**114. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyə siyasi və dövlət xadimi. R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuşdur. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur. Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri seçildi. Hal-şazırda Baş nazirdir. – 116,312.

**115. Danimarka,** Danimarka Krallığı – Avropanın şimalında dövlət. Sahəsi 43,1 min km$^2$, əhalisi 5,24 milyon nəfərdir. İnzibati ərazisi 14 amta bölünür. Danimarka konstitusiyalı monar-

xiyadır. Dövlət başçısı kral (kraliça), qanunverici orqanı birpalatalı Folketinqdir. Paytaxtı Kopenhagendir. – 117.

**116. Marqrete II** (d.1940) – 1972-ci ildən Danimarkanın kraliçası. Kral IX Frederikin qızıdır. – 117.

**117. Elmar Hüseynov,** E l m a r S a b i r o ğ l u (1967–2005) – jurnalist. «Monitor» jurnalının Baş redaktoru. 2005-ci ildə muzdlu qatil tərəfindən qətlə yetirilib. – 118,122,127–128.

**118. Fransa Senatı** – Qanunverici hakimiyyət orqanı. –119–120.

**119. Düpon Ambruaz** (d.1937) – Fransa siyasi xadimi və Senatın üzvü. – 119–120.

**120. Kristian Ponsöle** (d.1928) **–** fransız siyasətçisi. 1998–2008-ci illərdə Fransa Senatının prezidenti olmuşdur. – 120.

**121. Nikolay Konstantinoviç Baybakov** (1911–2008) – Rusiya Federasiyasının dövlət xadimi. Bakı şəhərinin Sabunçu qəsəbəsində doğulmuşdur. Lenin mükafatı laureatı. 1965–90-cı illərdə SSRİ Nazirlər Soveti sədrinin müavini və SSRİ Dövlət Plan Komitəsinin sədri olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 123–126.

**122. Vsevolod Boqdanov** (d.1944) **–** 1992-ci ildən Rusiya Jurnalistlər İttifaqının sədri, 1998-ci ildə isə Beynəlxalq Jurnalistlər İttifaqı Komitəsinin prezidenti seçilmişdir. – 123–126.

**123. Moskva** – Rusiya Federasiyasının paytaxtı. Ölkənin siyasi, inzibati və mədəni mərkəzi, mühüm nəqliyyat qovşağıdır. Əsası 1147-ci ildə Suzdal knyazı Yuri Dolqoruki tərəfindən qoyulmuşdur. – 189,311,313,315,316.

**124. Həzi Aslanov,** H ə z i Ə h ə d o ğ l u (1910–1945) – tank qoşunları qvardiya general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı. Böyük Vətən müharibəsinin ilk günlərindən döyüşlərdə iştirak edən H.Aslanovun 55-ci əlahiddə tank polku Stalinqrad vuruşmasında

feldmarşal Manşteynin tank ordusunun darmadağın edilməsində xüsusi məharət göstərmişdir. 1944-cü ildə Aslanovun 35-ci qvardiya tank briqadası Belorusiyanı, Pribaltika respublikalarını azad etmək uğrundakı vuruşmalarda xüsusilə fərqlənmişdi. H.Aslanov Mitava şəhəri yaxınlığındakı vuruşmada qəhrəmancasına həlak olmuşdur. – 125.

**125. İslamabad** – Pakistanın paytaxttı. Himalay dağlarının ətəklərindədir. Əhalisi 250 min nəfərdən çoxdur. 1960-cı ildə salınmışdır. Müasir tipli binalar, yüngül sənaye müəssisələri, Pakistan nüvə tədqiqatları və texnologiyası, islamşünaslıq institutları, Milli kitabxana və s. var. – 129–169.

**126. Pərviz Müşərrəf** (d.1943) – 2001–2007-ci illərdə Pakistan Respublikasının prezidenti, ordu generalı. 1988–90 və 1993–96-cı illərdə Pakistanın Baş naziri, 1998-ci ildə Baş Qərargah rəisi olmuşdur. – 129,130,131–132,133–135,136–141,142–147,155,159,164,167,168.

**127. Eynulla Mədətli,** Eynulla Yadulla oğlu (d.1954) – fəlsəfə doktoru. 1996-cı ildə Təbrizdə Azərbaycan Respublikasının Baş konsulu. 2001–2002-ci illərdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyində məsləhətçi, 2002-ci ildə Pakistanda Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiri, 2005-ci ildən qərargahı İslamabadda olmaqla Azərbaycan Respublikasının Əfqanıstanda Fövqəladə və Səlahiyyətli səfiri. – 129,167,169.

**128. Şövkət Əziz** (d.1949) – Pakistanın dövlət xadimi. 2004–2007-ci illərdə Pakistanın Baş naziri olmuşdur. –130,145,150–151,152,153,154–158.

**129. Kəşmir problemi** – Asiyada tarixi vilayət. Qədimdə və orta əsrlərdə Hindistan ərazisində yaranmış müxtəlif dövlət birləşmələrinin tərkibində olmuşdur. 1846-cı ildə ingilislər Kəşmiri işğal edib 7,5 milyon rupi ödənclə Sammi knyazlığına vermişlər. 1947-ci ilin avqustunda yaradılan müstəqil Hindistan dövləti Kəşmiri öz ərazisinə qatmağa çalışır. Hal-hazırda Kəşmirin şimal-qərbi Pakistanın, qalan hissəsi isə Hindistanın (1949) nəzarəti altındadır. 1956-cı ildə Kəşmir «Hindistan İttifaqının tərkib hissəsi» elan edildi.

Hindistanla Pakistan arasında bir neçə dəfə hərbi münaqişə baş versə də bu problem hələ də öz həllini tapmamışdır. – 132,133,134,136,140, 144,145,155,157,158,159,164.

**130. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 134,139,140, 144,155,162,165.

**131. Nizami Gəncəvi,** İ l y a s Y u s i f o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı beş epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində insanın mənəvi azadlığı tərənnüm olunur. – 142,205–210.

**132. Sahib Təbrizi** (1601–1676) **–** Azərbaycan şairi. Azərbaycan və fars dillərində yazmışdır. 1626–27-ci illərdə Hindistana getmiş, 6 ildən çox orada yaşamış, bir müddət Şah Cahanın saray şairi olmuş, qüdrətli şair kimi məşhurlaşmışdır. S.Təbrizinin şöhrətindən xəbər tutan II Şah Abbas onu öz sarayına çağırmış, məlik üş-şüarə təyin etmişdir. S.Təbrizi Xaqani, Nizami, Nəsimi, xüsusilə Füzuli ədəbi məktəbinin davamçısıdır. Təqribən 300 min misra şeiri olduğu ehtimal olunur. Çoxlu qəsidə, rubai, qitə, məsnəvi yazsa da, əsasən qəzəl ustası kimi şöhrət qazanmışdır. – 142.

**133. Multan** – Pakistanda, Pəncab əyalətində şəhər. Mühüm nəqliyyat qovşağı və iqtisadiyyat mərkəzidir. Əhalisi 544 min nəfərdir. Qədim bədii sənətkarlıq mərkəzidir. Orta əsrlərdə Multandan Azərbaycana gəlmiş tacir

və zəvvarlar Bakıda karvansara, Suraxanıda «Hind atəşgədəsi» tikdirmişlər. – 143.

**134. Şəms Təbrizi** (1245–1272-ci illər arasında) – Azərbaycan şairi, mütəfəkkir. Sufiliyin ən məşhur simalarından olmuş, mürşidi-kamil adı almışdır. Cəlaləddin Rumi özünü Şəms Təbrizinin şagirdi hesab etmişdir. – 143.

**135. Qəznəvilər** – Qəznəvilər dövlətini (X–XII əsrlər) idarə etmiş turkdilli sülalə. Banisi Alptəkin olmuşdur. – 146.

**136. Səlcuqilər** – oğuzların qınıq tayfasından olan hökmdarlar sülaləsi (XI–XIV əsrlər). Banisi Toğrul bəydir. – 146.

**137. Hülakülər** – Elxanilər dövləti hökmdarları sülaləsi (1256–1357) . Elmi ədəbiyyatda banisi Hülakü xanın adı ilə Hülakülər adlanır. – 146.

**138. Əmir Teymur,** T e y m u r l ə n g, T e y m u r , T o -p a l T e y m u r (1336–1405) – Orta Asiya görkəmli dövlət xadimi, sərkərdə, əmir. Teymurilər imperiyasının banisi. Türkləşmiş barlas tayfasından idi; döyüşlərdə aldığı yaralara görə «Teymurləng» (Topal Teymur) ləqəbi ilə tanınmışdır. Teymurləng üç yürüşündə (1386–87;1392–97;1399–1404) Azərbaycanda olmuşdur. Əlincə qalası uğrunda 14 il mübarizə aparan Teymurləng buraya 4 dəfə (1387,1393,1397, 1400) yürüş etmiş, ciddi döyüşlər aparsa da məqsədinə nail ola bilməmişdi. – 146.

**139. Səfəvilər** – Səfəvilər dövləti (1501–1736) hökmdarları sülaləsi. Mənşəcə azərbaycanlılar olmuş və səfəviyyə təriqətinin başçısı Şeyx Səfi əd-Din İshaqın adı ilə adlanmışlar. Banisi I Şah İsmayıldır (Xətai). – 146.

**140. Nadir şah Əfşar** (1688–1747) – İran şahı (1736–47). Əfşar tayfasındandır. – 146.

**141. Bakı Dövlət Universiteti** (BDU) – Azərbaycanda elmi-pedaqoji kadrlar hazırlayan ən böyük ali təhsil ocağı, elmi-tədqiqat müəssisəsi. 1919-cu ildə yaradılmışdır. İlk vaxtlar tibb və tarix-filologiya

fakültələri fəaliyyət göstərmişdir. Hazırda BDU-nun 17 fakültəsi, onlarla kafedrası, elmi-tədqiqat laboratoriyası və s. var. Universitetdə 43 ixtisas üzrə 13 minə yaxın tələbə təhsil alır. – 146.

**142. Məhəmməd Əli Cinnə** (1876–1948) – Hindistan və Pakistan siyasi xadimi. 1906–21-ci illərdə Hindistan Milli Konqresinin üzvü idi. 1912-ci ildən Müsəlman Cəmiyyətinin fəaliyyətində iştirak etmiş, 1934-cü ildən cəmiyyətin lideri olmuşdur. 1940-cı ildə Cinnənin başçılığı ilə Müsəlman Cəmiyyəti müsəlman əhalinin yaşadığı vilayətlərin Hindistandan ayrılması və Pakistan dövlətinin yaradılması tələbini irəli sürmüşdü. Hindistan parçalandıqdan sonra (1947) Cinnə Pakistanın ilk general-qubernatoru (1947–48) olmuşdur. – 146.

**143. Kəraçi** – Pakistanda şəhər. Sind əyalətinin inzibati mərkəzi. Əhalisi 6 milyondan çoxdur. 1843-cü ildə Kəraçini İngiltərə müstəmləkəçiləri işğal etmişdi. 1947-59-cu illərdə Pakistanın paytaxtı olmuşdur. Ərəbistan dənizi sahilində Pakistanın əsas hərbi dəniz bazasıdır. – 154,155,160.

**144. Beynəlxalq Valyuta Fondu** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi, beynəlxalq valyuta təşkilatı. 1945-ci ildə yaradılmış, 1947-ci ildən fəaliyyətə başlamışdır. İdarə heyəti Vaşinqtondadır. Dünyanın 130-a yaxın ölkəsi fondun üzvüdür. Nizamnaməsinə görə, məqsədi beynəlxalq valyuta əməkdaşlığına yardım etmək, ölkələr arasında valyuta-hesablaşma münasibətlərini nizama salmaq, fonda daxil olan ölkələrin ödəmə balanslarını tarazlaşdırmaq və valyuta məzənnəsini tənzimləməkdən ibarətdir. 1992-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fonduna qəbul olunmuşdur. – 182,333.

**145. Lahor** – Pakistanda şəhər. Pəncab əyalətinin inzibati mərkəzi Kəraçıdən sonra ölkənin ikinci böyük şəhəridir. Əhalisi 3 milyondan çoxdur. Lahor qədim sənətkarlıq mərkəzidir. – 155.

**146. Q u r a n i - K ə r i m,** ə l - Q u r a n – müsəlmanların müqəddəs kitabı. Quranı Allah Cəbrayıl vasitəsilə Məhəmməd əleyhüssəlama göndərib. Quran qafiyəli nəsrlə yazılmış 114 surə və 6200-dən çox ayə-

dən ibarətdir. «Məkkə surələrinə» (610–622. 90 surə) və «Mədinə surələrinə» (622–632. 24 surə) bölünür. – 168.

**147. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ)** –1994-cü ilin axırlarında yaradılmışdır. «Xəzərin Azərbaycan sektorunda neft yataqlarının müştərək işlənilməsi və istifadəyə verilməsi» haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə dünyanın bir neçə böyük neft şirkətləri arasında imzalanmış müqavilənin payçıları adından onun şərtlərini həyata keçirmək məqsədilə yaradılmış əməliyyat şirkətidir. Buraya 7 ölkəni (B.Britaniya, Yaponiya, Norveç, Rusiya, Türkiyə və Səudiyyə Ərəbistanı) təmsil edən 11 iri neft şirkəti daxildir. – 170.

**148. Devid Vudvord** (d.1946) – neftçi-mühəndis, 1999–2007-ci illər «*bp*–Azərbaycan» şirkətinin prezidenti. Bir çox ölkələrdə – Birləşmiş Ərəb Əmirliklərində, Norveç, Rusiya və ABŞ-da *bp* şirkətinin nümayəndəsi vəzifələrində işləmişdir İngiltərənin «Müqəddəs Mixail» və «Müqəddəs Çeorgi», Gürcüstanın «Şərəf», Azərbaycan Respublikasının «Şöhrət» ordenləri ilə təltif olunmuşdur. – 170.

**149. Tanzaniya,** B i r l ə ş m i ş T a n z a n i y a R e s -p u b l i k a s ı – Şərqi Afrikada dövlət. Sahəsi 945,1 km$^2$, əhalisi 29,0 milyon nəfərdir. İnzibati ərazisi 25 vilayətə bölünür. Millətlər Birliyinə daxildir. Dövlət və hökumət başçısı prezidentdir. Qanunverici orqanı Milli Məclisdir. Paytaxtı Dolomadır. – 171.

**150. Bencamin Uilyam Mkapa** (d.1938) – 1977–80, 1984–90-cı illərdə Tanzaniyanın Xarici İşlər naziri, 1995– 2005-ci illərdə Tanzaniya Respublikasının prezidenti olmuşdur. – 171.

**151. Cənubi Afrika Respublikası** (CAR) – Cənubi Afrikada dövlət. Sahəsi 1,2 milyon km$^2$, əhalisi 41,7 milyon nəfərdir. 9 əyalətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir (Senat və Milli Məclis). – 172.

**152. Tabo Mbeki** (d.1942) – Afrika Milli Konqresinin görkəmli nümayəndəsi. 1997–2007-ci illərdə Afrika Milli Konqresinin sədri,

1999–2008-ci illərdə Cənubi Afrika Respublikasının prezidenti olmuşdur. – 172.

**153. Bərdə** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 957 $km^2$, əhalisi 145 min nəfərdən artıqdır. Bərdə həm də Azərbaycanın ən qədim şəhərlərindəndir. Ərəb tarixçisi Bəlazuri (XI əsr) Bərdənin Sasani hökmdarı I Qubadın (488–531), İran tarixçisi Həmdullah Qəzvini (XIV əsr) isə Makedoniyalı İsgəndərin dövründə (e.ə.336–23) salındığını göstərmişdir. – 176.

**154. Milli Bank,** Azərbaycan Dövlət Milli Bankı – Azərbaycan Respublikasının mərkəzi bankıdır. Onun əsas vəzifəsi qiymətlərin sabitliyinin təmin edilməsi, dönərli xarici valyutalara nisbətən milli valyutanın kursunun möhkəmləndirilməsi, həmçinin ölkə bank sisteminin sabitliyinin qorunmasıdır. AMB valyuta tənzimlənməsi və nəzarətini həyata keçirir, xarici dövlətlərlə hesablaşma qaydalarını müəyyən edir, xarici valyuta ehtiyatlarını idarə edir. AMB həmçinin Azərbaycan Respublikasının tədiyə-hesablaşma balansının tərtibinə rəhbərlik edir. – 183.

**155. Benedikt XVI** (d.1927) – 2005-ci ildən Roma papası. – 185.

**156. Vladimir Fedoseyev** (d.1932) – Rusiya dirijoru. 1959-cu ildən Mərkəzi Televiziya və radiosunun rus çalğı alətlərinin, 1974-cü ildən Böyük simfonik orkestrin, 1992-ci ildən «Ostankino» teleradio kompaniyasında bədii rəhbər və Baş dirijorudur. SSRİ Xalq artisti və SSRİ Dövlət mükafatı laureatıdır. –189.

**157. Kişinyov** – Moldova Respublikasının paytaxtı. Meşələrlə örtülü Kodr yüksəkliyində, Bık çayı sahilindədir. Əhalisi

676,7 min nəfərdir. XVI əsrin əvvəlindən 1812-ci ilədək Türkiyənin hökmranlığı altında olmuşdur. – 190–225, 229.

**158. GUÖAM** – Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qoşuldu (10 oktyabr 1997). 2005-ci ildə isə Özbəkistan bu qurumu tərk etdi. – 190–225,229.

**159. Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı** – 1992-ci ildə İstanbul zirvə görüşündə yaradılmışdır. Buraya Albaniya, Azərbaycan, Bolqarıstan, Ermənistan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Serbiya, Xorvatiya, Türkiyə, Ukrayna və Yunanıstan daxildir. Bu təşkilat ancaq iqtisadi əməkdaşlıq maraqları əsasında qurulmuş təşkilatdır. İqamətgahı İstanbuldadır. – 192,220.

**160. İNOQEYT** – neft və qazın Avropaya ixracı proqRamı. – 193.

**161. Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi** – BMT-nin əsas orqanlarından biri. BMT üzvü olan bütün dövlətlərdən ibarətdir. BMT üzvlərinə və ya BMT Təhlükəsizlik Şurasına hər cür məsələlərə və işlərə dair tövsiyələr vermək səlahiyyəti var.

Baş Məslisin qərarları tövsiyə xarakteri daşıyır, yəni hüquqi cəhətdən üzv dövlətlər üçün məcburi deyil. Məclisin hər il növbəti sessiyası olur. Baş Məclisin nəzdində onun funksiyalarını həyata keçirmək üçün 7 əsas komitə var. –196.

**162. Aristotel, Ərəstu** (e.ə.384 –e.ə.322) –qədim yunan filosofu və alimi E.ə. 367-ci ildə Afinaya gəlib Platonun şagirdi olmuş və 20 il Platon akademiyasında iştirak etmişdir. E.ə. 343–335-ci illərdə Makedoniyalı İsgəndərin tərbiyəçisi olmuşdur.

Geniş və çoxcəhətli yaradıcılığa malik olan Aristotel məntiq, psixologiya, təbiətşünaslıq, etika, siyasət, tarix, poeziya və ritorikaya aid əsərlər yazmışdır. Aristotel formal məntiqin banisidir. O, ilk dəfə təfəkkür qanunlarını xüsusi tədqiqat obyektinə çevirmişdir. Aristotel quldarlıq dövlətinin ideoloqu idi. –206.

**163. İbn Sina,** Ə b u Ə l i H ü s e y n i b n A b d u l l a h (980–1037) – alim, filosof, həkim, Şərq aristotelizminin nümayəndəsi. «Tibb elminin qanunu» əsəri bir çox əsrlər boyu Şərqdə və Avropada tibb üzrə əsas dərslik olmuşdur. – 206.

**164. Dante** (1269–1321) – italyan şairi, qədim zadəgan nəslindəndir. Dante Florensiyanın ictimai həyatında fəal iştirak etmiş, «ağ» qvelflər partiyasına qoşulmuşdu. «Qara» qvelflərin qələbəsindən sonra qiyabi olaraq yandırılmağa məhkum edilmişdi (1302). Didərgin həyat sürmüş, 1315-ci ildə ikinci dəfə yandırılmağa məhkum edilmişdi. Dante yaradıcılığının zirvəsi xələfləri tərəfindən «İlahi komediya» adlandırılmış «Komediya» poemasıdır. Əsər 3 hissədən («Cəhənnəm», «Əraf» (Təmizlik), «Cənnət») ibarətdir. Kilsənin düşmən olduğu idrakı, kamalı və elmi Dante insanın ən böyük, zəruri məziyyəti kimi tərənnüm etmişdir. – 206,208.

**165. Şekspir,** V i l y a m (1564–1616) – dahi ingilis dramaturqu və şairi. Şekspir 37 pyesin – komediyaların, tarixi dramların, faciələrin, poemaların, çoxlu sonetlərin müəllifidir. Dünya dramaturgiyasında facienəvisliyin inkişafında Şekspirin əsərləri yeni mərhələdir. «Hamlet», «Otello», «Makbet», «Kral Lir», «Antoni və Kleopatra» faciələri dünya mədəniyyəti xəzinəsinə daxil olmuş, bütün xalqların sərvətinə çevrilmiş, müxtəlif dillərə tərcümə olunmuş, milli səhnələrdə təkrar-təkrar tamaşaya qoyulmuş, ekranlaşdırılmışdır. – 206,208.

**166. Puşkin,** A l e k s a n d r  S e r g e y e v i ç (1799–1837) – dahi rus şairi, yeni rus ədəbiyyatının banisi. Puşkin rus ədəbi dilini yeni yüksək zirvəyə qaldırmışdır. Rus poeziyasının «atası olan» (N.Q.Çernışevski) Puşkin novator şair kimi yeni tipli realist şeirin, mənzum romanın, tarixi povestin, mənzum hekayə, nağıl və dramın gözəl nümunələrini yaratmışdır. Puşkinin Qafqaz həyatı onun yaradıcılığına müstəsna təsir göstərmiş, şairin bu mövzuda yazdığı əsərlər («Qafqaz əsiri», «Quldur qardaşlar», «Baxçasaray fontanı», «Qaraçılar», «Ərzuruma səyahət») rus ədəbiyyatında yeni səhifə açmışdır. Bakıda Puşkinə abidə qoyulmuşdur. – 206,208.

**167. Rumıniya** – Cənubi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi 237,5 min km$^2$, əhalisi 22,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunvericilik orqanı ikipalatalı parlamentdir. Paytaxtı Buxarest şəhəridir. – 214,215,220,223, 224,229.

**168. Troyan Basesku** (d.1951) – 2004-cü ildən Rumıniya prezidenti. – 220,223–224.

**169. Litva,** L i t v a  R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 65,2 min km$^2$, əhalisi 3797 min nəfərdir. İnzibati ərazisi 44 rayona bölünür və respublika tabeçiliyinə 11 şəhər daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Seymdir. Paytaxtı Vilnüsdür. –214,215, 222,223,224,229.

**170. Valdas Adamkus** (d.1955) – 1998–2003 və 2004–2009-cu illərdə Litva Respublikasının prezidenti olmuşdur. – 222, 223–224.

**171. Stiven Mənn** – amerikan diplomatı. 2001–2009-cu illərdə ABŞ Dövlət katibinin koməkçisi. 2004–2006-cı illərdə ABŞ-dan ATƏT-in Dağlıq Qarabağ üzrə həmsədri. – 229.

**172. Şamaxı** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1610 $km^2$, əhalisi 93,1 min nəfərdir. – 230–253,282.

**173. İsmayıllı** – Azərbaycan Respublikasında inzibati Rayon. 1931-ci ildə təşkil edilmişdir. Sahəsi 2074 km, əhalisi 75 min nəfərdir. – 241.

**174. Nəsimi,** əsl adı S e y i d Ə l i (1369–1417) – Azərbaycan şairi və mütəfəkkiri. İmadəddin Nəsimi adı ilə də məşhurdur. Əsərlərini Azərbaycan, ərəb, fars dillərində yazmışdır. Hürufiliyi yaydığı üçün Hələbdə həbs olunmuş, «kafir», «dinsiz» elan edilərək ruhanilərin fitvası ilə diri-diri dərisi soyularaq edam edilmişdir. – 244–246.

**175. Avropa Şurasının Parlament Assambleyası** (AŞPA) – 2004-cü ildə təşkil olunmuşdur. AŞPA-da 25 Avropa ölkəsinin 732 deputatı fəaliyyət göstərir. – 252,253,255,256.

**176. 1990-cı ilin 20 yanvarı** – 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən Sovet Ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet Ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 255,316.

**177. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** (ARDNŞ) – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal

edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. –255.

**178. İsrail –** Yaxın Şərqdə dövlət. Sahəsi 20,8 min $km^2$, əhalisi 5,5 milyon nəfərdir (1948-49-cu illərdə işğal edilmiş ərazi daxil olmaqla).. İsrail dövləti BMT-nin Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli qərarına əsasən yaradılmışdır. İsrail inzibati cəhətdən 6 mahala bölünür. Dövlət başçısı prezidentdir, onu birpalatalı parlament (Knesset) seçir. Hökumətə geniş səlahiyyəti olan Baş nazir başçılıq edir. – 272.

**179. Moşe Katsav** (d.1945) – İsrail dövlət xadimi. 2000–2007-ci illərdə İsrail prezidenti. – 272.

**180. İsgəndərun** – Cənubi Türkiyədə, Aralıq dənizinin İsgəndərun körfəzində liman şəhəri. Əhalisi 155 min nəfərdir. – 273–276.

**181. Ceyhan –** Aralıq dənizi sahilində liman. 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 273–276.

**182. Dövlət Baxçalı** (d.1948) – Türkiyə siyasi xadimi, iqtisadçı. 1997-ci ildə Milliyyətçi Hərəkat Partiyasının sədri seçilmişdir. 1999-cu il seçkilərində qalib gələrək Demokratik Sol Partiya və Ana Vətən Partiyası ilə koalisiya hökuməti yaratmışdır. Baş nazirin müavini olmuşdur. 2007-ci ildə keçirilən seçkilərdə yenidən millət vəkili seçilmişdir. – 275.

**183. Mustafa Kamal Atatürk,** Qazi Mustafa Kamal (1881–1938) –Türkiyə dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi və ilk prezidenti (1923–38). Birinci dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir.

Atatürk 1919-cu ildə «kamalçılar hərəkatına» – milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratdı, məclisin və təşkil edilən hökumətin sədri seçildi. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və «Qazi» fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə türk ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etdi.

Atatürk soyadı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 276.

.

**184. Latviya seymi** – Latviyada ali qanunverici orqan (1922–34 və 1993-cü ildən). 5 il müddətinə seçilir. Respublika hökumətini təşkil edir. – 279–280.

**185. Ramiz Mehdiyev,** Ramiz Ənvər oğlu (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin 1-ci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab

və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. – 286–287,311.

**186. ANS televiziyası** – Azərbaycanda 1991-ci ildən fəaliyyət göstərən müstəqil televiziya kanallarından biri. – 288–293.

**187. «Azərenerji»** – Dövlət şirkəti. Elektrik sistemləri avadanlıqlarının texniki istismarı, elektrik enerjisi ötürülməsi, bölüşdürülməsi, generasiya güclərinin və şəbəkələrinin planlaşdırılması və inkişaf məsələlərini həll edir. – 300–302.

**188. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Ərazisi 0,013 min $km^2$, əhalisi 67 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində isə Albaniyanın, IV əsrdən isə Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. Naxçıvan Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtı olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olub. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtı oldu. – 316,317.

**189. Artur Rasizadə,** Artur Tahir oğlu (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublika-

sının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 311.

**190. Hacıbala Abutalıbov,** Hacıbala İbrahim oğlu (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fiziika-riyaziyyat elmləri doktorudur. – 311.

**191. Ramiz Rizayev,** Ramiz Həsənqulu oğlu (d.1939) – kimyaçı, kimya elmləri doktoru, professor. AMEA-nın müxbir üzvü. 1993–2007-ci illərdə Azərbaycan Respublikasının Rusiya Federasiyasında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. –311.

**192. Corc Buş** (d.1946) – ABŞ-ın 43-cü prezidenti (2000–2008-ci illər). ABŞ-ın 41-ci prezidenti Corc Herbert Buşun oğludur. 1968-ci ildə Yel universitetini (incəsənət, tarix bakalavrı), 1975-ci ildə isə Harvard universitetini (incəsənət magistri) bitirmişdir. «Speaktrum-7 Enerci Korporeyşn» firmasının yaradıcısıdır. 1994-cü ildən Texas ştatının qubernatoru olmuşdur. – 312.

**193. Georgi Pirvanov** (d.1957) – Bolqarıstan siyasi və dövlət xadimi. Tarix elmləri doktoru. 2000–2011-ci illərdə Bolqarıstanın prezidenti olmuşdur. – 312.

**194. Silvio Berluskoni (**d.1936) – 1994–95, 2001–2006 və 2008–2011-ci illərdə İtaliya Respublikası Nazirlər Şurasının sədri olmuşdur. – 312.

**195. Kamerun,** Kamerun Respublikası – Mərkəzi Afrikada dövlət. Sahəsi 475,4 min km$^2$, əhalisi 13,6 milyon nəfərdir. İnzibati ərazisi 10 əyalətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Yaundadır. – 321.

**196. Pol Biyya** (d.1933) – Kamerun siyasi və dövlət xadimi. 1982-ci ildən Kamerunun prezidenti. – 321.

**197. Yəmən,** Y ə m ə n R e s p u b l i k a s ı – Ərəbistan yarımadasının cənub hissəsində dövlət. Sahəsi 532 min km$^2$, əhalisi 16,6 milyon nəfərdir. İnzibati ərazisi 17 əyalətə (qubernatorluğa) bölünür. Dövlət başçısı Prezident Şurasıdır. Paytaxtı 1990-cı ildən Sənadır. Ədən iqtisadi şəhər statusuna malikdir. –322.

**198. Əli Abdulla Saleh** (d.1932) – marşal, 1994–2011-ci illərdə Yəmən Respublikasının prezidenti. – 322.

**199. YUNİSEF,** BMT–nin U ş a q F o n d u – 1946-cı ildə təsis edilmişdir (1953-cü ildən indiki adı ilə adlanır). BMT-nin müəssisəsi olub uşaqlar üçün proqramlar üzrə fəaliyyəti əlaqələndirir, başlıca olaraq inkişaf etməkdə olan ölkələrə yardım göstərir. Maliyyə təsisatlarının mənbələrini hökumətlərin könüllü üzvlük haqları, ictimai təşkilatların, xüsusi şəxslərin və başqalarının ianələri təşkil edir. Fondun rəhbər orqanında – İdarə Heyətində 41 dövlət təmsil olunur. Katibliyi Nyu-Yorkda, şöbələri Avropa üzrə Cenevrədə, regionlar üzrə bir sıra inkişaf etməkdə olan ölkələrdə yerləşir. Nobel sülh mükafatı laureatıdır. – 323–324.

**200. Norveç,** N o r v e ç K r a l l ı ğ ı – Şimali Avropada dövlət. Sahəsi 387 min km$^2$, əhalisi 4,4 milyon nəfərdir. İnzibati ərazisi 19 fülkeyə (qraflığa) bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Oslodur. – 325,326.

**201. Harald V** (d.1937) – 1991-ci ildən Norveçin kralı. Kral V Ulafin oğlu. – 325.

**202. Bundevik Kyel –** (d.1947) – 1997–2000-ci və 2001–2005-ci illərdə Norveçin Baş naziri. Hazırda Norveçdə «Sülh və insan hüquqları» mərkəzinin prezidentidir. – 326.

**203. Elçin Əfəndiyev,** E l ç i n İ l y a s o ğ l u (1943) – Azərbaycan yazıçısı, ictimai və dövlət xadimi. Azərbaycan Respublikasının Xalq yazıçısı. Yazıçı İlyas Əfəndiyevin oğlu. Azərbaycan Yazıçılar Birliyinin katibi, Xaricdə Yaşayan Həmvətənlərlə Mədəni Əlaqələr –«Vətən» cəmiyyətinin sədri vəzifəsində işləmişdir. 1993-cü ildən Azərbaycan Respublikasının Baş nazirinin müavinidir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 336–337.

**204. Maqsud İbrahimbəyov,** M a q s u d M ə m m ə d i b r a h i m o ğ l u (d.1935) – görkəmli nasir, dramaturq, ssenarist, ictimai xadim, Azərbaycan Xalq yazıçısı. Azərbaycan Respublikası Dövlət mükafatı laureatıdır. Respublikada və xaricdə nəşr edilən onlarla povest və hekayələrin müəllifidir. Onun pyesləri keçmiş SSRİ məkanında onlarla teatrda tamaşaya qoyulmuşdur. Ssenariləri əsasında bir çox film çəkilmişdir. Azərbaycan Respublikası Əsilzadələr Məclisinin sədridir. 1995-ci ildən Milli Məclisin üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 338–339.

## Şəxsi adlar göstəricisi


**Abdullayev Fərhad** – 254–258
**Abutalıbov Hacıbala** – 311
**Adamik Yeji** – 92,93
**Adamkus Valdas** – 222,223–224
**Ağayev Mirşahin** – 288–293
**Albert** – 106
**Andropov Yuri** – 125
**Antoşkin Nikolay** – 123–126
**Aristotel** – 206
**Aslan Mete** – 275
**Aslanov Həzi** – 125
**Atatürk Mustafa Kamal** – 276
**Avramopulos Dimitris** – 114–115
**Baxçalı Dövlət** – 275
**Baybakov Nikolay** – 123–126
**Belka Marek** – 68
**Benedikt XVI** – 185
**Berluskoni Silvio** – 312
**Besesku Trayan** – 220,223–224
**Biguin Mariya** – 175–176
**Biyya Rol** – 321
**Bleyr Toni** – 116,310
**Boqdanov Vsevolod** – 123–126
**Bundevik Kyel** – 326
**Borsotti Marko** – 323
**Buş Corc** – 312
**Çapla Lek** – 72
**Dadaşov Cavanşir** – 244
**Danelyak İolanta** – 74
**Dante** – 206,208
**De Kroo Herman** – 112–113
**Denisovs Oleqs** – 279–280

**Doğramacı İhsan** – 97,265,266–268
**Düpon Ambruaz** – 119–120
**Evsan Əli** – 240
**Əbiyev Səfər** – 61
**Əfəndiyev Elçin** – 336–337
**Əl-Əsəd Bəşşar** – 107
**Əliyev Heydər** – 8,9,12,13,31,33,34,36,37,44, 45,80,83,109,110,123,125,126, 146,168,174,193,207,226–228, 232,238,242,254–261, 267,268,269,274,275,276, 284,288,291,295,306,307,308, 311–320,324,328,336.
**Əliyev Fərhad** – 182
**Əliyev Rüstəm** – 244
**Əliyev Tələt** – 190
**Əliyeva Mehriban** – 7–17,20,59,75,91,92,93,110–111,230,242,243,244,311,312, 320.
**Əliyeva Zərifə** – 110,128
**Əllamə İqbal** – 146
**Ərdoğan Rəcəb Tayyib** – 116,312
**Əsgərov Cahangir** – 22–24
**Ət-Təlabani Cəlal** –108
**Əziz Şövkət** – 130,145,150–151,152,153, 154–158
**Fedoseyev Vladimir** – 189
**Gəncəvi Nizami** – 142,205–210
**Hafiz Məhəmməd** – 129,169
**Harald V** – 325
**Harasti Niklos** – 121–122
**Heller Elen** – 49–50
**Həmid Seyid Əli** – 148
**Hüseynov Elmar** – 118,122,127–128
**Hüseynov Sabir** – 127–128

**İbn Sina** – 206
**İbrahimov Mənsum** – 20
**İbrahimbəyov Maqsud** – 338–339
**İohann Pavel II** – 30,31,100,102–103,116,119
**İsmayılova Səkinə** – 20
**Karamanlis Konstantinos** – 114,115
**Kasprşik** – 64,69
**Katsav Moşe** – 272
**Kizyun Nikolay** – 123–126
**Klyayna Henri** – 25–26
**Koçinski Lex** – 75,77–78
**Kojevnikova Mariya** – 242,243
**Köçəryan Robert** – 69
**Kömür Bəşar** – 274
**Krasnevski İolanta** – 59,81
**Kvasnevski Aleksandr** – 59,60–61,62–71,79–81,103, 264,312
**Qəydi Əzəm** – 146,147
**Qobustanlı İslam** – 17
**Qoslavski İosif** – 73
**Qucerotti Klaudio** – 30–31
**Quretski Voyçex** – 102–103
**Quliyev Vilayət** – 63
**Lesar Devid** – 19
**Lupu Marian** – 203–204
**Mareni Stefan** – 202
**Marqret II** – 117
**Mbeki Tabo** – 172
**Mehdiyev Ramiz** – 286–287,311
**Mejia Forsuth** – 24
**Menard Robert** – 118
**Mədətli Eynulla** – 129,167,169
**Məhəmməd Əli Cinnə** – 146
**Məlikov Əlixan** – 300–302

**Mənn Stiven** – 229
**Mkapa Bencamin** – 171
**Müşərrəf Pərviz** – 129,130,131–132,133–135, 136–141,142–147,155,159,164, 167,168
**Nadir şah** – 146
**Nalenç Tomas** – 72
**Nəsimi İmadəddin** – 244–246
**Nogin Mixail** – 311
**Orlova Svetlana** – 28–29
**Örnək Özdən** – 56–57
**Pirvanov Georgi** – 312
**Pirverdiyev Etibar** – 300–302
**Ploşko İosif** – 73
**Ponsöle Kristian** – 120
**Puşkin Aleksandr** – 206,208
**Putin Vladimir** – 29,47,48,311–313
**Rasizadə Artur** – 311
**Renye III** – 106
**Rizayev Ramiz** – 311
**Rulofs Sandra** – 7–17,18,20
**Rup Corc** – 262–263
**Rupel Dimitri** – 98–99
**Ruşaylo Vladimir** – 105
**Saakaşvili Mixail** – 11,18,214,221–222,223–224
**Saleh Əli Abdulla** – 322
**Skoreliç Kazimir** – 73
**Starr Frederik** – 21
Stepaşin Sergey – 47–48
**Stratan Andrey** – 190
**Şaymiyev Mintemir** – 32
**Şekspir** – 206,208
**Serbakov Salavat** – 314
**Şirak Jak** – 116,119
**Şmaydzinski Yeji** – 61,63

**Şröder Gerhard** – 116
**Şuminov Şirin** – 294
**Talvitiye Heyki** – 327
**Tarlev Vasile** – 190,202–203
**Teymur** – 146
**Təbrizi Sahib** – 142
**Təbrizi Şəms** – 143
**Timoşenko Yuli** – 68
**Uold Çarlz** – 95
**Vad Abdulay** – 27
**Vahid Naxış** – 288–293
**Varraix Həbibulla xan** – 129,169
**Verhofstadt Çi** – 112
**Voronin Vladimir** – 101,190–191,192–193,194, 195–201,202,203,204,205–210, 211–213,214–219,222,223–224
**Vudvord Devid** – 170
**Vulfovits Pol** – 96
**Yeltsin Boris** – 109–111
**Yudhoyono Susilo** – 55
**Yuşşenko Viktor** – 68,116,214,223–224
**Zahid Malik** – 104

## Goğrafi adlar göstəricisi


| | |
|---|---|
| **Abxaziya** | – 88,216 |
| **Afina** | – 114 |
| **Ağdam** | – 333 |
| **Ağsu** | – 241 |
| **Almaniya** | – 116,275,294,303 |
| **Amerika Birləşmiş Ştatları** | – 19,21,22,49–50,87,93,135, 182,218,219,229,268,294 |
| **Aralıq dənizi** | – 68 |
| **Asiya** | – 166 |
| **Avrasiya** | – 226 |
| **Avropa** | – 22,37,60,63,66,69,80,86,87, 89,196,198,200,201,213,215, 219,223,224,279,280,292 |
| **Bakı** | – 6,11,12,16,17,22,28,32,46,54, 60,70,73,74,75,85,90,94,96,97,1 00,102,106,107,108,111,116, 124,125,147,154,160,169,171, 172,174,176,180,185,187,188, 189,225,226,227,233,264,270, 271,272,280,294,301,304,305, 310,311,321,322,325,326,328 |
| **Baltikyanı ölkələr** | – 303 |
| **Belarus** | – 303 |
| **Belçika** | – 112–113 |
| **Buxarest** | – 220 |
| **Böyük Britaniya** | – 22,116,310,312 |
| **Cammi** | – 144 |
| **Ceyhan** | – 273–276 |
| **Cənubi Afrika Respubltkası** | – 172 |
| **Cənubi Koreya** | – 243 |

**Cənubi Qafqaz** – 65,66,84,110,113,280,306,327
**Cənubi Osetiya** – 88,216
**Çin** –14,15,243
**Çuxuryurd** – 242
**Dağlıq Qarabağ** –10,14,37,38,41,51,52,56,61,63, 66, 69,70,85,86,87,88,98,99,132, 136,137,138,140,143,145,155, 157,158,159,161,164,165,166, 175,176,199,216,218,229,257, 258,259,262,274,279,304,318, 319
**Danimarka** – 117
**Dnestryanı** – 88,197,199,201,214,216
**Əfqanıstan** – 64,144
**Fransa** – 87,119–120,231,312
**Gürcüstan** – 11,12–13,18,87,88,214,221–222,224
**Hindistan** – 144
**Xəzər dənizi** – 62,67,170,215,221,223,224
**Xocalı** – 52
**İndoneziya** – 55
**İraq** – 64,91,108
**İran** – 85
**İslamabad** – 129–169
**İsgəndərun** – 273–276
**İsmayıllı** – 241
**İsrail** – 272
**İtaliya** – 294
**Kamerun** – 321
**Kanada** – 22
**Kəraçı** – 154,155,160
**Kəşmir** – 132,133,134,136,140,144,145, 155,157,158,159,164
**Kişinyov** – 190–225,229
**Klivlend** – 268

**Kosovo** – 64,90,91
**Krakov** – 92–94,103
**Qafqaz** – 63,85
**Qara dəniz** – 68,215,221,223
**Qəbələ** – 241
**Qərbi Avropa** – 304
**Qırğızıstan** – 63
**Qızmeydan (*Şamaxıda kənd*)** – 249
**Qobustan** – 241
**Lahor** – 155
**Lapseki** – 273–276
**Latviya** – 279–280
**Litva** – 214,215,222,223,224,229
**Lüksemburq** – 25–26
**Maynts** – 274,275
**Mərsin-Torostlar** – 273–276
**Moldova** – 88,101,190–225,303
**Monako** – 106
**Monqolustan** – 294
**Moskva** – 124,189,311–313,315,316
**Multan** – 143
**Naxçıvan** – 316,317
**Norveç** – 325,326
**Orta Asiya** – 243
**Pakistan** – 104,129–169
**Payas** – 273–276
**Polşa** – 58–94,102–103,264,312
**Praqa** – 41
**Reynland–Pfalts (*Almaniyada əyalət*)** – 275
**Riqa** – 280
**Roma** – 116,119
**Rumıniya** – 214,215,220,223,224,229
**Rusiya** – 28–29,32,47–48,85,87,109–111,123–126,189,294,303,304,311–313

**Sabunçu** – 300–302
**Sarımazı** – 273–276
**Seneqal** – 27
**Səudiyyə Ərəbistanı** – 30
**Sloveniya** – 98–99
**Smolensk** – 314
**Sumqayıt** – 269
**Suriya** – 107
**Şamaxı** – 230–253,282
**Şərqi Avropa** – 304
**Şirvan** – 231,242
**Tanzaniya** – 171
**Tatarıstan** – 32
**Türkiyə** –53,56–57,85,243,265,266–268, 273–276,294
**Ukrayna** – 68,214,221,243,303
**Varşava** – 58–91
**Vatikan dövləti** – 30–31,100,102–103,116
**Yaponiya** – 236
**Yəmən** – 322
**Yunanıstan** – 114–115
**Zəngəzur** – 51,52

# MÜNDƏRİCAT

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK
*19 mart 2005-ci il*.............................................................................5

NOVRUZ BAYRAMINA HƏSR OLUNMUŞ ÜMUMXALQ BAYRAMINDA NİTQ
*21 mart 2005-ci il*.............................................................................7

HEYDƏR ƏLİYEV FONDUNDA GÜRCÜSTAN PREZİDENTİNİN XANIMI SANDRA ELİZABET RULOFS İLƏ GÖRÜŞ
*21 mart 2005-ci il*.............................................................................18

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ «HALLİBURTON» ŞİRKƏTİNİN PREZİDENTİ DEVİD LESAR İLƏ GÖRÜŞ
*21 mart 2005-ci il*.............................................................................19

«AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN DOSTLARI» FONDU YUNESKOnun DƏSTƏYİ İLƏ REALLAŞDIRDIĞI «MUĞAM DƏSGAHLARI» LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ TƏŞKİL ETDİYİ MUĞAM AXŞAMINDA
*21 mart 2005-ci il*.............................................................................20

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ CON HOPKİNS UNİVERSİTETİNİN MƏRKƏZİ ASİYA VƏ QAFQAZ İNSTİTUTUNUN DİREKTORU PROFESSOR FREDERİK STARR İLƏ GÖRÜŞ
*22 mart 2005-ci il*.............................................................................21

HEYDƏR ƏLİYEV ADINA BEYNƏLXALQ HAVA LİMANINDA YÜK TERMİNALININ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ
*23 mart 2005-ci il*.............................................................................22

LÜKSEMBURQUN MÜLKİ AVİASİYASININ DİREKTORU HENRİ KLYAYNANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*23 mart 2005-ci il...........................................................................25*

SENEQAL RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULAY VADA
*24 mart 2005-ci il...........................................................................27*

RUSİYA FEDERAL MƏCLİSİNİN FEDERASİYA ŞURASI SƏDRİNİN MÜAVİNİ SVETLANA ORLOVANIN BAŞÇILIĞI İLƏ FEDERASİYA ŞURASININ VƏ MDB PARLAMENTLƏRARASI ASSAMBLEYASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*25 mart 2005-ci il...........................................................................28*

VATİKAN DÖVLƏTİNİN ÖLKƏMİZDƏKİ APOSTOL NUNSİSİ KLAUDİO QUCEROTTİ İLƏ GÖRÜŞ
*25 mart 2005-ci il...........................................................................30*

TATARISTAN RESPUBLİKASININ PREZİDENTİ CƏNAB MİNTİMER ŞAYMİYEVƏ
*25 mart 2005-ci il...........................................................................32*

YENİ AZƏRBAYCAN PARTİYASININ III QURULTAYINDA NİTQ
*26 mart 2005-ci il...........................................................................33*

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ TƏHLÜKƏSİZLİK NAZİRLİYİNİN ŞƏXSİ HEYƏTİNƏ
*28 mart 2005-ci il...........................................................................45*

RUSİYA FEDERASİYASI HESABLAMA PALATASININ SƏDRİ SERGEY STEPAŞİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*28 mart 2005-ci il...........................................................................47*

AMERİKA YƏHUDİ BİRGƏ PAYLAŞDIRMA KOMİTƏSİNİN SƏDRİ XANIM ELLEN HELLERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*28 mart 2005-ci il...........................................................................49*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 31 MART AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏTİ
*29 mart 2005-ci il..........................................................................51*

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA
*29 mart 2005-ci il..........................................................................55*

TÜRKİYƏ RESPUBLİKASI HƏRBİ DƏNİZ QÜVVƏLƏRİNİN KOMANDANI, DONANMA ADMİRALI ÖZDƏN ÖRNƏKİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*29 mart 2005-ci il..........................................................................56*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞA RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ
*30 mart 2005-ci il..........................................................................58*

POLŞA PREZİDENTİNİN SARAYINDA RƏSMİ QARŞILANMA MƏRASİMİ
*30 mart 2005-ci il..........................................................................59*

POLŞA PREZİDENTİ ALEKSANDR KVASNEVSKİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ
*30 mart 2005-ci il..........................................................................60*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA AZƏRBAYCAN VƏ POLŞA PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI
*30 mart 2005-ci il..........................................................................62*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞA RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ
*30 mart 2005-ci il..........................................................................72*

İKİNCİ DÜNYA MÜHARİBƏSİ ZAMANI VARŞAVA ÜSYANINDA İŞTİRAK ETMİŞ VƏ HƏLAK OLMUŞ AZƏRBAYCANLI ZABİTLƏRİN XATİRƏ LÖVHƏSİNİN AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ
*30 mart 2005-ci il..........................................................................77*

POLŞA PREZİDENTİ ALEKSANDR KVASNEVSKİNİN ADINDAN AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA NİTQ

*30 mart 2005-ci il........................................................................................79*

VARŞAVA UNİVERSİTETİNİN PROFESSOR-MÜƏLLİM HEYƏTİ VƏ TƏLƏBƏLƏRLƏ GÖRÜŞDƏ NİTQ
*31 mart 2005-ci il........................................................................................82*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞA RESPUBLİKASINA SƏFƏRİ
*31 mart 2005-ci il........................................................................................92*

ABŞ SİLAHLI QÜVVƏLƏRİ AVROPA KOMANDANLIĞI RƏİSİNİN MÜAVİNİ ÇARLZ UOLDUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*1 aprel 2005-ci il........................................................................................95*

DÜNYA BANKININ PREZİDENTİ CƏNAB POL VULFOVİTSƏ
*1 aprel 2005-ci il........................................................................................96*

BİLKƏND UNİVERSİTETİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ CƏNAB İHSAN DOĞRAMACIYA
*1 aprel 2005-ci il........................................................................................97*

ATƏT-in HAZIRKI SƏDRİ SLOVENİYANIN XARİCİ İŞLƏR NAZİRİ DİMİTRİ RUPEL İLƏ GÖRÜŞ
*2 aprel 2005-ci il........................................................................................98*

MÜQƏDDƏS TAXT-TACIN KARDİNALI ƏLAHƏZRƏT COZEF RATZİNGERƏ
*3 aprel 2005-ci il......................................................................................100*

MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR VORONİNƏ
*5 aprel 2005-ci il......................................................................................101*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VATİKAN DÖVLƏTİNİN BAŞÇISI, ROMA PAPASI II İOHANN PAVELİN VƏFATI İLƏ ƏLAQƏDAR POLŞANIN BAKIDAKI SƏFİRLİYİNƏ GEDƏRƏK BAŞSAĞLIĞI VERMİŞDİR
*5 aprel 2005-ci il......................................................................................102*

PAKİSTAN İSLAM RESPUBLİKASININ «OBSERVER» QƏZETİNİN BAŞ REDAKTORU ZAHİD MALİKƏMÜSAHİBƏ VERMİŞDİR

*5 aprel 2005-ci il*..........................................................................................*104*

MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ TƏŞKİLATININ İCRAÇI KATİBİ VLADİMİR RUŞAYLO İLƏ GÖRÜŞ
*5 aprel 2005-ci il*..........................................................................................*105*

MONAKONUN ŞAHZADƏSİ ƏLAHƏZRƏT ALBERTƏ
*6 aprel 2005-ci il*..........................................................................................*106*

SURİYA ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BƏŞŞAR ƏL-ƏSƏDƏ
*7 aprel 2005-ci il*..........................................................................................*107*

İRAQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİCƏNAB CƏLAL HÜSAMƏDDİN ƏT-TƏLABANİYƏ
*7 aprel 2005-ci il*..........................................................................................*108*

RUSİYA FEDERASİYASININ İLK PREZİDENTİ BORİS YELTSİNLƏ GÖRÜŞ
*7 aprel 2005-ci il*..........................................................................................*109*

BELÇİKA KRALLIĞI PARLAMENTİ NÜMAYƏNDƏLƏR PALATASININ SƏDRİ HERMAN DE KROONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*7 aprel 2005-ci il*..........................................................................................*112*

YUNANISTAN RESPUBLİKASININ TURİZM NAZİRİ DİMİTRİS AVRAMOPULOSUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*7 aprel 2005-ci il*..........................................................................................*114*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV PAPA II İOHANN PAVELİN DƏFN MƏRASİMİNDƏ
*7 aprel 2005-ci il*..........................................................................................*116*

DANİMARKANIN KRALİÇASI ÜLYAHƏZRƏT II MARQRETEYƏ
*7 aprel 2005-ci il*..........................................................................................*117*

«SƏRHƏDSİZ REPORTYORLAR» BEYNƏLXALQ TƏŞKİLATININ BAŞ KATİBİ ROBERT MENARD İLƏ GÖRÜŞ

*8 aprel 2005-ci il*..........................................................................................*118*

FRANSA SENATININ FRANSA–AZƏRBAYCAN DOSTLUQ QRUPUNUN SƏDRİ, SENATOR AMBRUAZ DÜPONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*11 aprel 2005-ci il*..........................................................................................*119*

ATƏT-in KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN AZADLIĞI ÜZRƏ NÜMAYƏNDƏSİ MİKLOS HARAŞTİ-NİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*11 aprel 2005-ci il*..........................................................................................*121*

RUSİYA VETERANLAR ASSOSİASİYASININ NÜMAYƏNDƏ HEYƏTİ, RUSİYA JURNALİSTLƏRİ İLƏ GÖRÜŞ
*11 aprel 2005-ci il*..........................................................................................*123*

«MONITOR» JURNALININ BAŞ REDAKTORU ELMAR HÜSEYNOVUN QƏTLƏ YETIRILMƏSININ 40-cı GÜNÜNÜN TAMAM OLMASI İLƏ ƏLAQƏDAR MƏRHUMUN ATASI SABIR HÜSEYNOV İLƏ GÖRÜŞ
*11 aprel 2005-ci il*..........................................................................................*127*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN PAKİSTANA RƏSMİ SƏFƏRİ
*12 aprel 2005-ci il*..........................................................................................*129*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏF İLƏ TƏKBƏTƏK GÖRÜŞ
*12 aprel 2005-ci il*..........................................................................................*131*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏFİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ
*12 aprel 2005-ci il*..........................................................................................*133*

GÖRÜŞ BAŞA ÇATDIQDAN SONRA PAKİSTAN PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏFİN VƏ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BİRGƏ MƏTBUAT KONFRANSI
*12 aprel 2005-ci il*..........................................................................................*136*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ PAKİSTAN PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏFİN ADINDAN TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ
*12 aprel 2005-ci il..........................................................................142*

PAKİSTAN MÜDAFİƏ NAZİRLİYİNİN NƏZDİNDƏ HƏRBİ İXRACA YARDIM TƏŞKİLATININ SƏRGİSİ İLƏ TANIŞLIQ
*13 aprel 2005-ci il..........................................................................148*

PAKİSTAN İSLAM RESPUBLİKASININ BAŞ NAZİRİ ŞÖVKƏT ƏZİZ İLƏ GÖRÜŞ
*13 aprel 2005-ci il..........................................................................150*

AZƏRBAYCAN VƏ PAKİSTAN NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN GÖRÜŞÜ
*13 aprel 2005-ci il..........................................................................152*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ PAKİSTANIN BAŞ NAZİRİ ŞÖVKƏT ƏZİZİN BİRGƏ MƏTBUAT KONFRANSI
*13 aprel 2005-ci il..........................................................................154*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİNPAKİSTAN TELEVİZİYASINA MÜSAHİBƏSİ
*13 aprel 2005-ci il..........................................................................159*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN PAKİSTANA RƏSMİ SƏFƏRİ
*13 aprel 2005-ci il..........................................................................167*

AZƏRBAYCAN BEYNƏLXALQ ƏMƏLİYYAT ŞİRKƏTİNİN (ABƏŞ) PREZİDENTİ DEVİD VUDVORDLA GÖRÜŞ
*14 aprel 2005-ci il..........................................................................170*

TANZANİYA BİRLƏŞMİŞ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BENCAMİN UİLYAM MKAPAYA
*18 aprel 2005-ci il..........................................................................171*

CƏNUBİ AFRİKA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TABO MBEKİYƏ
*18 aprel 2005-ci il..........................................................................172*

AZƏRBAYCAN RESPUBLİKASI SAHİBKARLAR TƏŞKİLATLARI MİLLİ KONFEDERASİYASI I QURULTAYININ İŞTİRAKÇILARINA
*19 aprel 2005-ci il..........................................................................173*

MARİYA İŞLER BİGUİNİN BAŞÇILIĞI İLƏ AVROPA İTTİFAQI – AZƏRBAYCAN PARLAMENT ƏMƏKDAŞLIĞI KOMİTƏSİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*19 aprel 2005-ci il..........................................................................175*

2005-ci İLİN BİRİNCİ RÜBÜNÜN İQTİSADİ YEKUNLARINA HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ NİTQ
*20 aprel 2005-ci il..........................................................................177*

ZATİ-MÜQƏDDƏSLƏRİ ROMA PAPASI XVI BENEDİKTƏ
*20 aprel 2005-ci il..........................................................................185*

TRASEKA HÖKUMƏTLƏRARASI KOMİSSİYASININ 4-cü İLLİK KONFRANSININ İŞTİRAKÇILARINA
*20 aprel 2005-ci il..........................................................................186*

«AZƏRBAYCAN TİBB JURNALI»NA
*20 aprel 2005-ci il..........................................................................188*

RUSİYANIN P.İ.ÇAYKOVSKİ ADINA DÖVLƏT AKADEMİK BÖYÜK SİMFONİK ORKESTRİNİN BƏDİİ RƏHBƏRİ VƏ BAŞ DİRİJORU VLADİMİR FEDOSEYEV İLƏ GÖRÜŞ
*20 aprel 2005-ci il..........................................................................189*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MOLDOVAYA RƏSMİ SƏFƏRİ
*21 aprel 2005-ci il..........................................................................190*

AZƏRBAYCAN–MOLDOVA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ
*21 aprel 2005-ci il..........................................................................192*

AZƏRBAYCAN–MOLDOVA SƏNƏDLƏRİNİN İMZALANMA MƏRASİMİ
*21 aprel 2005-ci il..........................................................................194*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ MOLDOVANIN PREZİDENTİ VLADİMİR VORONİNİN BİRGƏ MƏTBUAT KONFRANSI
*21 aprel 2005-ci il..........................................................................195*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MOLDOVAYA RƏSMİ SƏFƏRİ
*21 aprel 2005-ci il..........................................................................202*

KİŞİNYOVDA DAHİ AZƏRBAYCAN ŞAİRİ VƏ MÜTƏFƏKKİRİ NİZAMİ GƏNCƏVİNİN ABİDƏSİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ
*21 aprel 2005-ci il..........................................................................205*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİNİN ADINDAN TƏŞKİLOLUNMUŞ RƏSMİ QƏBULDA NİTQ
*21 aprel 2005-ci il..........................................................................211*

GUÖAM ÖLKƏLƏRİ DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNDƏ NİTQ
*22 aprel 2005-ci il..........................................................................214*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MOLDOVAYA RƏSMİ SƏFƏRİ
*22 aprel 2005-ci il..........................................................................220*

GUÖAM ÖLKƏLƏRİ DÖVLƏT BAŞÇILARININ MƏTBUAT KONFRANSI
*22 aprel 2005-ci il..........................................................................223*

«HEYDƏR ƏLİYEV» ORDENİNİN TƏSİS EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU
*22 aprel 2005-ci il..........................................................................226*

ABŞ DÖVLƏT DEPARTAMENTİNİN AVRASİYA ÜZRƏ BÖYÜK MƏSLƏHƏTÇİSİ STİVEN MƏNN İLƏ GÖRÜŞ
*25 aprel 2005-ci il..........................................................................229*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞAMAXI RAYONUNA SƏFƏRİ
*26 aprel 2005-ci il..........................................................................230*

ŞAMAXI OLİMPİYA İDMAN KOMPLEKSİNİN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ
*26 aprel 2005-ci il..........................................................................232*

ŞAMAXI OLİMPİYA İDMAN KOMPLEKSİNDƏ KEÇİRİLMİŞ KREDİT YARMARKASINDA NİTQ
*26 aprel 2005-ci il..........................................................................239*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ŞAMAXI RAYONUNDA
*26 aprel 2005-ci il..........................................................................242*

BÖYÜK AZƏRBAYCAN ŞAİRİ İMADƏDDİN NƏSİMİNİN HEYKƏLİNİN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ
*26 aprel 2005-ci il..........................................................................244*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ŞAMAXI RAYONUNDA
*26 aprel 2005-ci il..........................................................................247*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVƏ ÖLKƏMİZİN ƏN ALİ MÜKAFATININ, XALQIMIZIN ÜMUMMİLLİ LİDERİ, MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN MEMARI VƏ QURUCUSUNUN ŞƏRƏFİNƏ TƏSİS EDİLMİŞ «HEYDƏR ƏLİYEV» ORDENİNİN VƏ ONUN BİR NÖMRƏLİ VƏSİQƏSİNİN TƏQDİM OLUNMASI MƏRASİMİ
*28 aprel 2005-ci il..........................................................................254*

BEYNƏLXALQ XİLASETMƏ KOMİTƏSİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*28 aprel 2005-ci il..........................................................................262*

POLŞA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR KVASNEVSKİYƏ
*28 aprel 2005-ci il..........................................................................264*

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ FƏXRİ ÜZVÜ, DÜNYA ŞÖHRƏTLİ ALİM İHSAN DOĞRAMACI AZƏRBAYCANA GƏLMİŞDİR
*28 aprel 2005-ci il.........................................................................................265*

TÜRK DÜNYASININ BÖYÜK OĞLU İHSAN DOĞRAMACININ ANADAN OLMASININ 90 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YUBİLEY GECƏSİNDƏ NİTQ
*29 aprel 2005-ci il.........................................................................................266*

AZƏRBAYCAN RESPUBLİKASI «AZƏRİKİMYA» DÖVLƏT ŞİRKƏTİNİN SƏTHİ AKTİV MADDƏLƏR ZAVODUNUN KOLLEKTİVİNƏ
*29 aprel 2005-ci il.........................................................................................269*

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİANLARINA
*30 aprel 2005-ci il.........................................................................................271*

İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MOŞE KATSAVA
*2 may 2005-ci il...............................................................................................272*

TÜRKİYƏNİN İSGƏNDƏRUN, PAYAS, CEYHAN, SARIMAZI, MƏRSİNTOROSLAR, LAPSEKİ ŞƏHƏRLƏRİNİN BƏLƏDİYYƏ BAŞÇILARI VƏ BU ÖLKƏDƏ FƏALİYYƏT GÖSTƏRƏN AZƏRBAYCAN DƏRNƏKLƏRİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ
*2 may 2005-ci il...............................................................................................273*

AZƏRBAYCANIN YƏHUDİ İCMASINA
*2 may 2005-ci il...............................................................................................277*

LATVİYA SEYMİNİN LATVİYA – AZƏRBAYCAN PARLAMENTLƏRARASI ƏMƏKDAŞLIQ QRUPUNUN ÜZVLƏRİNDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*3 may 2005-ci il...............................................................................................279*

AZƏRBAYCANDA SOSİAL-İQTİSADİ İNKİŞAF MƏSƏLƏSİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ NİTQ

*4 may 2005-ci il*........................................................................................*281*

ANS ŞİRKƏTLƏR QRUPUNUN PREZİDENTİ VAHİD NAXIŞ VƏ VİTSE-PREZİDENT MİRŞAHİN AĞAYEV İLƏ GÖRÜŞ
*4 may 2005-ci il*........................................................................................*288*

BAKIDA «GÖN-DƏRİ» AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN MÜƏSSİSƏSİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ
*5 may 2005-ci il*........................................................................................*294*

«AZƏRİQAZ» VƏ «AZƏRENERJİ» SƏHMDAR CƏMİYYƏTLƏRİNİN SƏDRLƏRİ İLƏ GÖRÜŞ
*6 may 2005-ci il*........................................................................................*300*

FAŞİZM ÜZƏRİNDƏ QƏLƏBƏNİN 60-cı İLDÖNÜMÜ MÜASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT
*6 may 2005-ci il*........................................................................................*303*

BÖYÜK VƏTƏN MÜHARİBƏSİNDƏ QƏLƏBƏNİN60 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ NİTQ
*7 may 2005-ci il*........................................................................................*306*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB TONİ BLEYRƏ
*7 may 2005-ci il*........................................................................................*310*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MOSKVAYA İŞGÜZAR SƏFƏRİ
*8 may 2005-ci il*........................................................................................*311*

BAKIDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ
*10 may 2005-ci il*......................................................................................*314*

KAMERUN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB POL BİYYAYA
*10 may 2005-ci il*......................................................................................*321*

YƏMƏN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏLİ ABDULLA SALEHƏ
*10 may 2005-ci il.........................................................................322*

BMT-nin UŞAQ FONDUNUN (YUNİSEF), İNKİŞAF PROQRAMININ (UNDP), ƏHALİ FONDUNUN (UNFPA) VƏ ÜMUMDÜNYA ƏRZAQ PROQRAMININ (WFR) İCRAİYYƏ ŞURALARININ ÜZVLƏRİNDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*10 may 2005-ci il.........................................................................323*

NORVEÇİN KRALI ƏLAHƏZRƏT V HARALDA
*10 may 2005-ci il.........................................................................325*

NORVEÇ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB KYEL MAQNE BUNDEVİKƏ
*10 may 2005-ci il.........................................................................326*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HEYKİ TALVİTİYE İLƏ GÖRÜŞ
*11 may 2005-ci il.........................................................................327*

«AZƏRBAYCAN MÜƏLLİMİ» QƏZETİNƏ
*12 may 2005-ci il.........................................................................328*

YOXSULLUĞUN AZALDILMASI VƏ İQTİSADİ İNKİŞAF ÜZRƏ DÖVLƏT PROQRAMININ İCRASINA DAİR İLLİK KONFRANSDA NİTQ
*12 may 2005-ci il.........................................................................329*

YAZIÇI ELÇİNƏ «İSTİQLAL» ORDENİNİN VƏ «XALQ YAZIÇISI» FƏXRİ ADININ VƏSİQƏSİNİN VƏ NİŞANININ TƏQDİMETMƏ MƏRASİMİ
*13 may 2005-ci il.........................................................................336*

XALQ YAZIÇISI MAQSUD İBRAHİMBƏYOVA «İSTİQLAL» ORDENİNİN TƏQDİMETMƏ MƏRASİMİ
*13 may 2005-ci il.........................................................................338*

*Q E Y D L Ə R .............................................................................340*

*Şəxsi adlar göstəricisi.........................................................................................385*

*Coğrafi adlar göstəricisi.....................................................................................390*

**Kitabı çapa hazırlayan** ***Tofiq Babayev***

**Texniki redaktoru** ***Zoya Nəcəfova***
**Yığım üzrə operator** ***İlhamə Kərimova***
**Kompüter tərtibatı** ***Məhəbbət Orucov***

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x1081/32. Ofset kağızı 1. Şərti çap vərəqi 24,5. Uçot vərəqi 25,0 Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.